SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ ‖ BURAXILIŞ № 37 (III HİSSƏ)

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ
SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 37
(III HİSSƏ)

Bakı - 2024

ISSN 2409-0859

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 37

III hissə

BAKI – 2024

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 37, hissə III. Bakı, 2024, 182 s.

**Redaksiya heyəti**

**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəfail Musa oğlu Həsənov**, sosiologiya elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Səxavət Nəsrulla qızı Əliyeva,** psixologiya üzrə fəlsəfə doktoru, dosent, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor,baş redaktor, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** fəlsəfə üzrə fəlsəfə doktoru, buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

# HUMANİTAR ELMLƏR

## FƏLSƏFƏ, PSİXOLOGİYA, FİLOLOGİYA

### XIZIR KULTU MİLLİ ÖZÜNÜTƏŞKİLİN ƏSASI KİMİ İCMAL

***dos. Nərman Qocatürk***
***BDU-nun Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrası***
*nqocaturk@ mail.ru*

***Açar sözlər:*** Xızır kultu, mif, düşüncə, yaddaş, arxetip, xalq, mərasim, ənənə.
***Ключевые слова:*** Культ Хызыра, миф, мышление, память, архетип, народ, ритуал, традиция.
***Keywords:*** Khizir cult, myth, thinking, memory, archetypes, people, ritual, tradition.

Türk xalqlarının tarixinin, mədəniyyətinin, fəlsəfi düşüncə sisteminin dərindən və hərtərəfli tədqiq edilməsi qloballaşan dünyada onun layiq olduğu yeri qazanmasına, minilliklərin yaddaşından süzülüb gələn zəngin dəyərlərinin obyektiv qiymətini əldə etməsinə yardımçı ola bilər. Hər bir xalqın tarixində miflərdən qaynaqlanan elə dəyişməz faktorlar var ki, insan həyatının quruluşunda çox ciddi rol oynayır. Ümumtürk mədəni dəyərlər sisteminin tərkib hissəsi olan Xızır kultunun da bu dinamikada özəl yeri və rolu vardır. Onun fəlsəfi dərk edilməsi böyük bir etnosun mifik və fəlsəfi düşüncə tərzinin dərin qatlarına nüfuz etməyə imkan yaradır. Bu imkan əsrlərlə formalaşan mədəni və mənəvi-əxlaqi özünəməxsusluğu dolğun anlamağa imkan verir.

Xalq yaradıcılığı insanların həyatında aktuallaşır və orada konkret məzmun alır. Tarix folklorun təkamül yolu, bəşəriyyətin yaşam qaydasıdır. Mif özünütəşkil edərək insanda yaşayır və insanı yaradır. Bu proses ümumi səviyyədə xaosdan nizamlılığın yaranması təsiri bağışlayır. Bunun mexanizmləri informasiyanın seçilməsi, kollektiv yaddaşın varlığı ilə izah olunur. Onların hər birinin ayrılıqda rolu ilə yanaşı yaratdıqları kollektiv effekt miflərin təkamülünü müəyyənləşdirir. Fərdi səviyyədən kollektiv səviyyəyə keçidin mexanizmləri burada əsas vəhdət yaradan faktordur. Özünütəşkilin fəlsəfəsi ona bağlıdır [bax: 2].

Azərbaycan o yurddu ki, müqəddəslik adında yalnız Xızıra bağlıdı. Əskidən Azərbaycanda Xızır adına ildə üç kərə törənlər keçirilərdi. Böyük çillə ilə kiçik çillə arası Xıdır Nəbi (Xızır İlyas) törəni, ilk baharda Xıdır Zində törəni və son baharda, yəni payız üzünə Xıdır Elləz bayramı. Xızırın yuxarıda qeyd etdiyimiz üçlük mahiyyəti kimi hər üç törən bir-biri ilə sıx bağlıdı[bax: 4].

Xıdır Nəbi törəni qışın oğlan çağında, hardasa fevral ayında keçirilir. Bu da təsadüfi deyil. Fevral ilin elə məqamıdı ki, insanların təbiətdən il boyu yığıb topladıqları ruzinin tükənən yeridi. Növbəti ilə, yaza salamat çıxsınlar deyə əl açıb Tanrıya, Dərgahdan ruzi dilərlər. Tanrı isə ruzu adında sevgili Ruhu Xızırı göndərər. Onun ayağı dəyən eldən, obadan, nəfəsi toxunan evdən, ocaqdan ruzu kəsilməz. Bu Azərbaycanlıya məxsus bir inancdı. Min illərdi yaddaşından keçirib gətirib [6, s.112].

Xıdır - yaşıllıq, bolluq, bərəkət, artım rəmzidi. Yaddaş saxlancımız olan nağıllarımız, dastanlarımız büsbütün Xızır adına bağlıdı. Nağıllar bizim çağalıq, uşaqlıq, dastanlarsa ahıllıq dövrümüzün məhsuludu. Bu üzdən nağıllarımızda Xızırı Ağ atlı oğlan, dastanlarımızda isə ağ libaslı, ağ saçlı nurani Qoca kimi təqdim etmişik. Övliyalar kimi gələcəkdən xəbər verərdi. Ayağı, nəfəsi dəyən yerlər yaşıllaşıb göyərərdi. Yurda bolluq, bərəkət gələrdi. Qorxub Xızır Ruhundan ona xətər yetirməkdən çəkinərdilər. O incidilib

qəlbi qırılsa bütün yurda fəlakət gələrdi. Qorqut Ata kimi alqışı alqış, qarğışı qarğış olardı [3, s.135].

İnsanlar inanıblar ki, bir çox hallarda eli yağıdan, yağmurdan xilas edən elə Xızırın özüdü. Gah ağ atın belində, gah da Boz Qurd donunda görünüb hər kəsə. Biz buna Mif yaddaşımızdan bu günədək inanmışıq. Düşmən qəfildən yurdun üstünə yeriyəndə, el dara düşəndə köməyə Ağ atlı oğlanı çağırıblar[7, s.128].

Türkün ilk nəsil Ağacı Oğuzu Xızır bilmişik. O da doğulmadı. Dərgahdan işıq içində enib gəldi. Sonra göy İşıq Qurdu ona yoldaş eylədi. Oğuzun son gününədək birlikdə oldular. Oğuzun Ruhu göylərə çəkiləndən sonra da Boz Qurd Oğuz yurdundan kənara çəkilmədi. Qalxıb el yerindən duranda, o da ayaqda oldu. Cəkib ordunu arxasınca qələbədən qələbəyə apardı. Savaş meydanında yaralının yarasını əlinin məlhəmi ilə sarıdı. Beləcə, türk törələri tapınıb Xızır Ruhuna ayaqda durdu. Dünyanın özü boyda zaman-zaman neçə dünyalar, Xaqanlıqlar qurdu. Xızır tutub dünyanın o biri ucundan dastan dünyamızda yaşa doldu. Oldu ağ saçlı, ağ saqqallı Qoca, Pir, Övliya. Kəramət sahibi kimi yenə də atının belində şəstnən oturdu. Haqqı səsləyənlərin yanında olurdu bir göz qırpımında. Enib Haqq Dərgahından möminlərlə cümə namazına dururdu. Enib Tanrı evindən sevən könüllərə qonurdu, onları Haqq aşiqi ucalığına qaldırırdı [5, s. 97].

Dini mənbələrdə qeyd olunur ki, Xızır neçə-neçə müqəddəsin cənazəsinin başında durub onları Haqq Dərgahına yola salıb. Bütün Haqq elçiləri, Adəmdən başlamış Nuh tufanına, İbrahim peyğəmbərdən İsa Məsihə qədər hamısı Xızırı səsləyib, onun çiynində Tanrı Dərgahına ucalıblar. Məhəmməd peyğəmbər də Xızır Ruhuna qoşulub göylərə sarı ucaldı. Azərbaycan məhəbbət dastanlarının təməli də buta üzərində qurulub. Aşiqə buta verilməsi, yaxud ona dolu qabdan eşq şərbəti içirdilməsi, nağıllarda qəhrəmanın yuxusunun ardınca gedib xöşbəxtliyə qovuşması ilə bağlı hadisələr mücərrəd buta anlayışında birləşir [bax:1, 4].

Buta Azərbaycan dastanlarında aşiq və məşuq arasında xəyali kontakt rolunu oynayır. O, məhəbbət dastanlarında görünməmiş bir eşqin, üstün, ilahi bir məhəbbətin nümunəsi olaraq seçilmiş qəhrəmana-aşiqə aşıqlıq, şairlik istedadı da bəxş edir. Dastanlarımızda, nağıllarda aşiqə "buta verilməsi" ixtiyar qoca-Xızır tərəfindən eşq şərbətinin içirdilməsi ilə başlayır. Ümumiyyətlə, folklor nümunələrinin araşdırılması göstərir ki, hər kəsə buta verilmir. Buta vermə yalnız seçilmişlərə xasdı. Bu seçilmişlər buta vasitəsilə heç kəsə aid olmayan bir neçə fərqli xüsusiyyəti də özü üçün qazanmış olur.

Xızır gəlişi ilə də yerlə göy arasında körpü rolunu oynamağa başlayır. Tanrıya məxsus bir sıra missiyaları icra edir. Yenilməzlik gücünün sahibi kimi hər istədiyini həyata keçirə bilir. Obanın, oymağın sabah başına gələcəkləri öncədən görə bilir [bax: 4].

Xızırın Tanrı yanında məqamı peyğəmbərlikdən ucadı. Xızır ölümsüzdü, yür üzündə əbədi diriliyin tək təmsilçisidi. Ruh olsa da, istədiyi vaxt görüntüyə gəlib insanların gözünə görünə bilər. "Qurani-Kərim"in "Musa və Xızır" qissəsindən də göründüyü kimi peyğəmbərin belə görə bilmədiyi yalnız Tanrıya məxsus pərdənin o üzünü Xızır bütün aydınlığı ilə görmək imkanına malikdi. Tanrı özünə məxsus bir sıra ilahi keyfiyyətləri, müqəddəsliyi Xızıra da bəxş etmişdi.

Mifoloji obrazlar toplumun formalaşmasında və tarixi təkamülündə yeri və rolu əvəzsizdir. Hər bir xalqın tarixində miflərdən qaynaqlanan elə dəyişməz faktorlar var ki, insan həyatının quruluşunda çox ciddi rol oynayır. Hətta o dərəcədə ki, toplumun həyatının özünə bu elementlərin təşkil etdiyi sistemin özünüinkişaf etdirməsi kimi baxmaq olar. O mənada millətin təşəkkülü ilə mifoloji obrazların tarixi təkamülü, "özünü acması", yüksəliş mərhələlərinə keçməsi arasında orqanik bağlantı görə bilərik. Xalqın mövcudluğu və inkişafı özlüyündə kollektiv fəaliyyətin nəticəsi olmasına baxmayaraq, tarix həlledici anlarda fərdləri önə çıxarır.

**Nəticə:** Tarix folklorun təkamül yolu, bəşəriyyətin yaşam qaydasıdır. Mif özünütəşkil edərək insanda yaşayır və insanı yaradır. Bu proses ümumi səviyyədən xaosdan nizamlılığın yaranması təsiri bağışlayır. Bunun mexanizmləri isə informasiyanın seçilməsi, qiymətliliyi, kollektiv yaddaşın varlığı, informasiyanın sıxlaşması ilə unutqanlığın vəhdəti, resepsiya və generasiyanın işləmə qaydaları ilə izah olunur. Hər bir belə məqamda müdrik adamı seçə bilən xalq da müdrik sayılır. Azərbaycan xalqının qədimlərdən başlayan tarixi təkamülü sübut edir ki, o, müdrikdir.

**Elmi yenilik:** Xalq yaddaşı kollektiv reallığa aiddir. O, heç zaman maddi formada movcud olmur. Əslində onun hansısa lokal bir daşıyıcıda mövcudluğu da müşahidə edilmir. Xalq yaddaşı daim dinamikada olan, mifləri sistemli olaraq metaforik qaydada qoruyan, zamanın axınında onların universallığını saxlayan və kollektiv səviyyədə mövcudluğunu təsdiqləyəndir. Bu mənada xalq yaddaşı delokallaşmış mənəvi sahədir. Onun ağırlıq nöqtəsi fiziki məkanda deyil. Bu mənada xalq yaddaşı zamandan kənar mövcuddur, ancaq hər bir konkret tarixi mərhələdə zamanda məzmun kəsb edir. Ona görə də universallıqda fərqlənməyən xalq yaddaşı konkret toplumun tarixində həmişə özəl xüsusiyyətlərlə və orijinal fraqmentlərlə seçilir. Bu tədqiqat işində tarixi yaddaş və milli mənlik göstəricisi kimi Xızır obrazını formalaşdıran mifoloji və fəlsəfi amillər elmi-nəzəri aspekdə araşdırılmışdır.

**Tətbiqi əhəmiyyəti:** Məqalədən mifologiya, fəlsəfə tarixi ilə məşğul olan mütəxəssislər, ali məktəblərin bakalavr və magistr pilləsində təhsil alan tələbələr, mifoloji sistemlərdə oxşar süjetlər və çarpazlaşmanı araşdıran tədqiqatçılar istifadə edə bilərlər. Təqdim olunan məqalədən mifolgiya, folklor və fəlsəfə tarixinə dair dərslik, dərs vəsaitləri və proqramların hazırlanmasında elmi mənbə kimi istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. Агаджанов С. Г. Очерки истории огузов и туркмен Средней Азии IX - XIII вв. Ашхабад, 1969, 297 s.
2. Azərbaycan mifoloji mətnləri. Bakı, Elm, 1988, 180 s.
3. Ali Toker. Hızır Aleyhisselam. Buhara Yayınları, İstanbul, 2011, 319 s.
4. Qocatürk N. Xızır əleyhissəlam: Türkün ağ atlı oğlanı. İstanbul, 2013, 287 s.
5. Ömer Faruk Hilmi. Hızır Aleyhisselam. İstanbul, 2011, 880 s.
6. Serhat Ahmet Tan. Hızır. İstanbul, 2009, 240 s.
7. Еремеев Д. Этногенез турок. Москва., 1970, 272 s.


## КУЛЬТ ХИЗР КАК ОСНОВА НАЦИОНАЛЬНОЙ САМООРГАНИЗАЦИИ

***Нарман Годжатурк***

## АННОТАЦИЯ

Глубокое и тщательное изучение истории, культуры, философского мышления тюркских народов может помочь занять им место, которое они заслуживают, в глобализированном мире, и получить объективную оценку духовных сокровищ, прошедших через сито тысячелетий. В истории каждого народа есть неизменные показатели мудрости, основанные на мифах, которые играют очень важную роль в становлении человеческой жизни. Культ Хызыра, который является неотъемлемой частью общетюркской системы ценностей, также занимает особое место в этой динамике и играет здесь своеобразную роль. Его философское восприятие дает возможность великому тюркскому этносу проникнуть в глубинные слои мифологического и философского образа мышления. Это также позволяет нам лучше понять культурную и духовно-нравственную идентичность, которая формировалась веками.

# KHİZR CULT AS THE BASİS OF NATİONAL SELF-ORGANİZATİON

***Narman Godjaturk***

**SUMMARY**

A deep and thorough study of the history, culture, and philosophical thinking of the Turkic peoples can help them to take the place they deserve in a globalized world and get an objective assessment of the spiritual treasures that have passed through a sieve of millennia. In the history of every nation there are certain treasures of wisdom, based on myths that play a very important role in the formation of human life. The cult of Khizir, which is an integral part of the common Turkic value system, also occupies a special place and plays a peculiar role in this dynamics. His philosophical perception enables the great Turkic ethnos to penetrate into the deeper layers of the mythological and philosophical way of thinking. It also allows us to better understand the cultural and spiritual-moral identity that has been forming for centuries.

# TƏHSİL PROSESİNDƏ SOSİAL EMOSİONAL ÖYRƏNMƏNİN FAYDALARI, GƏLƏCƏK PERSPEKTİVLƏRİ

***Kərimzadə Könül Taleh qızı***
***BDU-nun II kurs magistrantı***
*konulbayramova93@gmail.com*

***Açar sözlər:*** sosial emosional öyrənmə, məktəb mühiti, dəstəkləyici mühit, müəllim şagird münasibətləri, özünüdərketmə, empatiya.
***Ключевые слова:*** социально-эмоциональное обучение, школьная среда, поддерживающая среда, отношения с учителем, самосознание, эмпатия.
***Keywords:*** social emotional learning, school environment, supportive environment, teacher relationships, self-awareness, empathy.

Sosial emosional öyrənmənin beynəlxalq ədəbiyyatda təhlilinə nəzər yetirdikdə Çikaqo Universiteti Psixologiya və Təhsil üzrə görkəmli professoru Rocer P. Weissbergin qeydləri və rəhbərlik etdiyi qrupun əsaslı nəticələri xüsusilə diqqətə layiqdir. Professor R.P. Weissberg həmçinin Akademik, Sosial və Emosional Öyrənmə üzrə Əməkdaşlıq Təşkilatında (CASEL) direktorlar şurasının sədr müavinidir. və Baş Bilik Direktorudur. Müəllif qeyd edir ki, son bir neçə onillikdə o, həmkarları ilə minlərlə pedaqoq, valideyn və tələbə ilə keyfiyyətli təhsillə bağlı fikirlərini müzakirə etmişdirlər [2]. Müzakirələr iki əsas sual üzərində cəmlənir: (1) Biz uşaqların orta məktəbləri bitirənədək necə formalaşmaqlarını, nələri bilmələrini və bacarmalarını istəyirik; və (2) bütün uşaqların kollec, karyera və həyata hazır olmasını təmin etmək üçün məktəblər, ailələr və icmalar necə birlikdə işləyə bilər? Respondentlərin böyük əksəriyyəti tələbələrin sosial, emosional və emosional inkişafını vurğulayan təhsil və akademik inkişafı balanslı olmasının vacibliyini vurğulamışdırlar. Onlar akademik fənləri mənimsəyən və ömür boyu öyrənməyə həvəsli olan tələbələr istəyirlər. Həm də onlar sosial-emosional bacarıqlara, iş vərdişlərinə və mənalı məşğulluq, aktiv vətəndaşlıq və xoşbəxt ailə həyatı üçün zəmin yaradan dəyərlərə malik tələbələr istəyirlər [8].

Mütəxəssislərin bu istiqamətdə fikirləri və müşahidələri sosial-emosional öyrənmənin (SEL) təklif etdiyi böyük potensiala dəlalət edir. Bütün dünyada uşaqlara SEL bacarıqlarının verilməsi Uşaqlar üçün Komitənin (CFC) missiyasıdır. Və bu günə qədər Uşaqlar üçün Komitə (CFC) 70 ölkədə milyonlarla gəncə təhlükəsiz qalmağı, emosiyalarını idarə etməyi, problemləri həll etməyi, riskli davranışlardan qaçmağı və akademiklərini təkmilləşdirməyi öyrənməyə imkan verib. Ən əsası, CFC onlara məhsuldar, dolğun həyatlar üçün ümid verirdi [8].

Akademik, Sosial və Emosional Öyrənmə üzrə Əməkdaşlıq Təşkilatı (CASEL) ilə birlikdə Uşaqlar üçün Komitə sosial emosional öyrənməni məktəbəqədər təhsildən ali təhsilə qədər təhsilin ayrılmaz hissəsinə çevirməyə sadiqdir. Bu missiyanın əsası transformativ ola biləcək bir-biri ilə əlaqəli beş koqnitiv, affektiv və davranış səriştələri dəstidir:

- Özünü dərk etmək öyrənənlərə (şagirdlər və tələbələr) emosiyaların və düşüncələrin davranışa təsirini dərk etməyə imkan verir. Bu, güclü və zəif tərəflərin dəqiq qiymətləndirilməsini əhatə edir, əsaslandırılmış inam və nikbinlik hissinə səbəb olur.
- Özünü idarə etmə müxtəlif vəziyyətlərdə duyğuları, düşüncələri və davranışları tənzimləmək bacarığıdır.
- Sosial dərketmə -şüur başqalarına qarşı empatiya inkişaf etdirir; davranış üçün sosial və etik normaları başa düşmək; eyni zamanda ailə, ev və icma tərəfindən dəstək üçün resursların tanınmasıdır.

- Sağlam əlaqələr qurmaq və saxlamaq üçün münasibət bacarıqları lazımdır. Bunlara aydın ünsiyyət qurmaq, aktiv şəkildə qulaq asmaq və əməkdaşlıq etmək, habelə qeyri-adekvat sosial təzyiqə müqavimət göstərmək, konfliktlə bağlı konstruktiv danışıqlar aparmaq, kömək axtarmaq və təklif etmək daxildir.
- Məsuliyyətli qərarların qəbulu etik standartlara, təhlükəsizliklə bağlı narahatlıqlara, sosial normalara və müəyyən bir vəziyyətdə nəticələrin real qiymətləndirilməsinə əsaslanan şəxsi davranış və sosial qarşılıqlı fəaliyyətlə bağlı konstruktiv və hörmətli seçimləri mümkün edir [4,5,8].

İnandırıcı şəkildə sübut edilmişdir ki, sosial emosional öyrənmə bacarıqları hər yaşda olan tələbələrə aşılana bilər. Sosial emosional öyrənməni inkişaf etdirməyin açarı aşağıdakı əsas tərəflər arasında əməkdaşlıqdan ibarətdir:

• Məktəb direktorlarının ehtiyacların qiymətləndirilməsində, resursların toplanmasında və sosial emosional öyrənməni məktəbin həyatına tam inteqrasiya etmək üçün müəllimlər və başqaları ilə işləməkdə rəhbərlik etmək imkanı var.

• Müəllimlər açıq şəkildə həlledicidirlər; onlar birbaşa öyrənənlərlə ünsiyyətdədirlər və tələbələrin sosial-emosional səriştəsini, öyrənmə motivasiyasını və hər gün tədris və sinif otaqlarını idarə etməklə akademik nailiyyətlərini artırmaq üçün qarşılıqlı münasibətlərdədirlər.

• Tələbələrə dəstək xidmətlərinin peşəkarları sosial emosional öyrənmə bacarıqları üzrə sinif təlimatını gücləndirə, sinif intizamı məsələlərində müəllimlərlə işləyə və tələbələrlə icma əsaslı resurslar arasında əlaqəni təmin edə bilər.

• Valideynlər açıq-aydın övladlarının uzunmüddətli inkişafını dəstəkləməkdə əsas rol oynayırlar. Uşaqların inkişaf edən bacarıqları və güclü tərəfləri haqqında öyrənmək valideynlərə tərəqqini tanımağa və dəstəkləməyə kömək edəcək. Bundan əlavə, tədqiqatçılar müəyyən ediblər ki, sosial emosional öyrənmə proqramlarının rəsmi məktəb-ailə tərəfdaşlığı çərçivəsində tətbiqi gənclərin məktəbdə, evdə və cəmiyyətdə sosial-emosional bacarıqlarını effektiv şəkildə tətbiq etmək üçün öyrənmə imkanlarını genişləndirir [3,8].

Hər bir uşağı akademik (və həyat) nailiyyətlərindən ayıran barrikadaların üzərindən keçə biləcək bir çox sübuta əsaslanan sosial emosional öyrənmə proqramları və strategiyaları mövcuddur. Onilliklər ərzində aparılan tədqiqatlar aydın şəkildə nümayiş etdirir ki, effektiv şəkildə həyata keçirilən sosial emosional öyrənmə proqramlaşdırma standartlaşdırılmış testlərdə uşaqların akademik performansını əhəmiyyətli dərəcədə yaxşılaşdırır.

Bundan əlavə, nəzarət qrupları ilə müqayisədə, sosial emosional öyrənmə proqramlarında iştirak etmiş uşaqlar məktəbə davamiyyət göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşır, sinifdə daha az pozucu davranışa malikdirlər, məktəbi daha çox sevirlər və məktəbdə daha yaxşı performans göstərirlər [5].

Tədqiqat həmçinin göstərir ki, sosial emosional öyrənmə proqramlarında iştirak etmiş uşaqlar nəzarət qruplarında olan uşaqlardan uzaqlaşdırılma və ya başqa cür intizam tənbehi olunma ehtimalı azdır. Bu nəticələrə sosial emosional öyrənməni uşaqların sosial münasibətlərini yaxşılaşdıran, onların məktəbə bağlılığını və öyrənmə motivasiyasını artıran, anti-sosial, zorakılıq və asılılıq yaradan maddələrdən istifadə davranışlarını azaldan mühüm psixi sağlamlıq dəyişənlərinə təsiri sayəsində əldə edilmişdir.

Hər uşaq və hər vəziyyət fərqlidir. Ancaq həmişə ən azı bir məlum məqam var ki, uşaq öyrənmə prosesinin mərkəzində olmalıdır. Sosial emosional öyrənmə və daha yaxşı öyrənmə arasındakı əlaqənin kökü uşaq üçün təhlükəsiz və qayğıkeş mühitdə, müəllimlə aydın və inamlı münasibətdədir.

Əgər məktəb kollektivi və ailə ardıcıl və bir-birini dəstəkləsələr, o zaman uşaq daha çox özünə inam gətirən bacarıqlar inkişaf etdirəcəkdir. Nəticədə, uşaq əvvəllər bunun qarşısını

alan bütün diqqəti yayındıran amillərlə uğurla mübarizə apararaq, həqiqətən öyrənmə ilə daha yaxşı məşğul ola biləcək.

Təhsildə qeydə alınan problemlərin miqyası böyükdür. Lakin sosial emosional öyrənmənin bu problemi həll etmək potensialı haqqında artan məlumatlandırma hamımız üçün ilham verməlidir.

Britaniyalı professor Neil Humphry-nin qeyd etdiyi kimi, "Sosial emosional öyrənməni hazırda təhsildə aparıcı yanaşmadır. O, son illərdə həm akademiklərin, həm siyasətçilərin, həm də praktiklərin təxəyyülünü ələ keçirdi [4].

Meria Joel Carstarphen, təhsil üzrə mütəxəssis və elmlər doktoru, Atlanta Dövlət Məktəblərinin rəhbəridir. O, Atlantada tələbə performansında əhəmiyyətli nailiyyətlərə səbəb olan transformativ təhsil liderliyində əsaslı xidmətlərin müəllifidir. Dr. Carstarphen, Ostin, Texas da daxil olmaqla, müxtəlif, böyük şəhərlərdə, xüsusilə Saint Paul, Minnesota və Kolumbiya dairəsində dövlət məktəb sistemlərində təxminən 20 illik təhsil və təcrübəyə malikdir. O, Atlantanın 50,000 tələbəsinə rəhbərlik edir və onlara nəzarət edir; burada 6300 işçi çalışır və illik büdcəsi təxminən 1 milyard dolları əhatə edir. Dr. Carstarphen Harvard Graduate School of Education-dan şəhər nəzarətində konsentrasiyası ilə idarəetmə, planlaşdırma və sosial siyasət üzrə doktorluq dərəcəsi qazanmışdır. Müəllif qeyd edir ki, ruhu, qəlbi tərbiyə etmədən ağlı tərbiyə etmək heç bir təhsil deyil. Bu, 2000 ildən çox əvvəl Aristotelin öyrətdiyi zaman olduğu kimi bu gün də doğrudur. Beləliklə, sosial-emosional öyrənmə bizə tələbələri bütöv uşaq inkişafında öyrətməyə imkan verir.

Müəllif qeyd edir ki, bir çox tələbələrimiz getdikcə daha da dəyişən dünyada məhsuldar yetkin olmaq üçün lazım olan sosial-emosional bacarıqlara malik olmadan irəliləyirlər. Dr. Carstarphenin fikrincə bu bacarıqlar öyrədilə bildiyinə görə, müəllimlər özünüidarəetmə, münasibətlər qurma, əməkdaşlıq və münaqişələrin həlli yollarını öyrətmək üçün daha çox iş görməlidirlər. Həmçinin o qeyd edirdi ki, dövlət məktəb sistemimizin yalnız bəziləri üçün deyil, bütün tələbələr üçün yaxşı olan və sosial emosional bacarıqların bir sıra aspektinin tarazlığını tələb edən təhsil növünü təmin etməlidir [1].

Dr. Carstarphenin fikrincə sosial emosional öyrənmə təhsil prosesinə əlavə deyil. O, təhsil sisteminə necə yanaşdığımızın əsas komponentidir. Aşağıdakı məqamlar xüsusilə vurğulanır:

• Akademik nailiyyətlər, yüksək gözləntilər və qiymətlərdə uğur, cavabdehlik və sınaqdan ibarət olan proses;

• Təsviri incəsənət, atletika, dünya dilləri, karyera və texniki təhsil mühitlərinə məruz qalma kimi birgə kurikulum fəaliyyətini təmin edən praktik bacarıqlar və zəngin təcrübələr;

• Ədalət, xoşməramlı və rifahı təşviq edən hər kəs üçün əlçatan mühit. Sosial emosional öyrənmə şagirdlərdə ünsiyyət bacarıqlarını, karyerada istifadə etmək üçün komanda işi və problemləri həll etmə bacarıqlarını, empatiya və emosiyanı öyrətməklə bu sütunların hər üçünü dəstəkləyir. Eyni zamanda həyatları boyu istifadə etmək üçün idarəetmə bacarıqlarını mənimsəyirlər.

Sosial emosional öyrənmə uşaqların və böyüklərin öz emosiyalarını tanımaq və idarə etmək, başqalarına qayğı və qayğı göstərmək, müsbət münasibətlər qurmaq, məsuliyyətli qərarlar qəbul etmək və çətin vəziyyətləri konstruktiv şəkildə idarə etmək üçün lazım olan bilik, münasibət və bacarıqları əldə etdikləri prosesdir [8].

## ƏDƏBİYYAT

1. Carstarphen, B. O. (2003). *Shift happens: Transformations during small group interventions in protracted social conflicts*. George Mason University.

2. Greenberg, M. T., Weissberg, R. P., O'Brien, M. U., Zins, J. E., Fredericks, L., Resnik, H., & Elias, M. J. (2003). Enhancing school-based prevention and youth development

through coordinated social, emotional, and academic learning. *American psychologist, 58*(6-7), 466.
3. Jones, S. M., Barnes, S. P., Bailey, R., & Doolittle, E. J. (2017). Promoting social and emotional competencies in elementary school. *The future of children,* 49-72.
4. Humphrey, N., Kalambouka, A., Wigelsworth, M., Lendrum, A., Deighton, J., & Wolpert, M. (2011). Measures of social and emotional skills for children and young people: A systematic review. *Educational and psychological measurement, 71*(4), 617-637.
5. Low, S., Cook, C. R., Smolkowski, K., & Buntain-Ricklefs, J. (2015). Promoting social–emotional competence: An evaluation of the elementary version of Second Step®. *Journal of school psychology, 53*(6), 463-477.
6. Linares, L. O., Rosbruch, N., Stern, M. B., Edwards, M. E., Walker, G., Abikoff, H. B., & Alvir, J. M. J. (2005). Developing cognitive-social-emotional competencies to enhance academic learning. *Psychology in the Schools, 42*(4), 405-417.
7. Tsortanidou, X., Daradoumis, T., & Barberá, E. (2022). Developing social-emotional skills through imaginative teaching methods in elementary education. *Early Child Development and Care, 192*(8), 1201-1216.
8. Committee for children, 2024.
https://www.cfchildren.org/what-is-social-emotional-learning/schools/

# TƏHSİL PROSESİNDƏ SOSİAL EMOSİONAL ÖYRƏNMƏNİN FAYDALARI, GƏLƏCƏK PERSPEKTİVLƏRİ

***Kərimzadə Könül***

## XÜLASƏ

Sosial-emosional öyrənmə (social emtional learning - SEL) uşaqların akademik performansını yaxşılaşdırmağa, zorakılığı azaltmağa, məktəbdən yanınma halları nisbətlərini azaltmağa və xarakter formalaşdırmağa kömək edir.

Yaxşı həyata keçirilən SEL proqramları şagirdlərin məktəbdəki uğurlarına müsbət təsir göstərir. Tədqiqatlar göstərir ki, problemlərin həlli, özünü tənzimləmə, davranışa nəzarət və empatiya kimi sosial-emosional bacarıqlar akademikləri yaxşılaşdırmağa, zorakılıq kimi mənfi sosial davranışları azaltmağa və müsbət sinif mühiti yaratmağa kömək edir.

Sosial-emosional bacarıqlar həmçinin uşaqlara gündəlik həyatı uğurla idarə etməyə kömək edir. Onlar öyrənənlərə diqqəti cəmləməyə, düzgün qərarlar qəbul etməyə və məktəbdən kənarda icmalarının dəstəkləyici üzvlərinə çevrilməyə kömək edir.

Məqalədə sosial emosional öyrənməyə dair bir sıra məqalələr təhlil edilmiş, məktəb və öyrənmə mühitində sosial emosional öyrənmənin effektiv nəticələri üzərində işlənilmişdir.

# ПРЕИМУЩЕСТВА СОЦИАЛЬНО-ЭМОЦИОНАЛЬНОГО ОБУЧЕНИЯ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ, БУДУЩИЕ ПЕРСПЕКТИВЫ

***Керимзаде Кенуль***

**АННОТАЦИЯ**

Социально-эмоциональное обучение (СЭО) помогает улучшить успеваемость, снизить уровень издевательств, сократить количество прогулов и сформировать характер. Программы СЭО, которые работают хорошо, оказывают огромное влияние на успеваемость в школе. Исследования показывают, что социально-эмоциональные навыки, такие как решение проблем, саморегуляция, контроль поведения и эмпатия, помогают улучшить успеваемость, снизить просоциальное поведение, такое как издевательства, и создать превосходную среду в классе.

Социально-эмоциональные навыки помогают детям управлять повседневной жизнью. Они помогают учащимся сосредоточиться, принимать правильные решения и становиться защитниками сообществ за пределами школы.

В статье был проанализирован ряд статей об эмоциональном обучении, а также была разработана эффективная социальная эффективность социально-эмоционального обучения в школе и учебной среде.

# BENEFİTS OF SOCİAL-EMOTİONAL LEARNİNG İN THE EDUCATİONAL PROCESS, FUTURE PROSPECTS

***Karimzade Konul***

**SUMMARY**

Social-emotional learning (SEL) helps improve academic performance, reduce bullying, reduce truancy, and build character. SEL programs that work well have a huge impact on school success. Research shows that social-emotional skills such as problem-solving, self-regulation, behavior control, and empathy help improve academics, reduce prosocial behaviors such as bullying, and create a superior classroom environment.

Social-emotional skills help children manage everyday life. They help learners focus, make good decisions, and become advocates for communities outside of school.

In the article, a number of articles on emotional learning were analyzed, and the effective social efficiency of social emotional learning in school and learning environment was worked out.

# NİZAMİ GƏNCƏVİ AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATŞÜNASLIĞINDA

***Zaur Mustafayev***
***Bakı Dövlət Universiteti***
*z.baksovetli@mail.ru*

***Açar sözlər***: Azərbaycan, Nizami Gəncəvi, mühacirət ədəbiyyatşünaslığı, poema, poeziya.
***Ключевые слова*:** Азербайджан, Низами Гянджеви, эмигрантское литературоведение, стихотворение, поэзия.
***Key words*:** Azerbaijan, Nizami Ganjavi, emigrant literary criticism, poem, poetry.

**Giriş**

Nizami Gəncəvinin anadan olmasının 880-ci ildönümü onun haqqında aparılacaq araşdırmaların yeni istiqamət alacağını şərtləndirir. Bu mənada mühacirətdə böyük mütəfəkkirlə bağlı yazılmış tədqiqatlara diqqətin yetirlməsi aktual və zərurudir. İndiyə qədər milli ədəbiyyatşünaslıqda bu istiqamətdə araşdırmaların o qədər də zəngin olmaması problemin önəmini daha da artırmaqdadır.

Məlum olduğu kimi, XX əsrdə mühacirətdə yaşayan Azərbaycan alimləri, ədəbi şəxsiyyətlər, ictimai-siyasi xadimlər qədim və orta əsrlər ədəbiyyatının problemləri, ayrı-ayrı nümayəndələri ilə bağlı bir sıra əsərlər yazılmışdır. Bunların içərisində Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cəfəroğlu, Məhəmməd Əli Rəsulzadə, Hüseyn Baykara, Kərim Odər və başqa müəlliflərin araşdırmalarını, müəyyən münasibətlə fikir və mülahizələrini qeyd etmək olar. Bu araşdırmalar sırasında Azərbaycan ictimai-siyasi, elmi-ədəbi fikir tarixində önəmli yeri olan Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami" monoqrafiyası xüsusi yer tutur.

O, bu əsəri 1941-ci ildə Nizami Gəncəvinin anadan olmasının 800 illiyi münasibətilə yazıb, "müharibənin doğurduğu çətinliklər üzündən çapı gecikmiş", 1951-ci ildə Ankarada yayınlanmışdır. Qeyd edək ki, Sovetlər Birliyi dönəmində Azərbaycanda bu monoqrafiya birtərəfli şəkildə təhlil olunmuş, ədalətsiz dəyərləndirmələrə məruz qalmış, onun elmi mühakimələri "səhv və nöqsanlı olduğuna", "özünə qədər fikir söyləmiş Avropa burjua müəlliflərinin yanlış mülahizələrindən kənara çıxa bilmədiyinə", "burjua tədqiqatçılarının məhdud və qeyri-elmi fikirlərini təkrar etdiyinə" görə sərt ittihamlara məruz qalmışdır.

1991-ci ilin oktyabrında Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etdikdən sonra M.Ə.Rəsulzadə irsinə, o cümlədən müəllifin "Azərbaycan şairi Nizami" adlı monoqrafiyasına düzgün, obyektiv qiymət verilmişdir.

Onu da qeyd edək ki, M.Ə.Rəsulzadə "Azərbaycan şairi Nizami" monoqrafiyasına qədər yazdığı araşdırmalarda Nizami Gəncəvidən geniş bəhs etməmiş, yalnız adını çəkməklə kifayətlənmişdir [9; 11]. Əsərin Azərbaycanda nəşr olunan versiyalarının [12; 13] qüsurlu olduğu əsas tutularaq Türkiyə nəşrinə istinad olunmuşdur.

**"Azərbaycan şairi Nizami"monoqrafiyası**

İstər mühacirətdə, istərsə də Azərbaycan ədəbiyyatşünaslığında M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" monoqrafiyası müxtəlif yönlərdən dəyərləndirilmişdir [1; 14; 17]. Lakin bununla belə cəsarətlə söləmək olar ki, bəhs olunan monoqrafiya müstəqil tədqiqat obyektinə çevrilmədiyindən gerçək dəyərini almamışdır.

Azərbaycan mühacirət ədəbiyyatı və ədəbiyyatşünaslığının, o cümlədən M.Ə.Rəsulzadənin ədəbi-bədii irsinin araşdırılması ilə ardıcıl, sistemli məşğul olan, ciddi monoqrafiyalar yazan, professor Vaqif Sultanlı "İstiqlal sevgisi" adlı monoqrafiyasında M.Ə.Rəsulzadənin bəhs olunan əsərini əhatəli şəkildə araşdırmış, bu əsərlə bağlı yazılmış fikir və mülahizələri dəyərləndirmiş, Tədqiqatçının qənaətincə: "Azərbaycan şairi Nizami»

monoqrafiyası indiyədək Nizami haqqında yazılan tədqiqatlardan özünün elmi sanbalına və siqlətinə görə seçilir. Tədqiqatçı Nizami dünyasının poetik bənzərsizliyini aşkarlamaq üçün onu ümumtürk, ümumşərq-ümumislam və ümumbəşər kontekstində alıb qiymətləndirmiş, şairin dünya ədəbiyyatındakı mövqeyini müəyyənləşdirmək məramı izləmişdir" [15, s.177-178].

M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" adlı monoqrafiyası başlanğıc, dörd fəsil, son söz, əlavələrdən ibarətdir. Tədqiqatçı kitabın sonuna Nizami Gəncəvinin əsərlərində işlədilmiş türk sözlərinin lüğətini əlavə etmişdir. Bu lüğət üç hissədir. Birinci hissədə iyirmi altı türk sözü və onların izahı, ikinci hissədə türk şəkilçiləri ilə düzəlmiş fars sözləri verilmişdir. Lüğətin üçüncü hissəsində Nizami Gəncəvinin əsərlərində məcaz və rəmz kimi işlədilmiş Türküstan şəhərlərinin bəzilərinin adları təqdim olunmuşdur.

Araşdırıcıların doğru qeyd etdiyi kimi, "M.Ə.Rəsulzadə bu monoqrafiyanı zəngin qaynaqlar əsasında yazmışdır. O, Nizami Gəncəvi ilə bağlı yazılmış türkcə, farsca, rusca, Avropa dillərində olan mənbələri diqqətlə oxumuş, təhlil etmiş, sistemləşdirmiş, tənqidi münasibət bildirmişdir. Alim fars dilini mükəmməl bildiyindən Nizamini orijinaldan oxumuş, istifadə etdiyi nümunələri öncə farsca, sonra da Azərbaycan türkcəsində vermişdir" [3].

Monoqrafiyanın dərin elmi mülahizələrlə müşayiət olunan "Giriş"i aşağıdakı bölmələrdən ibarətdir: "Şərq islam mədəniyyətinin üç ortağı", "Şərq islam mədəniyyətinə mənsub şəxsiyyətlər üçün keçirilən yubileylər", "Şərq islam mədəniyyətində Azərbaycanın rolu", "Türk hakimiyyəti altında fars ədəbiyyatı", "Azərbaycan XII əsrdə", "Milliyyət baxımından ədəbiyyatda forma və məzmun", "Nizami Azərbaycan şairi", "Nizaminin yaradıcılığı", "Unudulmuş Nizami", "Nizamiyə borcumuz" [10, s.3-25].

Tədqiqatçı monoqrafiyanın birinci fəslində "Nizami kimdir" sualını dörd bəölmədə cavablandırmışdır: "Nizaminin tərcümeyi-halı", "Şairin Azərbaycan hökmdarları ilə münasibətləri", "Nizami öz gözü ilə", "Nizaminin dünya ədəbiyyatında mövqeyi". Monoqrafiyanın ikinci hissəsi "Xəmsə"nin tədqiqinə həsr olunmuşdur. Alim bu fəsildə "Xəmsə"yə daxil olan əsərləri bir-bir təhlil etmişdir. Kitabın üçüncü fəsli Nizaminin mövzuları ilə bağlıdır və beş başlıq var: "Nizamidə farslıq", "Nizamidə türklük", "Nizamidə Qafqaz", "Nizaminin ruslar haqqında təsəvvürü", "Nizaminin qadına münasibəti". Monoqrafiyanın dördüncü fəsli Nizami irsində sənət və ideologiya məsələsinin araşdırılması ilə bağlıdır. Bu fəsildə səkkiz başlıq var: "Nizami şeirinin özünəməxsusluğu", "Nizami sənətinin başlıca mənbəyi", "Nizaminin yaradıcılığının təkamülü", "Nizaminin həyata və insana münasibəti", "Nizamidə eşq fəlsəfəsi", "Nizaminin dinə münasibəti və ictimai idealı", "Nizaminin dövlət haqqında görüşləri", "İdeal hökmdar İskəndər və onun möcüzəsi" [10, s.201].

M.Ə.Rəsulzadə elmi araşdırmasında "Nizami Gəncəvinin tərcümeyi-halını, ədəbi kimliyini, əsərlərinin mövzu və ideyalarını, dünya ədəbiyyatındakı yerini şərh etməzdən öncə Şərq islam mədəniyyətinin özəlliklərini açıqlamış, bu yolla da şairi ortaya çıxaran elmi, ədəbi, mədəni, dini qaynaqları göstərmişdir. Nizaminin düşüncəsi köklü bir mədəniyyətin ölməz dəyərləri ilə formalaşmışdır. Şairin yetişdiyi Azərbaycan mühiti də Şərq islam mədəniyyətinin ayrılmaz bir parçasıdır. Bu mədəniyyət ərəblərin, türklərin və farsların birgə yaratdığı "ümmət mədəniyyəti"dir. Azərbaycan öz alimləri, şairləri, sənət adamları ilə bu mədəniyyətin içində önəmli yer tutmuşdur" [3].

Alim Nizaminin yetişdiyi mühitin sərhədlərini müəyyən edərkən Şərq islam mədəniyyəti ilə birgə, Azərbaycanın XII əsrdə mövcud olmuş siyasi, iqtisadi, elmi, ədəbi, mədəni kimliyini də araşdırmışdır. Araşdırmada Rəsulzadənin üzərində durduğu məsələlərdən biri Nizaminin farsca yazması və milli kimliyi ilə bağlıdır. O qeyd edir ki, "ümmət mədəniyyəti" dövründə milli kimlik və milli dil önəmli məsələ deyildi: "Nizaminin dövründə formanın bizim zamanda olduğu qədər milli bir əhəmiyyəti yox idi. Fars dili yalnız farsların deyil, müəyyən bir coğrafi ərazidə yaşamış bütün millətlərin oxuyub yazanlarına, ziyalılarına

məxsus bir dil idi. Eyni zamanda, o dövrdəki "milli ruh"lar da bugünkü qədər kəskin şəkildə bir-birindən ayrılıb büllurlaşmamışdı".

“Tədqiqatın diqqətəlayiq cəhətlərindən biri də burada şairin Azərbaycan hökmdarları ilə münasibətləri üzərində xüsusi dayanılması, poemaların ithaf olunduğu Fəxrəddin Bəhramşah Mənküçək, Sultan Toğrul, Şəmsəddin Məhəmməd Cahan Pəhləvan, Osman Qızıl Arslan, Axsitan, Əlaəddin Körp Arslan və Atabəy Nüsrətəddin Əbu-Bəkrin kim olduğu haqqında ətraflı bəhs edilməsidir. Nizaminin adları çəkilən hökmdarlara münasibəti tərcümeyi-hal faktı kimi əhəmiyyətli olduğundan və şairin bir çox məqamları qaranlıq olan bioqrafiyasının öyrənilməsində mü-hüm əhəmiyyət kəsb etdiyindən bu məsələyə xüsusi önəm verən tədqiqatçı, eyni zamanda, nizamişünasların diqqət yetirmədiyi bir faktı – həmin hökmdarların türk olduqlarını xüsusi vurğu ilə qeyd edir” [15, s.180].

M.Ə.Rəsulzadə türk yazılı ədəbi dilinin gec formalaşmasının səbəbini türklərin köçəri həyat tərzinə bağlayır, bir millətə məxsus olub, ancaq başqa bir dildə yazan şairlərə dünya ədəbiyyatından örnəklər verir, Nizaminin duyğu, düşüncə, şüur, mövzu, məna, məzmun baxımından Azərbaycan şairi olduğunu vurğulayır, "hissiyyatca türk və müsəlman olan" şairin milli kimliyi ilə bağlı bu nəticəni açıqlayır: "Gözəl ilə böyüyə türk, gözəllik ilə böyüklüyə türklük, gözəl və böyük sözə türkcə, gözəllik və böyüklük diyarına Türküstan deyən bir şairə hansı ağız "o, türk deyildir" deyə bilər?".

M.Ə.Rəsulzadə milli kimlik məsələsini araşdırarkən Nizami Gəncəvi ilə Əbülqasım Firdovsini müqayisə edərək bu fərqləri göstərir: Firdovsidə fars təəssübkeşliyi var, Nizamidə fars təəssübkeşliyindən heç bir əsər-əlamət yoxdur, Nizami bir müsəlman təəssübkeşidir, Firdovsi qədim İran tarixini canlandıran altmış min beytlik "Şahnamə"sini yazmaqla "parsi ilə əcəmi" diriltdiyinə işarə etmişdir, Nizamidə belə bir məqsəd və öyünməyə təsadüf edilməz, Firdovsi müxtəlif dastan, əfsanə və hekayələrini İran tarixini, fars ənənələrini canlandırmaq, yaşatmaq üçün istifadə etmişdir, Nizami isə tarixi hadisələrdən həqiqət naminə, gözəllik yaratmaq üçün faydalanmışdır, Firdovsidə qatı bir irq təəssübü var, Nizami üçün mühüm olan qan deyil, imandır, Nizamini maraqlandıran İran və fars qanı deyil, təkallahlılıq (tövhid) əqidəsi və ədalət anlayışıdır, Firdovsidə ərəb və türk düşmənliyi var, Nizamidə bu düşmənliyin bir zərrəsi də yoxdur, Firdovsi "fars millətçiliyinin şair ideoloqudur", onun fikrincə, İran xeyirin başlanğıcı olan Hürmüz, Turan isə şərin başlanğıcı olan Əhriməndir, müsəlman Nizami bu dualist çoxallahlılığa qətiyyən əhəmiyyət vermir, İran, Turan istilahını bir-iki yerdə coğrafi ərazi kimi işlədir, Firdovsi İran milliyyətçiliyi və fars təəssübü ilə yanır, ərəbləri, islam dinini təhqir edir, müsəlman Nizami isə peyğəmbərin məktubunu cıran atəşpərəst Pərvizi "quduz" adlandırır, Xosrov şair üçün bir tarixi şəxsiyyət kimi maraqlı deyil, eşq dastanının qəhrəmanı kimi maraqlıdır, o, "Xosrov və Şirin" dastanına "islami rəng" vermişdir, "... şair müsəlman peyğəmbərinə qarşı kobudluq edən atəşpərəst hökmdarının yalnız maddi fəlakət və süqutunu verməklə kifayətlənməyib, eyni zamanda, İran imperiyasının mənəvi tənəzzülünün tarixçəsini də əsərinə daxil etmişdir". Firdovsi ilə Nizami arasında "hiss başqalığı" var, Firdovsi farsların İskəndərə məğlubiyyətini qəbul edə bilmir, vəziyyətdən çıxmaq üçün İskəndərin damarlarında fars qanı axdığını söyləyir (rəvayət uydurur), Nizami bu uydurmanı rədd edir, İskəndərin zəfərinin səbəbini onun imanında, düşüncəsində, dövlət idarə sistemində axtarır. Nizaminin farspərəstlikdən uzaq olmasının açıq dəlillərindən biri də atəşpərəstliyə düşmən olmasıdır, o, məcusiliyi alçaqlıq sayır, onun zərərindən danışır, İskəndəri atəşpərəstlərin düşməni kimi təqdim edir, "dünyanı məcusilikdən təmizlədiyini" xüsusi qeyd edir. Alim Nizaminin atəşpərəstliyə düşmən olmasının səbəbini bu sözlərlə açıqlayır: "...Sözün həqiqi mənasında Nizamidə farslıq duyğusu yoxdur. O, bütün duyğu və şüuru ilə müsəlmandır, tək Allaha inanır. Təkallahlılıq mövqeyindən də o, hər cür ikilik və çoxluğu rədd edən vəhdaniyyətçidir, müvəhhiddir, Allahın təkliyinə inanır, farsca yazsa da, duyğu və şüuru

farslıqdan uzaqdır, bu uzaqlığı onun zamanında olduqca qüvvətli olmuş ismailiyyə məzhəbinə qarşı gizlətmədiyi düşmənçilik və nifrəti də göstərməkdədir"[10, s.208].

M.Ə.Rəsulzadə araşdırmasında Nizami Gəncəvinin türklüyünü təkzibedilməz dəlillərlə sübut edir: heç bir yerdə, farsca yazılmış heç bir əsərdə "türk" məfhumu Nizamidə olduğu qədər sevgi və məntiqi bir silsilə ilə ifadə edilməmişdir , "türk" sözü Nizamidən əvvəl həqiqi mənada, nadir hallarda "ağlıq" və "gözəllik" mənasında işlənmişsə də, məcazi olaraq yalnız onun dövründə "yüksəklik", "paklıq", "gözəllik" mənalarını kəsb etmişdir. Nizami "türk" deyir, gözəl, mərd, qəhrəman, döyüşçü, sərkərdə, bilici, ər, rəhbər, başçı nəzərdə tutur, "türklük" deyir, gözəllik, yaxşılıq, təmizlik, doğruluq, mərdlik, qəhrəmanlıq, sərkərdəlik, başçılıq demək istəyir, "Türküstan" deyir, vəfa, doğruluq, vüsal nəzərdə tutur. Nizamidə "türk" gözəl deməkdir, o,"dilbər" sözünün yerinə çox zaman "torke-delestan", "torke-tənnaz", "torke-nazənin əndam" ifadələrinə yer verir, Nizami gözəl gözə "türk gözü", canalıcı gülüşə "türk gülüşü" deyir, bu gülüş o qədər şirindir ki, "şəkər belə ona həsəd aparır". Şair "Yeddi gözəl" poemasındakı gözəllərin hər birini türk gözəlinə bənzədir: "Rum şahzadəsi rum nəslindən olan türkdür", "kürd qızının gözləri bir türk gözü qədər gözəl idi", "ərəb gözəli türkə bənzəyirdi", "Leylinin ətrafındakı ərəb qızları Ərəbistanda yaşayan türklər idi", "ərəb əndamlı türklər hamını məftun edirdi", gözəllərin yaşadığı sarayın adı Türküstandır, zərif bədənli "türk kraliçasının adı Türknazdır". Nizaminin üslubunda türklük gücün rəmzidir, şairin lüğətində türk başçıdır, İskəndər "rum papaqlı türk"dür, peyğəmbər merac gecəsi bir türk kimi at çapır. Nizamiyə görə, türk ədalətin simvoludur, alim Nizaminin işlətdiyi türkcə sözlərin bir qisminin siyahısını çıxarır, hər birinin mənasını açıqlayır, lüğət tərtib edir, Nizamidə Qafqaz mövzusuna önəmli yer verir, Nizaminin təriflədiyi, əsərlərini həsr etdiyi hökmdarlar "Azərbaycan atabəyləridir" deyir [10, s.219].

Başqa sözlə, M.Ə.Rəsulzadə göstərir ki, "Nizaminin əsərlərini yazdığı dil fars dili olsa da, şairin daşıdığı hisslər və işlətdiyi mövzular Azərbaycan türklərinin duyğularından doğub. Nizaminin yaradıcılığı, onun duyğu və düşüncələri onun yetişdiyi milli mühitlə bağlı olduğu üçün o, Azərbaycan türklərinin milli duyğularını əsərlərində qabarıq şəkildə əks etdirən bir şəxsiyyətdir. Bu şəxsiyyətlə yalnız Azərbaycan türkləri deyil, bütün türklər öyünməlidir. Çünki dilinin farsca olmasına baxmayaraq, heç bir şairdə türklük Nizamidə olduğu qədər ideallaşdırılmayıb. Nizami fars millətçiliyindən çox-çox uzaq olub, türk sevgisi ilə, yurdunun tarixi müqəddəratı ilə bağlıdır. Bu bağlılıq, heç şübhəsiz, onun Azərbaycan türklərinin şairi olduğuna dəlalət edir. "Gözəl və böyüyə" "türk", gözəllik ilə böyüklüyə "türklük", "gözəl və böyük sözə" "türkcə", "gözəllik və böyüklük diyarı"na "Türküstan" deyən bir şairə hansı ağız o, türk deyildir deyə bilər?" [4].

M.Ə.Rəsulzadə monoqrafiyasında Nizami Gəncəvinin ədəbi kimliyini də kifayət qədər əhatəli şəkildə tanıtmışdır. Tədqiqatçıya görə, Nizami Gəncəvi "Şərq islam mədəniyyətinin yetişdirdiyi şəxsiyyətdir, o, irfan şairidir, düşüncəsi Qurani-Kərimin dəyərləri ilə yoğrulmuşdur, tövhid əqidəsinə sahibdir. XII yüzillikdə Şərq islam mədəniyyətinin mərkəzi Azərbaycan olmuş, Nizami də bu zəngin elmi, ədəbi, dini mühitdə yaşamışdır, o, bağlı olduğu Azərbaycanın və bütün insanlığın şairidir, əsərlərində fikir nizamı var, "məzmun, hissiyyat nöqteyi-nəzərindən azərbaycanlı bir türk təfəkkürünə malikdir". O, müdrikdir, alimdir, şeyxdir, irfan tərbiyə sisteminə bağlıdır, "seyr və sülük təhsili almışdır", təvazökardır, "bütün poemalarını Gəncədəki dərvişxanəsinin dörd divarı arasında kimsədən bir şey ummadan yazmışdır". O, irfan əhlinin mənəvi ziyarətgahı olmuşdur, idealistdir, mücahiddir, cəmiyyət adamıdır, Nizami "epik janra gətirdiyi lirik səciyyə ilə özünə xas olan bir əfsanə üslub yaratmışdır", fars və türk məsnəvi yazanlarının ən böyük ustadıdır, dahidir, incə zəkası var. Nizami insanlara uca Allahı tanıdır, sağlam tövhid inancının formalaşmasına çalışır, islam peyğəmbərinə sevgisini ifadə edir, insanın dəyərini açıqlayır, ağıllı, imanlı, elmli insan tərbiyə etmək üçün dinin önəmini vurğulayır" [3].

M.Ə.Rəsulzadə Nizami Gəncəvinin ədəbi kimliyini səciyyələndirərkən qənaətlərini ümumiləşdirərək yazır: Nizamidə qəhrəmanlıq mövzuları da, didaktika da, lirika da var, o, məsnəvi yaradıcılarının ən böyüyüdür, dastan dilinə lirik, emosional çalar bəxş etmişdir, məsnəvi yazanların şeyxidir, misilsiz təhkiyəçidir, əsərlərində müasir romançılığa xas keyfiyyətlər var, təbiət təsvirində onun tayı-bərabəri yoxdur, şair təbiət təsviri ilə əsərin ideyasını, obrazların duyğu və düşüncələrini ustalıqla bir-birinə bağlayır, təbiət Nizami şeirinin canlı ünsürüdür, o, simvolun, istiarənin misilsiz ustasıdır, şair əşyaları canlı təsvir edir: "... Gül Nizami şeirində sadəcə açmır, "köynəyini yırtır", bülbül yalnız ötmür, "eşqini bəyan edir", yasəmən bir çiçək ikən "türk" olur, səhrada "çadır qurur", lalə bir hindudur..." [10, s.241].

“Nizaminin yaradıcılığında elmin rolu böyükdür, o, dövrünün elmlərini, bədii əsərləri, folkloru, mifologiyanı, tarixi, dini, fəlsəfəni, astronomiyanı, etnoqrafiyanı, əxlaqi təlimləri, qədim, yeni dilləri bilirdi, şair dövrünün ensiklopediyasıdır, öyrənməyi çox sevir, gecə-gündüz çalışır, kainatın sirlərini oxuyur, məna xəzinələrinin qapısını açır. O, filosof, alim, fazil, orijinal şairdir, hikmət sahibi, mücahid, məktəb yaratmış şəxsiyyətdir. Nizaminin şeirləri sevgi ilə doludur, o, bu dünyanı tanıdır, axirət mərkəzli həyat yaşamağı təbliğ edir, iki dünyanı bir-birinə bağlayır, insana axirət səadətini qazandıracaq yol və işləri göstərir, deyir ki, sən tövhid qapısını döy ki, xoşbəxtliyin qapıları üzünə açılsın” [3].

M.Ə.Rəsulzadə qeyd edir ki, Nizami Cəncəvi zahid olsa da, həyatı çox sevir, bədbin deyil, səbirlidir, eqoizmdən uzaqdır, kamil insan tərbiyə etmək istəyir, ağıla çox dəyər verir, ruhun ölməzliyinə inanır, ilahi eşqi tərənnüm edir, varlığı eşqin məhsulu kimi dəyərləndirir.

Nizami dindar, səmimi, fədakardır, tövhid inancına sahibdir, dualizmi rədd edir, "atəşpərəstliyin iki Allah ideyasını kökündən kəsib atır, o, atəşpərəstlərin amansız düşmənidir" [10, s.231].

M.Ə.Rəsulzadə Nizami ilə bağlı yazdığı monoqrafiyaya bu sözlərlə yekun vurur: “Nizami təbiətin bir fenomenidir, təbiətin bir parçasıdır, fikri və sənəti arasında təzad yoxdur, ən parlaq xüsusiyyəti həyatsevərlik və eşqdir, onda atom enerjisi var, o, bu enerjiyə, özündəki dinamizmə qurucu bir istiqamət verə bilmiş, onu özündə mövcud olan zühd, təqva və ideyalılıq sayəsində müəyyən bir qəlibə sala bilmişdir”, o, təbiət qədər coşqundur, nikbindir, ümid və cəsarət aşılayır, ilahi sənətkardır, bəşər mədəniyyətinin bayraqdarıdır.

“Çox təəssüflər ki, əsəri ilk dəfə Azərbaycan oxucularına təqdim edən professor Rüstəm Əliyev orijinala sərbəst yanaşmış, 1951 və 1991-ci illərdə Türkiyədə nəşr olunmuş tədqiqatın «Nizami (mənzum bir xülasə)», «İki Leyli-Məcnun (Nizami və Füzuli)», «Nizaminin doğulduğu yer və məzarı», «Vəhid Dəstgirdinin yozumları», «Nizamidən çevirmələr», «Biblioqrafiya», «Nizamidən mətnlər» bölmələrini nəşrə daxil etməmiş və bununla elmi ictimaiyyətdə M.Ə.Rəsulzadənin ciddi, monumental bir araşdırması haqqında birtərəfli təsəvvürlərin yaranmasına səbəb olmuşdur. Əsərin Azərbaycandakı sonrakı nəşrlərində də qeyri-peşəkarlıq bu və ya başqa şəkildə özünü göstərməkdədir” [15, s.177].

Tədqiqatlarda doğru qeyd olunduğu kimi, Nizami Gəncəvinin “dünyəvi şöhrət qazanmış ölməz irsi şairi yetirən doğma torpaqla bağlı olub, Azərbaycan xalqının maddi və mənəvi zənginliklərindən ayrılmazdır”. O, doğulduğu, boya-başa çatdığı və ömrünün sonlarına kimi yaşadığı “...Gəncəni doğma Aərbaycan və ümumiyyətlə türk mühitindən ayrı götürməmiş, onu vətənin qədim və zəngin tarixinin bir parçası kimi tərənnüm etmişdir” [2, s.5]. Şübhəsiz ki, müəllifin bu sərrast qənaətlərilə razılaşmamaq mümkün deyildir.

**Nəticə**

Bütövlükdə Azərbaycan mühacirət ədəbiyyatşünaslığında böyük mütəfəkkir Nizami Gəncəvi haqqında yazılan tədqiqatlar şairinin zəngin və çoxşaxəli ədəbi irsinin öyrənlməsində son dərəcə qiymətli mənbələr kimi dəyərləndirilə bilər. Mühacirətdə yaranan tədqiqatlar içərisində Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cəfəroğlu, Məhəmməd Əli Rəsulzadə, Hüseyn Baykara, Kərim Odər və başqa müəlliflərin araşdırmaları diqqəti

çəkir. Bu araşdırmalar sırasında Azərbaycan ictimai-siyasi, elmi-ədəbi fikir tarixində önəmli yeri olan Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan şairi Nizami" monoqrafiyası xüsusi yer tutur. Lakin hazırda bu sahədə aparılan tədqiqatlar yetərincə deyildir. Şübhəsiz ki, gələcəkdə bu istiqamətdə axtarışlar aparılmalı, mühacirətdə Nizami Gəncəvi irsinin öyrənilməsində görülən işlərin miqyası genişləndirilməlidir.

## ƏDƏBİYYAT

1. Araslı Nüşabə. "Azərbaycan şairi Nizami", "Dialoq" jurnalı, 1991, № 2, s.22-23
2. Araslı Nüşabə. Səadət günəşi birlikdən doğar, "Azərbaycan", 2021, №1, s.5-12
3. Hacı Siracəddin. Nizami Gəncəvinin milli və ədəbi kimliyinə Rəsulzadə baxışı, "525-ci qəzet", 30 mart 2017
4. Hacıyeva Maarifə. M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" əsəri, "Xalq cəbhəsi" qəzeti, 2 sentyabr 2015
5. Həbibbəyli İsa. Böyük Azərbaycan şairi Nizami Gəncəvi, "Respublika" qəzeti, 28 dekabr 2017
6. Qurbanov Şamil. Məmməd Əmin Rəsulzadə, Bakı: "Nurlan" nəşriyyatı, 2001, 132 s.
7. Resulzade Mehmet Ali. Genceli Nizami, «Azerbaycan Yurt Bilgisi» (İstanbul), 1934, Yıl 3, sayı 31-32, s.274-277
8. Resulzade Mehmet Emin. Azerbaycan şairi Nizami, Ankara: Milli Egitim Basımevi, 1951, 402 s.
9. Resulzade Mehmet Emin. Azerbaycan Kültür Gelenekleri ve Çağdaş Azerbaycan Edebiyatı, Ankara, Kardeş matbaası, 1984, 88 s.
10. Resulzade Mehmet Emin. Azerbaycan şairi Nizami, Türk Dünyası Araştırmaları Vakfı, 1991, 402 s.
11. Resulzade Mehmet Emin. Kafkasya Türkleri, İstanbul, 1993
12. Rəsulzadə Məhəmməd Əmin. Azərbaycan şairi Nizami, Bakı: Azərnəşr, 1991
13. Rəsulzadə Məhəmməd Əmin. Azərbaycan şairi Nizami, Bakı: «Təknur» nəşriyyatı, 2011, 520 s.
14. Rüstəmzadə Azadə. «Azərbaycan şairi Nizami» əsəri, «Həyat» qəzeti, 19 may1992
15. Sultanlı Vaqif. İstiqlal sevgisi, Bakı: Elm və təhsil, 2014, 252 s.
16. Yaqulblu Nəsiman. Məmməd Əmin Rəsulzadə, Bakı: Gənclik, 1991, 308 s.
17. Yaqublu Nəsiman. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası, Bakı: Kitab klubu, 2013, 503 s.

## NİZAMi GƏNCƏVİ AZƏRBAYCAN MÜHACİRƏT ƏDƏBİYYATŞÜNASLIĞINDA

***Zaur Mustafayev***

## XÜLASƏ

Məqalədə XX əsr Azərbaycan mühacirət ədəbiyyatşünaslığında Nizami Gəncəvinin yaradıcılığı ilə bağlı araşdırmalar müstəqil şəkildə təhlil obyektinə çevrilmişdir. Mühacirətdə yaranan araşdırmalar içərisində M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" monoqrafiyası daha çox diqqəti çəkdiyindən bu əsərin təhlili əsas götürülmüşdür. Həmçinin Azərbaycan mühacirətinin digər tədqiqatlarına da kifayət qədər yer verilmişdir. Məqalədə Azərbaycan mühacirət ədəbiyyatşünaslığı, habelə Nizami Gəncəvi haqqında yazılmış tədqiqatlara istinad edilmiş, yeri gəldikcə onlardan bəhrələnilmişdir.

# НИЗАМИ ГЯНДЖЕВИ В АЗЕРБАЙДЖАНСКОЙ ИММИГРАЦИОННОЙ ЛИТЕРАТУРЕ

***Заур Мустафаев***

## АННОТАЦИЯ

В статье объектом независимого анализа стали исследования, связанные с творчеством Низами Гянджеви в литературоведении азербайджанской эмиграции XX века. Поскольку среди исследований, возникших в эмиграции, большее внимание привлекла монография М.А. Расулзаде «Азербайджанский поэт Низами», за основу был взят анализ этого произведения. Также достаточно места уделено и другим исследованиям азербайджанской эмиграции. В статье упомянуты и по возможности использованы литературоведческие исследования азербайджанских эмигрантов, а также исследования, написанные о Низами Гянджеви.

## NIZAMI GANJAVI IN AZERBAIJAN IMMIGRATION LITERATURE

***Zaur Mustafayev***

## SUMMARY

In the article, researches related to the creativity of Nizami Ganjavi in the 20th century Azerbaijani emigration literary studies have become the object of independent analysis. Since M.A. Rasulzade's monograph "Azerbaijani Poet Nizami" attracted more attention among the studies that arose during the emigration, the analysis of this work was taken as the basis. Also, sufficient space has been given to other studies of Azerbaijani emigration. The article mentions and, where possible, uses literary studies of Azerbaijani emigrants, as well as studies written about Nizami Ganjavi.

# BÜTÜN ZAMANLARIN ATATÜRKÜ

***Mobil Aslanlı Huntürk***
***Bakı Dövlət Universiteti, p.e.d., professor,***
***Günel Aslanlı***
***AMEA-nın A.Bakıxanov ad. Tarix İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d.***

*Atatürk vəfat edən gün İtaliyanın ən nüfuzlu qəzetlərindən biri belə bir başlıqla çıxmışdı: «Ey Sezar, ey İskəndər, qalxın, böyüyünüz gəlir».*

**Açar sözlər:** zəka, fitrət, elmi dünyagörüş, fiziki mədəniyyət, fiziki kamillik, hərbi strategiya, dövlət siyasəti.
***Ключевые слова:*** интеллект, природа, научное мировоззрение, физическая культура, физическое совершенство, военная стратегия, государственная политика.
***Key words***: intelligence, nature, scientific outlook, physical culture, physical perfection, military strategy, state policy.

Tarixin dərin qatlarına baş vurduqda ulu tanrının türk millətinə töhvə verdiyi mənəvi, əxlaqi-etik sərvətlər arasında onların əqli və fiziki kamilləşməyə meyli özünü daha çox büruzə verir. Arsak, Mete, Cici xan, Atilla, Bumin xaqan, İstəmi xaqan, Muğan xaqan, Tonyukuk, Qapaxan xan, İstəris xaqan, oğulları – Gültikin və Bilgə xaqan kimi nəhayətsiz əqli və fiziki gücə malik neçə-neçə qüdrətli batır güclü xaqanlar, hər şeydən müqəddəm, bahadırlıq əlaməti və üləmalıq hikməti sayəsində cahangirlik zirvəsinə yüksəlmişlər. Əsl şəxsiyyət bütövlüyünü onun hərtərəfli və ahəngdar vəhdətində görən, cəmiyyətin ümumi mədəniyyətinin ən əsas tərkib hissələrindən olan fiziki mədəniyyət barədə ölməz Mustafa Atatürkün türk cocuqlarının vətənpərvərcəsinə tərbiyə olunması işində dediyi ibrətamiz kəlamlar bütün dövrlərdə öz aktuallığını heç vaxt itirməyəcək: «Başarılı olmak için hertürlü yardımdan çox bütün milletçe sporun esasını, degerini anlama və oni kalpen sevgi göstermek, onu vatani vazife saymak lazımdır».



**Mustafa Kamal Atatürk**

Böyük öndərin türk gənclərinin zərərli adətlərdən çəkindirib daim sağlam həyat tərzi keçirmələri, onların asudə vaxtlarının səmərəli təşkili üçün ibrətamiz nəsihət və tövsiyələri ailə, məktəb və ictimaiyyət tərəfindən ciddi nəzarətinə bu günümüzün daha çox ehtiyacı vardır.

Türk dünyasının azman lideri Mustafa Paşa Atatürk fitri istedadı, dərin parlaq zəkası, yüksək bəşəri xüsusiyyətləri, bütün insanlığa xas olan mənəvi keyfiyyətləri, çevik və nümunəvi diplomatik siyasəti, fövqəlbəşər sərkərdəliyi barədə qədərincə fakt, sübut və dəlillər mövcuddur. Lakin biz bu an yalnız dahi liderin fiziki-iradi xüsusiyyətlərinə toxunmaq fikrindəyik. Belə ki, məktəbdə nümunəvi çalışqanlığı, parlaq zəkası və yüksək erudisiyaya malik olması bir türk cocuğu kimi hamını heyran edərmiş. Gənc Atatürk əla oxuduğu kimi həm də fiziki tərbiyə məşğələlərinə, müxtəlif növ idman oyunlarına da böyük maraq göstərərmiş, xüsusilə də idmanın güləş növünə. Bu idman növünə sıxı bağlılıq onun yalnız milli-menval xüsusiyyətlərindən irəli gəlirdi. Çünki güləş bir idman növü kimi türklərin tarixən sevdiyi bir peşə olubdur. Haqlı olaraq türklər arasında belə bir yozum da var:

«Türk cocuğu iməkləməməkdən əvvəl güləşməyə can atar» (3, s. 29).

Mötəbər mənbə və məxəzlərdə Atatürkün güləş idmanına hədsiz maraq və sevgisi barədə qədərincə bilgilər mövcuddur. Onun həyatının ən ümdə özəlliklərindən biri də fiziki inkişafa, fiziki hazırlığa və fiziki yetkinliyə xüsusi önəm verməsində idi. Çoxsaylı idman növləri arasında ən çox meyl və həvəs göstərdiyi güləş idi. Atatürkün əsgərlə güləşməsi onun Türklük eşqinin və sevgisinin qaynaqlarından biridir. Türk dünyasının azman sərkərdəsi, yenilməz bahadırı cəbhələrdə, qanlı qovğa və savaşlarda əsgərlərin ruh qüdrətini, misilsiz şücaətini və əzmkarlıqlarını yaxından izləmişdir. Hər qolunda bir ulus gücü olan, döyüşlərdən döyüşlərə hünər və igidlik göstərən, hər birini övladı kimi sevən əsgərlərinin müharibələrdəki zəfərləri, möcüzələr və xarüqələri Atatürkün ruhunda böyük yanqılar yapmış, sonsuz güvən və məhəbbət oyatmışdır. Türk əsgərlərinin yenilməz rəşadətindən, misilsiz fədakarlıqlarından dərin qürur və yüksək fərəh hissi duyan ulu öndər onlarla daim fəxr edirdi. Türk əsgərlərinin qəhrəmanlıq ləyaqətindən dərin fəxarət duyan Böyük Turanın mənəvi atasının yurdunu, torpaqlarını qeyrətlə qoruyan əzmkar balaları haqqında söylədiyi sözlər nağıllara, dastanlara belə sığmaz. Onun bu barədə artıq aforizmə çevrilmiş dərin məna dolu fikrində hər şey öz parlaq əksini tapır: «Türklüyün ən mənalı ismini daşıyan Mehmetcikdir».

Ruhunda, cismində, ulu tanrının ona bəxş etdiyi ilahi fitri bir istedad, yenilməz fiziki bir qüdrət, yüksək humanizm, qətiyyət, məğrurluq, bir sözlə, insanlığa xas olan bütün ali bəşəri hisslər dahi Atatürkün bətnində cəmlənmişdir. Mustafa Kamal Paşanın insanın ruhən və cismən kamilləşməsini yalnız onların vəhdətdə gerçəkləşməsində görürdü. Və bu barədə o qüdrətli söz sərkərdəsinin, fikir bahadırının peyğəmbərcəsinə dediyi inci kəlamı xatırlamaq yerinə düşərdi: «Bədəni idman, fikri idman ilə müvazi getmelidir» (5, s. 110).

Fiziki tərbiyəyə, fiziki sağlamlığa yüksək dəyər verən Mustafa Kamal Paşa sağlamlığı «xalqın milli sərvəti»,»milli kapitalı» hesab edirdi. O, bugünkü gənclərin yetişməsində onların əqli və intellektual qabiliyyətinin yüksəldilməsində əsl türk vətənpərvəri kimi yetişməsində və qəhrəmanlıq ruhunda böyüməsində fiziki tərbiyə və idmana xüsusi dəyər verirdi. O, idmanı yalnız fərəh, sevinc, sağlamlıq mənbəyi kimi deyil, həm də ölkələr arasında həmrəyliyin və sülhün bərqərar olmasında, yeni dostların tapılmasında, dövlətlərin siyasi və iqtisadi cəhətdən yaxınlaşmasında mühüm amillərdən hesab edirdi.

Dahi Atatürkün həyatına dərindən nəzər yetirsək görərik ki, onun bütün həyatı boyu mənəvi aclığa – kitaba, elmə hədsiz sevgisi və bağlılığı olmuşdur. Dahi K.Marks qeyd edirdi ki, ən dövlətli adam mənəvi həzzlərə ehtiyac duyan adamdır. Həmçinin böyük rus ədibi M.Qorki isə yazırdı ki, məndə yaxşı nə varsa, kitaba borcluyam.

Vaxtilə xarici jurnalistlərdən biri dünyada II yüzminilliyin ən böyük adamı Atatürkdən soruşur:

– Necə oldu ki qalib gəldiniz?

Atatürk həmin əcnəbi jurnalistə hər kəsi heyrətə gətirərək:

– Mən ömrüm boyu cibimə girən hər iki quruşdan bir quruşuna kitab aldım, – cavabını verir.

Böyük mütəfəkkirin mütaliə etdiyi çox dəyərli əsələrin siyahısı insanı vəcdə gətirir. Müəlliflərdən Yılmaz Özdil, Alihan İren, Şevket Süreyya Aydemirin və başqalarının Atatürk haqqında yazdıqları qiymətli monoqrafiyalara istinadən onun bütün həyatı boyu mütaliəyə sıx bağlılığının bir daha şahidi oluruq. O, Sarbonna Universitetinin professoru Anri Puankarenin nəzəri fizikaya dair kitablarını, Alfred Fulyenin «Avropa millətinin mənəviyyatı», Füzulinin qəzəllərini, Con Stüart Millenin «Azadlıq» əsərini, Ömər Xəyyamın «Rüabilər»ini, Şekspirin «Romeo və Cülyetta»sını, Hüqonun «Səfillər»ini, Hötenin «Napoleonun həyatı»nı, Osman Nurinin «Fənni inşaat»ını, Brasser de Burburqun «Mayya dili»ni, Ovqust Kontun, Rene Dekartın, İmmanuel Kantın, Jan Jak Russonun, Emil Dürkheymin, Şillerin və digər bəşəriyyətin ən böyük fikir dühalarının əsərlərini oxumuş,

həmçinin bu kitablar onun stolüstü kitabı kimi yer almışlar.

Əgər Puşkin dahi Bayronu oxumaq üçün ingilis dilini öyrənmişdirsə, türkün mənəvi atası Atatürk isə Puşkini oxumaq üçün 50 yaşında rus dilini öyrənərək onun əsərlərini heyranlıqla oxumuşdur.

Mənbələrdə göstərilir ki, Atatürk mütəmadi olaraq Paris, London, Roma və Vyana şəhərlərindəki türk səfirliklərinin nümayəndəliyi vasitəsilə bu ölkələrdən kitablar sifariş edər, onların pulunu öz cibindən ödəyərdi (1; 4; 6).

Uzun illər ərzində dərin mütaliə sayəsində qazandığı elmi biliklər və təcrübələr sayəsində o, heyrətamiz qələbə və uğurlara nail ola bildi. Böyük Əmir Teymurun yerindəcə söylədiyi: «Bir başın gördüyü işi min ordu görə bilməz», – kimi dərin məna yüklü ifadəsi məhz Atatürk kimi cahanşümul söz və qılınc bahadırına şamil edilə bilər. Sakariya çayı yaxınlığında qazandığı mühüm qələbəsindən sonra türkün əbədi iftixarı Atatürkə Türkiyə Böyük Millət Məclisi ona «Marşal» rütbəsi və «Qazi» fəxri adı verilmişdir.

Bəşər tarixinin yetişdirdiyi fikir və qılınc bahadırlarından olan Atatürkün türk bahadırlıq ruhunun yüksəlişində misilsiz xidmətləri olmuşdur. O, dahi şəxsiyyət əlində qılınc tutmağa qadir olan hər bir soydaşının fiziki kamilləşməsinə, cismani sağlamlığına xüsusi diqqət yetirirdi. Bunun nəticəsi idi ki, Canakqala savaşında – dünya dövlətlərinin böyük bir hissəsi ilə savaşda ordusu ilə birlikdə qeyri-adi hünər göstərərək düşmənə qalib gəlir və möhtəşəm bir səltənətin yeni təməlini qoyur. Mental xüsusiyyətlərini qorxmazlıq, cəsarətlik, yenilməzlik kimi keyfiyyətlər səciyyələndirən, öz türk qovmünün milli ləyaqət və qürurundan fəxarət duyaraq «Bu millətin övladlarının fədakarlıqları, qəhrəmanlıqları üçün ölçü tapılmaz» deyən Mustafa Paşa fiziki mədəniyyəti tarixən millətin ümumi mədəniyyətinin başlıca və ayrılmaz tərkib hissəsi olduğunu anladır.

Görkəmli sərkərdəyə görə, türklərin tarix boyu apardıqları nəhəng cahan savaşlarındakı qələbələrin təməlində onların fiziki hazırlığı, fiziki yetkinliyi, fiziki-hərbi bilik, bacarıq və vərdişləri durur: «Türk xalqı anadan doğma idmançıdır. Hələ yenicə yeriməyə, addımlamağa başlayan Türk uşaqlarını güləşərək görərsiniz. Ata ən çox və ən yaxşı minən yalnız Türk kişiləri deyil; Türk qadını da bu işi yaxşı bacarır. Hansı xalqın daha çox idmançı olduğu ancaq savaş meydanlarında üzə çıxır. Türkün savaş meydanlarındakı təəccübə səbəb olacaq dirənməsi, dözümü və qəhrəmanlığı, ruhu qədər, bədən formasının da bir təsdiqidir. Yalnız, savaş idmançı xalqların üstünlüyünü göstərmək üçün istifadə olunması məsləhət görülməyən qorxulu bir vasitə olduğundan ancaq gördüyümüz, bildiyimiz növlər uyğulanmaqdadır» (2, s.239).

Türk dünyasını ən parlaq simvollarından biri olan böyük ictimai-siyasi xadim, görkəmli hərb xadimi və alovlu maarifçi Mustafa Kamal Atatürk fiziki yetkinliyin, fiziki kamilləşmənin türk övladlarının gələcək həyatında nə dərəcədə əlahiddə yer tutacağına işarə edərək, yazırdı: «Hər bir idman fəaliyyətini Türk gəncliyinin milli tərbiyəsində əsas ünsür hesab etmək lazımdır» (5, s. 178).

Dahi mütəfəkkir fiziki fəallığı, fiziki təkmilləşməni, təmrin və oyunları yalnız orqanizmin sağlamlığını möhkəmləndirən, onu səhhətin gümrahlığına xidmət edən yeganə bir faktor kimi görürdü. O, fiziki mədəniyyəti, fiziki inkişafı insanın əxlaqını saflaşdıran, onun mənəvi zənginliyini təmin edən, habelə idrak qabiliyyətini və təfəkkür tərzini dolğunlaşdıran tutarlı vasitələrdən biri hesab edirdi. Bu sahənin bənzərsiz ideoloqu olan Atatürk mümarisə, idman, oyun, turizm və s. kimi fiziki tərbiyə növlərinin kütləviliyini, xalq arasında geniş vüsət almasının zəruriliyini dönə-dönə israrlayır və yazırdı: «Mənim ən çox sevdiyim sərbəst güləşdir. Hansı Türk ərini, kəndlisini istəyirsiniz soyundurub meydana çıxardın. Dümdüz çiyinləri, yaxşı, nöqsansız, qüsursuz əzələləri, kəskin, sərt üz cizgiləri, yanıq, şirin üz rəngləri, beyin quruluşları insanın ruhuna güvən, nəşə verən bir varlıq olaraq canlanır. Idman yalnız bədən gücünün üstünlüyü hesab edilə bilməz. Anlayış və zəka, əxlaq da buna kömək edər. Zəka və anlayışı az olan qüvvətlilər, zəka və anlayışı yerində olan,

lakin daha az qüvvətlilərlə bacara bilməzlər. Mən idmançının ağıllı, çevik, eyni zamanda yaxşı əxlaqlı olanlarını sevirəm» (2, s. 239).

Mötəbər mənbələrin birində cahanşümul sərkərdənin əsgərlərlə görüşü xatırlanır. Onun Çankayadakı mühafizə Alayında fiziki yetkinlik və hərbi bacarıq baxımından ən seçmə ərlər xidmət edirdi. Və əsgərlərin hər birisi yüksək iradi-fiziki cəhətdən möhkəm, davamlı, hünərvər və şücaətli pəhləvanlar idi.

Türk dünyasının dahi lideri, fövqəladə sərkərdəlik qüdrətli və solmaz şöhrəti bütün dünyanı heyrətə gətirmiş M.K.Atatürk türklərin tarixən ən sevimli idman növlərindən olan milli güləşə dərin maraq göstərmişdir. Mötəbər mənbə və qaynaqlarda bunlara dair qədərincə bilgilər vardır. Həmin maraqlı olaylardan biri də Atatürkün Məhmətçiklə (əsgərlə) güləşmə səhnəsidir.

Atatürkdəki türklük eşqinin və sevgisinin qaynaqlarından biri də türk əsgəri, yəni Məhmətcikdir. Atatürk cəbhələrdə, savaşlarda Məhmətciyin ruhi qüdrətini, qəhrəmanlığını yaxından görmüşdü. Mehmetciyin savaşlarda yaratdığı möcüzələr və xarüqələr Atatürkün ruhunda böyük əks-səda doğurmuş, onda böyük güvən və ehtirama səbəb olmuşdu. Atatürkün fikrincə, böyük türk millətini 5 min ildən bəri hür yaşadan, türklüyün vəsflərini öz mənliyində birləşdirən, türklüyü əzəldən əbədə götürən, türklüyün böyük qüdrət və qüvvəti, türklüyün özü və cövhəri, əlbəttə ki, Məhmətcikdir. Türklüyün ən mənalı adını daşıyan yenə Məhmətcikdir.

İndi Atatürkün Məhmətciklə güləşməsi barədə maraqlı bilgilər vardır. Atatürkün Çanyadakı mühafizə alayına əsgərlər həmişə xüsusi seçimlə qəbul edilirdilər. Seçilən Məhmətciklərin hamısı güclü, qüvvətli, pəhlivan kimi əsgərlər idi.

Bahar gələndə Atatürk mühafizə alayındakı əsgərlərə quzu ziyafəti verir, onlarda bol-bol quzu əti yeyirdilər. Atatürk quzu ətinin həzm olunması üçün güləş təşkil edir. Qaydaya görə, bütün məhmətciklər bir-biriylə güləş tutur, nəticədə onlardan biri mühafizə alayının baş pəhləvanı seçilir və mütləq Atatürklə güləşirdi. Həmin il məhmətciklərdən Ərzurumlu Mustafa baş pəhlivan seçilmişdi.

Atatürk soruşurdu:

– Adın nədir, pəhləvan?

– Mustafa, paşam.

– Haralısan?

– Ərzurumlu, paşam.

Atatürk sonda belə dedi:

– Pəhləvan, bura ər meydanıdır. Burada əsgər, paşa yoxdur. Sən Ərzurumlu Mustafa pəhləvansan, mən də Səlanikli Mustafa pəhləvanam. İndi amansız, qıran-qırana bir güləş tutacağıq. Əgər mənə «paşa» deyə hörmət edib hiyləyə əl atsan, dərhal fərqinə vararam, işini ona görə tut.

O gün Çankaya bağçasının çəmənliklərində zamanın məşhur güləş hakimlərinin idarəsi altında Ərzurumlu Mustafa pəhləvanla Səlanikli Mustafa pəhləvan amansız, sərt, müdhiş bir güləşə başlayırlar. Saatlar keçir, bir-birinə qalib gələ bilmirlər, ikisi də qan-tər içində qalırlar.

Ancaq bir ara saraydan gələn yavər əyilərək Səlanikli Mustafa pəhləvanın qulağına saraya əcnəbi qonaqların gəldiyini söyləyir. Hakim güləşi dayandırır.

Səlanikli Mustafa pəhləvan Ərzurumlu Mustafa pəhləvana deyir:

– Ey pəhləvan, niyə məni məğlub eləmədin, kürəyimi yerə vurmadın?

Ərzurumlu Mustafa pəhləvan Səlanikli Mustafa pəhləvana belə cavab verir:

– Paşam, sənə yeddi dövlət qalib gələmmədi, kürəyini yerə vurammadı, mən sənə necə qalib gələ bilərəm, kürəyini yerə vura bilərəm?

Qurddərəli Məhmət pəhləvanın türklük haqqındakı sözləri Atatürkün çox xoşuna gəlirdi. O, türklük haqqında bir şey eşidən zaman türklük eşqi ilə dolu olan ruhu büsbütün coşur,

böyük milli zövq duyurdu. Atatürk bir gün eşitdi ki, Qurddərəli Məhmət pəhləvan heç bir güləşdə məğlub olmamasının sirrini damarlarında və ruhunda kükrəyən türklük qüdrəti ilə izah etmiş, güləşərkən arxasında həmişə türk millətinin dayandığını və türk millətinin şərəfini düşündüyünü söyləmişdi.

Atatürk Qurddərəli Məhmət pəhləvannın bu müdhiş sözünü duyaraq çox məmnun olmuş və sevinmişdir.

12 noyabr 1931-ci ildə Qurddərəli Məhmət pəhləvana bir məktub yazmış və xeyli də pul göndərmişdi. Məktubu belədir:

– 12 noyabr 1931, Ankara.

Qurddərəli Məhmət pəhləvana.

Səni bütün cahanda məşhur olan böyük bir türk pəhləvanı kimi tanıdım. Parlaq uğurlarının sirrini bu sözlərlə ifadə etdiyini də öyrəndim. Mən hər güləşdə arxamda türk millətinin olduğunu və onun şərəfini qoruduğumu düşünürdüm. Bu sözlərini ən azı hərəkətlərin qədər bəyəndim. Ona görə də sənin bu dəyərli sözünü türk idmançılarına bir peşə kodeksi kimi tövsiyə edirəm. Bununla səndən və sənin sözlərindən nə qədər məmnun olduğumu anlayarsan. Uşaqların üçün sənə bu məktubla birlikdə kiçik bir ərmağan da göndərirəm.

Pəhləvan, ömrünün tam sağlam və uzun olmasını arzu edirəm (3, s. 29-30).

Mustafa Kamal Paşa Atatürk millətinin övladlarının cahangirliklərindən, məğrurluğundan, fədakarlıqlarından sonsuz fərəh hissi keçirən, habelə onun vüqarlı, dəyanətli cocuqlarının mərdanəliyindən fəxarət duyan bəşərin yenilməz fikir və qılınc bahadırı, Ərzurumlu Məhmədin simasında onlara daim şərəfli həyat diləmək arzusu ilə ürək sözlərini bildirir.

Atatürk dəfələrlə mühafiz alayındakı ərlərin güləşlərini izlər, onların ən xırda səhvlərini görüb düzəldərdi. Mövzunun açıldığı və Fərid Cəlal Güvənin də olduğu Çankayada bir süfrə başındakı söhbətdə Atatürk bununla bağlı olaraq anladır:

«- Dünən iyirmi ərin güləşini izlədim. Bir-birilə möhkəm döyüşürdülər. Hər çarpışmanın sonunda biri üstün olar ya! Çox və həqiqətən yaxşı güləşirdilər. O qədər davam etdi ki, köynəkləri belə parçalandı. Bu şəkildə çətin döyüşməyə mən səbəb olmuşdum. Təzə köynək almalı idim. Öz köynəklərimi bunlara verdim. Geyinmələrini söylədim. Lakin heç biri geyinmədi. Təəccüblə səbəbini soruşdum. «Kəndimizə, uşaqlarımıza və övladlarımıza bundan daha böyük ərmağan, hədiyyə nə apara bilərik» dedilər (2, s. 238).

İgidliyi, alplığı, ərənliyi bütün həyatı boyu təqdir edən dahi siyasi xadim, fövqəlbəşər sərkərdə millətinin övladlarında milli mənlik süurun formalaşması, onların vətənsevərcəsinə tərbiyə olunması, mərdcəsinə şərəfli bir ömür yaşamaq ideyası uğrunda çarpışırdı. Ölkəsinin gənclərinin yüksək, nəcib əxlaqi keyfiyyərləri ilə yanaşı, hər zaman igidlik, şücaət göstərmək fitrətində də qadir olduqlarına çox inanırdı: «Türk milləti qəhrəmanlıqda olduğu qədər qabiliyyət və ləyaqətdə də bütün millətlərdən üstündür... fəqət məlumdur ki, hər şeydən çox təzim etdiyi bir şey varsa, o da qəhrəmanlıqdır...» (5, s. 158).

Millətin qeyrətli, qürurlu əsgərlərinin yağılarla qanlı qovğa və toqquşmalarda öz sərdarı ilə birgə qəhrəmancasına döyüşmələrinin şahidi olmuş Atatürk onlara daim dərin sayqı və məhəbbət göstərməkdən sonsuz həzz duyurdu. Əsgərlərinin bütün əxlaqi, milli-mənəvi keyfiyyətlər arasında dəyərləndirdiyi ən başlıca cəhət isə onların mərdanəliyi idi. Odur ki, böyük sərkərdə, üləma lider həmin dəhəti çıxış və məruzələrində tez-tez vurğulayardı: «Əsgərlər mərd olur. Türk əsgəri isə mərdlərdən mərd və pəhləvan kimi mərd olur» (5, s. 162).

Ulu öndər türk millətinin gələcəyi olan gənclərin mərd, mübariz, özünü və vətənini layiqincə müdafiə edəcək bir şəxsiyyət kimi formalaşmasında idmanın əlahiddə əhəmiyyətinə yüksək dəyər verməlrini onlara tövsiyə edirdi. Atatürkə görə, gələcək nəslin hərtərəfli və ahəngdar inkişafı, onların əqli, mənəvi cəhətdən kamilləşməsi fiziki-cismani, iradi-əxlaqi yetkinliyi ilə vəhdətdə təmin olunmalıdır. Məlum həqiqətdir ki, hər bir bəşər

övladı yüksək mənəviyyata, əməksevər, humanist keyfiyyətlərə malik vətəndaş olmaqla bərabər, həm də möhkəm sağlamlığa, lazımi güc və qüvvətə, habelə bir sıra digər fiziki keyfiyyətlərə yiyələnməlidir. Qətiyyən unutmaq olmaz ki, sağlamlıq insanın yalnız şəxsi firavanlığı üçün deyil, başqa cəhətlər üçün də əhəmiyyətlidir. Yəni adam fiziki cəhətdən sağlam, fəal və davamlı olarsa, heç şübhəsiz ki, o, quruculuq işlərində, öz vətəninin müdafiəsində, yaxşı və ağır günlərində bir o qədər yaxından iştirak edər, yararlı bir varlığa çevrilər. Bir sözlə, bu cür şəxslər həyatın insanlara verdiyi nemətlərin hamısından daha səmərəli istifadə edə bilər.

Tarixin bütün dönəmlərində ulu sələflərimizin zəfər yürüşlərini yada salan uca Atatürk mənsub olduğu millətin məcrurluğu, fədakarlığı və yenilməzliyi ilə bağlı fikrini çox dolğun şəkildə bir cümlədə sərrastcasına ifadə edir: «Türk budur: ildırımdır, qasırğadır, dünyanı aydınladan günəşdir».

Türk övladlarının tarixən əyilməzliyindən, məğrurluğundan fəxarət duyan Atatürk bu xalqın üsyankarlığını, mübarizliyini, vüqarlı, mərdanə və təkidli davranışını bilavasitə onların qəhrəmanlıq əlamətləri ilə əlaqələndirirdi. Türk dünyasının Ulu öndəri haqlı olaraq göstərirdi ki, bu millətin övladlarının fədakarlıqları, qəhrəmanlıqları üçün ölçü bilinməz.

Mənsub olduğu xalqın övladı olmağından hədsiz qürur duyan, ruhunda, cismində yalnız rəşadət göstərmək, zəfər çalmaq kimi şərəfli əməllərə sahib olmağın arzusu ilə qovrulan həmdilləri barədə belə deyərdi: «Bir türk dünyaya bərabərdir», «Türk əsarət qəbul etməyən bir millətdir», «Türk milləti əsir olmamışdır!» - deyən paşam dönə-dönə qeyd edirdi ki, türklər sağlam, nəsib və ülvi mili genetik xüsusiyyətləri ilə başqa millətlərə örnək olmağa qadir ali bir qövmdür. Türk dövlətinin yaradıcısı və quruducusu daha öndərimiz Atatürk tarixin dönəmlərində böyük uğurlara imza atmış, türklərin qazandığı misilsiz zəfərlərə önəmsədiklərinə işarə edərək deyirdi: «Biz türklər tarix yaradırıq, amma onu yazmağı başqalarına tapşırırıq».

Yenilməz liderimiz dünyanın ən nəhəng sərkərdə və hökmdarlarına çox layiqli bir örnək oldu. Yox olub, tarimar olub getməkdə Türkiyəni qoruyub saxlamaqla, bütün Türküstanı, Turanı saxladı. Və dərin fitri istedadı, mətin iradəsi və əzəməti sayəsində qüdrətli bir imperiya yaratdı! Neçə-neçə quduz, qəsbkar, məkrli hökmdarlarının arzu və istəyini ürəyində boy atmağa qoymadı. Məmləkətin alp ərənlərini başına cəm eyləyib qarı düşmən qoşunlarını viran edən bütün türkün layiqli atası və XX əsrin qəhrəmanlıq simvolu olan Atatürklə fəxr etmək hər zaman xoşbəxtlikdir.

Öz xalqının tarixində ağlasığmaz döyüşlər yaradan və bu xalq üçün yeni bir era açan I Pyotr barəsində öz həmdillisi dahi M.V.Lomonosovun dərin fəxrlə: «Əgər Allaha bənzər bir adam axtarmaq istəsəm, I Pyotrdan başqa heç kəs tapa bilmərəm», –dediyi sözləri çəkinmədən türk xalqının bir çox oğulları haqqında, xüsusilə də Atatürk haqqında qürurla söyləmək olar.

«Nə xoşbəxtəm mənim dilim Türk dilidir», «Nə xoşbəxtdir Türkəm deyən», «Mənim dünyada ən böyük iftixarım Türklüyümdür» - deyərək həyatı boyu türklüyündən sonsuz qürur duyan, mənsub olduğu həmin millətin övladı olmağından iftixar hissi keçirən ulu Atatürk dönə-dönə vurğulayırdı: «Mənim dünyada yeganə fəxrim, öyüncüm, sərvətim türklükdən başqa bir şey deyildir!». Türkün atası türkün, türkçülüyün nə olduğunu bir daha anlatdı bizlərə.

Dahi liderimiz fiziki mədəniyyətə, fiziki tərbiyəyə sağlamlıq və gümrahlığa zəmin yaradan başlıca amil kimi baxırdı. Onun fikrincə, atçapma, atüstü oyunlar- çovkan, qəpəq, cirid, güləş, habelə bir sıra milli-xalq idman oyun və əyləncələri, milli-mental dəyərlərimizi daha dolğunlaşdıran mədəni sərvətlərimizə bağlılıq türk gəncliyinin milli ruh fövqündə tərbiyəsinə qovuşmaq deməkdir. Böyük Atütürkün «İdman və səhiyyə» ilə bağlı həmin kontekstdə söylədiyi fikirlər buna parlaq sübutdur: «Hər bir idman fəaliyyətini Türk gəncliyinin milli tərbiyəsində əsas ünsürlərdən biri hüsab etmək lazımdır» (5, s. 178).

Türk Cümhuriyyətinin banisi, onun əvəzsiz lideri, böyük Atatürkün hakimiyyəti illərində dövlətin gələcək iqtisadi və sosial bazasını inkişaf etdirmək, xüsusilə də onun hərbi qüdrətini möhkəmləndirmək üçün Vətən qarşısında bir sıra mühüm vəzifələr qoymuşdur. Dahi rəhbər gəncliyinin əqli və mənəvi yüksəlişini, elm və təhsil səviyyəsini önə çəkməyi, onların xüsusilə fiziki hazırlığı, fiziki inkişafı, habelə, hərbi bilik, bacarıq və vərdişlərinə sahib olmalarını ən ümdə vəzifə hesab edirdi. Vətənin doğma sahibi olan, onun yeni qurucularının sağlam, qıvraq, möhkəm bədənli, fiziki yetkinlik baxımdan layiqli vətəndaşlar kimi yetişməsində əsas məsuliyyətin daşıyıcılarının məhz müəllim ordusunun üzərinə düşəcəyini dahi lider belə vurğulayırdı:

Müəllimlər! Yeni nəsli, siz respublikanın fədakar müəllim və maarifçiləri yetişdirəcəksiniz. Və yeni nəsil sizin əsəriniz olacaqdır. Əsərin qiyməti sizin məharətiniz və fədakarlığınız dərəcəsi ilə mütənasib olacaqdır. Respublika: fikrən, elm ilə, texnika ilə, bədəncə qüvvətli olan və yüksək xarakterli qoruyucular istəyir. Yeni nəsli bu məziyyət və qabiliyyətdə yetişdirmək sizin əlinizdədir (5, s. 146).

Atatürk fiziki mədəniyyəti, fiziki tərbiyəni və idmanı milli tərbiyənin başlıca amillərindən hesab edirdi. Gələcək nəslin hərtərəfli və ahəngdar inkişafında əlahiddə yer tutan idmana hər bir şəxsin özünü və Vətənini müdafiə etmək vasitəsi kimi baxırdı: «Hər bir idman fəaliyyətini türk gəncliyinin milli tərbiyəsində əsas ünsürlərdən biri hesab etmək lazımdır» (5, s. 178).

Dahi lider fiziki mədəniyyət və fiziki tərbiyəyə yalnız sağlamlıq və gümrahlığa zəmin yaradan başlıca atribut kimi baxmırdı. O, həm də fiziki tərbiyəni ümumi mədəniyyətin əsas tərkib hissələrindən hesab edərək, onu dünyada sülh və barış rəmzi sayırdı. Ulu Atatürk dünyada dostluq və həmrəyliyin bərqərar olunmasında idman fövqəl və əlahiddə rolunu israrla bildirdi. Onun fikrincə, güləş, atçapma, atüstü oyunlar - çovkan, qəpəq, cirid, habelə, bir sıra milli - xalq oyun və əyləncələri milli-mental dəyərlərimizi dolğunlaşdıran mənəvi sərvətlərdəndir. Türk sosial həyatında idman işlərini nizamlamağa məsul olanlar, türk balalarının idman həyatını yüksəltmək barəsində düşünərkən, yalnız nümayiş etdirmək üçün hər hansı bir yarışda qalib gəlmək məqsədini güdən bir idman proqramı cızmamalıdırlar. Əsas məsələ, bütün yaş təbəqələrindən olan türklər üçün idman maarifini təmin etməkdir. «Sağlam baş sağlam vücudda olur» sözünü atalarımızı boş yerə deməyiblər (5, s. 179).

Həyatda fiziki hərəkət olmadan ahəngdar inkişaf etmək qeyri-mümkündür. Fiziki tərbiyənin başlıca məqsədi insanın sağlamlığını möhkəmləndirməkdən, onun fiziki, mənəvi qabiliyyətlərini, qüvvə və bacarığını ahəngdar inkişaf etdirməkdən ibarətdir.

Sağlamlıq hər bir insan üçün sevinc, fərəh mənbəyidir. Sağlamlıq həm də gözəllikdir, əzəmətdir, xoşbəxtlikdir. Odur ki, sağlamlıq uğrunda mübarizə xoşbəxtlik uğrunda mübarizədir. Fiziki tərbiyə və idmanın insan həyatının bəzəyi, gümrahlıq, firəvanlıq, xoşbəxtlik mənbəyi olduğunu dönə-dönə vurğulayan böyük lider yazırdı: «Üzərinə inqilabın və inqilabçılığın müxtəlif və həyati vəzifələr qoymuş olduğu türk vətəndaşlığının sağlamlığı hər zaman mütləq diqqət mərkəzində durmalı olan milli məsələdir» (5, s. 179).

Aparılan çoxsaylı təqdiqatlar təsdiq etmişdir ki, fiziki proseslər - idman, oyun, turizm, üzgüçülük və s. fiziki tərbiyə üzrə məşğələlər hissiyyat orqanlarının, xüsusilə də əzələ-hərəkət aparatının, görmə və eşitmə qavrayışlarının təkmilləşməsinə kömək göstərir. Bunların sayəsində müşahidəçilik qabiliyyəti yüksələrək, daha məqsədyönlü və planlı olur, eyni zamanda, yaddaşın, görmə-eşitmə hissiyatının, habelə, duyğu və diqqətin inkişafına yardım göstərir.

İdman yalnız bədən qabiliyyətinin bir üstünlüyü hesab edilə bilməz. İdrak və zəka, əxlaq da bu işə yardım edir. Zəka və qavrayışı kəm olan qüvvətlilər, zəka və qavrayışı yerində olan nisbətən zəif qüvvətlilərlə bacara bilməzlər. Mən, idmançıların ağıllı, çevik və eyni zamanda, əxlaqlı olanını sevirəm (5, s. 179).

İnsan sağlamlığının və əmək qabiliyyətinin yaxşılaşdırılması üçün bədən tərbiyəsi və

idmanın müstəsna əhəmiyyətini danmaq qeyri-mümkündür. Fizioloji tədqiqatlar göstərir ki, bir sıra müalicəvi bədən tərbiyəsi metodları vasitəsilə itirilmiş əmək qabiliyyəti bərpa oluna bilir, ürək qan-damar sistemi yaxşılaşır, əzələ tonusu yüksəlir və insan sağlam həyatına qayıda bilir. Atatürkün fikrincə, fiziki sağlamlığın, fiziki möhkəmliyin və gümrahlığın əsasında gigiyenik amillərin də xüsusi yeri vardır: «Türk üçün ev və alaçıq olan hər yer sağlığın, təmizliyin, gözəlliyin, modern mədəniyyətin örnəyi olacaqdır» (5, s. 179).

Tarixdə qəhrəmanlıq xalq kütlələrinin, qabaqcıl siniflərinin arzu və məqsədini həyata keçirmək naminə şəxsiyyətdən yenilməz hünər, dəyanət, fədakarlıq tələb edən insan davranışının mühüm bir xüsusiyyətidir.

Türklərin keçdiyi şanlı tarix səhifələri, çoxsaylı müzəffər yürüşləri yaddaşlarda iz qoymuşdur. Əqli və fitri istedadı ilə əksər xalqlara örnək olan, məğlubiyyətdən daha çox qabiliyyətin dadını çıxarmağa alışmış türk övladının qanında, ruhunda daim bir qəhrəmanlıq coşqusu alovlanmışdır. Öz xalqının fərqli xüsusiyyətlərini dərk edən Atatürk də bunu dönə-dönə israrlayırdı:

Hörmətli gənclər, həyat mübarizədən ibarətdir. Ona görə həyatda yalnız iki şey var: qalib olmaq, məğlub olmaq. Sizə Türk gəncliyinə qoyub gedəcəyim vicdani əmanət yalnız və daim qalib olmaqdır və əminəm ki, həmişə qalib olacaqsınız...

«Mənim ən böyük fəxrim, öyüncüm, sərvətim türklükdən başqa bir şey deyildir», «Bir türk dünyaya bərabərdir!», «Mənim ən böyük iftixarım türklüyümdür», «Türk budur: ildırımdır, qasırğadır, dünyanı aydınladan günəşdir» deyən və Turanı canı qədər sevib əzizləyən Atatürk Çanaqqaladakı məğrur döyüşçülərinə «Mən Sizə vuruşmağı yox, ölməyi əmr edirəm» dahiyanə ifadəsini yaddaşlardan silməyək!..»

Və nəhayət fikrimi Kuba xalqının əbədi lideri Fidel Kastronun dünyanın heç bir xaqanına deyilməmiş sözü ilə bitirmək istərdim: «Tanrının türk dünyasına ən böyük hədiyyəsi Atatürkdür».

Qüdrətli zəka sahibinin fitri istedadından, bənzərsiz həyat və fəaliyyəti dövründə göstərdiyi misilsiz xidmətlərdən heyrətə, vəcdə gələn türkün dünya şöhrətli ən öncül milli iftixarımız olan böyük ədibimiz Çingiz Aytmatov isə yazırdı ki, Atatürkü oxuduqca ona qarşı heyranlığım artır. Atatürk devrimləri mənim ilham qaynağımdır.

## ƏDƏBİYYAT


1. Alihan İren. Karanlıkdan çıkış. Ankara: Artikel yayıncılıq, 2019.
2. Atatürkün xatirələri və Atatürk haqqında xatirələr. Bakı: Elm, 2006.
3. Mehmet Ateşoğlu. Atatürkde türklük aşkı və ülküsü. "Türk kültürü", Kasım 2002.
4. Şevket Süreyya Aydemir. Tek adam. İstanbul: Remzi Kitabevi, 2003.
5. Utan Qocatürk. Atatürk. Bakı: Elm, 1991.
6. Yılmaz Özdil. Mustafa Kamal. İstanbul: Kırmızı Kedi yayın evi, 2019.


## BÜTÜN ZAMANLARIN ATATÜRKÜ

***Mobil Aslanlı Huntürk, Günel Aslanlı***

## XÜLASƏ

Məqalə ikinci yüzilliyin ən böyük dühası, söz və fikir cahangiri, zəka və qılınc bahadırı, insanın əqli, mənəvi və fiziki kamilliyinin təmin olunmasını bəşəriyyətin qarşısında duran ən mühüm vəzifə hesab edən ulu Atatürkün fiziki mədəniyyətlə əvəzsiz xidmətləri önə çəkilir. Tədqiqat işində diqqəti çox çəkən məqamlardan biri dahi Atatürkün şəxsi həyatında türklərin ən sevimli idman növü olan güləşə daha geniş yer ayırmasıdır.

## АТАТЮРК ВО ВСЕ ВРЕМЕНА

***Мобиль Асланлы Гунтюрк, Гюнель Асланлы***

## АННОТАЦИЯ

В статье освещены неоценимые заслуги и физическая культура Ататюрка, величайшего гения XX столетия, воина слова и идей, сокровища ума и меча, считающего важнейшей задачей обеспечение умственного, духовного и физического совершенствования человека, всегда стоявшего лицом к человечеству. Одним из ярких моментов исследования является то, что гениальный Ататюрк в своей личной жизни больше места уделял борьбе, которая является любимым видом спорта турок.

## ATATÜRK OF ALL TİMES

***Mobil Aslanli Hunturk, Gunel Aslanli***

## SUMMARY

The presented article deals with the master of word, great patriot of his country full of spiritual and physical intelligent Atatürk and his advises for youth, Atatürk's investigation connected with physical culture may be considered one of his best contributions for his country.

One of the main aspects thut draw attention in the investigation work is the wide sprend of wrestling as the favourite kind of sports of türks in Atatürk's personal life.

# СПОСОБ МАТЕРИАЛИЗАЦИИ РЕАЛЬНОГО МИРА В СОЗНАНИИ – ЧЕЛОВЕЧЕСКИЙ ЯЗЫК

***Гаджиагазаде Фарида Закир гызы***
***Студентка 1-го курса БГУ***
*haciagazadafarida@gmail.com*

***Ключевые слова:*** сознание, герменевтика, понимание, язык, интерпретация, лингвистика.
***Açar sözlər:*** şüur, hermenevtika, anlama, dil, şərh, dilçilik.
***Keywords:*** consciousness, hermeneutics, understanding, language, interpretation, linguistics.

Человек всегда в своей сознательной жизни всегда ищет ответы на волнующие его вопросы. Эти вопросы возникают по мере того, как человек сталкивается с какой-то проблемой, которая угрожает его жизнедеятельности. И, наверное, нет необходимости излагать объяснения по поводу того, почему нам так важно находить правильные ответы. Ведь по логике, это исходит их инстинкта самосохранения в силу естественного отбора самых приспособленных. Отсюда получаем, что у человека способность думать, понимать, анализировать и абстрактно мыслить очень важно, и даже жизненно необходимо. Но и нельзя не учесть, что наряду с прямохождением развивалась и речь, которая играла очень важную роль в развитии и отображении мыслительных продуктов человека, которые впоследствии взаимодополняли друг друга. По нашему мнению, неплодотворно рассматривать вопрос о том, что играет первостепенную роль в процессе воспроизведения человеком какой-либо фразы, либо слова. Отмечу, что здесь имеется в виду не то, что возникло впервые: слова на языке, речь, или идеи в мыслях, либо сами идеи, как объективные. Ибо вопрос в том действуют ли импульсы, задействующие механизмы, способствующие движению мышц языка к воспроизведению слов. И происходит это одновременно либо последовательно? Многие философы размышляют по поводу этих вопросов.

Тут же наряду с основным полем исследования герменевтики- языком, нужно подметить роль сознания. Здесь сарказмом нужно подчеркнуть саркастическое выражение Анила Кумара Сета, который он изложил в книге «Быть собой: новая теория сознания», что «люди постоянно галлюцинируют, а общее в этих галлюцинациях мы называем реальностью» (4). При этом возникает потребность в сознании не для отдельного человека, а для одного единого общемирового сознания, не используем при этом понятие общественного, так как не считаем, что оно характерно только людям, лишь создающим социумы, и убеждены, что она присуще, раз и навсегда, для всей Вселенной. Я могу говорить о субъективности в любом случае моего изложения каких-либо событий, и никак наоборот. И это возможно только благодаря основному инструменту- языку. Но также надо признаться, что, возможно, труды, направленные на постижение сути сознания, как чего-то вне нас, и изучение его объективно, будут напрасны, потому что мне инстинктивно приходится, что это нам удастся только если это будет исследована со стороны чего -то или кого-то отличного от нас, может быть, искусственного интеллекта.

Основной наш интерес — это как все выражается в языке для того, чтобы это понимали все, и как в результате получается, что все понимается по-разному каждым отдельным субъектом.

Также известно, что в герменевтической философской традиции Хайдеггера язык представляется как наиважнейший элемент, который доносит смысл. Это очень важ-

но, потому что экзистенция бытия вообще, так и человека в частности, обязательно должна быть понята. Поэтому очень важно исследование языка. Не просто так, мы остановились именно на языке, как инструменте понимания. Некогда человечество гордилось тем, что она является обладателем такого отличительного качества от животных как членораздельная речь. К тому же теперь, например, способностью и возможностью заниматься наукой, фраза, подходящая для обозначения того, что человек научился делать удобным свое местообитание, и именно так, потому что уже не чувствуется родительское тепло у людей, занимающихся научной деятельностью по отношению к природе. Это занятие сегодня, на наш взгляд, похоже на то, как ребенок очень хочет открыть мешок и увидеть, что там, но очень боится того, что там может быть что-то страшное.

Вообще, так как эта часть работы посвящается основному понимаю герменевтики, то есть парадоксальному понимаю понимания. Главная задача работы будет состоять в том, чтобы раскрыть смысл этого понятия.

Герменевтика представляется как исследование проблем интерпретации и истолкования текстов, смыслов, знаков и символов. В свою же очередь, эти элементы интенциональных актов наряду с тем, что фактически присутствуют во всех сферах жизнедеятельности, к тому же они играют посредническую роль в учениях наук о духе. А следовательно, изучаться и исследоваться они могут с помощью языка. Другими словами, герменевтика изучает понимание. Основная цель общественных наук, как было предложено и развито В. Виндельбандом и Г. Риккертом, это рассмотрение явлений процессов, происходящих в социально-политической, общественной, культурной жизни как единичные, то есть обладающие индивидуалистической черт, явления. Это свидетельствует тому, что они изменчивы, переходны и относительны, независимо от области, места и времени. Каждому в отдельности присущи свои черты, которые делают науки о духе особенными. Понимание общественных отношений — это очень сложный процесс, так как никогда невозможно предугадать цели их участников.

Чтобы перейти к вопросу о понимании, нужно сначала проанализировать, что означает непонимание. Интересно описание этого феномена философом XX века М. Хайдеггером. Он говорит о проблеме переживания непонимания, которая следует за каждым процессом полного и истинного понимания. Она состоит в том, что человек, прежде чем начать понимать какую -либо идею, мысль или предмет, должен прожить этап, когда вся интеллектуальная сфера человека «наполняется ужасом, страхом» перед неизведанным. И еще большая ярость испытывается перед невозможным либо сложным для понимания. Подобное состояние может исчезнуть только если человек, обладающий достаточной волей и способностью, в конечном итоге преодолеет непонимание.

В философии французского философа Поля Рикера «момент понимания бытия и самопонимания «я»» возможно, как интерпретация символов, и именно поэтому герменевтика — это философская дисциплина (1 стр. 28). Если есть жизнь, то и есть его правильное либо неправильное истолкование. По мнению философов, только мудрость способна дать истинное понимание мира, явлений и процессов, происходящих в них, а когда в ход идет естественнонаучное построение мира, то возможно лишь объяснение, но не понимание. Герменевтика, по П. Рикеру, предназначена для того, чтобы присваивать, и, наоборот, разоблачать смыслы.

Умопостигаемое бытие возможно для постижения только через язык. В языке возникло слово «я». Только с ее помощью возможно и интерпретация «я». Почему от бытия мы перешли к именно «я». Так это потому, что лишь субъект испытывает и

практикует акт осмысливания и себя, и бытия в целом. Какие бы преграды не стали бы на пути, для человека это потребность.

Поль Рикёр напоминает о наличии трех полей в интерпретации смыслов. Это семантический, рефлексивный и экзистенциальный планы, которые играют необходимую роль в языке для понимания, и, хотя указание на эти отдельные планы помогает лучше просматривать исследование философа, во всяком случает на самом деле, то есть в естественном языке, этот триединый процесс происходит одновременно, и тесно переплетен друг с другом. Во - первых, когда какое-то событие, явление или переживания мы передаем с помощью текста, независимо от того это есть сейчас или происходил в прошлом мы истолковываем его по-разному. У текста есть несколько смыслов, истинный духовный смысл получается «при помощи приращения историческим и буквальным смыслом». Через лингвистический анализ текстов, в которых выражается онтическое и онтологическое понимание в языке, мы движемся к существованию. В литературе под рефлексией имеется в виду «связь между пониманием знаков и самопониманием человека». К сожалению, как было сказано об этом выше, нам осознание доступно в пределах собственной субъективности. Но что же мы видим, когда «смотрим в зеркало»? Мы видим, существо, которое обладает языком, сознанием, бытием и самосознанием, доступным для понимания и интерпретации многого. Но, об этом тоже уже было сказано, недостаточным, для понимания Вселенского «Я». Поэтому наш основной вопрос должен состоять не в том, зачем мы живем, то есть смысла жизни, а в том, как мы живем сейчас (1).

На мой взгляд, у человечества хватает мудрости, имею в виду знания, чтобы ответить на этот вопрос, но она не способна смотреть со стороны на себя, чтобы дойти до раскрытия смысла жизни. Это проблема либо недостаточности развития языка, либо в корне невозможности.

Приведение экзистенциального плана к понятию Dasein очень оригинально избавляет нас от определения роли человеческого бытия в понимании, и лучше всего помогает нам обозначить язык, как способ выражения понимания как способа бытия человека. Философия Хайдеггера, на самом деле, указывает на важность бытия, как присутствия его, и в нем. Dasein - это, с точки зрения нашего понимания, применительно к герменевтическому толкованию, наличие человека, в его телесном и духовном качестве, здесь и сейчас, для понимания всей Вселенной, где человек играет важную неотъемлемую роль созерцателя и интерпретатора. Это определение наиболее четко охарактеризует этот термин с точки зрения понимания М. Хайдеггера.

Воссоздавать образы каких-то объектов, а также людей, очень легко, но точно, невозможно возобновить тот смысл и суть, которую они имели в виду. Всякий человек неповторим и уникален, именно поэтому общественные науки отличаются от естественных. То есть, в естественных науках цель - объективное видение процессов и явлений, а в общественных - такая цель, хотя и есть в некоторых теориях, на нам взгляд не состоятельна. Это сводится к герменевтическому пониманию событий и характеров в социально- общественных науках. Именно единый язык, созданный для объединения коммуникативно-когнитивных возможностей, создает это различие в пониманиях людьми художественных и письменных носителей общечеловеческой культуры. Примером могут выступить герменевтические каноны, которые нашли отражение в книге «герменевтика как общая методология наук о духе»(2). Эти каноны, по мнению Эмилио Бэтти, представлены как критерии и принципы истолкования. Они имеют отношение как к объекту, так и субъекту. Как видно из вышеизложенного, нам нужны те каноны, которые направлены внутрь понимающего субъекта. (2)

Один из таких канонов, названных «каноном актуальности понимания», подразумевает, что интерпретатор должен воспринять событие как происходящее в своей

собственной жизни; пережить, ощутить все, что чувствовали участники события; передать с помощью повторного конструирования изнутри, при помощи своей проницательности и мыслительных категорий своей практики. (2)

Объективные предметы, явления природы и процессы, существующие в мире вне нашего сознания, недоступны нашему познанию. Опираясь на философию Иммануила Канта, мы называем такую материальную действительность «вещью в себе».(3)

Доступность объективного мира нашему восприятию не исключается, но замечается ее искаженное представление и понимание нашим сознанием. Не сами вещи, а лишь то, что является продуктом нашего сознания составляет всю коллекцию знаний о мире доступным нам. Хотя, важно обратить внимание на стремление показать необходимость научного знания, и одновременно указать на ограниченность разума. Отсылка к И. Канту уточняет место бытия самого по себе, которое очень важно для определения герменевтической интерпретации, особенного в исторической науке. Так как в естественных науках эта ограниченность правомерна, и мы должны это принять. Зато, по Бультману, наличие различия между субъектом и его предметом, понимание вещи через жизненное отношение к ней не иллюзионирует объективное мышление в исторических науках. И при этом отграничиваются три основных вида заинтересованности, которое имеет место в текстах. Мы бы советовали всегда придавать большое значение этим моментам. Интерес и стимул субъекта, занимающегося написанием текстов, может исходить, во- первых, из психологических, эстетических и интенциональных элементов. Внедрение этих парадигм в интерпретирование исторических объектов, под объектом имеется в виду и события, и личности, необходительно. Однако, Эмилио Бэтти ставит под сомнение возможность фиксирования вышеперечисленных мотивов. (2) То есть, так или иначе, мы не можем убедиться в точности соответствия продукта исследования реальным событиям и переживаниям субъектов. Кстати, это можно отнести и непосредственно тем, о ком пишется, и тем, кто пишет.

Слово, словосочетание, предложение, текст: на эти части разделена речь как дискурс. Почему? Возможно, так проще всего развивалась наука лингвистика. На самом деле лингвистика — это широкое понятие, носящее в себе смысл науки о языке. Но, известно, что она изучает фактические проявления языка в действительности. Мы бы сказали так: то, что может быть воспринято как материальная действительность, то есть написано, понято и возможно воспроизведено другим, да так, чтобы она не потеряла исходный смысл, и было понято другими также адекватно. Такое условное разделение человеческой речи исходит из исходной герменевтической постулаты о том, что, чтобы понять текст в целом нужно разбить ее на части, а эти части разбить анализировать по элементам. Но нельзя забывать о герменевтическом круге, который гласит о необходимости возвращения в целое, и посмотреть со стороны, провести лингвистический, семантический анализ.

## ЛИТЕРАТУРА

1 Конфликт интерпретаций. Очерки о герменевтике. Поль Рикер

2 Герменевтика как общая методология наук о духе. Эмилио Бэтти

3. Хочуев И. Ч., Хубиев Б. Б. Концептуальные основы теории познания в философском наследии И. Канта // Актуальные вопросы современной науки. — 2014. — № 37. / [Научная электронная библиотека «КиберЛенинка»] URL: https://cyberleninka.ru/article/n/kontseptualnye-osnovy-teorii-poznaniya-v-filosofskom-nasledii-i-kanta. (дата обращения –02.04.2024)

4. Быть собой: Новая теория сознания. Анил Сет

# СПОСОБ МАТЕРИАЛИЗАЦИИ РЕАЛЬНОГО МИРА В СОЗНАНИИ – ЧЕЛОВЕЧЕСКИЙ ЯЗЫК

***Гаджиагазаде Фарида***

## АННОТАЦИЯ

В герменевтической философской традиции Хайдеггера язык представляется как наиважнейший элемент, который доносит смысл. Это очень важно, потому что экзистенция бытия вообще, так и человека в частности, обязательно должна быть понята. Поэтому очень важно исследование языка.

Герменевтика представляется как исследование проблем интерпретации и истолкования текстов, смыслов, знаков и символов. В свою же очередь, эти элементы интенциональных актов наряду с тем, что фактически присутствуют во всех сферах жизнедеятельности, к тому же они играют посредническую роль в учениях наук о духе. А следовательно, изучаться и исследоваться они могут с помощью языка. Другими словами, герменевтика изучает понимание.

# ŞÜURDA REAL DÜNYANI OMATERİALİZASİYA ETMƏYİN YOLU İNSAN DİLİDİR

***Hacıağazadə Fəridə***

## XÜLASƏ

Heideggerin hermenevtik fəlsəfi ənənəsində dil məna verən ən vacib element kimi təqdim olunur. Bu çox vacibdir, çünki bütövlükdə varlığın və xüsusən insanın varlığı mütləq başa düşülməlidir. Buna görə dil öyrənmək çox vacibdir. Hermenevtika mətnlərin, mənaların, işarələrin və simvolların təfsiri və təfsiri problemlərinin öyrənilməsi kimi təqdim olunur. Öz növbəsində, qəsdən hərəkətlərin bu elementləri yalnız həyatın demək olar ki, bütün sahələrində mövcud deyil, həm də ruh elmlərinin təlimlərində vasitəçilik rolunu oynayır. Beləliklə, onlar dil vasitəsilə öyrənilə və öyrənilə bilər. Başqa sözlə, hermenevtika konsepsiyanı öyrənir.

# THE WAY TO OMATERIALIZE THE REAL WORLD IN CONSCIOUSNESS IS HUMAN LANGUAGE

***Hajiaghazada Farida***

## SUMMARY

In Heidegger's hermeneutical philosophical tradition, language is presented as the most important element that gives meaning. This is very important, because the existence of a being in general and a person in particular must be understood. Therefore, learning a language is very important. Hermeneutics is presented as the study of the problems of interpretation and interpretation of texts, meanings, signs and symbols. In turn, these elements of deliberate actions are not only present in almost all spheres of life, but also play an indirect role in the teachings of the sciences of the soul. Thus, they can be studied and studied with the help of language. In other words, hermeneutics studies the concept.

# CİDDİ REJİMİ ÇƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ CƏZA ÇƏKƏN MƏHKUMLARIN PSİXİ SAĞLAMLIĞI PORBLEMİ

***Səməndərova Aydan Firudin qızı***
***BDU-nun "Psixologiya" kafedrasının dosenti***
*a.sudan77@mail.ru*
***Allahyarova Sevinc Ağavəli qızı***
***BDU-nun "Psixologiya" kafedrasının dosenti***
*allahyarova68@mail.ru*

***Açar sözlər:*** sosial təcridlik, məhkum, psixi sağlamlıq, psixi pozuntular, şəxsiyyət pozuntusu, dezadaptasiya, dekompensasiya, reabilitasiya
***Ключевые слова:*** социальная изоляция, осужденный, психическое здоровье, психические расстройства, расстройство личности, дезадаптация, декомпенсация, реабилитация
***Keywords:*** social isolation, convict, mental health, mental disorders, personality disorder, maladjustment, decompensation, rehabilitation.

Müasir şəraitdə müxtəlif əhali qruplarının psixi sağlamlığının öyrənilməsi getdikcə daha çox əhəmiyyət kəsb edir. Son zamanlar penitensiar müəssisələrdə olan şəxslər arasında bir sıra psixi patologiyaların yayılması isə qeyd edilən məsələnin məhkumlar kontingentində öyrənilməsini xüsusilə aktual etmişdir [1, səh.45].

Belə ki, çəzaçəkmə müəssisəsində çətin həyat şəraiti, tez-tez yaşanılan emosional və psixi gərginlik, ortaya çıxan konfliktli situasiyalar, böyük və kiçik qeyri-formal qruplarda xüsusi şəxsiyyətlərarası münasibətlər, administrasiya və tibb işçiləri ilə münasibətlər məhkumun psixi vəziyyətinə təsir etməyə bilməz. Bu baxımdan, məhkumların psixi sağlamlığındakı pozuntuların (onlar tərəfindən törədilmiş hüquqpozmalar nəzərə alınmaqla) öyrənilməsi, burada klinik-sosial amillərin rolunun müəyyən edilməsi, o cümlədən məhkumların yeni həyat şərtlərinə adaptasiyasına, eləcə də onlarda müəyyən edilmiş psixopatoloji əlamətlər nəzərə alınmaqla addiktiv davranış formalarının psixososial korreksiyasına yönələn tədbirlərin işlənib hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, həbsxanada qaldıqları müddətdə bir çox məhkumlarda sərhəddi psixi pozuntuların uzun sürən formalarına, həmçinin endogen psixi xəstəliklərə meyl özünü göstərirlər. Bu, həm müəssisədə saxlanma şəraiti, həm də sosial-psixoloji amillərlə bağlıdır. Öz növbəsində psixi patologiyanın təzahürləri penitensiar müəssisələrdə bu insanların hüquqazidd əməllərində və addiktiv davranışlarında özünü göstərir.

Cəza çəkənlərin kontingentinin özünəməxsus xüsusiyyətləri vardır. Məhkumlar mühiti hətta eyni çəzaçəkmə müəssisəsi daxilində də öz tərkibinə görə eyni deyil və milli tərkibinə, yaşına, təhsilinə, intellektinə, sosial təhlükə dərəcəsinə, antisosial oriyentasiyasına və sosial-mənəvi xüsusiyyətlərinə görə çox fərqlənir.

Çəzaçəkmə müəssisələrində məhkumların psixi sağlamlıq problemi istiqamətində İ.A.Mineviç tərəfindən keçirilmiş skrininq-tədqiqatlar nəticəsində 3 qrup müəyyən edilmişdir: "sağlam məhkumlar qrupu" - yoxlanılanların ümumi sayının 49%-i (497 nəfər), "risk faktoru olan qrup" - 17%-i (172 nəfər) və "psixi pozuntuları olan məhkumlar qrupu" - 34% (345 nəfər) [3, səh.66].

Sorğuda iştirak edən məhkumların əksəriyyəti 21-30 yaş arasında idilər (458 nəfər). Bütün yaş qrupları "psixi cəhətdən sağlam" qrupun üstünlük təşkil etməsi ilə xarakterizə olunurdu, ondan sonra psixi və davranış pozuntusu olan şəxslər, daha sonra isə risk faktorları olan məhkumlar gəlirdi. "Psixi cəhətdən sağlam" qrupda "31-40 yaş"lılar üstünlük təşkil etmişdir (56,4%). Bunun ardınca "50 yaşdan yuxarı" yaş qrupu, (49,2%), "41-

50 yaş" (47,7%), "21-30 yaş" (45,4%); "20 yaşa qədər" (42,9%) gəlir. "Risk faktoru olan şəxslər" üzrə "31-40 yaş" yaş qrupu üzrə məhkumlar üstünlük təşkil etmişdir. Psixi və davranış pozuntusu müəyyən edilmiş məhkumlar arasında birinici yerdə yaşı 20-dən az olan şəxslər - 40,0 %, ikinci yerdə "50 yaşdan yuxarı", "41-50 yaş", "21-30 yaş" yaş qruplarında olan şəxslər gəlir.

Sosial-demoqrafik məlumatların təhlili göstərmişdir ki, psixi və davranış pozuntusu olan məhkumlar üçün sağlam məhkumlar qrupu ilə müqayisədə "ailə amili" birinci dərəcəli əhəmiyyət kəsb edir. Belə ki, onların 31,4 %-i tam ailədə, 53,5 %-i natamam ailədə, 15,1 %-i isə uşaq evində tərbiyə olunmuşdur.

Sorğuda iştirak etmiş psixi pozuntusu olan məhkumlar arasında oğurluq, adam öldürmə, sağlamlığa ağır zərər vurma kimi ictimai təhlükəli əməllər üstünlük təşkil etmişdir. Bu kimi əməllər daha çox 40 yaşa qədər məhkumlarda təsadüf edilmişdir.

Tədqiqat zamanı məhkumların törətmiş olduqları cinayət əməli ilə onların xarakteri arasındakı əlaqəni səxiyyələndirən klinik-sosial və şəxsi amillər də təvsilatlı şəkildə araşdırılmışdır.

Bu zaman məhkumların törətdikləri cinayət əməli ilə islah müəssisəsində məhkumlar kollektivində tutduqları mövqe, təyin edilmiş cəzanın müddəti, eləcə də məhkumluğun sayı arasında əlaqə müşahidə olunmuşdur. əldə edilmiş məlumatlar ilkin mərhələdən məhkumların psixi sağlamlığının pozulmasına çəxsi faktorların təsiri haqqında ehtimal etmək imkanı verir. Tədqiqat zamanı psixi pozuntusu olan məhkumlar daha çox tsikloid, şizoid, psixastenik və hipertim xarakter tipini səciyyələndirən mühakimələri seçirdi. Tsikloid məhkumlar qrupunda mülkiyyət əleyhinə cinayətlər, quldurluq üstünlük təşkil edir, bunun ardınca qətllər və soyğunçuluq gəlir. Şizoid və hipertim tiplərdə tamahkar cinayətlər və qətillər aparıcıdır [2, səh.66].

Tədqiqatda iştirak etmiş məhkumlarda aşağıdakı psixi və davranış pozuntularını müəyyən edilmişdir: yetkin şəxsiyyət pozuntusu (P60) - 31%; qeyri-psixotik səviyyəli üzvi psixi pozuntular (B07.xx) - 22,6%; Alkoqoldan asılılıq sindromu (RU.xx) - 10,9%; nevrotik səviyyəli psixi pozuntular (P43.xx) -6,3%; əqli gerilik (P70,1xx) - 6,7%; maddə asılılığı sindromu (narkomaniya) -14,6%; addiktiv davranış - 8,0%.

Psixi pozuntuları olan məhkumların şəxsiyyətinin daha dərindən öyrənilməsi üçün tədqiqat zamanı klinik müayinənin məlumatları əsasında məhkumların xarakterinin özünü qiymətləndirməsinə istin ad edilmiş və müəyyən edilmişdir ki, məhkumlarda psixopatologiya ilə xarakterin özünü qiymətləndirməsi arasında əlaqə mövcuddur. Tədqiq olunan məhkumlar ən çox şizoid, sikloid və psixostenik (cəmi 43,1%) tipə aid mühakimələri seçmişlər. Bu xarakter növlərini seçən məhkumların çoxu şəxsiyyət patologiyası və üzvi qeyri-psixotik pozuntular nümayiş etdirirdi (ümumilikdə 53,6%).

Məhkumlarda psixopatologiyanın təbiəti ilə ictimai təhlükəli əməlin növü və təhlükəlilik dərəcəsi arasındakı əlaqəni təhlili zamanı isə müəyyən edilmişdir ki, onların törətdikləri ictimai təhlükəli əməllər arasında oğurluq (23,9 faiz) üstünlük təşkil edir, ikinci yerdə adam öldürmə (17,2 faiz), sağlamlığa ağır zərər vurma (13,8 faiz), əmlak əleyhinə cinayətlər (12,1 faiz), daha sonra isə quldurluq (10,0 faiz) və soyğunçuluq (9,2%) gəlir.

Məhkumlar arasında müəyyən edilmiş psixi və davranış pozuntuları arasında yetkin şəxsiyyət pozuntuları üstünlük təşkil edir (31%), qeyri-psixotik səviyyədə olan üzvi psixi pozuntular (22,6%), narkomaniya (14,6%) və alkoqoldan asılılıq sindromu (10,9%). Bu şəxslərin içtimani təhlükəli əməllərinə gəldikdə isə ən böyük payı oğurluq və qətl (hər biri 5,9%) kimi cinayətlər, daha sonra isə şəxsiyyət pozuntusu olan şəxslər tərəfindən törədilən sağlamlığa ağır zərər vurma (5,0%) tutur. Sonra - üzvi qeyri-psixotik pozuntusu olan məhkumlar tərəfindən törədilən quldurluq, oğurluq və qətllər (hər biri 4,6%) və alkoqoldan asılılıq sindromu olan şəxslər tərəfindən törədilən oğurluqlar (4,2%) gəlir. Ən yüksək residiv şəxsiyyət pozuntusu və qeyri-psixotik səviyyədə üzvi pozuntuları olan şəxslərdə

(53,6%) aşkar edilmişidr. Alkoqoldan asılılıq sindromu və əqli geriliyi olan məhkumların təkrar məhkumluğuna isə daha az təsadüf (17,3%) edilmişdir [3, səh.69].

Psixi patologiyası olan məhkumlar fərqli xüsusiyyətlərə malikdirlər. Əksər hallarda onların dezadaptasiyası və dekompensasiyası təkcə psixi pozuntuların şiddətinə və dərinliyinə əsaslanmır, həm də əlavə zərər və risk faktorlarından, o cümlədən alkoqolizmdən asılıdır. CÇM-də qalma müddətində müəyyən edilmiş psixi pozunutuların hər biri üçün dekompensasiya sosial mühit, bəzən də həbsxana ənənələrinin tələbləri ilə şərtlənən müəyyən xarakterik xüsusiyyətlərə malikdir.

Patoloji əlamətlərin intensivləşməsi və ağırlaşması ilə dinamik dəyişikliklər, uzunmüddətli psixotravmatik vəziyyət şəraitində qeyri-sabit uyğunlaşmanın pozulması daha çox psixopatik şəxslərdə, üzvi pozuntuları olan insanlarda, habelə müxtəlif növ asılılıqlardan əziyyət çəkənlərdə müşahidə olunur.

Ciddi məhdudiyyətlər və gərgin münasibətlərlə səciyyələnən şəraitdə qalma kompensasiya mexanizmlərinin pozulmasına və qeyri-sabit adaptiv qabiliyyətlərin pozulmasına səbəb olur. Buna psixikanın astenizasiyası ilə müxtəlif mənşəli premorbid somatik yük də kömək edir.

Yetkin şəxsiyyət pozuntusu olan məhkumlar arasında dekompensasiya müəyyən bir şəxs üçün nisbətən məqbul olan əvvəlki psixoloji fəaliyyət şəraitinin itirilməsi təhlükəsi ilə müşayiət olunan həll olunmayan münaqişə vəziyyətində baş verir. Davranış saxlanma rejiminin nümayişkaranə şəkildə pozulması (geyim qaydalarının pozulması, yeməkdən imtina, dəstənin olduğu yerdən icazəsiz hərəkət) konfliktin kəskin artması ilə müəyyən edilir. Cəzaçəkmə müəssisəsinin rəhbərliyi ilə tez-tez münaqişələr, həyəcanlılıq, mikrososial mühitə ehtiyatlı münasibət,rejim qaydalarının tez-tez pozulması səbəbindən bu məhkumlar dəfələrlə intizam tənbehinə məruz qalırlar: töhmət, qohumları ilə görüşlərdən məhrum olma, intizam təcridxanasına yerləşdirməyə, daha sərt həbs rejimi olan müəssisəyə köçürmə və s.

Üzvi qeyri-psixotik pozuntusu olan məhkumlarda (54 nəfər) simptomların kəskinləşməsi emosional həyəcanlılığın artması, qəddar affektiv qəzəb və narazılıq reaksiyaları, istədiyini əldə etməyə yönəlimiş isterik reaksiyalarla xarakterizə olunur.

Alkoqoldan asılılıq sindromlu məhkumlar (26 nəfər) ilk növbədə travmatik vəziyyətin təsiri altında psixopatik reaksiyalar, təcrid və xüsusi müalicəyə məcbur edilmə ilə xarakterizə olunur. Üstəlik, reaksiyanın xarakteri və dərinliyi çox vaxt travmatik anın gücünə və xarakterinə uyğun gəlmir. Onlar öz ətraflarında konflikt situasiyası yaradırlar ki, bu da psixoloji dezadaptasiyanın kəskinləşməsinə, yeni konfliktlərin və rejim qaydalarının pozulmasına səbəb olur. Bundan əlavə, xroniki alkoqolizmi olan xəstələr müəyyən şəxsiyyət pozğunluqları səbəbindən asanlıqla qeyri-rəsmi liderlərin təsiri altına düşürlər [4, səh.87].

Narkomaniyadan əziyyət çəkən məhkumlar (35 nəfər) müəssisə rəhbərliyinə qarşı çıxmaq şəklində həmrəyliyə meyl göstərirlər, nəyin bahasına olursa olsun narkotik və ya surroqat əldə etməyə çalışırlar və buna görə də qeyri-rəsmi liderlərin mənfi təsirinə asanlıqla düşürlər. Kəskinləşmənin klinik mənzərəsində işləməkdən imtina, münaqişə, intizamsızlıq, nümayişkaranə və şantaj davranışı ilə isterik reaksiyalarda özünü göstərən davranış pozuntuları üstünlük təşkil edir.

Anlaqlı hesab edilən psixi pozuntusu olan məhkumların fərqləndirici xüsusiyyət ondan ibarətdir ki, onlar mövcud qanunvericilik əsasında azadlıqdan məhrum etmə növündə məsuliyyətə cəlb olunurlar. Bu cəza islah tədbirləri ilə birləşdirilir. Bu cür cəza və islahedici təsir yeni cinayətlərin və ya digər antisosial hərəkətlərin törədilməsi ehtimalını istisna etmək üçün onların məcburi təcrid edilməsi və daimi nəzarəti ilə əlaqələndirilir.

İslah müəssisələrinin əsas məqsədi keçmiş cinayətkarı cəmiyyətə və ailəyə, iş və sosial həyata tam funksional şəkildə qaytarmaqdır.

Reabilitasiya tədbirlərini proqramlaşdırarkən nəzərə almaq lazımdır ki, ciddi rejimli cçm-də cəza çəkmə müddətləri kifayət qədər uzundur. Məhkumlara yalnız müalicə və sosial uyğunlaşma məqsədləri üçün zəruri olan məhdudiyyətlərə və təsirlərə yol verilir. Bu baxımdan, xarici aləmlə təmaslar dolayı yolla da olsa, artırılmalı və genişləndirilməlidir. Qohumlarla daha tez-tez görüşmək, yazışmalar aparmaq və s. şübhəsiz ki, məhkumların sosial adaptasiyasına öz töhfəsini verəcək.

Əldə edilmiş məlumatlar əsasında psixi pozuntusu olan məhkumlar üçün reabilitasiya proqramları hazırlanmışdır. Psixi pozuntusu olan məhkumların reabilitasiya taktikasında üç əsas mərhələ müəyyən edilmişdir:

Birinci mərhələ tibbidir. Bu mərhələnin göstərişləri: ağır dekompensasiya və psixi xəstəliklərin kəskinləşməsidir. Bu halların qarşını almaq üçün aktiv dərman müalicəsi və işdən müvəqqəti azad edilmə və ya daha asan iş növlərinə keçid tələb olunur.

Birinci mərhələnin vəzifəsi psixik pozuntuların və sosial-əmək dezadaptasiyasının sonrakı dekompensasiyasının qarşısını almaqdır. Xəstəxanaya yerləşdirmə zamanı aktiv dərman müalicəsi klinik göstəricilərə görə məşğulluq terapiyası, özünə qulluq və digər yüngül əmək növləri ilə birləşdirilir. Bütün hallarda məhkumları mümkün qədər tez bir dəstədə işə qayıtmağa təşviq etmək lazımdır.

İkinci mərhələ: - sosial - əmək. Bu mərhələnin göstərişlər: dekompensasiya və kəskinləşmə əlamətləri olmayan, lakin sosial və əmək dezadaptasiyasının təzahürləri olaj psixi pozuntulardır. Bu mərhələdə məhkumlar fəal, şüurlu əməyə cəlb edilməli, zəruri hallarda yeni peşələrə yiyələnməlidirlər. Klinik psixoloaqların, psixiatrın dəstə rəhbərləri, pedaqoqlar, fəallar və müəllimlərlə birgə həyata keçirdiyi psixoterapevtik müdaxilələr, əsasən, azadlığa çıxandan sonra aktiv vətəndaş münasibətinin formalaşmasına yönəlməlidir.

Psixi pozuntusu olan bir çox məhkumun asanlıqla təsir altına düşməsi ehtimalını nəzərə alaraq, onları azadlığa çıxdıqdan sonra işə və mülki həyat tərzinə mənfi münasibət göstərən məhkumların təsirindən qorumaq son dərəcə zəruridir.

Üçüncü mərhələ: sosial mərhələdir. Bu mərhələnin göstərişlər: kəskinləşmə və dekompensasiya dövründən kənar psixi və davranış pozuntularıdır. Birbaşa dəstədə həyata keçirilən bu mərhələnin vəzifəsi əsasən psixi pozuntusu olan məhkumlar üçün müsbət sosial statusun formalaşdırılmasından, onların sosial əlaqələrinin və cçm-dən kənarda qohumları ilə əlaqələrin genişləndirilməsindən ibarətdir. Bu iş dəstənin rəisi, təhsil işçiləri, fəallar, müəllimlərlə birgə həyata keçirilir. Klinik psixoloqun rolu: psixi pozuntusu olan məhkumların şəxsi xüsusiyyətlərinə əsaslanaraq müəssisəsə işçilərinə müvafiq tədbirlərin görülməsini tövsiyə etməkdir. İnteqrasiya edilmiş yanaşma və birgə səylər psixi pozuntusu olan məhkumlar arasında iş stereotipini və müsbət dünyagörüşünü ən effektiv şəkildə inkişaf etdirməyə imkan verər.

## ƏDƏBİYYAT


1. Айварова Н.Г. Психологическое здоровье как условие успешной социализации личности. //Вестник Югорского Государственного Университета. 2018, Вып 1., стр. 45-48
2. Димитров А.В., Сафронов В.П. Основы пенитенциарной психологии. учебно-методическое пособие, Москва, 2003
3. Совичко О.И., Токарева Г.М. К вопросу о психических расстройствах осужденных. // Прикладная юридическая психология. 2019, № 2, стр. 66-71
4. Шувалов А.В. Психологическое здоровье человека. //Вестник ПСТГУ IV: Педагогика. Психология. 2019, Вып 4., стр 87-101.

# CİDDİ REJİMİ ÇƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ CƏZA ÇƏKƏN MƏHKUMLARIN PSİXİ SAĞLAMLIĞI PORBLEMİ

*Aydan Səməndərova, Sevinc Allahyarova*

## XÜLASƏ

Məqalədə məhkumların psixi sağlamlıq vəziyyətinin qiymətləndirilməsi məsələləri nəzərdən keçirilir. Ciddi rejimli müəssisələrdə cəza çəkən məhkumlar arasında müxtəlif psixi pozuntuların yayılmasının yüksək səviyyədə olduğu qeyd edilir. Müəyyən hallarda məhkumlar üçün intizam-tənbeh tədbirləri ilə müqayisədə daha səmərəli olan psixoloji və psixiatrik yardımın inkişaf etdirilməsinin zəruriliyi vurğulanır. Məhkumların psixi vəziyyətinin dekompensasiyasının və sosial dezapsiyasının daha da ağırlaşmasının qarşısının alınması üçün islah müəssisələrində müalicə, reabilitasiya və sosial proqramların hazırlanmasının zəruriliyi qeyd olunur.

# ПРОБЛЕМА ПСИХИЧЕСКОГО ЗДОРОВЬЯ ОСУЖДЕННЫХ, НАХОДЯЩИХСЯ В УСЛОВИЯХ КОЛОНИИ СТРОГОГО РЕЖИМА

*Айдан Самандарова, Севиндж Аллахярова*

## АННОТАЦИЯ

В статье дается оценка состояния психического здоровья осужденных. Отмечается высокий уровень распространенности различных психических расстройств среди осужденных, отбывающих наказание в исправительных колониях строгого режима. Подчеркивается необходимость развития психолого-психиатрической помощи, которая в определенных ситуациях является более эффективной для осужденных по сравнению с дисциплинарными воздействиями. Указывается на необходимость разработки лечебно-реабилитационных и социальных программ для осужденых, находящихся в коррекционных учреждениях, с целью предупреждения декомпенсации их психического состояния и усугубления дальнейшей социальной дезадаптации.

# THE PROBLEM OF MENTAL HEALTH OF CONVICTS IN MAXIMUM-SECURİTY COLONIES

*Aydan Samandarova, Sevinj Allahyarova*

## SUMMARY

The article provides an assessment of the state of mental health of convicts. It notes the high prevalence of various mental disorders among convicts serving sentences in maximum-security penal colonies. It emphasizes the need to develop psychological and psychiatric care, which in certain situations is more effective for convicts than disciplinary measures. It points out the need to develop treatment, rehabilitation and social programs for convicts in correctional institutions in order to prevent decompensation of their mental state and aggravation of further social maladjustment.

# BULLİNQ PROBLEMİNİN ELMİ MƏNBƏLƏRDƏ QOYULUŞU

***Əliyeva Nigar Sehmar qızı***
***ADPU-nun II kurs magistrantı***
*alienigar@gmail.com*
*0009-0009-3210-545X*

***Açar sözlər:*** bullinq, elmi mənbə, təhsil sistemi, sosial-mədəni faktorlar, zorakılıq.
***Ключевые слова:*** буллинг, научный источник, система образования, социокультурные факторы, насилие.
***Keywords:*** bullying, scientific source, educational system, socio-cultural factors, violence.

Bullinq müasir cəmiyyətdə və təhsil sistemində ciddi sosial və psixoloji problemlərdən birinə çevrilmişdir. Bullinqin cəmiyyətdə geniş yayılması və onun yaratdığı ciddi problemlər mövzunun aktuallığını bir daha göstərir. Məktəb və digər təhsil müəssisələrində baş verən bullinq hadisələri, uşaqlar və yeniyetmələr arasında ciddi emosional və psixoloji problemlərə səbəb olur. Bu hadisələrin artması və bullinq qurbanlarının yaşadığı çətinliklər, pedaqoji və psixoloji tədqiqatların əsas diqqət mərkəzindədir. Tədqiqatlar göstərir ki, bullinqin təsiri yalnız qurbanlara deyil, həm də bullinq edən şəxslərə mənfi təsir göstərir, onların gələcək sosial həyatına və davranışlarına zərər verir. Bu səbəbdən, bullinq probleminin elmi əsaslarla öyrənilməsi və ona qarşı təsirli tədbirlərin hazırlanması təhsil və psixologiya sahəsində vacib məsələdir.

Bu tədqiqatın obyekti məktəb mühitində baş verən sosial və emosional zorakılıq hallarını – yəni bullinqi – təşkil edir.

Tədqiqatın predmeti bullinqin sosial-psixoloji aspektləridir. Bu aspektlərə bullinq edən və qurban olan şəxslərin davranışlarının təhlili, psixoloji səbəbləri, bullinqin müxtəlif formalarının təsiri və onların tədqiqi daxildir.

Tədqiqatın əsas məqsədi bullinq probleminin elmi müstəvidə qoyuluşunu təhlil etmək, bu fenomenin sosial, psixoloji və pedaqoji aspektlərini öyrənmək, həmçinin bullinqin təhsil mühitindəki təsirlərini araşdırmaqdır.

Tədqiqatda əsas metodoloji yanaşma kimi təhlil və müqayisəli metoddan istifadə olunmuşdur. Bullinqlə bağlı aparılmış elmi mənbələr, beynəlxalq tədqiqatlar və məktəblərdə tətbiq edilən proqramlar nəzərdən keçirilmiş, onların nəticələri təhlil olunmuşdur.

Bullinq termini ingilis dilindən götürülüb və zorakılıq, təhqir və təzyiq yolu ilə bir fərdin və ya qrupun digər fərdi və ya qrupu davamlı olaraq incitməsi, qorxutması və zərər vurmasını ifadə edir. Bullinq yalnız fiziki zorakılıqla məhdudlaşmır; o, psixoloji və emosional zorakılıq, təhqir, sosial təcrid, kiberzorakılıq kimi müxtəlif formalarda ortaya çıxa bilər. Bullinqin xüsusiyyətlərindən biri onun məqsədyönlü və təkrarlanan xarakter daşımasıdır. Yəni bullinq bir-iki dəfə baş verən insidentdən çox, müntəzəm olaraq təkrar olunan və qurbanın təzyiq altında qalmasını təmin edən bir davranış formasıdır.

Bullinqin əsas xüsusiyyətləri arasında aşağıdakılar qeyd edilə bilər:

1. Bullinq davamlı və təkrarlanan şəkildə baş verir. Fərdi hallar qəsdən təkrarlanaraq qurbanı uzun müddət narahat edir.

2. Bullinqin baş verdiyi situasiyalarda qüvvələr nisbəti qeyri-bərabərdir. Adətən, zorakılıq edən şəxs (və ya qrup) güclü və nüfuzlu, qurban isə zəif mövqedə olur.

3. Bullinq məqsədyönlü şəkildə həyata keçirilir və qurbanın sosial və ya emosional ziyan görməsi əsas məqsəddir [7, s.239].

Bullinq çox geniş bir məsələdir və müxtəlif formalarda baş verə bilər. Bu formaları başlıca olaraq aşağıdakı növlərə ayırmaq olar:

Fiziki bullinq-zorakılığın ən açıq və tanınan növüdür. Buraya qəsdən başqasına fiziki zərər vermə hərəkətləri daxildir.

Verbal bullinq sözlü zorakılıqdır və qurbanı təhqir etmə, alçaltma, lağ etmə və ya hədə-qorxu gəlmə kimi davranışlarla xarakterizə olunur. Verbal bullinqin təsirləri uzun müddət davam edir və bu, qurbanın psixoloji vəziyyətinə, özünə inamına və özünə hörmətinə mənfi təsir göstərir. Belə zorakılıq təcrübəsi qurbanın sosial təcridə məruz qalmasına, məktəbdən və sosial fəaliyyətlərdən uzaqlaşmasına səbəb ola bilər.

Psixoloji və emosional bullinq daha mürəkkəb və incə zorakılıq formalarından biridir. Bu növ bullinqdə qurbanın emosional sağlamlığına və psixoloji vəziyyətinə təzyiq göstərilir. Bu növ bullinq çox vaxt gizli və birbaşa olmayan yollarla həyata keçirilir və qurbanı emosional təzyiqlə təcrid edir. Psixoloji və emosional bullinq, qurbanın emosional güvənliyini sarsıdaraq sosial adaptasiya prosesini zədələyir. Bu növ zorakılıq nəticəsində qurbanın cəmiyyətdə özünü tanıması və sosial əlaqələri zəifləyə bilər.

Kiberbullinq texnologiyanın inkişafı ilə daha geniş yayılmış bir zorakılıq növüdür. Bu növ zorakılıq internet və rəqəmsal texnologiyalar vasitəsilə həyata keçirilir. Kiberbullinq əsasən sosial şəbəkələr, onlayn mesajlar, elektron poçt və digər rəqəmsal platformalar vasitəsilə baş verir. Kiberbullinq fiziki və verbal zorakılıqdan daha təhlükəli ola bilər, çünki təhqirlər və təhdidlər sürətlə yayılır və bu, qurbanın emosional vəziyyətinə ciddi təsir göstərə bilər. Kiberbullinq qurbanlarının çoxu, xüsusən də yeniyetmələr, uzun müddətli stress və psixoloji təzyiq altında olur.

Sosial bullinq qrup daxilində sosial statusun aşağı salınması və qurbanın ictimai əlaqələrdən məhrum edilməsi ilə əlaqədardır. Bu növ bullinq zamanı qurbanı sosial mühitdən təcrid etmək, onun haqqında mənfi fikirlər yaratmaq və sosial dairələrdə onun nüfuzunu azaltmaq məqsədi güdülür. Sosial bullinq qurbanın özünü cəmiyyətə məxsus hiss etməməsinə, tək qalmasına və sosial əlaqələrindən məhrum olmasına gətirib çıxarır.

Bullinqin müxtəlif növləri fərqli şəkildə təsir göstərsə də, ümumilikdə bütün növlər qurbanların emosional və sosial sağlamlığına zərər vurur. Hər bir bullinq növünün fəsadları ciddi sosial və psixoloji nəticələrə gətirib çıxara bilər. Bu səbəbdən, bullinq problemi ilə ciddi şəkildə mübarizə aparmaq və həm qurbanları, həm də zorakılığı törədən şəxsləri düzgün şəkildə idarə etmək vacibdir [9, s.190-191].

Bullinq probleminin ilk sistemli tədqiqi Norveçli alimlərdən Dan Olveus, Piter Heyn-man, Anatol Pikas və Erlinq Roland tərəfindən aparılmışdır. Xüsusilə, Dan Olveus bu sahədəki tədqiqatları ilə tanınır. O, 1970-ci illərin əvvəllərində uşaqlar arasında zorakılıq və bullinqin təsirini öyrənməyə başlamış və bu sahəni daha geniş şəkildə araşdıraraq onun cəmiyyətə təsirini dərinləşdirmişdir. D.Olveus bullinqin bir neçə mühüm xüsusiyyətini müəyyən etmiş və onun təkrarlanan zorakılıq növü olduğunu vurğulamışdır. O, həmçinin bullinqin sosial, emosional və psixoloji təsirlərini geniş tədqiq edərək bu problemin yalnız fərdi deyil, ümumi məktəb və cəmiyyət səviyyəsində həll edilməli olduğunu önə çəkmişdir [8, s.153].

Norveçli alim Erlinq Roland məktəbli bullinqi mövzusunda apardığı tədqiqatlarla tanınır və bu sahəyə yeni yanaşma gətirən nəzəriyyələr irəli sürmüşdür. Rolandın əsas diqqəti bullinqin təkcə "buller" (zorakılıq edən şəxs) və "qurban" arasında baş vermədiyini, daha geniş bir strukturun mövcud olduğunu vurğulamaqla bu fenomenə daha kompleks bir baxış gətirmişdir. E. Roland bullinqi bir sosial sistem olaraq görürdü və onun fikrincə, bu struktura bir neçə fərqli iştirakçı daxildir. Bullinq prosesində iştirak edənlər yalnız buller və qurban deyil, həm də digər müşahidəçilər və dolayısı ilə prosesi dəstəkləyən və ya ona qarşı çıxan şəxslərdir. O, məktəbli bullinqinin daha geniş bir ictimai vasitəsi olduğunu və bu prosesdə hər bir iştirakçının xüsusi rol oynadığını vurğulayırdı. Roland bu struktura daxil olan şəxsləri bir neçə əsas rolda təsnif etmişdir:

1. Bullinqi edənlər (Buller): Bunlar zorakılıq edən şəxslərdir. Bu kateqoriyaya aid şəxslər adətən öz güclərini və sosial mövqelərini başqalarını qorxutmaq və manipulyasiya etmək üçün istifadə edirlər. Roland bu şəxslərin psixoloji xüsusiyyətlərini və motivasiyalarını öyrənərək bullinqin dərin psixososial səbəblərini izah etməyə çalışırdı.

2. Qurbanlar: Bullinqin passiv iştirakçıları olan qurbanlar çox zaman sosial və fiziki cəhətdən güclü olmayan şəxslərdir. Onlar bullerlərin təzyiqlərinə məruz qalır və bu prosesdən ciddi psixoloji və sosial zərbə alırlar. Roland qurbanların xüsusiyyətlərini öyrənərək onların hansı şəraitlərdə bullerlər tərəfindən hədəfə alındığını analiz edirdi.

3. Müşahidəçilər (İzləyicilər): E. Roland bullinqin təkcə iki nəfərin (buller və qurban) arasında baş vermədiyini, bu prosesin bir çoxlarının gözü qarşısında cərəyan etdiyini vurğulayırdı. Müşahidəçilər bullinq prosesini görən, lakin ya müdaxilə etməyən, ya da passiv şəkildə dəstək verən şəxslərdir. Roland müşahidəçilərin bullinqdəki passiv mövqelərinin bullinqin davam etməsində mühüm rol oynadığını qeyd edirdi. Bu şəxslər bullerə qarşı çıxış etmədikcə və ya onun hərəkətlərini dəstəklədikcə, bullinq daha da güclənir.

4. Tərəfdarlar: Bunlar bullinqi edənlərin hərəkətlərini dəstəkləyən şəxslərdir. Onlar bullerə birbaşa kömək etməsələr də, onun davranışını tərifləyərək və ya ona sosial status verərək bu zorakılığı davam etdirməyə şərait yaradırlar.

E. Rolandın vurğuladığı başqa bir mühüm məqam bullinqdə iştirak edən hər bir şəxsin şəxsi xüsusiyyətlərinin tədqiq edilməsinin əhəmiyyətidir. Onun fikrincə, buller və qurbanın fərdi psixoloji xüsusiyyətləri, eyni zamanda müşahidəçilərin sosial davranışları, bullinqin necə formalaşdığı və davam etdiyi haqqında geniş məlumat verir. Məsələn, bullerlər adətən yüksək aqressivlik, empatiya çatışmazlığı və özünü təsdiqləmə ehtiyacı kimi xüsusiyyətlərə malikdir. Qurbanlar isə daha çox daxili narahatlıq, aşağı özünə hörmət və sosial dəstək çatışmazlığı ilə fərqlənirlər. Müşahidəçilərin isə sosial təsirə həssaslığı və baş verənlərə müdaxilə etməmələri bullinqin davam etməsinə yol açır [2, s.138-139].

ABŞ Təhsil Departamentinin hesabatına görə, 12 yaşdan 18 yaşa qədər olan hər dörd uşaqdan biri son məktəb ilində bullinqə məruz qalıb. Ukraynada UNICEF-in həyata keçirdiyi araşdırmalara əsasən, məktəblilərin 89%-i bullinqlə qarşılaşır. Qərb mənbələrinin məlumatına görə, 14 yaşdan kiçik şagirdlərin 50%-i məktəbdə təqiblərdən əziyyət çəkir [1].

D. Leyn və Tatum bullinq qurbanının əsas xüsusiyyətlərindən birinin özünü müdafiə etmək qabiliyyətinin olmaması olduğunu vurğulayırdılar. Yəni, qurbanın ya fiziki, ya da emosional cəhətdən daha zəif olması onun zorakılığa məruz qalma riskini artırır. Bu cür müdafiəsizlik, zorakılığı edənlərin təkrarlanan təzyiq göstərməsinə imkan verir. Qurban, ya bullerin gücünü qəbul etməyə məcbur olur, ya da sosial təzyiqlər qarşısında zəif qalır. [6, s.240].

Berdışevin fikrincə, bullinq qurbanı özünü müdafiə etmək niyyətində və ya gücündə olmadığı bir vəziyyətə salınır və təcavüzkarlar qurban üzərində güclərini nümayiş etdirmək və davamlı olaraq onun zəifliyindən faydalanmaq məqsədini güdürlər. [3, s.3].

İ. S. Konun yanaşmasına görə, bullinq yalnız bir neçə şəxsin zorakılıq aktları ilə bağlı deyil, bu, bir sistematik prosesdir ki, burada zorakılıq edən şəxs qurbanın psixoloji və emosional vəziyyətini manipulyasiya edir. [4, s.15-18].

Krivtsova bullinqin mərkəzi məsələlərindən birinin aqressor və qurban arasındakı qüvvə fərqi olduğunu vurğulayır. Bu qeyri-bərabərlik, zorakılığın baş verməsinə şərait yaradır. Aqressor, qurbanın zəifliklərindən istifadə edərək onu idarə etməyə çalışır. Bu güc balanssızlığı, qurbanın qorxu hissini artırır və onu daha da müdafiəsiz vəziyyətə salır. Nəticədə, qurbanın sosial çevrəsində özünü izolyasiya edilmiş hiss etməsi və müdafiə etmək imkanlarının azalması baş verir” [5, s.115].

Müxtəlif mütəxəssislərin araşdırmaları, bullinqin mürəkkəb bir struktur olduğunu, onun sosial dinamikalar, güc münasibətləri və mühitlə sıx bağlı olduğunu ortaya qoyur. Bu

kontekstdə bullinqin qarşısının alınması və onunla mübarizə strategiyalarının inkişaf etdirilməsi mütləqdir.

## ƏDƏBİYYAT


1. Mahmudova L. "Məktəblərdə bullinqin profilaktikasına ətraflı yanaşma", 15 avqust, 2019.
2. Şəfiyeva E., Allahyarova S., Samandarova A. "Məktəbli bullinqi iştirakçılarının psixoloji xüsusiyyətləri", Naxçıvan Müəllimlər İnstitutu, Elmi əsərlər, 2022, № 1, s. 137-144
3. Бердышев И. С. "Медико-психологические последствия жестокого обращения в детской среде. Вопросы диагностики и профилактики", Санкт-Петербург: «Регио-нальный центр «Семья», 2005
4. Кон И.С. "Что такое буллинг и как с ним бороться?", Москва: «Семья и школа». - 2006,№ 11,-с.15-18.
5. Кривцова С. В. "Буллинг в школе УБ сплоченность неравнодушных", Москва: Федеральный Институт развития образования, центр развития психологической службы, 2011, 119с
6. Под ред. Д.А.Лейна, Э.Миллера."Школьная травля (буллинг). Детская и под-ростковая психотерапия", Санкт-Петербург: Питер, 2001, с 240–274
7. Beran, T. "A construct validity study of bullying." Alberta Journal of Educational Re-search, 2006, 52(4), 238–247.
8. Olweus, D. "Bullying at school: What we know and what we can do." Blackwell Publishing. 1993, 217 p.
9. Smith P.K, Ananiadou K. "The Nature of Bullying and the Effectiveness of School-Based Interventions", New Jersey, Journal of Applied Psychoanalytic Studies, 2003. Vol. 5, № 2, – p. 189-209


# BULLİNQ PROBLEMİNİN ELMİ MƏNBƏLƏRDƏ QOYULUŞU

***Əliyeva Nigar***

## XÜLASƏ


Bu məqalədə bullinq probleminin elmi mənbələrdə qoyuluşu araşdırılıb. Bullinq müasir cəmiyyətdə geniş yayılmış və ciddi bir sosial məsələ olaraq, xüsusilə məktəb mühitində uşaqların psixoloji və emosional sağlamlığına mənfi təsir göstərir. Tədqiqatlar bullinqin güc dinamikaları, sosial münasibətlər və mühitlə sıx bağlı olduğunu nümayiş etdirir.

Müxtəlif mütəxəssislərin tərifləri, bullinqin strukturu və iştirakçıları arasında qeyri-bərabər güc münasibətlərinin olduğunu göstərir. ABŞ, Ukrayna və digər ölkələrdə aparılan tədqiqatlar bullinqin geniş yayılma səviyyəsini ortaya qoyur. Nəticələr bullinqin qurbanları üzərindəki təsirləri və bunun uşaqların sosial münasibətləri, akademik performansı və gələcək psixoloji sağlamlığına olan mənfi təsirlərini vurğulayır.

# ПОСТАНОВКА ПРОБЛЕМЫ БУЛЛИНГА В НАУЧНЫХ ИСТОЧНИКАХ

***Алиева Нигяр***

## АННОТАЦИЯ

В данной статье рассматривается проблема буллинга в научных источниках. Буллинг, как широко распространенная и серьезная социальная проблема в современном обществе, оказывает негативное влияние на психологическое и эмоциональное здоровье детей, особенно в школьной среде. Исследования показывают, что издевательства тесно связаны с расстановкой сил, социальными отношениями и окружающей средой.

Определения разных экспертов показывают, что между структурой и участниками издевательств существуют неравные властные отношения. Исследования, проведенные в США, Украине и других странах, свидетельствуют о широком распространении издевательств. Результаты подчеркивают влияние издевательств на жертв и его негативное влияние на социальные отношения детей, успеваемость и психологическое здоровье в будущем. В конце статьи выдвигаются различные предложения по предотвращению и борьбе с буллингом.

# PUTTING THE PROBLEM OF BULLYING IN SCIENTIFIC SOURCES

***Aliyeva Nigar***

## SUMMARY

This article examines the problem of bullying in scientific sources. Bullying, as a widespread and serious social issue in modern society, has a negative impact on the psychological and emotional health of children, especially in the school environment. Research shows that bullying is closely related to power dynamics, social relationships, and environment.

The definitions of different experts show that there are unequal power relations between the structure and participants of bullying. Studies conducted in the USA, Ukraine and other countries reveal the widespread level of bullying. The results highlight the effects of bullying on victims and its negative effects on children's social relationships, academic performance and future psychological health.

# СПОСОБЫ ПРОБАЦИОННОЙ РЕАБИЛИТАЦИИ ПРИ ПОМОЩИ ПСИХОТЕРАПЕВТИЧЕСКИХ ПОДХОДОВ

***Гасанова Айсель Фуад гызы***
***Магистрант второго курса БГУ***
*lawhesenova@gmail.com*

***Açar sözlər:*** Probasiya, psixoterapiya, koqnitiv-davranış terapiyası, reabilitasiya, təkrar cinayətkarlıq, sosial adaptasiya, qrup terapiyası.
***Ключевые слова:*** Пробация, психотерапия, когнитивно-поведенческая терапия, реабилитация, рецидивизм, социальная адаптация, групповая терапия.
***Keywords:*** Probation, psychotherapy, cognitive-behavioral therapy, rehabilitation, recidivism, social adaptation, group therapy.

Пробация является важным элементом системы наказания, который позволяет правонарушителям находиться под надзором вне мест лишения свободы. Одним из ключевых аспектов успешной реабилитации лиц под пробационным надзором является их психологическая и социальная адаптация. Правонарушители часто сталкиваются с различными формами психических расстройств, которые могут препятствовать их успешной реинтеграции в общество. В связи с этим, внедрение психотерапевтических методов становится важной составляющей процесса пробационной реабилитации.

В последние годы наблюдается рост интереса к применению психотерапевтических подходов в системе пробации. Психотерапия, в частности когнитивно-поведенческая терапия (КПТ), показала свою эффективность в изменении криминальных установок и снижении уровня рецидивизма. В данной статье рассматриваются различные формы психотерапии, применяемые в пробации, а также анализируются вызовы и возможности их использования [4, стр.247].

Применение психотерапевтических подходов в пробации имеет глубокие исторические корни. Ранние исследования Beck (1976) продемонстрировали, что КПТ может быть эффективным инструментом в борьбе с рецидивизмом [2, стр.79]. В дальнейшем исследования Maruna (2001) и Ward & Gannon (2006) подтвердили положительное влияние психотерапии на изменение поведения правонарушителей и их успешную адаптацию в обществе [6, стр.85].

Международные исследования показывают, что программы, ориентированные на психотерапевтическую поддержку правонарушителей, имеют больше шансов на успех, чем те, которые ограничиваются только контролем. В странах, таких как Великобритания, США и Канада, психотерапевтические подходы стали основой реабилитационных программ для лиц, находящихся под пробационным надзором.

Изначально психотерапевтические методы в пробации начали применять как способ снижения уровня агрессии и предотвращения рецидивизма. Одним из первых видов терапии, применявшейся в пробации, была когнитивно-поведенческая терапия (КПТ). В середине XX века это направление получило широкое распространение благодаря его способности изменять антисоциальные установки и криминальные убеждения правонарушителей. В дальнейшем терапевтические подходы стали дополняться групповыми программами, мотивационным консультированием и терапией управления гневом, которые также показали свою эффективность.

Психотерапия играет важную роль в реабилитации правонарушителей, помогая им не только справляться с психологическими проблемами, но и развивать навыки, необходимые для успешной адаптации в обществе. Исследования показывают, что

правонарушители, прошедшие психотерапевтические программы, демонстрируют более низкий уровень рецидивизма и лучше справляются с вызовами социальной интеграции. КПТ помогает изменить негативные мыслительные паттерны, управлять эмоциями и разрабатывать стратегии поведения, которые предотвращают возврат к преступной деятельности.

Индивидуальные формы психотерапии, такие как КПТ, позволяют правонарушителям глубже осознать свои проблемы и разработать персонализированные стратегии их решения. Групповые формы терапии, включая терапию управления гневом и терапию зависимости, позволяют правонарушителям развивать навыки межличностного взаимодействия и поддерживают чувство принадлежности к группе, что способствует снижению уровня изоляции и улучшению психоэмоционального состояния [3, стр.397].

Правонарушители, находящиеся под надзором пробации, часто сталкиваются с рядом специфических проблем, таких как агрессия, зависимость, проблемы с эмоциональной регуляцией. Применение психотерапевтических подходов позволяет им справляться с этими вызовами. Например, когнитивно-поведенческая терапия помогает правонарушителям осознать и изменить свои деструктивные паттерны мышления и поведения, что ведёт к снижению риска рецидива.

Несмотря на доказанную эффективность психотерапевтических методов, их внедрение в пробационную систему сталкивается с рядом проблем. Ограниченность ресурсов, недостаток квалифицированных специалистов и предвзятое отношение к правонарушителям создают барьеры на пути широкого применения данных методов. Однако успешные примеры внедрения психотерапии в пробационные программы в таких странах, как США и Великобритания, демонстрируют возможность преодоления этих вызовов [5, стр.48].

Международный опыт показывает, что программы реабилитации с использованием психотерапевтических методов значительно снижают уровень рецидивизма. Например, в Великобритании были внедрены программы управления гневом и терапия зависимости, которые показали высокую эффективность в снижении числа повторных преступлений. В США программы, основанные на когнитивно-поведенческой терапии, также снижают риск рецидивизма и способствуют социальной реабилитации правонарушителей.

В заключение можно отметить, что психотерапевтические методы играют ключевую роль в реабилитации правонарушителей, находящихся под пробационным надзором. Когнитивно-поведенческая терапия, мотивационное консультирование и групповая терапия позволяют не только снизить уровень рецидивизма, но и способствуют успешной интеграции правонарушителей в общество. Однако для эффективного внедрения этих методов необходимо преодоление ряда вызовов, связанных с недостатком ресурсов и предвзятым отношением к правонарушителям [6, стр.83].

Психотерапия играет центральную роль в процессе реабилитации правонарушителей, помогая справляться с психологическими проблемами, препятствующими социальной интеграции.

Когнитивно-поведенческая терапия (КПТ) является одним из наиболее эффективных методов, который помогает изменить антисоциальные установки и снижает риск рецидивизма среди лиц, находящихся под пробационным надзором.

Групповые и индивидуальные формы психотерапии в пробации дополняют друг друга, предоставляя правонарушителям поддержку как на личном уровне, так и в коллективной среде.

Преодоление специфических проблем, таких как агрессия, зависимость и эмоциональная нестабильность, возможно благодаря адаптации психотерапевтических методов под конкретные нужды правонарушителей.

Международный опыт показывает, что интеграция психотерапевтических программ в пробационные системы разных стран (например, США и Великобритании) приводит к существенному снижению уровня рецидивизма [3, стр.391].

Проблемы внедрения психотерапии в пробационные программы включают недостаток ресурсов и кадров, что требует разработки более доступных и эффективных моделей реабилитации.

Перспективы дальнейших исследований заключаются в изучении новых психотерапевтических методов, их адаптации к специфическим условиям пробационной системы, а также анализе их долгосрочной эффективности.

## ЛИТЕРАТУРЫ

1. Andrews, D. A., & Bonta, J. (2010). The Psychology of Criminal Conduct. Routledge.p.45-67
2. Beck, A. T. (1976). Cognitive Therapy and the Emotional Disorders. Penguin.p.78-89
3. Burnett, R., & Maruna, S. (2004). So 'Prison Works', Does It? The Criminal Careers of 130 Men Released from Prison under Home Secretary, Michael Howard. Howard Journal of Criminal Justice, p. 390-404.
4. Maruna, S. (2001). Making Good: How Ex-Convicts Reform and Rebuild Their Lives. American Psychological Association.p.234-254
5. McNeill, F., & Weaver, B. (2010). Changing Lives? Desistance Research and Offender Management. SCCJR.p.46-56
6. Ward, T., & Gannon, T. A. (2006). Rehabilitation, etiology, and self-regulation: The Good Lives Model of rehabilitation for sex offenders. Aggression and Violent Behavior, p. 77-94.

## СПОСОБЫ ПРОБАЦИОННОЙ РЕАБИЛИТАЦИИ ПРИ ПОМОЩИ ПСИХОТЕРАПЕВТИЧЕСКИХ ПОДХОДОВ

***Айсель Гасанова***

## АННОТАЦИЯ

В статье рассматриваются психотерапевтические подходы, применяемые в процессе пробационной реабилитации правонарушителей. Особое внимание уделяется когнитивно-поведенческой терапии, групповым и индивидуальным методам психотерапии, а также проблемам внедрения данных методов в пробационную систему. Представлены примеры международного опыта использования психотерапевтических практик и их влияние на снижение уровня рецидивизма и успешную социальную адаптацию правонарушителей.

# PSİXOTERAPEVTİK YANAŞMALAR VASİTƏSİLƏ PROBASİYA REABİLİTASİYASI ÜSULLARI

***Aysel Həsənova***

## XÜLASƏ

Bu məqalədə cinayətkarların reabilitasiyası prosesində istifadə olunan psixoterapevtik yanaşmalar nəzərdən keçirilir. Xüsusi diqqət kognitiv-davranış terapiyasına, fərdi və qrup psixoterapiyası üsullarına və bu yanaşmaların probasiya sistemində tətbiqi ilə bağlı çətinliklərə yönəldilir. Beynəlxalq təcrübələrin psixoterapevtik metodlardan istifadə olunmasının təkrar cinayətkarlıq səviyyəsinin azalmasına və məhkumların uğurlu sosial adaptasiyasına təsiri müzakirə olunur

# METHODS OF PROBATIONARY REHABILITATION THROUGH PSYCHO-THERAPEUTIC APPROACHES

***Aysel Hasanova***

## SUMMARY

This article explores psychotherapeutic approaches used in the probationary rehabilitation process for offenders. Special attention is given to cognitive-behavioral therapy, group and individual psychotherapy methods, as well as the challenges of implementing these approaches in the probation system. Examples of international experiences in applying psychotherapeutic practices are presented, along with their impact on reducing recidivism rates and promoting the successful social adaptation of offenders.

# YENİYETMƏLƏRİN İNKİŞAFINDA ADƏT-ƏNƏNƏLƏRİN ROLU VƏ TƏDRİS PROSESİNDƏ ƏHƏMİYYƏTİ

***Yusifli Aytac Bakir qızı***
***BDU-nun II kurs magistrantı***
*aytacyusifli09@icloud.com*

***Açar sözlər:*** yeniyetmələr, adət-ənənələr, mədəni irs, sosial dəyərlər, tədris prosesi, kimlik formalaşması, emosional inkişaf, mədəni identiklik, ailə və cəmiyyət, folklor.
***Ключевые слова:*** подростки, обычаи и традиции, культурное наследие, социальные ценности, учебный процесс, формирование идентичности, эмоциональное развитие, культурная идентичность, семья и общество, фольклор
***Keywords:*** adolescents, customs and traditions, cultural heritage, social values, educational process, identity formation, emotional development, cultural identity, family and society, folklore.

Adət-ənənələr, bir toplumun mədəniyyətini, dəyərlərini və sosial normlarını formalaşdıran, nəsildən-nəsilə ötürülən davranış qaydalarıdır. Onlar, insanların bir araya gələrək qeyd etdiyi bayramlar, mərasimlər, ritual və gündəlik həyatın ayrılmaz hissəsidir. Adət-ənənələr, cəmiyyətin identifikasiyasını gücləndirir, mədəni irsi qoruyur və insanlar arasında birliyi təmin edir. Bu yazıda, yeniyetmələrin inkişafında adət-ənənələrin rolu və onların tədris prosesində necə tətbiq edildiyi ətrafında geniş müzakirə aparılacaq.

Adət-Ənənələrin Mədəni İrs Olaraq Əhəmiyyəti:

Adət-ənənələr, milli mədəniyyətin əsas sütunlarından biridir. Onlar, bir toplumun tarixi, dili, ədəbiyyatı, musiqisi və sənəti ilə sıx bağlıdır. Yeniyetmələr üçün adət-ənənələrin öyrənilməsi, öz mədəni irslərini dərk etmək, cəmiyyətin tarixi kontekstini başa düşmək və milli kimliklərini gücləndirmək baxımından əhəmiyyətlidir.

Mədəni İrsin Qorunması:

Yeniyetmələr, bayramlar, mərasimlər və digər sosial fəaliyyətlər vasitəsilə mədəni irsi öyrənir və yaşadırlar. Məsələn, Novruz bayramı zamanı keçirilən ritual və tədbirlər, gənclərə milli dəyərləri anlamaq və tətbiq etmək imkanı yaradır. Bu cür ənənələr, onların mədəni kimliyini gücləndirir və cəmiyyətin tarixini, mədəniyyətini tanımağa kömək edir.

Sosial Dəyərlərin Öyrənilməsi:

Adət-ənənələr, cəmiyyətin sosial dəyərlərini yeniyetmələrə ötürmək üçün vacib bir vasitədir. Ailə, dostluq, qarşılıqlı hörmət və sevgi kimi dəyərlər, adət-ənənələr vasitəsilə gücləndirilir. Yeniyetmələr, ailəvi bayramlarda, toylarda və digər tədbirlərdə iştirak edərək, bu dəyərləri təcrübə edirlər.

Ailə və İctimai Münasibətlər:

Məsələn, toy mərasimləri gənclərə cəmiyyətin sosial quruluşunu, ailə dəyərlərini və dostluğun əhəmiyyətini öyrədir. Bu cür mərasimlər, gəncləri bir araya gətirərək, sosial bacarıqlarını inkişaf etdirir və cəmiyyətə inteqrasiya etmələrini asanlaşdırır.

Sosial İnkişaf:

Eyni zamanda, adət-ənənələr, yeniyetmələrin sosial mühitdə öz yerini tapmalarına və insanlarla münasibət qurma bacarıqlarını artırmalarına kömək edir. Bu, onların sosial şəbəkələrini genişləndirir və fərqli perspektivləri anlamaq imkanı verir.

Emosional İnkişaf:

Adət-ənənələr, yeniyetmələrin emosional inkişafına da mühüm təsir göstərir. Bayramlar və mərasimlər, gənclərə sevinc, birlik, paylaşma və həmrəylik hisslərini yaşamağa imkan

tanıyır. Bu cür emosional təcrübələr, onların özünü tanıma və şəxsiyyət formalaşma prosesində əhəmiyyətli rol oynayır.

Emosional Bağlar:

Mərasimlərdəki rituallar, gənclərin duyğusal vəziyyətlərini ifadə etməyə və stressi azaltmağa kömək edir. Məsələn, bayram süfrələrindəki birlik hissi, onların aralarında bağları gücləndirir. Bu, onların sağlam emosional inkişafını dəstəkləyir.

Həmrəylik və Duyğusal Dəstək:

Bayramlarda bir araya gəlmək, gənclərə həmrəylik hissini aşılayır. Bu, onların sosial şəbəkələrini genişləndirir və dostluq bağlarını möhkəmləndirir.

Tədris Prosesində Adət-Ənənələrin Tətbiqi

Adət-ənənələrin tədris mühitində tətbiqi, yeniyetmələrin mədəni irsi tanıma, sosial dəyərləri öyrənmə və emosional inkişafını dəstəkləmək baxımından əhəmiyyətlidir. Müəllimlər, adət-ənənələri dərs planlarına daxil edərək, gənclərin bu məlumatları praktiki şəkildə qavramalarına imkan tanıyır.

Mədəni Məlumatların Öyrədilməsi:

Tədris prosesində adət-ənənələrin tətbiqi, gənclərə Azərbaycan mədəniyyətinin müxtəlif aspektlərini öyrətmək üçün əvəzsiz bir vasitədir. Müəllimlər, bayramların və mərasimlərin tarixi və əhəmiyyəti barədə mühazirələr, müzakirələr və layihələr təşkil edərək, şagirdlərin bu mövzuda biliklərini artırırlar.

Aktiv Tədbirlər:

Adət-ənənələrin tədris mühitində tətbiqi üçün aktiv tədbirlər təşkil etmək, gənclərin bu ənənələrə olan marağını artırır. Məsələn, bayramlarda təşkil olunan şənliklər, rəqs dərsləri və folklor festivalları vasitəsilə şagirdlər adətləri praktiki olaraq yaşamağa imkan qazanırlar.

İnteraktiv Öyrənmə:

Tədris prosesində adət-ənənələrin interaktiv şəkildə öyrədilməsi, gənclərin aktiv iştirakını təşviq edir. Şagirdlərə adətlərin və ritualların tarixini araşdırmaq, onların simvolikasını izah etmək və müzakirələr təşkil etmək imkanı verilir. Bu, onların tədqiqat və analiz bacarıqlarını inkişaf etdirir.

Yeniyetmələrin inkişafında adət-ənənələrin rolu əvəzsizdir. Onlar, gənclərin mədəni irsi, sosial dəyərləri, emosional inkişafı və şəxsiyyət formalaşmasını dəstəkləyir. Adət-ənənələrin mühafizəsi və inkişafı, gənclərin sağlam bir cəmiyyətin fəal üzvü olmalarına kömək edir. Buna görə də, cəmiyyətin bütün təbəqələrinin, adət-ənənələrin yaşadılması və gənclərə ötürülməsi məsələsinə diqqət etməsi vacibdir.

Əgər dəyərlərimizi nəzərə almazsaq, bir gün gözlərimizi açıb "dünyamızın" necə göründüyünü tanımayacağıq. Ölkəmizin, ailəmizin və inancımızın bel sütununu dəstəkləyən dəyərlər o qədər itəcək ki, cəmiyyətimizin toxuması parçalanacaq.

Adət-ənənələrin Təhsildə Əhəmiyyəti

1. Mədəni İdentikliyin Qorunması: Adət-ənənələr, gənclərə öz mədəni kimliklərini tanımaq və qorumaq üçün bir vasitədir. Təhsildə bu dəyərlərin öyrədilməsi, tələbələrin öz mədəniyyətinə bağlılığını artırır və onları milli kimliklərinə dəyər verməyə təşviq edir.

2. Sosial İnkişaf: Adət-ənənələr, cəmiyyətin sosial strukturlarını formalaşdırır. Təhsildə bu normaların öyrədilməsi, gənc nəsillərin sosial məsuliyyətlərini anlamaq və sosial dəyərləri qəbul etmələrinə kömək edir. Beləliklə, cəmiyyətin sağlam və davamlı inkişafı üçün zəruri olan sosial normaların və davranışların formalaşmasına təkan verir.

3. İnkişaf və Təsir: Adət-ənənələr, təhsil prosesində müsbət bir təsir yarada bilər. Məsələn, müstəqil düşünmə, əməkdaşlıq və empatiya kimi bacarıqların inkişafına kömək edə bilər. Təhsil sistemi, adət-ənənələri nəzərə alaraq, gənclərə daha geniş dünya görüşü qazandıra bilər.

- **Развитие эмоционального интеллекта**: Программы, направленные на обучение детей управлению эмоциями и развитию социальных навыков.
- **Психологическая поддержка**: Внедрение школьных психологов для помощи детям в преодолении эмоциональных и социальных трудностей.

**7. Внеклассная деятельность**

- **Кружки и секции**: Разнообразие кружков (музыка, искусство, спорт), которые помогают детям развивать свои таланты и интересы.
- **Социальные проекты**: Участие в волонтерских и социальных инициативах, что способствует формированию ответственности и гражданского сознания.

Современные методы образования в Азербайджане направлены на создание динамичной и поддерживающей образовательной среды. Они помогают детям развивать ключевые навыки, необходимые для успешной жизни в современном мире, и способствуют формированию гармоничной личности.

## ЛИТЕРАТУРА

1. Аверин, В. А. Психология личности : учебное пособие / В. А. Аверин. – 2-е изд., перераб. – Москва ; Вологда : Инфра-Инженерия, 2024. – 104 с.
2. Белкина, В. Н. Психология раннего и дошкольного детства : учебное пособие для вузов / В. Н. Белкина. – 2-е изд. – Москва : Издательство Юрайт, 2024. – 170 с.
3. Обухова, Л. Ф. Психология развития. Исследование ребенка от рождения до школы : учебное пособие для вузов / Л. Ф. Обухова. – Москва : Издательство Юрайт, 2024. – 275 с.
4. Солдатова, Е. Л. Психология развития и возрастная психология. Онтогенез и дизонтогенез : учебник для вузов / Е. Л. Солдатова, Г. Н. Лаврова. – 2-е изд., перераб. и доп. – Москва : Издательство Юрайт, 2024. – 361 с.
5. Сорокоумова, Е. А. Возрастная психология : учебное пособие для вузов / Е. А. Сорокоумова. – 2-е изд., испр. и доп. – Москва : Издательство Юрайт, 2024. – 227 с.
6. Социальная психология развития : учебник для вузов / Н. Н. Толстых [и др.]. – Москва : Издательство Юрайт, 2024. – 543 с.
7. Хилько, М. Е. Возрастная психология : учебное пособие для вузов / М. Е. Хилько, М. С. Ткачева. – 2-е изд., перераб. и доп. – Москва : Издательство Юрайт, 2024. – 201 с.
8. Хухлаева, О. В. Психология развития и возрастная психология : учебник для вузов / О. В. Хухлаева, Е. В. Зыков, Г. В. Базаева ; под редакцией О. В. Хухлаевой. – Москва : Издательство Юрайт, 2024. – 367 с.
9. Шаповаленко, И. В. Психология развития и возрастная психология : учебник и практикум для вузов / И. В. Шаповаленко. – 3-е изд., перераб. и доп. – Москва : Издательство Юрайт, 2024. – 457 с.

# ПСИХОЛОГИЧЕСКОЕ РАЗВИТИЕ И ОБРАЗОВАНИЕ ДЕТЕЙ В АЗЕРБАЙДЖАНЕ

***Гулиева Джамиля***

## АННОТАЦИЯ

В статье рассматриваются современные методы развития и образования детей в Азербайджане, которые способствуют улучшению качества обучения и всестороннему развитию детей. Основное внимание уделяется интерактивному обучению, включая проектную деятельность и групповую работу, а также игровым методам, которые помогают развивать когнитивные и социальные навыки.

Использование технологий, таких как цифровые платформы и мультимедийные ресурсы, становится важным элементом образовательного процесса. Индивидуализированный подход и дифференциация обучения позволяют учитывать уникальные потребности каждого ребенка.

STEM-образование, направленное на развитие научных и технических навыков, а также социальное и эмоциональное обучение (SEL) способствуют формированию гармоничной личности. Внеклассная деятельность, включая кружки и социальные проекты, расширяет горизонты детей и развивает их таланты.

Таким образом, внедрение современных методов в образовательную систему Азербайджана создает поддерживающую и динамичную среду, способствующую успешному развитию детей в современном мире.

# AZƏRBAYCANDA UŞAQLARIN PSİXOLOJİ İNKİŞAFI VƏ TƏHSİLİ

***Quliyeva Cəmilə***

## XÜLASƏ

Məqalədə Azərbaycanda uşaqların təhsilin keyfiyyətinin yüksəldilməsinə və hərtərəfli inkişafına töhfə verən müasir inkişaf və təhsil metodlarından bəhs edilir. Əsas diqqət interaktiv öyrənmə, o cümlədən layihə əsaslı fəaliyyətlər və qrup işi, eləcə də idrak və sosial bacarıqları inkişaf etdirməyə kömək edən oyun əsaslı üsullar üzərindədir.

Rəqəmsal platformalar və multimedia resursları kimi texnologiyalardan istifadə təhsil prosesinin mühüm elementinə çevrilir. Fərdi yanaşma və təlimin differensiallaşdırılması hər bir uşağın unikal ehtiyaclarını nəzərə almağa imkan verir.

Elm və texnologiya bacarıqlarını inkişaf etdirməyə yönəlmiş STEM təhsili və sosial və emosional öyrənmə (SEL) hərtərəfli şəxsiyyətin inkişafına kömək edir. Dərsdənkənar fəaliyyətlər, o cümlədən dərnəklər və sosial layihələr uşaqların dünyagörüşünü genişləndirir, istedadlarını inkişaf etdirir.

Beləliklə, Azərbaycanın təhsil sisteminə müasir metodların tətbiqi müasir dünyada uşaqların uğurlu inkişafına təkan verən dəstəkləyici və dinamik mühit yaradır.

# PSYCHOLOGICAL DEVELOPMENT AND EDUCATION OF CHILDREN IN AZERBAIJAN

***Gulieva Jamila***

## SUMMARY

The article discusses modern methods of development and education of children in Azerbaijan, which contribute to improving the quality of education and the comprehensive development of children. The focus is on interactive learning, including project-based activities game-based techniques that help develop cognitive and social skills.

The use of technologies such as digital platforms and multimedia resources is becoming an important element of the educational process. An individualized approach and differentiation of instruction allow us to take into account the unique needs of each child.

STEM education, which focuses on developing science and technology skills, and social and emotional learning (SEL) contribute to the development of a well-rounded personality. Extracurricular activities, including clubs and social projects, broaden children's horizons and develop their talents.

Thus, the introduction of modern methods into the educational system of Azerbaijan creates a supportive and dynamic environment that promotes the successful development of children in the modern world.

# SOLAXAYLIQ VƏ KƏKƏLƏMƏ

***Əzizağalı Nəzrin Elxan qızı***
***BDU-nun II kurs magistrantı***
*ezizagali.nezrin@mail.ru*

***Açar sözlər:*** kəkələmə, solaxaylıq, dominant əl,əlaqə**,** beyin yarımkürəsi, inkişaf, səbəb.
***Ключевые слова:*** заикание, леворукость, доминирующая рука, связь, полушарие головного мозга, развитие, причина.
***Keywords:*** stuttering, left-handedness, dominant hand, contact,cerebral hemisphere, development, reason.

Solaxaylıq və kəkələmə arasındakı əlaqə dominant əl probleminin digər aspektlərindən daha çox praktik əhəmiyyət kəsb edir. Bu iki amil arasında əlaqə ilə bağlı irəli sürülən təkliflər,dominant əlin dəyişdirilməsi və kəkələmə arasında birbaşa əlaqəni sübut etmək məqsədi daşıyan tədqiqatlara səbəb olmuşdur. Nəticədə belə bir təəssürat yaranmışdır ki,solaxay olan bir uşağı sağ əlindən istifadə etməyə məcbur etmək avtomatik olaraq kəkələmənin yaranmasına səbəb olur. Bu fikir bir çox valideynlər və müəllimlərdə qorxu yaratmış və solaxaylıqla bağlı "toxunmamaq" siyasətinin yaranmasına gətirib çıxarmışdır. Bu hal bir neçə müddət davam etmişdir.Buna görə solaxaylara qarşı daha tolerant və ehtiyatlı münasibət bəsləyirdilər.Buna baxmayaraq,müntəzəm olaraq uşaqlara sol əldən istifadənin uğursuz olduğunu tez-tez xatırladırılar.

XX əsrin əvvəllərində bir çox həkim və pedaqoqlar solaxayların daha çox psixi və idrak pozuntularından əziyyət çəkdiyini düşünürdülər. Bu riski azaltmaq üçün onlar solaxayların sağ əlindən istifadə üçün "yenidən öyrədilməsi" fikrini müdafiə edirdilər. İstifadə edilən üsullar isə çox ağır idi. Məsələn,uşaqlara fiziki cəza verilirdi, onların sol əlini hərəkətsizləşdirmək üçün bağlayırdılar. Nyu-York Təhsil Şurasının baş psixiatrı, psixoanalitik Abram Blau,1946-cı ildə nəşr olunan "Yaradıcılıq Əli: Sol və Sağ Əl Davranışlarının Mənşəyi və Mənasını Araşdırma" adlı kitabında solaxayların "yenidən öyrədilməsi" fikrini müdafiə edənlərin fikirlərini ümumiləşdirdi. Blau, xəbərdar edirdi ki, yenidən öyrədilmiş solaxay uşaqlar ciddi və qalıcı koqnitiv eyni zamanda zehni pozuntular riski daşıyır [1].

XX əsrin ikinci onilliyində solaxayların yenidən öyrədilməsi fikrini qəbul etməyən tərəfdaşlar onların yenidən öyrədilməsinin mənfi nəticələrə,xüsusilə kəkələməyə səbəb ola biləcəyindən şübhələnməyə başladılar. Stenford universitetinin psixoloqu Lyuis M.Terman 1914-cü ildə nəşr olunan "Tələbə gigiyenası" adlı dərsliyində qeyd edirdi ki,tələbələrdə müşahidə edilən kəkələmə hallarının üçdə birindən yarısına qədəri solaxay olub, lakin sağ əldən istifadə etməyə məcbur edilənlərdir. Ayova Universitetinin iki nüfuzlu tətqiqatçısı, psixiatr Samuel Torrey Orton və psixoloq Li Edvard Travis Termanın iddialarına inanırdı. Kəkələmə ilə solaxaylıq və dominant əlin dəyişdirilməsi cəhdlərinin səbəb-nəticə əlaqəsinin ən güclü tərafdarları Travis, Orton və Van Riperdir. 1920-ci illərin sonundan 1950-ci illərə qədər Orton, Travis və onların tələbələri kəkələmənin etiologiyasını yenidən öyrədilmə ilə əlaqələndirən bir sıra kitablar və məqalələr nəşr etdilər. Travisin fikrinə görə solaxay insanların sağ əldən istifadəyə yenidən öyrədilməsi zamanı biz təbii olaraq zəif olan sol yarımkürəni gücləndiririk və hər iki yarımkürənin nəzarət gücünün təxminən bərabər olmasını təmin edirik.Amma biz bu yolla beyinin təbii normal fəaliyyətinə mane oluruq. Travis iddia edirdi ki,beyinin bir yarımkürəsi digərindən üstün olmalıdır. Əgər bərabər dominantlıq olarsa, hər şəraitdə birinin kəkələdiyini görə bilərik. Orton kimi Travisdə doğuşdan solaxay olub, sağ beyin yarımkürənin üstünlüyünə malik olan, lakin sağ əldən istifadəyə öyrədilmiş uşaqlarda tipik kəkələmənin yaranmasını müəyyən etmişdir. Orton kəkələmənin iki növünü ayırd edirdi:

1)Danışmağa başlıyan zaman,təxminən 2-3 yaşlarda yaranan kəkələmə;

2)Normal danışan və təxminən 6-8 yaşlarda yaranan kəkələmə.

Buna görə o,nitqin inkişafında iki kritik dövr olduğunu bildirirdi və qeyd edirdi ki,ilkin kritik dövrdə kəkələmə kimi nitq qüsurlarının yaranması səbəbi üstünlük verilən əlin inkişafında bəzi ləngimələr ilə əlaqəlidir.İkinci kritik dövr isə uşaq yazmağı və oxumağı öyrənməyə başladığı dövrdür.Bu dövrdə uşaqlarda kəkələmə ilə yanaşı, yazı problemləridə yaranır.

Orton uşaqlıq dövründə yaranan kəkələməni dörd kateqoriyaya ayırırdı və o ilk iki kateqoriyaya böyük əhəmiyyət verirdi:

a)valideynlər və müəllimlər tərəfindən dominant əlin dəyişdirlməsi nəticəsində yaranan kəkələmə;

b)uşağın müəyyən bir əl üstünlüyünü əldə etməkdə ləng olduğu hallarda yaranan kəkələmə-və ya Ortonun dediyi kimi "motor inteqrasiya"nın müşahidə edildiyi hallar;

c)dominant əlin dəyişdirilmədiyi,lakin ailədə çox güclü kəkələmənin olması nəticəsində yaranan kəkələmə;

d)ailədə dominant əlin dəyişdirilmədiyi,motor inteqrasiyanın və kəkələmənin olmadığı hallar nəticəsində yaranan kəkələmə [2.səh.92].

Van Riper kəkələyən uşaqları müalicə edərkən keçmişdə solaxaylığa meylin olub-olmamasını xüsusi əhəmiyyət kəsb edən bir amil kimi qəbul edirdi. Van Riper dominant əlin dəyişməsi ilə solaxaylıq arasında əlaqə olduğunu vurğulayırdı. Lakin dominant əlin dəyişdirilməsinin üzərindən uzun müddət keçməsi səbəbindən və valideynlərin belə bir prosesin kəkələməyə səbəb ola biləcəyini qəbul etmədikləri üçün bu məsələ etibarlı məlumatların əldə edilməsinin çətinliyi ilə diqqət çəkirdi.

Van Riper,Orton və Travis kəkələyən uşaqların müalicəsinin əsas hissəsi kimi uşağa üstünlük verdiyi əldən istifadəyə qayıtmasına icazə verməyi tövsiyə edirdilər. Lakin Orton bütün hallarda bunu tövsiyə etmirdi. Çünki o,qeyd edirdi ki,dominant olan əl kifayət qədər motor bacarıqlara malik olmalıdır. 1935-ci ildə 16 kəkələmə haqqında hesabat dərc olundu.Bunlardan 14-ü solaxay idi və onlar sağ əl ilə yazmağa məcbur edilmişdi. Müəlliflər bildirirdi ki,16 nəfər kəkələyən uşaq sol əldən istifadəyə yenidən öyrədilmişdir və onların kəkələmələri ya tamamilə aradan qalxmış yada xeyli azalma olmuşdur [3].

Mc Allister kəkələyən pasientlərində solaxaylıq və dominant əlin dəyişdirilməsi ilə bağlı heç bir sübuta istisna etməsədə,bunu böyük əhəmiyyət kəsb edən bir amil olduğunu düşünmürdü və bu fikrinə dəstək olaraq apardığı tədqiqatla bağlı bir nəticə qeyd edirdi. O tədqiqatı zamanı müəyyən etmişdir ki,139 kəkələyən uşaqdan yalnız 9-u solaxaydır və bu uşaqlardan yalnız 2-si sağ əlindən istifadəyə məcbur edilmişdir. Apardığı tədqiqatdan belə bir nəticə çıxartmışdır ki,kəkələmənin səbəbi dominant əlin sol əldən sağ ələ dəyişdirilməsi deyil,uşağın sol əlindən istifadə etməməsi üçün tətbiq edilən sərt üsullardır. Körpəlik dövründə tətbiq edilən bu sərt üsullar uşaqda həyəcanlı və narahatedici hisslər yaradır. Bu da kəkələmənin yaranmasına gətirib çıxarır.

1938-ci ildə Şimali Karolina universitetinin professoru K.C.Harrison Nyu Cersi dövlət məktəblərində dörd illik "solaxayların müalicə kampaniyası"nın nəticələrinə istinad edərək bu proses nəticəsində solaxayların sayının 250-dən 66-ya düşdüyünü qeyd edirdir. Məktəb rəhbərliyinin sözlərinə görə bu proses zamanı heç bir uşaqda nitq pozuntuları baş verməyib. Harrisonun fikrinə görə, solaxay uşaqlarda kəkələmənin yaranma səbəbi onların yenidən öyrədilməsi deyil. Kəkələmənin yaranma səbəbi daha çox uşağın sinir sisteminin vəziyyəti və onların yenidən öyrədilməsi zamanı istifadə edilən üsullardır [4].

Elm adamları hələ də kəkələmə ilə solaxayların sağ əlindən istifadə etməyə məcbur edilməsi arasındakı əlaqəninin elmi izahını verə bilməyiblər. İddia edilir ki, sağ əlindən istifadə etməyə məcbur edilmiş solaxaylar yenidən sol əlindən istifadə etməyə başlayan zaman kəkələmə aradan qalxır. Kəkələmənin yaranmasına daha çox anadangəlmə motor mex-

anizmlərinin qeyri-kafi olması səbəb ola bilər. Kəkələmə xüsusilə motor çatışmazlığı olan uşaqlarda müşahidə olunur. Yəni gec yeriyən,danışan və digər motor çətinliklərdən əziyyət çəkən uşaqlar bu sıraya daxildir. Əgər kəkələmənin motor pozuntular səbəbindən yarandığı sübut olunarsa,bunun dominant əlin dəyişməsi nəticəsində yaranması ehtimalı xeyli azalar. Kopp kəkələmə və motor pozuntuları arasındakı əlaqəyə daha çox diqqət yetirilməsi lazım olduğunu vurğulayaraq, kəkələyənlərin ümumiyyətlə motor funksiyalarında böyük irsi qüsurların və motor sistemlərində pozuntuların olduğunu qeyd edirdi.

Solaxaylıq və kəkələmə arasındakı əlaqə ilə bağlı iki əsas nəzəriyyə vardır. Birinci nəzəriyyə solaxay uşaqlarda kəkələmənin yaranması səbəbini beyin yarımkürələrinin asimmetriyasında görür. Yarımkürələrdən biri insanın dominant yarımkürəsidir.Buna görə sağ əlindən istifadə edənlərdə sol yarımkürə solaxaylarda isə sağ yarımkürə dominant olur. Solaxay insan sağ əlindən istifadə etməyə məcbur edilərsə, təbii olaraq zəif olan sol yarımkürənin təsiri artır.Bu zaman iki yarımkürə arasında nəzarət balanssızlaşır ki, bu da beyinin təbii fəaliyyətini zidd bir prosesdir. Bunun nəticəsində kəkələmə yaranır [5].

İkinci nəzəriyyəyə görə isə solaxay uşaqlarda kəkələmənin yaranması səbəbi onlardan sağ əlindən istifadəyə mıəcbur edilməsi zamanı yaşadıqları psixoloji gərginlikdir. Artan gərginlik və daimi nəzarət emosional cəhətdən həssas uşaq üçün böyük yük yaradır. Bu da nevrozun inkişafına gətirib çıxarır. Nevrozun əlamətlərindən biri də kəkələmədir.

Solaxay uşaqların sağ əldən istifadəsi üçün yenidən öyrədilməsi ilə birbaşa səbəb əlaqəsi müəyyən edilməsədə,bir çox mütəxəssislər solaxay uşaqların sağ əldən istifadə edilməsinə qarşıdırlar. Eyni zamanda solaxay uşağın dominant əlinin dəyişdirilməsi hər zaman kəkələməyə səbəb olmur. Əgər uşaqda dominant əlin dəyişdirilməsi zamanı kəkələmə yaranıbsa,böyük ehtimalla bu əlin dəyişdirilməsi prosesinin nəticəsidir. Bu proses uşağın emosional inkişafına mənfi təsir edir və uşağda psixoloji problemlərin yaranmasına səbəb olur. Yaranmış psixoloji problemlər isə nevroloji tarazlığı pozur. Bu zaman nitqin inkişafında kənaraçıxmalar baş verir ki, bunlardan biri də kəkələmədir. Yəni, kəkələmə birbaşa dəyişikliyin nəticəsi olmayada bilər.

Nitqin inkişafında kritik dövrlərdə dominant əlin dəyişdirilməsi mənfi nəticələr yarada bilər. Bütün uşaqlarda nitqin inkişafı eyni olmur. Onlardan bəziləri kəkələməyə meyilli olur. Kəkələməyə meyilli solaxay uşaqlar sağ əldən istifadəyə məcbur edilərsə bu uşaq üçün problemin yaranmasında əlverişli amil ola bilər. Yəni bu zaman dominant əlin dəyişdirilməsi nəticəsində keçirilən emosional stress kəkələmənin yaranmasında psixoloji aspekt kimi çıxış edir. Buna görə də,istər valideynlər,istərsədə müəllimlər tərəfindən solaxay uşaqlara qarşı tolerant münasibət bəslənilməlidir. Dominant əlin dəyişdirilməsinin uşaq üçün xoşagəlməz nəticələr yaratdığını nəzərə alaraq evdə və ya məktəbdə solaxay uşaqlar sağ əldən istifadə üçün məcbur edilməməlidir. Bilmək lazımdır ki, solaxaylıq hər hansı bir patoloji hal deyildir.Sağ əlin dominantlığı kimi sol əlində dominantlığı normal haldır və bu uşağın psixoloji xüsusiyyətlərindən biri kimi qəbul edilməlidir.

## ƏDƏBİYYAT

1. https://www.miloserdie.ru/article/glavnaya-ruka-pravdu-o-svyazi-zaikaniya-s-pereuchennoj-levorukostyu-my-ne-znaem/
2. Margaret MacDonald Clark, M.A,Ed.B.2019.səh.381
3. Howard.I.Kushner.Stuttering and “Retraining” left-handed childre in mid-century U.S.2017
4. https://demosfen.org/statii/lateralization
5. https://dzen.ru/a/Y15D-Of913z2m5hB

## SOLAXAYLIQ VƏ KƏKƏLƏMƏ

*Nəzrin Əzizağalı*

## XÜLASƏ

Bu məqalədə solaxaylıq və kəkələmə arasındakı əlaqənin olub-olmamasından bəhs edilir. Məsələ ilə bağlı fikirlər müxtəlifdir. Demək olar ki,mövzu ilə bağlı aparılan tədqiqatlar və edilən araşdırmalar fərqli fikirlərin yaranmasına gətirib çıxarmışdır.Bəzi tədqiqatçılar kəkələmə və solaxaylıq arasında açıq əlaqənin olduğunu bildirsədə, digərləri isə bu fikirlə razılaşmır. Onlar düşünür ki,kəkələmə dominant əlin, yəni sol əldən istifadənin dəyişdirilməsi nəticəsində deyil,bu proses zamanı tətbiq edilən ağır və sərt üsulların tətbiqi nəticəsində yaranır. Bu zaman uşaq emosinal cəhətdən narahatlıq keçirir və uzun müddət valideynlərin sol əldən istifadə etməməsi üçün uşağa təzyiq göstərməsi gərginliyi artırır.Bunun kəkələmənin yaranmasına səbəb olduğu ehtimal edilir.Fikir ayrılıqlarının olması onu göstərir ki,mövzu ilə bağlı konkret nəticə yoxdur və daha ətraflı araşdırmaya ehtiyac vardır.

## ЛЕВОРУКОСТЬ И ЗАИКАНИЕ

*Назрин Азизагалы*

## АННОТАЦИЯ

В этой статье рассматривается вопрос о том, существует ли связь между леворукостью и заиканием. Мнения по этому вопросу различны. Можно сказать, что исследования, проведенные на эту тему, привели к различным мнениям. В то время как одни исследователи утверждают, что существует четкая связь между заиканием и леворукостю, другие с этим не согласны. Они считают, что заикание возникает не из-за смены доминирующей руки, т.е. из-за использования левой руки, а скорее из-за жестких и строгих методов, применяемых во время этого процесса. В это время ребенок испытывает эмоциональный дистресс, а длительное давление со стороны родителей с целью предотвратить использование левой руки усиливает напряжение. Это считается потенциальной причиной заикания. Существование различных мнений указывает на то, что конкретного заключения по этому вопросу не существует, и неоюходимы дальнейшие исследования.

## LEFT-HANDEDNESS AND STUTTERING

***Nazrin Azizagali***

## SUMMARY

This article discusses whether there is a connection between left-handedness and stuttering. Opinions on the matter are varied. It can be said that the research and studies conducted on this topic have led to different opinions. While some researchers claim the there is aclear link between stuttering and left-handedness,others disagree. They believe that stuttering does not result from the change of the dominant hand,i.e,from using the left hand, but rather from the harsh and strict methods applies during this process. During this time,the child experiences emotional distress,and prolonged pressure from parents to prevent the use of the left hand increases the tension. This believed to be a potential cause of stuttering. The existence of differing opinions indicates thet there is no concrete conclusion on the subject, and further research is needed.

# MÜASİR MEDİANIN GENDER QAVRAYIŞINA TƏSİRİ

***Mustafayeva Solmaz Mustafa qızı***
***BDU-nun II kurs magistr tələbəsi***
*solmazmustafayeva2001@gmail.com*

***Açar söz:*** gender qavrayışı,müasir media, gender bərabərliyi, sosial media
***Ключевая слова:*** гендерное восприятие, современные СМИ, гендерное равенство, социальные сети
***Keyword:*** gender perception, modern media, gender equality, sosial media.

**Giriş**: Media yarandığı tarixdən bu yana insan həyatına, cəmiyyətin formalaşmasına və inkişafına, habelə müxtəlif dəyərlərin yaranmasına, aradan qaldırılmasına və ya inkişaf etməsinə müəyyən qədər təsir göstərmişdir. İlk əvvəllər radio, sonra televiza deyərkən hal hazırda əlimizdə olan smartfonlarla durduğumuz yerdən bütün dünyaya qapı aça bilirik. Kütləvi informasiya vasitələri, o cümlədən televiziya, kino, reklamlar və daha sonra sosial medya platformaları insanların dünyanı və özlərini necə qavradığını, necə hərəkət etməli olduqlarını, nəyin səhv, nəyin düz olduğunu inandırmaqda dərin təsirə məruz qoymuşdur. Bu təsirlər cəmiyyətin bir çox sferasında, hər statusdan, hər yaşdan insana olduğu kimi gender rolları, bu rolların necə qavranılması barəsində də qəbul etdiyimiz məlumatlara aid edilə bilər. Uzun illər boyunca insanların diqqətlə izlədiyi, məlumatlar aldığı media vasitələri insanları bir çox mövzularda olduğu kimi gender mövzusunda da müəyyən istiqamətə yönəltmiş, müəyyən gender rollarının cəmiyyətdə stereotipləşməsinə səbəb olmuşdur. İnsanlar mediada gördükləri cinsiyyət rollarını adi həyatla eyniləşdirmiş və bu da davranışlara sözsüz ki, öz təsirini göstərmişdir(1).

Medianın ilk yarandığı vaxtdan etibarən ənənəvi olaraq, qadınlar və kişilər cinslərə görə fərqli rollarda olmuş, müxtəlif davranışlara tabe olmuş, fərqli statuslarda təqdim olunmuşdur. İlk vaxtlarda qadınlar əsasən evdar, qayğıkeş, sadiq, öz evinə, münasibətlərinə məsuliyyətlə yanaşan ana və həyat yoldaşı rollarında çıxş edırkən kişilər ailəni təmin edən şəxs, güclü, qərar verici, qəhraman rollarında təsvir olunmuşdur. Bu təsvirlər təbiidir ki, ənənəvi gender rollarının təsirindən mediada canlandırılmışdır və eyni zamanda da bu insanların ənənəvi rol gözləmələrini daha da möhkəmləndirmiş və müəyyən gender normativlərini yaratmağa xidmət etmişdir. Xüsusilə də 20-ci əsrin ortalarına qədər bu təsirlər mediada dominant idi və cinslərin bir-birilərinə qarşı olan gözləntilərini formalaşdırırdı(2). İnsanlar mediada gördükləri kişi və ya qadın obrazlarının xüsusiyyətinə bürünməyə, onlar kimi geyinməyə, danışmağa meyl edirdilər. Bu təsirlər indinin özündə də təbii ki, qalmaqdadır. İnsanlar istər istəməz sosial medyada gördükləri şəxslərə bənzəməyə meyl edirlər. Lakin keçmiş dövrlə indiki media arasındakı fərqləri nəzərə alsaq və düşünsək ki, həm məlumat bolluğu və kirliliyi, həm də hər kəsin hər bir məlumata əlinin çatması bəzi promlemləri də bərabərində gətirmişdir. Mediada müzakirə olunan və bir çox fərqli görüşün əks olunduğu ən böyük məsələlərdən biri də elə gender mövzusudur ki, son vaxtlar bu məsələ olduqca gündəmdədir və fərqli baxış bucaqlarını özündə əks etdirməyi bacarır.

Son illərdə ənənəvi gender stereotiplərinin sorğulanmağa başlanılması da elə bu mövzu ətrafnda gedən ən mübahisəli məsələlərdən biridir. Qloballaşmanın, texnologiyanın inkişafı, eləcə də qadın hüquqları və gender bərabərliyi üzrə hərəkatların güclənməsi ilə media bu dəyişiklikləri özündə əks etdirməyə çalışır. Artıq mediada yalnız ənənəvi gender rollarına məhkum olmadan, cəmiyyətin daha geniş və müxtəlif gender təmsilçilərinə ehtiyacı olması fikri sürətlə artır. Gender rollarının müəyyən olunmuş sərhədlərini qırmaq məqsədilə müasir media qadınları əvvəl olduğundan fərqli olaraq daha güclü, müstəqil və lider rollarında, öz işini idarə etməyi bacaran biri kimi, kişiləri isə daha emosional, qayğıkeş və

həssas obrazlarda təqdim etməyə çalışır. Bu yalnız gender bərabərliyinə deyil, eyni zamanda fərdlərin öz gender kimliklərini daha rahat şəkildə ifadə edə bilməsinə şərait yaradaraq, hər iki cinsə qəti şəkildə aid olunmuş çərçivədən kənara çıxmağa imkan verir.

İnsanların genderlə bağlı stereotiplərə qarşı çıxması və özlərini sərbəst ifadə edə bilməsində, eyni zamanda müxtəlif düşüncələrin eyni anda nəzərdən keçirilə bilməsində medianın əvəzsiz rolu danılmazdır. Bu istiqamət bir sıra insanlar və eyni zamanda müxtəlif qurumlar, sosial hərəkatlar bu geniş imkanı nəzərə alaraq gender rollarının qəbul edilməsi üçün sosial medyadan istifadə edərək kampaniyalar həyata keçirir, stereotipləri qırmaq və cəmiyyətdə olan qeyri-bərabərliyi aradan qaldırmaq üçün məzmun yaradırlar və səslərini geniş kütlələrə çatdırırlar. Bu da medianın cəmiyyətə olan təsirinin təktərəfli yox iki tərəfli olduğunu göstərir, belə ki, həm media cəmiyyətə təsir göstərir, həm də cəmiyyət mediaya üzərində təsir gücünə sahibdir.

Qadın və kişilərin bir neçə on illiklərdən fərqli formalarda təsvir olunması hansı təsirləri özündə göstərir. Bu məsələni geniş şəkildə araşdırdığımızda yeni dövr və köhnə dövrün reklamları, filmləri hətta teleşou proqramlarında belə kəskin fərqlərin olduğunu müşahidə etməyimiz mümkündür. Bu ani dəyişiklik təbiidir ki, iki tərəfli baş vermişdir. Cəmiyyətin inkişafı, qadınların da cəmiyyətdə müəyyən yerə sahib olma, azad işləmə, hüquq bərabərliyi tələbləri bir çox sferaya təsir göstərmiş və media da öz seyrini bu istiqamətdə qurmağa başlamışdır. Bununla da mediadakı təsirlənmə və məzmunda olan dəyişikliklər hələ də ənənəvi görüşlərə sahib olan şəxslərin fikirlərinə təsir göstərmişdir.

Əvvəldə də vurğuladığımız kimi qadınlar ənənəvi rollarda evdar xanım, zərif, qayğıkeş kimi görünürdüsə indi daha güclü, lider və iş həyatında öz yerini tapmış halda görülür. Bu ən çox da özünü filmlərdə göstərir. Mediada təqdim olunan qadın qəhrəmanlar yalnız ailə içində deyil, iş dünyasında, siyasətdə, elmdə və digər sahələrdə mühüm rollar oynayır. Məsələn, məhşur Hollivud filmlərində son illərdə güclü qadın superqəhramanların sayı bir xeyli artmışdır. Bir neçə il əvvəl isə ancaq kişi superqəhramanları görmək mümkün idi. Bu da ənənəvi rollarda gücü təkcə kişiyə məxsus kimi təqdim edilməsinə qarşılıq qadına da məxsus keyfiyyət olduğunu subut etməyə yönəlmiş meyllər kimi qiymətləndirilə bilər.

Bu dəyişikliklər təkcə filmlərlə məhdudlaşmır, eyni zamanda televiziya şouları və seriallar, həmçinin reklamlarda belə daha güclü, müstəqil hüquqları üçün mübarizə aparan obrazları görə bilirik. Məsələn, "The good vife", "Scandal" kimi məşhur seriallarda qadınlar karyera sahibi, güclü idellara sahib, mübarizə aparan liderlər kimi təsvir edilir. Bu obrazlar ənənəvi gender rollarına qarşı çıxır və qadınların hər sahədə uğurlu ola biləcəyini nümayiş etdirir(3).

Ənənəvi baxışın qırılması cəhdi yalnız qadın rolları ilə kifayətlənmir. Kişilərə qarşı olan stereotiplərin də qırılmasına yönəlmiş yeni baxış bucağının formalaşmasına medianın təsiri böyük olmuşdur. Əvvəldə də vurğuladığımız kimi mediada güclü, dominant görünən kişi rolları vaxt keçdikcə öz yerini mülayim, emosiyalarını gizləməyə çalışmayan, qayğıkeş obrazlara vermişdir. Bu da kişilərə qarşı olan sosial gözləntilərin nisbətən yumşalmasına və onların emosional zənginliyinin daha çox qəbul edilməsinə şərait yaratmşdır. Məsələn, populyar film və seriallara nəzər salsaq görərik ki, sevən ata, dəstəkçi partnyor və qayğıkeş ailə başçısı kimi rollar daha da artmışdır. Bu təsvirlər kişilərin də emosiyalarını ifadə edə bilməsi və ailə qayğısına daha çox cəlb olunması mesajını verir.

Reklam sektoru da gender stereotiplərini qırmaq üçün son illərdə daha böyük addımlar atır. Belə ki, bu sektorda da cinslərə qarşı açıq aşkar differensiallıq tətbiq olunurdu. Qadınların rol aldığı reklamlar əsasən ev təmizliyi, yemək hazırlamaq və uşaq baxımı ilə əlaqədar olanları əhatə edirdi. Kişilər isə daha çox maliyyə, texnologiya, sənaye sahələri ilə bağlı məhsulların tanıdılmasında rol alırdı. Ancaq müasir dövrümüzdə bu kəskin stereotipləşmənin mənfi tərəfləri daha çox başa düşülür və bu stereotipləri qırmaq üçün reklam kampaniyaları hazırlanır. Məsələn, bəzi iri şirkətlər neytral reklamlar hazırlayır və burada

hər hansı bir məhsul sırf bir cinsə məxsusmuş kimi təqdim olunmur. Texnologiya və avtomobil kimi sektorlarda qadınlar aktiv iştirakçı kimi, ailə və uşaq qayğısı ilə bağlı olan sektorlarda kişilər aktiv iştirakçı rolunda daha çox görünür. Bu tip reklamlar qadın və kişilərin hər sahədə bərabər olduğunu, hər hansısa fəaliyyətin yalnız bir cinsə məxsus olmadığı göstərilməyə çalışılır.

Son dövrlərdə televiziya və reklamlardan daha qabarıq şəkildə gözümüzə çarpan, cəmiyyətə təsiri getdikcə artan sosial media platformaları isə bu məsələlərlə bağlı daha da geniş təsirə malikdir. Ümumiyyətlə sosial media platformalarının populyarlığı, getdikcə artması və çoxluğun istifadə etməsi gender rollarının təqdimatında da tamamilə yeni bir dövr açmışdır. ənənəvi media vasitələrindən fərqli olaraq, sosial media fərdlərə özlərini ifadə etmək və cəmiyyətin qəbul etdiyi gender stereotiplərinə qarşı çıxmaq üçün daha geniş imkanlar açır. Ənənəvi media vasitələri yalnız insanlar tərəfindən izlənilirdisə, insanlar indi öz fərdi fikirlərini geniş kütlələrə çatdırmaq imkanını zəhmətsiz əldə edir. Sosial şəbəkələrdə gender bərabərliyini təşvq edən hərəkatlar və kampaniyalar geniş yayıldıqca, fərdlər gender kimliklərini daha açıq şəkildə ifadə edir və daha geniş spektrdə gender rollarını qəbul edirlər. İnsanlar fərqli baxış bucaqlarını gördükcə öz dar baxış çərçivələrini aralamağa və yeni müasir rolların qəbul edilməsinə təşəbbüs edirlər. Bu həm də insanların öz düşüncələrində yalnız olmadıqları hissini onlara aşılayır və bir növ başqalarından dəstək alaraq öz fikirlərini daha cəsarətlə ifadə etməklərinə səbəb olur(4).

Sosial media təkcə davranışlar, cinsiyyət rolları barədə təsir göstərmir, eyni zamanda bədən ideallarını, gözəllik standartlarını da müəyyən edir ki, bu da gender qavrayışına müəyyən qədər öz təsirinini göstərir. Məsələn, qadınlar çox vaxt mediada müəyyən bir gözəllik standartına uyğun olaraq təqdim edilir. Müəyyən bədən quruluşuna, üz cizgilərinə, saç düzülüşünə malik qadın gözəl adlandırılır. Bu da qadınların öz bədənlərini necə qəbul etmələrinə təsir göstərir. Cəmiyyətdə gözəllik bu formadadır və gözəl qadın bu quruluşa malik olmalıdır kimi bir illuziya yaranır ki, bu da insanların həyatına mənfi və ya müsbət təsirsiz ötüşmür. Belə ki, zərif, estetik və incə quruluşa malik kimi göstərilən qadınlar qeyri-realist və əlçatmaz olduğundan çox vaxt öz bədənləri ilə bağlı narazılıqlar yaşayır, kompleksə girir və bu da özlərinə inamlarını aşağı səviyyəyə salır. Reklam kampaniyalarında "mükəmməl bədən" təsvirləri ilə tez-tez rastlaşan qadınlar öz bədənlərini bu standartlara uyğunlaşdırmağa çalışır, nəticədə qeyri-sağlam pəhrizlər, bədən forması ilə bağlı narazılıqlar və hətta yemə pozuntuları kimi problemlərlə üzləşirlər. Medianın təbliğ etdiyi bu "idea" gözəllik anlayışı fərqli bədən tiplərinə yalnış yanaşma əmələ gətirir və belə qadınlar arasında mənfi özqavrayışa səbəb olur.

Eynilə kişilərdə də müəyyən kriteriyalara sahib olanlar yaraşıqlı adlandırılır və müəyyən standart qəbul olunur. Kişi bədəni çox vaxt güclü, əzələli, fiziki qüdrəti ifadə edəcək şəkildə təqdim edilir. Bu da kişilərdə özlərini güclü və dominant hiss etməli olduqları ilə bağlı təzyiq yarada bilir. Eynilə qadınlarda olduğu kimi kişilər də mediada yayılmış bədən standartlarına uyğunlaşmaq üçün özlərinə qeyri-sağlam təzyiqlər göstərə bilirlər.

**Nəticə:** Günü-gündən inkişaf edən dünyamızda gündəlik həyatımıza ən çox təsir edən amillərdən biri mediadır. Müasir medianın isə gender rollarına təsiri çox mürəkkəb və çoxşaxəlidir. Bir tərəfdən uzun illər boyu media ənənəvi gender rollarını təbliğ etdiyi halda, günümüzdə gender stereotiplərinin qırılmasına və hüquq bərabərliyinin təmin olunmasına istiqamətlənən səylərin mərkəzinə çevrilmiş haldadır. Bu da özlüyündə cəmiyyətdə formalaşan düşüncə və davranışlara öz təsirini göstərir. Bununla belə, gender stereotiplərinin tamamilə qırılması və gender bərabərliyinə tam nail olmaq hələ də böyük bir çağırış olaraq qalır.

## ƏDƏBİYYAT


1. Abbaslı P. Behind the byline: gender dynamics in Azerbaijani media from the perspective of female journalists, 2024
2. Məmmədova G. Qloballaşma şəraitində KİV-in gender stereotiplərinin formalaşmasına təsiri
3. Julia T.Wood "The influence of media on views of gender". Department of communacion, University of North Carolina
4. İsabel Pereira Fernandez "İnvestigating gender stereotyped in the media". University of Linköping


## MÜASİR MEDİANIN GENDER QAVRAYIŞINA TƏSİRİ

***Mustafayeva Solmaz***

## XÜLASƏ

Məqalədə kütləvi informasiya vasitələrinin cəmiyyətdə gender stereotiplərinin formalaşmasına təsiri araşdırılmışdır. Medianın ilk yarandığı dövrdən indiyə kimi gender məsələlərinə, kişi və qadın rollarına yanaşması və bunun insanların davranışlarına təsiri təhlil olunmuşdur. Müasir dövrdə geniş yayılmış sosial şəbəkələrdə gender rolları məsələsinə ənənəvi və müasir baxış müqayisəli təhlil olunmuşdur.

## ВЛИЯНИЕ СОВРЕМЕННЫХ СМИ НА ГЕНДЕРНОЕ ВОСПРИЯТИЕ

***Солмаз Мустафаева***

## АННОТАЦИЯ

В статье рассматривается влияние средств массовой информации на формирование гендерных стереотипов в обществе. Подход СМИ к гендерным вопросам, роли мужчин и женщин и их влияние на поведение людей анализируются с момента их создания и до настоящего времени. Проведен сравнительный анализ традиционного и современного взгляда на проблему гендерных ролей в широко распространенных социальных сетях в современное время.

## İNFLUENCE OF MODERN MEDİA ON GENDER PERCEPTİON

***Solmaz Mustafayeva***

## SUMMARY

The article examines the influence of mass media on the formation of gender stereotypes in society. The media's approach to gender issues, men's and women's roles and its impact on people's behavior have been analyzed since its inception until now. A comparative analysis of the traditional and modern view of the issue of gender roles in widespread social networks in modern times has been done.

# VİKTİM DAVRANIŞININ FENOMENOLOGİYASI

***Rzayeva Aysun***
***BDU-nun II kurs magistrantı***
*aysunrzayeva057@gmail.com*

***Açar sözlər:*** viktimologiya, qurban, qurban davranışı, qurban psixologiyası, müdafiə, cinayət üçün əlverişli şərait, qurbanın təşviqi.
***Ключевые слова:*** виктимология, жертва, поведение жертвы, психология жертвы, защита, благоприятные условия для преступления, содействие жертвы.
***Keywords:*** victimology, victim, victim behavior, victim psychology, defense, conducive conditions for crime, victim facilitation.

Viktimologiya, qurban davranışı və qurban psixologiyası sahəsindəki tədqiqatlar, qurbanların cinayət qarşısında müdafiə imkanlarını araşdırır. Cinayət üçün əlverişli şərait, bəzən qurbanın öz davranışları ilə də bağlı ola bilər. Qurbanın təşviqi, bu baxımdan, müəyyən risk faktorlarının mövcudluğu ilə izah olunur. Qurbanların psixoloji vəziyyəti, cinayətlərin baş verməsinə necə təsir etdiyini anlamak üçün əhəmiyyətlidir. Bu sahədəki tədqiqatlar, qurbanların qorunması və cinayətlərin qarşısının alınması üçün strateji yanaşmaların inkişafına kömək edir.

Müasir dövrdə əksəriyyətimiz "qurban" deyiləndə müəyyən qədər söhbətin nədən getdiyini bilirik. Amma bu anlayışı kimisi cinayətdən zərər yetirilən şəxs kimi dar mənada anlayır, kimisi sadəcə cinayət deyil digər hüquqpozuntularından zərər görən şəxsləri nəzərdə tutur, kimisi isə ümumiyyətlə qəzadan, təbii fəlakətdən, hüquqpozuntularından zərər görən insanları nəzərdə tutaraq geniş anlayış verir. Amma ən maraqları bəzi insanlar qurban dedikdə insan ola bilmə ehtimalını düşünmür belə. Bunun səbəbi "qurban" anlayışının hələ tam açıqlanmamasıdır. Amma bu çox əhəmiyyətli anlayışdır. Müasir dövrdə diqqət edilməli olan istiqamətdir. Çünki insanlar nə qədər çox məlumatlı olarlarsa cinayətlərə qarşı bir o qədər sayıq olarlar və bu da bir çox cinayətin qarşısını alar.

Qurbanlıq daha çox subyektivdir. Hər insanın qurbana çevrilməsi səbəbi, şəraiti, psixoloji vəziyyəti, davranışı fərqlidir. Ona görə də mövcud anlayışlara yanlış demək düzgün deyil. Sadəcə tam deyil, çünki bütün situasiyaları, əlamətləri ehtiva edə bilmirlər. C.Rainwater hesab edir ki, hər bir insan öz həyatında özünü proqramlaşdırma ilə məşğul olur, müəyyən bir vəziyyətdə onun sonrakı davranışı özünü necə proqramlaşdırmasından asılıdır. Bununla Rainwater izah etmək istəyir ki, insan özünü qurban vəziyyətində, yəni daim bütün uğursuzluqların onun başına gələcəyinə inandırsa bu onun qurban olma ehtimalını artırır.

Oxşarlıq və ölçü nəzəriyyəsinə əsasən anlayışın mahiyyətini anlamaq üçün onun əsas xüsusiyyətlərini müəyyən etmək lazımdır. Bu zaman kimsə tərəfindən müəyyənləşdirilmiş dar təriflərdən deyil, ümumi qanunauyğunluqlardan istifadə etmək məqsədəmüvafiqdir. Anlayışı açıqlamaq üçün hər zaman nəzərdə saxlamaq lazımdır ki, hər anlayışda zidd alt anlayışlar var və bir anlayışı ifadə etməyin ən yaxşı yolu onu ziddi ilə ifadə etməkdir. İnsanın özünü qurban hesab edib-etməməsi onun dəyərlərindən asılıdır. Çünki mülkiyyət, əmlak, ləyaqət, cinsi və ya şəxsi toxunulmazlıq, sağlamlıq bu kimi amillərə insan nə qədər dəyər verirsə bunlarla bağlı cinayət törədilən özünü o qədər qurban hesab edir. Amma obyektiv olaraq qurban hesab olunma şəxsin düşüncələrinə görə yox, ona vurulan fiziki, maddi və mənəvi zərərlə müəyyənləşir. Və bu zaman onun özünü qurban hesab edib-etməməsi əhəmiyyət kəsb etmir. Bir tərəf dəyər verdiklərini qarşı tərəfə vermək istəmir amma qarşı tərəf zorla alırsa bu zaman şəxs qurbana çevrilir.

Hesab olunur ki, cəmiyyətdə qurbanların sayı azalarsa bu cinayətkarların daha da aqressivləşməsinə səbəb olacaq, çünki o əsəbini atacağı yeri çətinliklə tapacaq. Eyni şəkildə cinayətkarlar azalsa bu zaman da qurbanlar yenidən ehtiyatsız, diqqətsiz olacaq ki, bu da cinayətlərin təkrar çoxalmasına gətirib çıxaracaq. İnsan başqasıyla münasibətdə qurbana çevrilir. Kimsə ona təsir edir və o zərər görür.

Qurban dedikdə, hərəkətlər və ya hərəkətsizliklər nəticəsində fərdi və ya kollektiv şəkildə zərər, o cümlədən fiziki və ya ruhi xəsarət, emosional iztirab, iqtisadi itki və ya əsas hüquqlarının əhəmiyyətli dərəcədə zəifləməsi ilə üzləşmiş şəxslər deməkdir. Bu anlayış həmçinin, lazım gəldikdə, birbaşa qurbanın yaxın qohumlarını və ya himayədarlarını və çətin vəziyyətdə olan qurbanlara kömək etmək və ya qurbanlığın qarşısını almaq üçün müdaxilə zamanı zərər çəkmiş şəxsləri də əhatə edir.

İstər yerli, istərsə də beynəlxalq səviyyədə demək olar ki, hər gün yüzlərlə cinayət baş verir. Bu əməllər ölkələrin cinayət məcəlləsinə əsasən cinayət hesab edilir və təqsirkar, zərərçəkmiş, onların hüquq və vəzifələri, tətbiq edilməli olan müdafiə və mühafizə tədbirləri və s. Bu məcəllələrdə nəzərdə tutulur. Obyektiv və ədalətli cəza təyin etmək üçün hər tərəfli araşdırılan cinayət işlərində təbiiki həm təqsirləndirilən, həm də zərərçəkmiş şəxsin davranışları, şəxsiyyəti tam araşdırılır. Amma “qurban” anlayışını aid etdiyimiz şəxslər məhz sadəcə cinayət adlandırdığımız əməllər vasitəsilə mi zərər görür? Qurbana xəsarət yetirən şəxs özü də qurban ola bilməzmi? Qurbanların əməl dövründə yaxud ondan sonra davranışı, psixoloji vəziyyəti necə olur? Asanlıqla həyat şəraitinə adaptasiya ola bilirlər mi?

1956-cı ildə Q.Şults cinayət törətmiş şəxslə qurban arasında şəxsi münasibətlərə əsaslanan cinayət anlayışını təqdim etmişdir. O qeyd edib ki, cinayət törədənlə qurban arasında tanışlıq müxtəlifdir. Bir-birlərini çox yaxın tanıya bilərlər, sadəcə nə zamansa görüb və göz yaddaşına əsasən yadında saxlaya bilərlər, təsadüfən tanıya bilərlər və ya cinayət əməli törədilməsindən bir neçə saniyə əvvəl təmasda ola bilərlər. Vacib olan tanışlıq intervalının çox və ya az olması deyil, əsas olan bu müddət ərzində olanlara necə təsir göstərirlər və əməllərin törədilməsində rolları nədir.

Təbikii qurbanın cinayətdə rolunu araşdırarkən sırf qubanın cinayətə təşviq etdiyi halları yox eyni zamanda ola bilər ki özünü müdafiə edə bilməsin və bu səbəblə də xəsarət alsın. Müdafiə edə bilməməsinin səbəbləri araşdırılmalıdır. Ola bilər ki, gücləri mütənasib deyildi, ya köməksiz vəziyyətdən istifadə olunub, ani olaraq baş verib və hadisəni tam dərk edə bilməyib və ya “müdafiəsizlik” halı olub. Müdafiəsizlik halı dedikdə şəxsin uşaq olması, psixi və ya ruhi pozuntunun olması qısacası, fəaliyyət və hüquq qabiliyyətinin olmaması hesab olunur. Belə bir çox səbəblər sayıla bilər. Və bunları müəyyən edib yüngülləşdirici və ya ağırlaşdırıcı hal olub-olmamasını müəyyən etmək vacibdir.

Cinayətkar tərəfindən şəxsin həyatına təhlükə yaranan zaman, yəni şəxsə xəsarət yetirən zaman şəxs yüksək stress halında olur. Stress halı qurbanın ətraf mühiti qavramasına, hərəkətlərinə, baş verənləri yadda saxlamasına, düşünməsinə mənfi təsir edir. Qurban diqqətini yenidən bölüşdürməli olur. Bu da hər insanda fərqli baş verir. Məsələn: İnsanın hiss orqanlarının qavraması mümkünlüyü azalır. Emosional olaraq gərgin insan əvvəllər bir neçə obyekti qavrayırdısa artıq bir obyekti belə çətinliklə qavrayır. Buna görməni nümunə deyə bilərik. Qarşısında nəyə baxırsa onu görür, ətrafında olanları görmür. Belə bir situasiya qeyd edə bilərik: hər hansı bir kəs aqressiyaya ya məruz qalır, təcavüzkarla üz-üzə gələndə diqqəti ona yönəlir amma cinayətkarın bütün imicini qavramır. Sadəcə üz xətlərinin müəyyən əlamətlərini qavrayır. Qarşı tərəfdən edilən hərəkətlər zamanı qurban sırf diqqətini cinayətkarın ona hücum etdiyi bədən üzvlərinə yönəlir. Əgər əlləri ilə hücum edirsə, hadisədən sonra soruşsaq qurban cinayətkarın əlləri haqqında ətraflı məlumat verir, amma üzü, görünüşü geyimi haqqında əminliklə danışa bilmir.

Hadisədən müəyyən müddət keçdikdən sonra qurban hadisə haqqında məlumat verir, lakin hadisəni emosional qiymətləndirir. O anın təsiri ilə yadında tam təfsilatlı məlumat qalmır ya da görmədiklərini, hiss etmədiklərini gördüyünü və hiss etdiyini düşünür. Daha sonra yaşadığı hadisəni hisslərinin gərginliyinə uyğun olaraq "şişirdilmiş" variantda danışır.

Zaman, məsafə aralığını qavramaq hər insanda fərqli formada olur. Bu daha çox insanın emosional vəziyyətilə əlaqədardır. Hələki bu şəxs qurban vəziyyətinə düşübsə və yüksək stress və gərginlik içərisindədir. Qısa zaman ona uzun bir müddət kimi gəlir.

Daha sonra cinayətkarın boyunun xüsusiyyətlərinin qavranılması da düzgün olmur. Çünki boyu çox insan başqa şeylə müqayisə də qavrayır. Tək başına, stress halında düzgün qısa, uzun, orta boyluluğu haqqında məlumat verə bilmir.

Ətrafda baş verənləri qavramaq əsasən insanın yaş xüsusiyyətlərindən də asılıdır. Məsələn: Yaşlı insanlar insanlarda daha çox danışarkən və ya rəftar edərkən etika qaydalarına riayət edib-etməməsinə daha çox fikir verirlər. Elə cinayət hadisəsi zamanı da əməli törədən hərəkətlərinə, danışığına fikir verirlər. Yaşlıların əksinə olaraq gənc nəsil isə insanların statusuna, geyiminə, fiziki gücünə daha çox əhəmiyyət verir.

V.S. Minskaya qurban davranışının formalarını təsnif edərək qeyd edir ki, zorakılıq xarakterli cinayətlərin əksəriyyətində qurbanın davranışı mahiyyətcə bu cinayətlərin təxribatı olub. A V.S. Minskaya həmçinin cinayət qurbanlarının davranışının sosial təhlükəlilik dərəcəsindən asılı olaraq təsnifatını təqdim edir:

- Zərərçəkmiş şəxsin cinayət əməlləri cəmiyyətin və ya fərdin mənafeyinə sosial təhlükəli hücumdur, onu zəruri müdafiə vəziyyətinə gətirir və ya güclü emosional pozğunluq yaradır.
- Zərərçəkmiş şəxsin inzibati və ya mülki hüquq normalarını və ya intizam qaydalarını pozan hərəkətləri daha az ictimai təhlükəli və buna görə də qisas xarakterli cinayət əməlinin ictimai təhlükəsinə az təsir göstərə biləndir.
- Əxlaq normalarının pozulması cəmiyyət üçün daha az təhlükəlidir (digər şeylər bərabərdir), çünki onlar cəmiyyətə daha az zərər verir.

Qurbanın davranışının cinayətdə rolunu B. Xolist də araşdırmışdır. B. Xolist qeyd etmişdir ki, "günahsız meyilli" qurban qrupu ayırd etmiş və buraya təsadüfən qurbana çevrilənləri aid etdi.

"Kriminoloji vəziyyətləri qurbanoloji xüsusiyyətlərə görə" təsnif edən D.V. Riveman aşağıdakıları müəyyənləşdirmişdir:

1. qurbanın davranışı (məsələn, "itələmə" xarakterli vəziyyətlər);
2. zamanla vəziyyətin inkişafı (məsələn, birdəfəlik vəziyyətlər və sistem vəziyyətləri);
3. qurbanla cinayətkarın qarşılıqlı əlaqəsinin xarakteri və s.

Ən həcmli və hərtərəfli təsnifatı P.S. Dagel verir. O, qurbanı xarakterizə
edən əlamətlərin təsnifatını verir:

- Qurbanın şəxsiyyətini xarakterizə edən fiziki və sosial əlamətlər
- Qurbanın davranışının əlamətləri (qanuni, qanunsuz)
- Cinayət zamanı qurbanın vəziyyətidir (çarəsiz, ağrılı)
- Qurbanla cinayəti törədən şəxs arasında əlaqəni müəyyən edən əlamətlər

Cinayət qurbanı müəyyən cinayi hərəkətlərə məruz qaldıqda bu onlardan asılı olmayaraq şəxsə istər mənəvi, istərsə də fiziki təsir göstərir. Bu da onun psixologiyasına təsirdən yan ötmür. Təbikii qurbanın iradəsi xaricində müəyyən hərəkətlər baş verir və bu onda sarsıntı, stress, gərginlik yaratmaya bilməz.

Cinayət nəticəsində baş verə biləcək dəyişikliklər;

- İqtisadi – maddi rifah
- Fiziki – xəsarət nəticəsində yaranmış fiziki dəyişiklik
- Psixoloji – mənəvi rifah

Mənəvi rifah dedikdə əsasən baş vermiş təsir nəticəsində subyektin qavrayışının pozulmasıdır. Zərər insanın ətraf aləmə məruz qalması nəticəsində onun subyektiv qavrayışının pozulmasıdır. Bu da şəxsin ehtiyaclarını ödəməsinə, ətraf aləm ya da insanlarla münasibətinə, ətrafını adekvat qavramasına mənfi təsir göstərir.

Amma nəzərə almaq lazımdır ki, qurbanın psixi vəziyyətini müəyyənləşdirmək üçün həm cinayətdən əvvəlki, həm də sonrakı psixoloji vəziyyətini müqayisə etmək lazımdır. Çünki başqa cür onun psixoloji dəyişikliyini müəyyən edə bilmərik. Bəlkə psixoloji dəyişikliklər cinayətdən əvvəl olan hansısa hadisə ilə bağlıdır. Amma şəxs əgər ilk dəfə psixoloji müayinəyə məruz qalırsa bu zaman onun cinayətdən əvvəlki vəziyyətini müəyyənləşdirmək çətinləşir. Onun qohumlarının, tanışlarının, dostlarının sözlərinə özünün həyat tərzinə görə tam olmayan məlumatlar əldə etmək sadəcə mümkündür. Bu da lazım olan müqayisənin aparılmasını mümkün etmir. Hər hansı metoddan istifadə olunsa bu zamanda bütün həyatı boyu baş verən hadisələrin təsiri ilə cinayətin təsirini ayırmaq olmayacaq.

Psixoloji vəziyyəti müəyyənləşdirərkən bir neçə meyar nəzərə alınmalıdır:

- Baş vermiş dəyişikliklərin zərər çəkmişin qorxusu və ya narahatlığı səbəbindən baş verib-verməməsi;
- Baş vermiş dəyişikliklərin xəsarət və ya fiziki zərərlə bağlı olub-olmaması;
- Yetirilmiş xəsarətin psixi pozğunluğa səbəb olub-olmadığını;

Psixoloji meyarlar zamanı nəzərə alınmalı olan digər meyarlar; xəsarətin növü, müalicənin nə qədər davam etməsi, ağrıya qarşı xüsusi həssaslıq varmı, şəxsin yaşı, hər hansısa iz qalıbmı, bu izə görə şəxs özünü “çirkin” his edirmi, özünün, yaxınlarının taleyi ilə bağlı narahatdırmı, xüsusi qabiliyyətlərini hələ də icra edə bilirmi, psixi həssaslığı varmı, vəziyyətindən tam xəbərdardırmı (ola bilər ya yüksək ya da aşağı qiymətləndirir).

## ƏDƏBİYYAT

1. Антонян Ю.М., Верещагин В.А. и др. Серийные сексуальные убийства. Уч. Пособие. М., 1997. 203 стр.
2. Аугустинавичюте А. О дуальной природе человека. //Соционика, ментология и психология личности. №2 1996. Стр. 2-13, №1. Стр. 5-19.
3. Declaration of Basic Principles of Justice for Victims of Crime and Abuse of Power
4. Воротынский Б.И. Биологические и социальные факторы преступности. С. Петербург. 1901. 120 стр.
5. Ривман Д.В. Виктимологические факторы и профилактика преступлений. Ленинград: 1975. 210 стр

# VİKTİM DAVRANIŞININ FENOMENOLOGIYASI

***Rzayeva Aysun***

## XÜLASƏ

“Qurban” termini fiziki və ya psixoloji xəsarətlər, emosional sıxıntılar, iqtisadi itkilər və ya əsas hüquqlarının əhəmiyyətli dərəcədə zəifləməsi də daxil olmaqla, hərəkət və ya hərəkətsizlik səbəbindən zərər çəkən şəxslərə və ya qruplara aiddir. Bu anlayışa həmçinin zəruri hallarda qurbanın yaxın qohumları və ya qəyyumları, habelə zərərçəkmişlərə kömək etmək və ya qurbanlığın qarşısını almaq üçün müdaxilə zamanı zərər çəkə biləcək şəxslər də daxildir. Beləliklə, insan başqasına münasibətdə qurbana çevrilir. Bir tərəfin təcavüzü digər tərəfi müəyyən dəyərlərdən, maldan, sağlamlıqdan və həyatdan məhrum edir.

Qurbanlığın subyektiv tərəfi fərdin bu elementlərə nə qədər dəyər vermәsindən asılıdır, obyektiv cəhət isə daha çox insana vurulan fiziki və mənəvi zərərlə bağlıdır. Bu mövzu araşdırmalar aparan və cinayət nisbətlərini azaltmağa kömək etmək üçün tövsiyələr verən bir çox tədqiqatçının böyük marağına səbəb olur.

## ФЕНОМЕНОЛОГИЯ ПОВЕДЕНИЯ ЖЕРТВЫ

***Рзаева Айсун***

**АННОТАЦИЯ**

Понятие жертвы охватывает как физические, так и психологические травмы, а также экономические потери и значительное ухудшение основных прав. Оно включает не только самих жертв, но и их ближайших родственников или опекунов, а также тех, кто пострадал при попытках помочь жертвам или предотвратить жертвы. Взаимоотношения между сторонами заключаются в том, что агрессия одной стороны лишает другую определенных ценностей, имущества, здоровья и жизни. Субъективный аспект жертвы зависит от того, насколько важны для человека эти ценности, в то время как объективный аспект представляет собой физический и моральный ущерб. Это вызывает интерес у многих исследователей, которые проводят исследования и делают рекомендации для снижения уровня преступности.

## PHENOMENOLOGY OF VİCTİM BEHAVİOR

***Rzayeva Aysun***

**SUMMARY**

The term “victim” refers to individuals or groups who suffer harm due to actions or inactions, including physical or psychological injuries, emotional distress, economic loss, or significant weakening of their fundamental rights. This concept also includes, when necessary, the close relatives or guardians of the victim, as well as those who may be harmed while intervening to assist victims or prevent victimization. Thus, a person becomes a victim in relation to another. One party’s aggression deprives the other of certain values, property, health, and life. The subjective aspect of victimhood depends on how much value an individual places on these elements, while the objective aspect relates more to the physical and moral damage inflicted on the person. This topic is of great interest to many researchers, who conduct studies and make recommendations to help reduce crime rates.

# CİNSİ CİNAYƏTLƏR TÖRƏTMİŞ YETKİNLİK YAŞINA ÇATMAYANLARIN CİNAYƏTKAR QRUPLARININ KRİMİNAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Süleymanzadə Nigar***
***BDU-nun II kurs magistrantı***
*snigar2002@gmail.com*

***Açar sözlər:*** cinayətkar qrup, yetkinlik yaşına çatmayan, cinsi toxunulmazlıq əleyhinə cinayətlər, zorlama, zorlama qurbanı.
***Ключевые слова:*** преступная группа, несовершеннолетний, преступления против половой неприкосновенности, изнасилование, жертва изнасилования.
***Keywords:*** criminal group, minor, crimes against sexual inviolability, rape, rape victim.

Yetkinlik yaşına çatmayanların qruplaşma mexanizmləri, qrupdaxili ünsiyyətin psixologiyası və yeniyetməni müəyyən qrupa qoşulmağa sövq edən motivlər kriminal psixologiyada öz aktuallığı ilə seçilən və bir sıra tədqiqatların diqqət mərkəzində olan problemdir. Elmi ədəbiyyatın təhlili göstərir ki, həmin tədqiqaların əksəriyyəti ya yeniyetmələrin cinsi davranışlarına, ya da ki, yetkinlik yaşına çatmayanlara qarşı zorakılıq, eləcə də onların qrup halında törətikləri kriminal davranışları ilə bağlı məsələlərə həsr olunur.

Kriminologiya nəzəriyyəsində ənənəvi cinayətkar qrup, cinayət fəaliyyətinin vahid obyekti olan, birgə antisosial qeyri-qanuni fəaliyyət əsasında ümumi kriminal məqsədə nail olmağa çalışan insanları birləşdirən kiçik qeyri-rəsmi qrup kimi təsvir edilir. Belə ki, müəlliflərdən M.V.Bıkov bu anlayışın aşağıdakı xüsusiyyətlərini müəyyən edir: cinayətkar qrup insanların birliyidir; sosial psixologiya baxımından kiçik bir qeyri-rəsmi qrupdur; onun istiqaməti antisosialdır; birləşmə birgə cinayət fəaliyyəti əsasında baş verir; qrup üzvləri müəyyən dərəcədə təşkil olunur; qrup cinayət fəaliyyətinin vahid xüsusi subyekti kimi çıxış edir [1, s. 45].

Ənənəvi olaraq ədəbiyyatda müasir istintaq təcrübəsində rast gəlinən cinayətkar qruplar təşkilatlanma səviyyəsinə görə bir neçə növə (və ya tipə) bölünür [3].

Birinci növ təsadüfi qrupdur ki, bura təsadüfən və ya situasiyaya görə qrup cinayəti törətmək üçün birləşmiş şəxslər daxildir. Bu tip xüsusilə azyaşlılar qrupları üçün xarakterikdir və psixoloji baxımdan onlar ən sadədirlər. Bir qayda olaraq, yetkinlik yaşına çatmayanlar əvvəlcə bir yerdə vaxt keçirmələri nəticəsində bəzi emosional amillərin təsiri altında sadə ünsiyyət məqsədi ilə qruplarda birləşirlər, lakin sonradan onlar antisosial istiqamət əldə edə bilirlər.

Qrup üzvlərini birləşdirməkdə məqsəd əvvəlcə cinayət törətmək deyil, ünsiyyət ehtiyacını ödəməkdir. Onların bir çoxu ilk cinayətini həmrəylik hissi ilə, təsadüfən, qəfildən yaranan situasiysnın fonunda törədir. Bu tip qruplarda hələ də aydın psixoloji və funksional struktur yoxdur, heç bir lider meydana çıxmayıb, qərarlar əsasən konkret vəziyyətin fonunda və emosiyaların təsiri altında kollektiv şəkildə qəbul edilir. Təsadüfi qrupda rollar, bir qayda olaraq, bölüşdürülmür - birgə hərəkətlər yolu ilə cinayət birlikdə törədilir ki, bu da əsasən mürəkkəb hazırlıq və tərəfdaşların funksiyalarının bölüşdürülməsini tələb etmir. Onların bir çox hərəkətləri düşünülmüş plan olmadan, vəziyyətə uyğun olaraq, duyğuların və anlıq impulsların təsiri altında həyata keçirilir. Qrup üzvləri arasında həmrəylik dərəcəsi aşağıdır, qrupun ifşası və üzvlərinin cinayət məsuliyyətinə cəlb edilməsi zamanı qarşılıqlı asılılıq, dəstək və müdafiə zəifdir. Bu cür cinayətkar qruplar, nadir istisnalarla, qeyri-sabitdir və bir və ya bir neçə əməli törətdikdən sonra dağılırlar. Bu cür qrupların iştirakçılarının çoxu cinayətə görə cəzanın mümkünlüyü barədə düşünmürlər. Belə ki, L.A.Ryabisin sözlərinə görə, cinayətkar qrupların yalnız 46%-də yetkinlik yaşına çatma-

yanlar cinayət təqibi və cəzanın mümkünlüyü barədə danışaraq, gələcək üçün istintaq zamanı ümumi davranış xəttini inkişaf etdirməyə çalışırlar, 32%-i isə törədilmiş əməlləri etiraf etməmək barəsində sözləşirlər [3, səh.22]. Əsasən, belə bir qrup onun ayrı-ayrl üzvləri üçün referent qrupu deyil, buna görə də qrup üzvləri onun fikirlərinə və dəyərlərinə diqqət yetirməyə meylli deyillər. Eyni zamanda, qrup daxilində konformizm səviyyəsi yüksəkdir ki, bu da sosial cəhətdən qeyri-yetkin şəxslərin sosiallığa bir növ pozulmuş həvəsi kimi şərh olunur.

Elmi ədəbiyyatda bu tip qruplar müxtəlif adlar almışdır. L.I.Umanskinin təklifinə görə bunlar konqlomerat qruplardır [4, səh.32]. A.V.Petrovskinin təsnifatına görə - diffuz [5, səh.18], A.R. Ratinova görə - amorf. İ.P.Başkatovun fikrincə, bunlar sosial cəhətdən neytral ünsiyyət qruplarıdır. Onların formalaşmasında yeniyetmələrin qruplaşdırıldığı, kriminal və kriminogen birliklər yaradan toplanma yerlərinin rolu xüsusilə vacibdir. Burada onlar tanış olur, həmfikir dostlar tapır, o cümlədən cinayət işlərində məlumat mübadiləsi aparır, zəhərli və narkotik maddələrdən istifadə edirlər.

İ.P.Bashkatov yeniyetmə qrupunun ayrıca bir növünü - cinayətə qədərki və ya asosial imitasiya qrupunu da müəyyən edir. Oxşar qrup tipini L.İ.Umanski müəyyən etmiş və onlara parçalanma qrupları adını vermişdi. A.Petrovskinin təsnifatına görə bunlar assosial birliklərdir. Bu tipə imitasiya maraqları ilə birləşmiş yeniyetmə və gənc kişilər qrupları (“fanatlar”, “qara köynəklər” və s.) daxildir. Onlar hələ də birlikdə ağır cinayət törətməmələri ilə xarakterizə olunur ki, onlarda təşkilati birlik, həmrəylik və sabitlik yoxdur. Onların qrup fəaliyyətləri ümumiyyətlə asosial qərəzli intim şəxsi ünsiyyətə yönəlib, yəni, ictimai asayişin pozulması, spirtli içkilərin qəbulu və s. Eyni zamanda, qrupun ayrı-ayrı üzvləri artıq ağır cinayətlərə (narkotik maddələrin istifadəsi, satışı və saxlanması, xuliqanlıq, qəsdən sağlamlığa zərər vurma, zorlama və s.) qadirdirlər.

Ədəbiyyatda yeniyetmə cinayətkar birliklərinin başqa bir növü - “şirkət” tipli cinayətkar qruplar ad qazanmışdır. Bu cinayətkar qruplar sabitlik xüsusiyyətləri qazanır və strukturuna və təşkilinə görə daha mürəkkəbdir. V.M.Bıkov bu tip qrupların aşağıdakı xüsusiyyətlərini müəyyən edir: bir neçə homogen cinayətin törədilməsi, mütəşəkkil qruplaşmaya keçidin müəyyən əlamətləri artıq ortaya çıxsa da, ortaqlar arasında şəxsi münasibətlərin qorunması [1,səh.28]. Belə cinayətkar qruplar xüsusilə yeniyetməlik və erkən yeniyetməlik dövrü üçün xarakterikdir. Onlar daha mütəşəkkildirlər, kadrları müəyyən qədər stabilləşib, cinayətkarlıq səviyyəsi yüksəkdir.

Belə qrupların üzvləri öz utilitar ehtiyaclarını ilk növbədə qeyri-qanuni və ya cinayət yolu ilə təmin etməyə meyllidirlər. Üstəlik, kriminal fəaliyyət artıq mühüm yer tutur və aparıcı rol oynamağa başlayır, lakin bu fəaliyyətlə bağlı hələ də dəqiq planlar yoxdur. Yeniyetmə şirkətlər üçün tipik cinayətlər - əmlak oğurluğu, soyğunçuluq və hücum, xuliqanlıq, sağlamlığa qəsdən zərər vurma, zorlama və s.-dir.

Bu tip qruplarda psixoloji və funksional strukturlar hələ inkişaf etməmişdir, Onların artıq aydın şəkildə müəyyən edilmiş lideri ola da bilər, olmaya da, lakin şübhəsiz ki, cinayət və ya sosial cəhətdən ən nüfuzlu və aktiv üzvlərdən ibarət liderlik nüvəsinə malikdirlər. Bir qayda olaraq, bu özəyi ən çox ruhdan düşmüş yeniyetmələr təşkil edir. Onun üzvləri öz fəaliyyətlərində açıq şəkildə ifadə edilmiş, sırf cinayət ideyasını rəhbər tuturlar və əksər hallarda ənənəvi, cinayətkar-peşəkar baxışlara, inanclara və cinayət məqsədinə nail olmaq üçün konkret ümumi cinayət metodlarına və üsullarına arxalanırlar [1, səh.32].

Yaranan təbəqələşmə səbəbindən belə bir qrupdakı münasibətlər emosional olaraq seçici olur. Qrup cinayətlərinin törədilməsi ilə bağlı işgüzar münasibətlər getdikcə daha çox əhəmiyyət kəsb edir, lakin eyni zamanda, emosional əlaqələrə, seçkilərə, şəxsi simpatiya hisslərinə əsaslanan şəxsiyyətlərarası münasibətlər hələ də əsas rol oynayır.

Bu tipli yeniyetmə və gənclərdən ibarət cinayətkar qruplar əvvəllər təhlil edilən növlərlə müqayisədə daha mütəşəkkildir. Bir sıra hallarda onlar hüquqazidd davranış və cinayət

törətməyə müəyyən hazırlıq nümayiş etdirirlər: "əməliyyatlar" üçün planlar hazırlayırlar, funksiyaları bölüşdürürlər, qeyri-aktiv və aşağı statuslu qrup üzvlərini iştirakçılığa cəlb edirlər (bəzən də məcbur edirlər) və s. Eyni zamanda, belə qrupların nisbi sabitliyi və dözümlüyü yalnız cinayət törədilməzdən əvvəl üzə çıxır. Buna görə İ.P.Bashkatov [3,səh.67] belə qrupları qeyri-sabit cinayətkar və ya antisosial adlandırmağı təklif edir, çünki ifşa olunarsa, onlarda parçalanma müşahidə olunur.

Sonuncu növ ən təhlükəlilərdən biridir – "mütəşəkkil" cinayətkar qruplardır. Onun əsas xüsusiyyəti qrup üzvlərinin sabitliyidir. Davamlılıq qrup üzvləri ilə konkret fərdi fəaliyyət formaları və metodları arasında kifayət qədər güclü daimi əlaqələrin olması ilə xarakterizə olunur.

Mütəşəkkil cinayətkar dəstədə artıq psixoloji struktur formalaşıb və aydın şəkildə ifadə olunub: başda lider dayanır - onun təşkilatçısı və lideri; ona cinayətkar qrupun ən fəal üzvləri, ardınca isə sıravi iştirakçılar bağlanır. Qrupda liderliyə yüksəlmək üçün mübarizə aparan, mövcud liderlə rəqabət aparan və ya qrupun məqsəd və ya fəaliyyət metodları ilə razılaşmadığına görə ona müxalifətdə olan qondarma "müxalifətçi" ola bilər. Belə qruplarda münasibətlər onun üzvlərinin ciddi iyerarxiyası və sərt təbəqələşməsi əsasında qurulur. Üstəlik, statusu aşağıdan yuxarıya dəyişmək yetkinlik yaşına çatmayanlar üçün olduqca çətindir. İerarxik pilləkənin aşağısında dayanan "özlərinin" "zirvələri" tərəfindən ciddi tabeçilik və amansız istismar yetkinlik yaşına çatmayanları qrup statusu uğrunda mübarizədə rəqabətə məcbur edir [4,səh.87].

Qrupda bütün daxili həyat əsasən böyük gəlir əldə etmək üçün bir sıra cinayətlər törətməyə yönəlib. Bu fəaliyyətin gedişində funksional struktur da inkişaf edir ki, bu da qrup cinayətinin törədilməsi ilə əlaqədar cinayətkar qrupun üzvlərinin rol diferensiallaşmasına əsaslanır. Mütəşəkkil cinayətkar qrupda rollar aydın şəkildə bölünür: bəzi üzvlər cinayətlərin hazırlanmasında iştirak edir (kəşfiyyat aparır, uyğun cinayət hədəflərini axtarır, cinayət törətməyin məqbul üsulunu işləyib hazırlayır), digərləri birbaşa cinayət törədirlər, digərləri isə oğurlanmış malların daşınması və satışını təmin edir. Hər kəs öz vəzifələrini dəqiq bilir, buna görə də qrup ardıcıl və mütəşəkkil fəaliyyət göstərir.

Funksional quruluşun inkişafı ilə mütəşəkkil bir qrupda şəxsiyyətlərarası münasibətlər öz xarakterini dəyişir: rəğbət hisslərinə əsaslanan şəxsi münasibətlər lazımsız olur, çünki onlar uğurlu birgə fəaliyyətlərə töhfə vermirlər və yalnız birgə fəaliyyətə əsaslanan işgüzar münasibətlərlə tamamilə əvəz olunurlar. Üstəlik, bütün münasibətlər gizli olmağa başlayır: iştirakçılar bir-birləri ilə nəzərə çarpan əlaqələri saxlamamağa çalışırlar, lider həmkarlarının ciddi məhdud dairəsi ilə ünsiyyət qurur və adi üzvlər hətta onu tanımır.

Yetkinlik yaşına çatmayanlar üçün qrup şəklində cinsi cinayətlərin törədilməsi bu növ əməlin geniş yayılmasını müəyyən edən bir sıra üstünlüklərə malikdir:

Birincisi, birgə qrup hərəkətləri sayəsində bu hərəkətlər olmadan çox çətin və ya (qurbanın aktiv müqaviməti halında) tamamilə əlçatmaz olacaq bir məqsədə nail olunur. Bu məqam böyüklərlə müqayisədə qurbanın müqavimətini təkbaşına qırmaq üçün kifayət qədər fiziki gücə və cinsi təcrübəyə malik olmayan yetkinlik yaşına çatmayanlar üçün xüsusilə vacib görünür.

İkincisi, digər qrup üzvlərinin olması və onlardan sosial dəstək yeniyetmədə təkbaşına etməyə cəsarət edə bilməyəcəyi seksual və aqressiv hərəkətləri həyata keçirmək üçün cəsarət verir.

Üçüncüsü, qrup cinsi cinayətlərdə digər iştirakçıların olması ona öz kişiliyini və cinsi təcrübəsini onlara nümayiş etdirməyə imkan verir. Yeniyetmə qruplarında cinsi aqressivliyin nümayiş etdirilməsi sosial qiymətləndirməyə və qrup statusuna müsbət təsir göstərir.

Nəhayət, dördüncü, bəzi cinayətkarlar üçün tələbatlarının ödənilməsinin qrup forması əlavə cinsi stimullaşdırıcıdır və gələcəkdə cinsi ehtiyacların ödənilməsinin müstəsna formasına çevrilə bilər. Z.Staroviçin qeyd etdiyi kimi, məsələn, onun tədqiq etdiyi bir sıra zor-

lama cinayəti törədənlər orgistik formada və ya dəqiq şəkildə qrup zorlamasında iştirak şəklində baş verən erkən cinsi təşəbbüs ilə xarakterizə olunurdu.

Cinsi zorakılıq problemini tədqiq edənlərdən biri L.P.Konışevadır. Yetkinlik yaşına çatmayanlara qarşı zorlama ilə bağlı cinayət işlərinin araşdırılmasının psixoloji problemlərini nəzərə alan müəllif bu cür cinayətləri törədən seksual cinayətkarların şəxsiyyəti ilə bağlı məsələlərə də toxunur. Xüsusilə, onun təklif etdirdiyi cinsi cinayətkarların tipologiyasına qrup şəklində təcavüz edən üç kateqoriyalı şəxslər daxildir [2, səh.16]:

1. Antisosial dəyərlərin üstünlük təşkil etdiyi antisosial oriyentasiyalı qrupun üzvləri: onlar qadınlarla kobud və qəddar ünsiyyət formalarını təbliğ edir, qrup halında heteroseksual fəaliyyətə birbaşa təşviq edilir. Bu tip cinayətlərin əksəriyyəti, konkret qurbanın seçilib-seçilməməsindən asılı olmayaraq əvvəlcədən planlaşdırılmışdır. Çox vaxt bu növ cinayət qrupa yeni bir üzvün daxil olması ritualı kimi həyata keçirilir. Qurbanlar əsasən qrup üzvlərinin tanıdıqları, sinif yoldaşları və ya qonşulauqda yaşayan yetkinlik yaşına çatmış qızlardır. Çox vaxt bunlar pis reputasiyası olan, alkoqol və ya narkotik qəbul etməyə meylli, əqli cəhətdən qüsurlu və s. qızlardır. Bundan əlavə, onların seçimi təsadüfi ola bilər.

2. Qurbanın əvvəlki davranışı cinayətkarlara heç bir müqavimət olmayacağına ümid etməyə əsas verir. Cinayətkar üçün gözlənilməz olan qurbanın müqaviməti məyusluq, frustrasiya yaradır. Bu növ cinayətlər adətən xüsusilə qəddar formalarda törədilir. Kənardan müdaxilə ehtimalı, bir qayda olaraq, kiçikdir, buna qurbanların qeyri-ciddi və ya həddən artıq özgüvənli davranışları kömək edir. Tez-tez belə hallar olur ki, qurban qrup üzvlərindən biri ilə intim münasibətdə olmağa razılaşıb və sonra o, hamı ilə cinsi əlaqədə olmağa məcbur edilir.

3. “Qisas almaq” məqsədilə qurbanların tanışlarının qrup şəklində zorlanmasının iştirakçıları. Belə qruplar əsasən 2-dən çox üzvdən ibarətdir. Orta yaş həddi 17-dir. Bu növ cinayətin təşkilatçıları adətən qrupun digər üzvlərini zorlamağa təhrik edən qızlardır. Belə hallarda qurbanlar amansız rəftarlara məruz qalır, onlara istehza edilir, sadist hərəkətlərə, xüsusən də zorlama zamanı təşkilatlanmış və orada iştirak etmiş qızlar tərəfindən tez-tez rast gəlinir.

L.P. Konışevanın tipologiyası bir sıra hallarda məhkəmə-psixoloji müayinələr aparakən praktiki baxımdan çox məhsuldar olur. Bununla belə, çatışmazlıqlardan azad deyil. Xüsusilə qeyd etmək lazımdır ki, təsnifat əsasları heterogendir.

Elmi ədəbiyyatda mövcud olan zorakı cinsi cinayətlər törədən qrupların bir neçə təsnifatından biri də törətdikləri cinsi təcavüzlərin xarakterinə görə doqquz növ cinayətkar qrupları müəyyən edən V.F.Pirojkovun [4, səh.35] tipologiyasıdır.

Birinci növə, əvvəllər qanuna tabe olan yeniyetmə və gənc kişilər arasında təsadüf edilir ki, onlar üçün zorlama yaranmış əlverişli vəziyyətin nəticəsidir.

İkincisi “qrup cinsi manyakı”dır. Bunlar təcavüz etmək üçün xüsusi olaraq yaradılmış qruplardır. Qrupun ən təcrübəli üzvləri qurban axtarır, ona öz “hisslərini göstərməklə” özlərinə “bağlayırlar”, əvvəlcə onunla birlikdə yaşayırlar və qurban daha sonra qrupa “təslim olunur”.

Üçüncüsü, zorlamanın diqqəti yayındırmaq, əsas cinayət fəaliyyət növündən (quldurluq, quldurluq və s.) qopmaq məqsədi ilə icra edən cinayətkar qruplardır. Sxem eynidir: qurbanı tanımaq, onu “cəlb etmək”, onu qrupun toplaşdığı “məkana” gətirmək və son olaraq ölümcül və ya ölümcül olmayan nəticə ilə qrup zorlaması.

Dördüncüsü “aspirant” tipidir. Qurbanla görüşərkən cinayətkarlar, bir qayda olaraq, mədəni ailələrdən olan gənclər özlərini nüfuzlu universitetlərin aspirantları kimi təqdim edir, qızı kinorejissorla tanış edəcəklərini vəd edərək, onu zorlama ehtimalına imkan verən yerə cəlb edir.

Beşinci tip kortəbii olur, kimsəsiz yerdə təsadüfən rastlaşdıqları ilk tanımadığı qadını və ya qızı zorlayırlar.

Altıncı tip təcavüzkar-qatil qruplarıdır. Adətən qurbanları onları tanıya biləcəyi üçün onlar öldürülür.

Yeddinci tip, bu qrupun üzvləri olan qızların zorlanması, sonra isə onlarla daimi birgə yaşayışdır.

Səkkizinci abituriyent növüdür, müəllifə görə, hazırda ən çox yayılmışlardan biridir. Gələcək qurbanlar filmlərdə müəyyən rollar üçün tipik insanları axtaran "rejissor" bəhanəsi ilə şəhərlərə səfər edən abituriyentlər arasından qatar stansiyalarında seçilir.

Nəzərdən keçirilən təsnifatlara əsasən deyə bilərik ki, onlar bir neçə məqama əsaslanır, onlardan ikisini vurğulamaq lazımdır:

Birincisi, bunlar yetkinlik yaşına çatmayanların qruplara birləşməsinə kömək edən birgə fəaliyyət növləridir. Məsələn:

- üzvləri "əyləncə" üsullarından biri kimi zorlama və cinsi zorakılıqla məşğul ola biləcək istirahət və əyləncə;
- ümumi cinayətkar, başqa, ümumi cinayət törətmək üçün yaradılmış və cinsi xarakterli olanlar onların cinayət fəaliyyətinin yalnız "yan" növüdür;
- cinsi cinayətlər törətmək üçün xüsusi olaraq birləşmiş cinsi cinayətkarlar.

İkincisi, bu tipologiya cinsi cinayətlərin törədilməsi məqsədinə əsaslana bilər:

- cinsi tələbatların ödənilməsi, əyləncə, istirahət
- qrupun birliyini artırmaq və ya onun ayrı-ayrı üzvlərinə təsir etmək məqsədi daşıyan qrup rituallarının növü;
- qurbanın davranışına daha da nəzarət etmək və ondan cinayət məqsədləri üçün istifadə etmək məqsədi ilə ona dağıdıcı psixoloji təsir metodu .

Nəhayət, qurbanın cəzalandırılması, qurbandan qisas alınması. Bu halda, qurban həm öz davranışına görə "cəzalandırıla", həm də cəzaya məruz qalan az və ya çox dərəcədə şəxsiyyətsizləşdirilmiş "simvol" kimi çıxış edə bilər;

## ƏDƏBİYYAT


1. Быков В.М. Криминалистическая характеристика преступных групп. Ташкент, 1986.147 с.
2. Башкатов И.П. Психология асоциально-криминальных групп подростков и молодежи. М.; Воронеж, 2002. 416 с.
3. Долгова А.И. Социально-психологические аспекты преступности несовершеннолетних. М., 1981. 159 с.
4. Пирожков В.Ф. Криминальная психология. М., 1998. Т. 1. 304 с.
5. Михайлова О.Ю. Криминальная сексуальная агрессия: экспериментально-психологическое исследование / под ред. П.Н. Ермакова. Ростов н/Д, 2000. 138 с.


## CİNSİ CİNAYƏTLƏR TÖRƏTMİŞ YETKİNLİK YAŞINA ÇATMAYANLARIN CİNAYƏTKAR QRUPLARININ KRİMİNAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Süleymanzadə Nigar***

## XÜLASƏ

Məqalədə yeniyetmələrin qrup cinayətləri problemi araşdırılır. Qrup şəklində cinsi toxunulmazlığa qarşı cinayət törədən yetkinlik yaşına çatmayanlara xüsusi diqqət yetirilir. Yetkinlik yaşına çatmayanların cinayət qruplarının müxtəlif növləri nəzərdən keçirilir, onların kriminoloji və psixoloji mahiyyəti təhlil edilir. Məqalədə eyni zamanda elmi

ədəbiyyatda təklif olunan cinsi cinayətlər törətmiş yetkinlik yaşına çatmayanların cinayət qruplarının təsnifatının müxtəlif əsaslarını ümumiləşdirməyə cəhd edilir.

Asosial və kriminal yönümlü gənclərin submədəniyyət konsepsiyasına və onların yetkinlik yaşına çatmayanların cinayətkar davranışlarının formalaşmasına təsiri məsələsinə də toxunulur.

## КРИМИНОЛОГО-ПСИХОЛОГИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ ПРЕСТУПНЫХ ГРУПП НЕСОВЕРШЕННОЛЕТНИХ, СОВЕРШАЮЩИХ ПОЛОВЫЕ ПРЕСТУПЛЕНИЯ

***Сулейманзаде Нигяр***

### АННОТАЦИЯ

В статье рассматривается проблема групповой подростковой преступности. Особое внимание уделяется несовершеннолетним, совершающим преступления против половой неприкосновенности в групповой форме. Приводятся различные типы и виды преступных групп несовершеннолетних и анализируется их криминолого-психологический характер. Предпринимается попытка обобщения различных оснований классификации преступных групп несовершеннолетних, совершающих половые преступления, предложенных в научной литературе.

Также затрагивается понятие молодежных субкультур асоциальной и криминальной направленности и их влияние на формирование правонарушающего и преступного поведения несовершеннолетних.

## CRİMİNOLOGİCAL AND PSYCHOLOGİCAL CHARACTERİSTİCS OF CRİMİNAL GROUPS OF MİNORS COMİITİING SEX CİIMES

***Suleymanzadeh Nigar***

### SUMMARY

The article considers the problem of group juvenile crime. Special attention is paid to young people who commit crimes against sexual integrity in a group format. The research reveals different types and kinds of minors' criminal groups and their criminology psychological character is analyzed. As a result of this analysis, an attempt to generalize the different bases of classification of juveniles' gangs committing sex offenses proposed in the scientific literature is undertaken.

The notion of youth subcultures of antisocial and criminal orientation and their impact on infringing and criminal behavior of juveniles is considered.

# YETKİNLİK YAŞINA ÇATMAYAN MƏHKUMLARIN ŞƏXSİYYƏTİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Heydərova İrəm Vüqar qızı***
***BDU-nun II kurs magistrantı***
*irem.heydarova12@gmail.com*

***Açar sözlər***: cinayi davranış, yeniyetməlik yaşı, cinayətkarlar, cinayət, psixoloji xüsusiyyətlər, şəxsiyyət, resosializasiya,
***Keywords***: criminal behavior, adolescence, criminals, crime, psychological characteristics, personality, resocialization
***Ключевыеслова***: преступное поведение, подростковый возраст, преступники, преступность, психологические особенности, личность, ресоциализация.

Yetkinlik yaşına çatmayan cinayətkar termini hələ XXI əsrin əvvəllərində ədəbiyyatlarda və bəzi media hesablarında meydana çıxdı. Son illər yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin artması halları demək olar ki, əksər dünya ölkələrində müşahidə olunur.

Buraya daha çox narkotik, cinayətkar dəstələrlə əlaqəli oğurluq, qətl kimi aktlar daxildir. Bəzi yeniyetmələrdə hələ uşaq yaşlarından inadkarlıq, itaətsiz davranışlar müşahidə olunur və bu yeniyetməlik və gənclik dövründə zorakılıq və cinayi davranışın yüngül zaman keçdikcə isə daha ağır formalarına keçir. Məsələn, bəzi uşaqlar heyvanlara qarşı qəddarlıq, həmyaşıdlarına aqressiv davranışlar, maddə istifadəsi nümayiş etdirir və yaşları artıqca bu davranışlarını davam etdirirlər.

Yetkinlik yaşına çatmayan cinayətkarlar dedikdə cinayət qanunvericiliyinə uyğun olaraq 14-17 yaşlarında olub, cinayət törətmiş yeniyetmələr nəzərdə tutulur. Son illər yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin artması halları demək olar ki, əksər dünya ölkələrində də müşahidə olunur. Maraqlıdır ki, dünyanın bir çox böyük ölkələrin statistikasına baxdığımız zaman bu şəkildə saxlanılan uşaqların əhəmiyyətli bir hissəsi 12 yaşından aşağıdır.

Yetkinlik yaşına çatmayan cinayətkarlar daim kütləvi informasiya vasitələrinin və hüquq mühafizə orqanlarının diqqətini çəkir. Xüsusilə, çox kiçik yaşda olanların iştirakı ilə baş verən cinayətləri gördükdən sonra bu mövzu daha da diqqət mərkəzindədir. Loeber və həmkarlarının fikrincə, uşaqlıqdan cinayətkar fəaliyyətə başlayan cinayətkarlar yetkinlik yaşında cinayət törətməyə başlayanlara nisbətən iki-üç dəfə daha çox zorakı və xroniki cinayətkarlar olurlar.

Bəzi yeniyetmələrdə hələ uşaq yaşlarından inadkarlıq, itaətsiz davranışlar müşahidə olunur və bu yeniyetməlik və gənclik dövründə zorakılıq və cinayi davranışın yüngül zaman keçdikcə isə daha ağır formalarına keçir. Məsələn, bəzi uşaqlar heyvanlara qarşı qəddarlıq edir, həmyaşıdlarına aqressiv davranır, oğurluq edir, maddədən sui istifadə nümayiş etdirir və yaşları artıqca bu davranışlarını davam etdirirlər. Onların bu yöndə olan davranışları açıqlamaq üçün keçmişdən günümüzə qədər bir çox tədqiqatçılar tərəfindən müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. Bu nəzəriyyələrə Moffitin inkişaf nəzəriyyəsi, Stenberqin ikili sistem modeli, məcburetmə ilə bağlı inkişaf modeli, hissiz-duyğusuz xüsusiyyətlər nəzəriyyəsi, sosial gərginlik, differensial assosiasiya, sosial kontrol və etiketlənmə nəzəriyyələri aiddir.

Bu nəzəriyyələrin hər biri yetkinlik yaşına çatmayanların cinayi davranışını müxtəlif istiqamətlərdən açıqlayır. İrəli sürülən fikirləri ümumiləşdirərək tədqiqatlar nəticəsində yetkinlik yaşına çatmayanların cinayət törətməsinin səbəblərini bu qruplarda toplamaq olar:

1. Valideynlərin imtina etməsi. Belə valideynlər övladlarına daha az dəstək və məhəbbət göstərir, onlara düşmənçilik edir
2. Çox sərt (təhqir, hədə, qışqırıq, şiddət) valideynlik üsulları
3. İstismara məruz qalmaq
4. Mənfi məktəb təcrübələri, zorakı həmyaşıd davranışlarına məruz qalmaq
5. Zorakılıq xarakterli cinayətlərin qurbanı olmaq
6. Cins və etnik mənsubiyyət və s. ilə bağlı ayrıseçkiliyə məruz qalmaq
7. Hər hansı bir qanunsuz davranış üzündən məhkum olmuş yeniyetmələrin cinayətkar olaraq etiketlənməsi onların bu davranışlarını yenidən davam etdirməsinə zəmin yaradır.
8. Ətraflarında olan yetkin cinayətkarlardan bu davranışları öyrənirlər
9. Məqsədlərinə çatmaq, nüfuz qazanmaq, asan yoldan pul qazanmaq istəyi.

Qeyd olunduğu kimi yetkinlik yaşına çatmayanlar arasında cinayət hallarının vəziyyəti böyük narahatlıq səbəbidir. Yeniyetmə cinayətkarın şəxsiyyət xüsusiyyətlərinin öyrənilməsi kriminologiya və psixologiya kimi elmlərin ən mühüm problemlərindən birinə çevrilmişdir. Bu problemə müxtəlif sahələrin tədqiqatçıları tərəfindən çoxlu elmi tədqiqatlar həsr edilmişdir.

Bildiyimiz kimi yeniyetməlik dövrü əhəmiyyətli psixoloji, emosional və fizioloji dəyişikliklərlə paralel davam edən bir dövrdür. Bu dövrdə yeniyetmələr daha mürəkkəb və daha mücərrəd düşünmələrinə imkan verən idrak qabiliyyətlərinə yiyələnirlər. Emosional olaraq, yeniyetmələr hormonal dəyişikliklər və beynin ön payının emosiya tənzimlənməsi ilə bağlı hissələrində baş verən dəyişikliklər səbəbi ilə tez-tez güclü əhval dəyişiklikləri yaşaya bilirlər.

Yetkinlik yaşına çatmayanların davranışı bir sıra xüsusiyyətlərlə fərqlənir. Onların yetərli təcrübələri yoxdur və buna görə də ətrafdakı hadisələrə hər zaman adekvat reaksiya verə bilmir, baş vermiş situasiyaları düzgün qiymətləndirə bilmirlər. Onlar bu dövrdə tez-tez şəxsiyyət problemləri yaşayır və özlərini, dünyadakı yerlərini anlamağa çalışırlar. Bu axtarışlar ictimai təzyiqlərə, həmyaşıd təsirlərinə və bir sıra digər amillərə qarşı onlarda həssaslıq yarada bilir.

Yeniyetmə cinayətkarların şəxsiyyətlərinin öyrənilməsi xüsusilə maraq doğurur. Çünki bu zaman onun cinayətkar davranışının mexanizmləri və xüsusiyyətləri müəyyən olunur və xüsusilə bu yaşda onları nəyin cinayi əməllərə təhrik etməsinin səbəbləri müəyyənləşdirilir.

Loeber hüquqi ədəbiyyatları tədqiq etdikdən sonra antisosial cinayətlərdə ən böyük davamlılığın çox erkən yaşlarda cinayət əməllərinə başlayan şəxslərdə olduğu nəticəsinə gəldi. Daha sonra isə Herbret belə bir araşdırma etdi və müəyyən etdi ki, qanun pozuntusuna yol vermiş uşaq və yeniyetmələrin üçdə ikisi davranış pozuntusuna malik olaraq qiymətləndirilir.

Psixi Pozuntuların Diaqnostik və Statik Təlimatında müəyyən edildiyi kimi davranış pozuntuları başqalarının əsas hüquqlarının və ya yaşa uyğun olan əsas ictimai norma və qaydaların pozulduğu təkrarlanan və davamlı olaraq özünü göstərən davranış modelləridir. Bu davranışlara insanlara və heyvanlara qarşı aqressiv hərəkətlər, əmlakın məhv edilməsi, aldatma və ya oğurluq, qayda pozuntuları aiddir. Davranış pozuntuları sosial, akademik və ya peşə fəaliyyətində klinik cəhətdən əhəmiyyətli pozulmalara səbəb olur.

Cinayət törədən yeniyetmə şəxsin şəxsiyyətini öyrənərkən müəyyən olunub ki, onların yaşı artdıqca cinayi fəaliyyətləri artır. Bu zaman həmçinin onların yaşlarına bağlı olaraq kriminoloji baxımdan önəm daşıyam xüsusiyyətləri də dəyişir. Ümumiyyətlə bu xüsusiyyətlərin öyrənilməsi çox önəmlidir. Çünki bu yaş dövründə olan cinayətkarların psixoloji xüsusiyyətlərini nəzərə almaq bizə onlarla bağlı profilaktik işin istiqamətlərini müəyyən etməyə, həmin şəxslərin şəxsiyyətinin düzgün formalaşması və sağlam inkişafı üçün əlverişli şərait yaratmaq fürsəti verəcəkdir.

Müəyyən olunmuşdur ki, davranış pozuntuları olan yeniyetmələrin daha sonrakı illərdə yəni yetkinlik dövründə antisosial davranış və ya digər psxiatrik problemlər nümayiş etdirmə ehtimalı daha yüksəkdir. Robin və Rutterin araşdırmaları göstərir ki, uşaqlıqda başlayan davranış pozuntusu olanların yetkinlik yaşında antisosial şəxsiyyət pozuntusuna keçmə ehtimalı iki dəfə çoxdur.

Yeniyetmə cinayətkarın şəxsiyyətinin mənfi tərəflərinə narsisizm, psixopatik meyllər, nevrotizm və makiavelizm aiddir. Yeniyetmə cinayətkarlarda rast gəlinən psixopatiya şəxsiyyətlərarası manipulyasiyalar, antisosial davranışlar, risk almaqdan həzz almaq kimi qeyri-sabit davranışlar kimi təsvir olunur. Makiavelizm isə öz məqsədinə çatmaq üçün manipulyasiyalar etməyə meyilli olan şəxsiyyətdir. Bu şəxslər öz istəklərinin olması üçün hər şey edə bilərlər. Narsisizm ünsiyyətcil və cəlbedici görünsələr də başqalarına önəm verməyən və empatiya qabiliyyəti aşağı olan şəxslərdir. Nəticə olaraq, narsisizm, psixopatiya və makiavelizm doğruluq, cəsarət, empatiklik, dürüstlük, səmimiyyət, sədaqət kimi müsbət keyfiyyətlərin aşağı olması ilə səciyyələndirilir.

Şəxsiyyət ölçüləri ilə yanaşı yeniyetmə cinayətkarların şəxsiyyətinin psixoloji xüsusiyyətlərinə baxdığımız zaman onlarda qeyri-adekvat reaksiyalar, həddindən artıq özlərinə inam və başqalarının fikirlərinə qarşı sərt bir şəkildə qəbul etməzlik görürük. Bu zaman həmçinin onlarda müəyyən davranış uyğunsuzluqları baş verir yəni onların davranışında əks dəyişikliklər özünü göstərir. Hansı ki, utancaqlıq lovğalıq kimi özünü büruzə verir, müstəqillik istəyi pik həddə çatır, qeyri-sabit olurlar qəfil əhvalları, reaksiyaları dəyişir və onlar cəmiyyət tərəfindən ümumi qəbul edilmiş standartlara qarşı mübarizə aparırlar.

Yeniyetmə cinayətkarların bəzilərində cinayətlərinin qurbanlarına qarşı xüsusi amansızlıq, qeyri-insani davranış, qəddarlıq görünür. Onların cinayətkarlığının xüsusi bir cəhəti də ondan ibarətdir ki, onlar daha çox müəyyən qruplara qoşulur və onların iştirakı ilə bu cinayətləri törədirlər. Bu da cinayətkar yeniyetmə şəxsiyyətinin bir xüsusiyyətini ön plana çəkir. Bu xüsusiyyət onların təsir altına tez düşməsidir. Həmçinin onlarda həmyaşıdları arasında öz nüfuzlarını artırmaq, öz hərəkətlərinin düzgün olduğunu göstərmə və cəzadan özləri xilas ola biləcəyini göstərmə istəyi mövcud olur. Onlar böyüklər və onların münsibətlərində olan norma, dəyər və davranışları mənimsəməyə həssas olurlar və özlərini cəmiyyətə göstərmək istəyi ilə çox vaxt həm həmyaşıdlarına həm də böyüklərə qarşı qanunsuz hərəkətlər törədirlər.

Ümumiyyətlə, kriminoloji və psixoloji tədqiqatlar göstərir ki, yeniyetmə cinayətkarın şəxsiyyəti müəyyən əlamətlərlə xarakterizə olunur:

1. Empatiya qabiliyyətinin olmaması əsas göstəricilərdəndir. Çünki bildiyimiz kimi empatiya olmaması demək insanları başa düşməmək, onların acısını duymamaq deməkdir. Nəticə olaraq belə olduqda onların normal münasibətlər qurmaq və davam etdirmək imkanı da olmur.
2. Heç bir əmək sərf etmədən həzz almaq istəyi bu əlamətlərdəndir. Hansı ki, belə yeniyetmələr alkoqol və narkotik suistifaəsinə yönəlirlər.
3. Sürətlə qıcıqlanmağa meyilli qeyri-sabit əhval-ruhiyyəyə malik olurlar. Bu zaman onlarda qəzəbli reaksiyalar, münaqişə vəziyyətlərinə qeyri-adekvat reaksiyalar, güclü aqressiv davranışlar müşahidə olunur.
4. Cəmiyyət tərəfindən qoyulmuş qayda-qanun, qadağalara həmçinin bütün insanlar tərəfindən hörmərt edilən dəyərlərə qarşı laqeydlik və onları yıxmaq istəyinə sahib olurlar.
5. Davamlı olaraq öz yalnış, antisosial davranışlarına haqq qazandırırlar. Başqalarını günahkar olduğunu irəli sürürlər. Öz hərəkətlərinin nəticələrinə görə məsuliyyət hiss etmirlər.
6. Yetkin cinayətkarların və cinayətkar qrupların təsirinə çox asanlıqla məruz qalırlar.
7. Yeniyetmələrdə əksəriyyətlə asan yolla nüfuz qazanmaq və ya həmyaşıdları eləcə də böyüklərin əhatəsində diqqətçəkmək istəyi olur.

8. Onlarda davamlı olaraq müstəqil olmaq istəyi olur. Belə ki, onlar daim böyüklərin qadağalarından uzaq, tək həyat sürmək istəyirlər.

Müstəqillik əldə etmək və öz yerini tapmaq istəyi də çox vaxt yeniyetmələri antisosial davranışlara sövq edən şəxsiyyət xüsusiyyətlərindəndir. Yeniyetmələrin əksəriyyətinin aktivliyi yüksək olduğundan bəzi hallarda onları cinayətə sövq etmək çox asan olur.

Cinayət törətmiş yeniyetmələrin gələcək cinayətlərinin qarşısının alınması üçün onlara Cəza çəkmə müəssisələrindən buraxıldıqdan sonra davamlı dəstək çox vacibdir. Azad edildikdən sonra adekvat dəstək olmadıqda, yetkinlik yaşına çatmayanlar cəmiyyətin təzyiqləri və ya imkanların olmaması səbəbindən cinayətkar davranışa yenidən düşmə riski ilə üzləşirlər.

## ƏDƏBİYYAT

1. Andrews, D.A., &Bonta, J. The psychology of criminal conduct. Routledge. 2010.
2. Bartol, C. R., &Bartol, A. M. The Psychology of Criminal Behavior. Pearson. 2017.
3. Smith, J. The Psychological Basis of Criminal Behavior. Journal of Criminal Psychology, 15(2), 87-102. 2020.
4. Williams, A. Understanding Juvenile Offenders: A Psychological Perspective. Criminal Behavior and Mental Health, 28(4), 275-290. 2018.
5. Loeber, R. & Farrington, D.P. Adolescent Criminal Behavior: Theories and Techniques for Prevention. 1998.
6. Tarhan, N. Çocuk suçluluğu: Nedenler ve çözümler. Timaş Yayınları. (2014).

## YENİLƏNMƏYƏN MƏHBUSLARIN ŞƏXSİYYƏTİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Heydərova İrəm***

## XÜLASƏ

Məqalədə "yetkinlik yaşına çatmayan cinayətkar" termininin yaranması və onun nə demək olduğu müzakirə edilir. Burada əsasən yeniyetməlik dövrünün özünəməxsus xüsusiyyətlərindən bəhs edilir. Məhkum edilmiş yetkinlik yaşına çatmayanların şəxsiyyətinin psixoloji xüsusiyyətləri üzə çıxarılır. Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın səbəbləri araşdırılır, sərt valideynlik, zorakılığa məruz qalma, mənfi məktəb təcrübələri və həmyaşıdların təzyiqi kimi amillərə istinad edilir. Mətn yeniyetmələrin sağlam inkişafını təşviq edən profilaktik tədbirləri inkişaf etdirmək üçün bu xüsusiyyətlərin dərk edilməsinin vacibliyini vurğulamaqla yekunlaşır.

## ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ЛИЧНОСТИ НЕСОВЕРШЕННОЛЕТНИХ ЗАКЛЮЧЕННЫХ

***Гейдарова Ирам***

## АННОТАЦИЯ

В статье говорится о появлении термина «несовершеннолетний преступник» и о том, что он по сути означает. В основном речь идет об уникальных особенностях подросткового возраста. Выявлены психологические особенности личности несовершеннолетних осужденных. Исследуются причины преступности среди несовершеннолетних, ссылаясь на такие факторы, как жесткое воспитание, подверженность насилию, негативный школьный опыт и давление со стороны сверстников. В заключение текста подчеркивается важность понимания этих характеристик для разработки профилактических мер, способствующих здоровому развитию подростков.

# PSYCHOLOGICAL CHARACTERISTICS OF THE PERSONALITY OF JUVENILE PRISONERS

***Heydarova Iram***

## SUMMARY

The article discusses the emergence of the term "juvenile criminal" and what it means. It mainly talks about the unique characteristics of adolescence. The psychological characteristics of the personality of convicted minors are revealed. The causes of juvenile delinquency are explored, citing factors such as harsh parenting, exposure to violence, negative school experiences, and peer pressure. The text concludes by emphasizing the importance of understanding these characteristics to develop preventive interventions promoting healthy adolescent development.

# ФЕНОМЕН ПРОРОЧЕСТВА И ДРУГИЕ ПСИХО-БИО-ФИЗИОЛОГИЧЕСКИЕ ЯВЛЕНИЯ

***А.Ф.Намазова***
***Доцент кафедры философии***
***Бакинского Государственного Университета***

*Время вносит вполне объяснимую метафизическую сумятицу:*
*оно появилось вместе с человеком, но вечности предшествует.*
*Х.Л. Борхес*

***Ключевые слова:*** философские понятия, пророчество как дар и состояние, самосознание.
***Açar sözlər:*** fəlsəfi anlayışlar, hədiyyə və hal kimi peyğəmbərlik, özünüdərk.
***Keywords:*** philosophical concepts, prophecy as a gift and state, self-awareness.

С самого начала существования человеческого общества удовлетворение различных жизненных потребностей (пища, безопасность, защита и др.) постоянно находилось под вопросом из-за непредвиденных событий. Неудачная охота, нападение сильных хищников, длительные периоды похолодания, болезни, эпидемии, гибель самых способных членов первобытного коллектива – все это требовало постоянной готовности к коллективным ответным действиям.

Чтобы преодолеть или избежать этих трудностей, необходимо постижение будущего, поэтому уже в первобытном обществе знание будущего имело высокую социальную ценность. Само же предсказание будущего невозможно без обращения к памяти, в которой зафиксированы повторяющиеся связи между событиями.

В структуре архаического мышления, как указывалось выше, формируются три стратегии предсказания будущих, еще не воспринимаемых событий на основе уже известных свойств окружающего мира. Первые две стратегии являются собственно мыслительными и различаются в зависимости от того, что фиксируется в воспринимаемых связях. Третья стратегия основана на том, что предугадывание будущего исходит из подражания воспринимаемых свойств тех или иных явлений окружающего мира. С этой стратегией органически связаны процедуры магии и колдовства; в этой магико-религиозной стратегии будущее не столько предсказывается, сколько вынуждается: жертва умиротворяет гневных богов или духов и заставляет их выполнить ту или иную просьбу человека или племени. Осуществлял эту магико-религиозную стратегию в первобытном обществе шаман; этимологически слово «шаман» восходит к понятию «знание» в индоевропейских языках; шаман – это тот, кто «знает», причем «знает» с помощью духов. Антропологи подчеркивают, что шаман — значит «властитель духов», религиоведы связывают шаманизм с идеей сверхъестественного, с анимизмом и тотемизмом.

В шаманистском мировоззрении природа понимается как человеческое тело, живое существо, функционирование которого происходит от действий каждой его части. Такого рода представления прослеживаются в индуистском и буддистском понятии дхармы, в даосизме, в «космосе» древних греков. Все шаманистское мировоззрение построено вокруг представления о Вселенной как космосе, который как упорядоченное и сбалансированное целое предполагает источник организации – так возникает идея «Великого духа», первый шаг на пути к монотеизму. Для нас существенно то, что магия направлена на предсказание или, точнее, на прорицание будущих событий, что магия оставила свой след в культуре месопотамской цивилизации, даосизме, зороастризме, исландских сагах, древнегреческих мифах, в полинезийских поверьях и других религиозно-мистических системах.

Древние греки верили в возможность колдовства и искусство прорицания, тесно связанных с миром олимпийских богов, полубогов, нимф и других богоподобных существ. Это весьма четко просматривается в гомеровских произведениях: когда царь Менелай на Фаросе хочет поймать «правдиво вешающего морского старца Протея, одаренного божественной силой, взор которого проникает через морские глубины», то это не легко ему удается, как видно из его рассказа:

«Кинувшись с криком на сонного, сильной рукою все вместе
Мы обхватили его; но старик не забыл чародейства;
Вдруг он в свирепого с гривой огромного льва обратился;
После предстал нам драконом, пантерою, вепрем великим,
Быстротекучей водою и деревом густовершинным;
Мы, не робея, тем крепче его, тем упорней держали»
(Одиссея. IV) (4, 454-459).

В общем, в поэмах Гомера очень мало говорится о колдовстве или волшебстве; о нем говорится лишь там, где речь идет о чудодейственном применении растительных веществ наркотического типа.

Из таких мест особенно известно одно, на которое часто ссылаются как на доказательство того, что магия была в ходу у греков: это рассказ о том, как Елена привела в веселое настроение гостей за столом Менелая, когда они опечалились под влиянием воспоминаний о Трое:

«Умная мысль пробудилась тогда в благородной Елене:
В чаши она круговые подлить вознамерилась соку,
Гореусладного, миротворящего, сердцу забвенье
Бедствий дающего; тот, кто вина выпивал, с благотворным
Слитого соком, был весел весь день и не мог бы заплакать,
Если б нечаянно и мать и отца неожиданной смертью утратил,
Если б нечаянно брата лишился иль милого сына,
Вдруг перед очами его пораженного бранною медью.
Диева светлая дочь обладала тем соком чудесным;
Щедро в Египте ее Полидамна, супруга Фоона,
Им наделила; земля там богатообильная много
Злаков рождает и добрых, целебных, и злых, ядовитых»
(Одиссея. IV) (4, 219-230).

Вне всякого сомнения, древние египтяне знали свойства гашиша, смолистого вещества, добываемого из индийской конопли и до сих пор употребляемого в качестве опьяняющего средства. Древнегреческие врачи применяли различные целебные растения для того, чтобы вызвать у больных пророческие сны. Чтобы достойным образом подготовить больных к получению откровения от бога, их обыкновенно заставляли омываться, затем помазывали их и возлагали на них руки. Они должны были вдыхать курения, приготовленные из различных ароматических трав, и укладывались спать на освященных местах внутри храма. Во сне они получали откровение от бога, возвещающего им смерть или исцеление и указывающего средство для достижения последнего; на этих указаниях и строилось все дальнейшее лечение.

Древнегреческое искусство прорицания опиралось на чисто религиозную основу, ибо грядущие события всегда возвещаются богами непосредственно или при помощи знаков, которые люди должны толковать. Непосредственные откровения давались в храмах через посредство оракулов; наиболее почитаемые из них были оракул Аполлона в Дельфах (Беотия) и оракул Зевса близь Додоны в Эпире. В этих храмах бог давал ответы на предлагаемые вопросы через посредство жриц: жрица Аполлона называлась Пифией, а жрица Зевса – Пелиадой. Однако они не могли возвещать слова богов в любое время и в обычных обстоятельствах; чтобы воспринять откровение

богов, необходима была особая подготовка, целью которой было приведение их в состояние экстаза. Для этого в Дельфах использовались пары, выходившие из расселины в скале, над которой был построен знаменитый храм. Пифия восходила на треножник, поставленный над расселиной, и под влиянием воздействия паров, проникаясь внушением бога, прорицала его ответ. Последний обычно бывал настолько неясен и туманен, что его должны были истолковать жрецы. В Додоне Пелиада пила воду из протекавшего там пьянящего источника и благодаря этому становилась, подобно Пифии, способной общаться с богом и прорицать. Как видим, метод в обоих случаях был один и тот же, только средства различны. Известно, что многие древнегреческие оракулы пользовались такой славой, что не только греческие государства, но и иноземные цари обращались к ним за советом, когда нужно было принять важное решение.

Наряду с подобного рода способами прорицания, связанными со служением оракулов при храмах, существовали и другие средства для определения будущих событий. Некоторые люди получали от богов в виде особой милости, а иногда и в виде наказания, дар предрекать будущие события. Такие прорицатели, не нуждавшиеся для прозрения будущего ни в каких особых приемах, многократно упоминаются в поэмах Гомера «Илиада» и «Одиссея». Но и другие смертные, не обладающие таким даром, могли предсказывать события, если только могли толковать знамения, посредством которых боги возвещали свою волю. К числу наиболее распространенных из таких знамений принадлежал полет птиц. Для освещения этой стороны древнегреческой мантики достаточно обратить внимание на то, как Одиссей и Диомед идут во мраке ночи высматривать знамение:

«Доброе знамение храбрым не медля послала Афина,
Цаплю на правой руке от дороги; они не видали
Птицы сквозь сумраки ночи, но слышали звонкие крики.
Птицей обрадован был Одиссей и взмолился Афине»
(Илиада. X) (4, 274).

Всегда считалось хорошим знаком, если птица летела справа налево, поэтому оба героя и воздали хвалу Афине. К числу явлений природы, служивших предзнаменованием, относилась молния, которую Зевс посылает возвещать и дурное, и хорошее. В «Илиаде» упоминается также в одном месте о кровавом дожде, как о предвестии грозящего бедствия. Наконец, древние греки использовали еще один вид прорицания, а именно некромантию, то есть заклинание мертвых с целью узнать у них будущее; о нем мы уже говорили выше, когда рассматривали магическое действие Одиссея, по совету Цирцеи приплывшего через Океан к входу в Аид.

Очевидно, описанные попытки познания будущего были успешны, ибо к ним обращались монархи и военачальники, титулованные особы и простолюдины, вельможи и банкиры. Можно полагать, что механизм прорицания скрыт не только для внешнего наблюдателя, но и для самонаблюдения, ибо он находится в рамках подсознания провидца. Некоторые авторы феномен пророчества считают связанным с тем обстоятельством, что анатомическая, физиологическая и функциональная организация земной жизни формировалась на фоне существования трех форм времени – прошлого, настоящего и будущего. Только благодаря этому земная живая материя способна коррелировать свои действия в настоящем с будущими ситуациями ее существования (этим и объясняется феномен пророчества, зафиксированный на протяжении всей истории человечества в культурах народов мира).

Весьма плодотворным является квантово-волновой подход к пониманию человеческой психики, успешно применяемый при исследовании необычных феноменов в экстрасенсорной передаче информации на большие расстояния и предсказаниях будущего. Из квантово-волнового характера психики и единства природы и человека

исходит и разрабатываемая, в науке концепция биоинформационной функции электромагнитных полей. В.И.Вернадский и А.Л.Чижевский впервые высказали идею о тесной зависимости явлений земной биосферы от космических факторов, в том числе и от электромагнитных полей ближнего космоса. Эта идея получила эмпирические подтверждения, а именно: в живой природе существуют слабые электромагнитные взаимодействия, которые играют определенную информационную роль. Речь идет о передаче информации из внешней среды в организм и передаче информации внутри организма, что невозможно без эволюционно сформировавшихся в организме соответствующих электромагнитных систем, которые способны принимать, передавать и преобразовывать внешние электромагнитные поля (3; 6).

На основании сказанного выше ученые В.П.Казначеев и Л.П.Михайлова выдвигают рабочую гипотезу, суть которой состоит в следующем. Образное и особенно вербальное мышление человека является продуктом трудовой деятельности и накопленного опыта человека, оно регулирует коллективную и индивидуальную деятельность и включает в себя соответствующую организацию пространства – организацию информационной околоземной среды. Внешнее относительно организма человека информационное пространство организуется в коммуникации людей друг с другом и природой, в том числе с биосферой, эволюция которой содержит в себе эволюцию Космоса. Очевидно, подобную организацию имеет и внутренняя среда (сам организм человека). Организм человека включает в себя сложную полевую организацию, которая является подвижной, устойчиво неравновесной, причем её структура не включена в активную сферу сознания человека. Существенно то, что носителем информации, приходящей в биосистему, могут быть кванты электромагнитного поля или биофотоны. Многолетними исследованиями установлен феномен межклеточных дистанционных взаимодействий, который свидетельствует об универсальном характере электромагнитной информационной связи с широким использованием электромагнитного канала передачи информации в живых системах. С одной стороны, живая система передает в среду определенные характеристики своей организации и произведенную информацию, с другой – она настолько же целенаправленно воспринимает информационные следы, «впитывает» необходимые для ее существования и обеспечивания постоянной неровновесности внешней среды (5, 43).

Человек как живая биосистема имеет память, представляющую собой особый класс волн мышления и связанную электромагнитным каналом с биосферой, которая сама обладает памятью.

Ясно, что, меняя структуру биотопов, устраняя, казалось бы, «бесполезное» растительное, бактериальное, животное «население» с позиций антропогенной полезности, мы, основываясь на теории сильных взаимодействий, нарушаем самое главное – своего рода «сенсорно-мозговую» деятельность живого вещества, его память как единого природного организма и наносим тем самым непоправимую травму.

В своей естественной эволюции человек – неотъемлемая часть живого вещества, ему исторически также были присущи восприятия природной живой среды, ее прочтение, прогнозирование ее изменений, ее предупреждающий «язык». Многие аборигенные племена еще сохранили элементы такого природного единства... Итак, биосфера имеет память и её многообразные компоненты (отдельности) – различные виды растений, животных, вид человека – накапливают информацию и в совокупности фиксируют мозаичную картину окружающего мира.

Современные исследования фактически подтверждают идею восточной мудрости в единстве психики и среды, отвергая тем самым картезианское противопоставление души и тела, тормозящее развитие науки. Ведь до взаимодействия организма человека со средой происходит не только энергетический, но и информационный обмен, т.е. обмен организаций. Это значит, что психическое представляет собой свойство си-

стемной организации физиологических процессов, протекающих в организме индивида.

Müasir tədris prosesi müəllim qarşısında getdikcə daha mürəkkəb vizual vəzifələr qoyur. Buna isə təhsildə informasiya-kommunikasiya texnologiyalarının genişlənməsi səbəb olur. Kağız daşıyıcıları ilə intensiv işlərlə yanaşı, müxtəlif elektron cihazların: elektron jurnalın, interaktiv lövhənin, multimedia proyektorlarının, kompüter və noutbukların, elektron dərsliklərin və s.-nin həcmi və istifadə müddəti artır [7]. R.R.Halfina müəyyən etdi ki, yüksək vizual və zehni yorğunluq indeksləri olan fərdi kompüter istifadəçiləri görmə sisteminin bütün səviyyələrində dəyişikliklər, orta dərəcədə vizual və zehni yorğunluq indeksləri olan fərdi kompüter istifadəçiləri isə akkomodativ və neyrosensor göstəricilərində dəyişikliklər göstərdilər [7]. Beləliklə, təhsil işçilərinin peşə sağlamlığı problemlərinin həllində müəllimlərdə müşahidə edilən xroniki yorğunluq əsas problemlərdən birinə çevrilir. Tədris işinin əhəmiyyəti artır və onun müəyyən çətinliklərlə əlaqəli spesifikliyi müəllimlər arasında stressə səbəb olur. Bu, onların peşə sağlamlığına və iş qabiliyyətinə təsir edir.

Təhsilin keyfiyyəti müəllimlərin bilik və təcrübəsinə tam uyğun olduğundan onlara qoyulan tələblər durmadan artır. Müəllimlərin peşəkar qrupu demək olar ki, həmişə həm fiziki, həm də psixi sağlamlıq problemləri ilə xarakterizə olunurdu ki, bu da tədqiqatlarla təsdiqlənir. Müəllimlərdə tez-tez əhval-ruhiyyənin pisləşməsi, yaddaşın pozulması, diqqətsizlik, əsəbilik və bütövlükdə bütün koqnitiv funksiyaların pozulması müşahidə olunur. Müəllimlərin böyük bir faizi bədənin müxtəlif orqan və sistemlərində ağrılar olduğunu bildirir.

A.K.Osnitski müəyyən etdi ki, müəllimlərdə nevrotik vəziyyətlərin olma ehtimalı onların iş təcrübəsi ilə mütənasib olaraq artır. Müayinə olunanların demək olar ki, üçdə biri nevroz xəstələrinə nisbətən daha az sosial adaptasiyaya malikdir. [5]

L.M.Mitina [5] müəllimin peşə sağlamlığını qiymətləndirərkən diqqət edilməli olan aşağıdakı göstəriciləri müəyyən etmişdir:

-emosional vəziyyət (xasiyyət, depressiya, qəzəb);

-şəxsi xüsusiyyətlər (münaqişə, bacarıqsızlıq, eqoizm, əsəbilik);

-özünüidarəetmə prosesləri (özünüidarəetmə, hərəkətlərin proqnozlaşdırılması, vəziyyətləri qiymətləndirməkdə çətinlik)

Müəllimin peşə fəaliyyəti gün ərzində oturaq bir vəziyyətlə əlaqələndirilir və fiziki fəaliyyət üçün imkanlar vermir. Uzun müddət düzgün olmayan vəziyyətdə oturmaq radikulit və osteoxondrozun inkişafına, uzun müddət dik vəziyyətdə qalmaq isə aşağı ətrafların damarlarının xroniki çatışmazlığına səbəb ola bilər. Digər mənfi amil nizamsız iş qrafiki, sabit gündəlik rejimin olmaması və işi evə aparmaq ehtiyacıdır. Araşdırmaya görə [5, 7], pedaqoji iş müəllimlərin psixoloji sağlamlığına aşağıdakı təhlükələri əhatə edir:

- emosional tükənmə;
- peşəkar deformasiyalar;
- pedaqoji böhran vəziyyəti;
- səriştə böhranı.

L.G.Tatarnikova [38] müəllim işinin aşağıdakı xüsusiyyətlərini müəyyən etdi:

• çoxlu sayda şagirdin fəaliyyətinin paralel müşahidəsi və dərk edilməsi zərurəti;

• məhdud vaxt ərzində müxtəlif məlumatların böyük axınının qavranılması və emalı;

• emosional stressə səbəb ola bilən qərarlar üçün yüksək məsuliyyətin olması;

• pedaqoji prosesdə vaxt çatışmazlığı və artıq informasiya şəraitində həllini tələb edən çoxlu sayda müxtəlif problemli situasiyaların yaranması;

• hipokineziya, yəni qeyri-kafi fiziki fəaliyyət vəziyyəti;

• psixi proseslərin (diqqət, yaddaş, təfəkkür) intensivliyini və gərginliyini uzun müddət yüksək səviyyədə saxlamaq ehtiyacı.

• diqqətin müxtəlif obyektlərə daim tez məlumat ötürülməsi və sinifdəki vəziyyətlərə sürətli reaksiya ehtiyacı.

Beləliklə, peşəkar müəllim fəaliyyətinin xüsusiyyətləri müəllimlərin sağlamlıq problemlərinin yaranma ehtimalını artırır.

## ƏDƏBİYYAT

1. А.А.Баранов и др.Медико-профилактические основы безопасности использования информационно-коммуникационных технологий в об- разовательных учреждениях / А.А.Баранов, В.Р.Кучма, Л.М.Сухарева, М.И.Степанова, Л.М.Текшева // Вестник Российской АМН. – 2011. – №6. – С.18-21.

2. Г.А.Емельянов Медицинская реабилитация пациентов зрительно- напряженного труда с расстройствами психологической адаптации. Дисс. д-ра. мед. наук. – М, 2014. – 205 с.

3. Компьютерный зрительный синдром: профилактика и лечение: Мето- дические указания / Сост. Егорова А.В.Ижевск, КнигоГрад, 2010. – 36 с.

4. С.А.Наличаева.Самоактуализационный потенциал личности как де- терминанта профессионального выгорания педагогов: Автореф.канд. психол.наук. – М, 2011. – 26 с.

5. Орлова Н.С.Осипов Г.И.Коррекция зрения: учебное пособие. – 3-е изд.переработ. И доп. – Новосибирск: Сибмедиздат НГМУ, 2013. – 232 с.

6. И.С.Поликанова Психофизиологические детерминанты развития утомления при когнитивной нагрузке: Дисс. канд. психол.наук. – 2013. – 240 с.

7. Р.Р.Халфина Психофизиологические закономерности утомления и восстановления зрительной системы у пользователей компьютерами: Дисс. д-ра биол.наук. – Уфа, 2013. – 263 с.

8. В.Е.Цибульникова Профессиональное здоровье директора школы: психологические риски и их последствия: Монография. – М: НКЦ, 2015. – 345 с.

# MÜƏLLİMLƏRDƏ XRONİKİ YORĞUNLUĞUN SAĞLAMLIĞA TƏSİRİ

***Həsənova Nərmin***


## XÜLASƏ

Xroniki yorğunluq tədris işinin keyfiyyətinin aşağı düşməsinə və peşə sağlamlığının pisləşməsinə səbəb olur. Pedaqoji iş stresli şərait, yüksək məsuliyyət, informasiya axını, kommunikativ, emosional və idrak gərginliyi ilə əlaqələndirilir. S.A.Naliçaeva qeyd edir ki, müəllimlər təlim zamanı neqativ halların artmasına həssasdırlar və inkişafın müəyyən mərhələlərində stress faktorları, tükənmişlik və yorğunluq onların təzahürlərini qarşılıqlı şəkildə tamamlayıb ağırlaşdıra bilər. A.K.Osnitski müəyyən etdi ki, müəllimlərdə nevrotik vəziyyətlərin olma ehtimalı onların iş təcrübəsi ilə mütənasib olaraq artır. Müayinə olunanların demək olar ki, üçdə biri nevroz xəstələrinə nisbətən daha az sosial adaptasiyaya malikdir.


# ВЛИЯНИЕ ХРОНИЧЕСКОЙ УСТАЛОСТИ ПЕДАГОГОВ НА ИХ ЗДОРОВЬЕ

***Нармин Гасанова***


## АННОТАЦИЯ

Хроническая усталость приводит к снижению качества педагогической работы и ухудшению профессионального здоровья. Педагогическая работа связана со стрессовыми условиями, высокой ответственностью, информационным потоком, коммуникативным, эмоциональным и когнитивным напряжением. С.А.Наличаева отмечает, что педагоги чувствительны к увеличению негативных ситуаций в процессе обучения, и на определенных этапах развития стрессовые факторы, выгорание и утомление могут взаимно дополнять и усугублять их проявления. А.К.Осницкий установил, что вероятность возникновения невротических состояний у учителей возрастает пропорционально их стажу работы. Почти треть обследованных имеют меньшую социальную адаптацию, чем больные невротиками.


# INFLUENCE OF CHRONIC FATIGUE IN TEACHERS ON THE HEALTH OF WORK

***Narmin Gasanova***


## SUMMARY

Chronic fatigue leads to a decrease in the quality of pedagogical work and deterioration of professional health. Pedagogical work is associated with stressful conditions, high responsibility, information flow, communicative, emotional and cognitive stress. S.A.Nalichaeva notes that teachers are sensitive to an increase in negative situations in the learning process, and at certain stages of development, stress factors, burnout and fatigue can mutually complement and aggravate their manifestations. A.K.Osnitsky found that the likelihood of neurotic conditions in teachers increases in proportion to their length of service. Almost a third of those examined have less social adaptation than patients with neurotics.

# POLİTOLOGİYA, İDARƏETMƏ VƏ İQTİSADİYYAT

## İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ VƏ ONUN TƏMİN EDİLMƏSİ METODLARI

***mayor Abuzərov Abuzər Süleyman oğlu***
*zafarnajafov@yahoo.com*

***Açar sözlər*:** informasiya təhlükəsizliyi, yeri informasiya texnologiyaları, informasiya silahı, informasiya müharibəsi, kibertəhlükəsizlik
***Ключевые слова*:** информационная безопасность, информационные технологии, информационное оружие, информационная война, кибербезопасность
***Keywords*:** information security, information technologies, information weapon, information war, cyber security

Giriş. Bəşər cəmiyyətinin inkişaf tarixinin təhlili onu deməyə əsas verir ki, dövlətlərarası, dinlərarası və millətlərarası ziddiyyətlərin həlli bir qayda olaraq, təcavüz, düşmən ərazilərinin işğalı və məğlub tərəfin maddi, insan və digər resurslarının ələ keçirilməsi ilə müşayiət olunmuş, çoxlu sayda insan ölümünə və fəlakətli ziyana səbəb olmuş ənənəvi hərbi münaqişələr zamanı həyata keçirilib.

Eyni zamanda, dünya hərb nəzəri fikri uzun müddətdir ki, qarşılıqlı itkilərə və dağıntılara yol vermədən hərbi-siyasi məqsədlərə nail olmaq imkanlarını öyrənir (Vu Tzu, Sun Tzu, B. Liddell-Hart və s.). XX əsrin sonlarında bəşəriyyət informasiya cəmiyyətinə keçidlə bağlı öz inkişafının yeni mərhələsinə qədəm qoyanda Sun Tzunun hakim elitaya, dövlət hakimiyyəti institutlarına və kütləvi şüura məqsədyönlü informasiya təsir etmək haqqında postulatlarını həyata keçirmək mümkün oldu. Dünyanın əksər inkişaf etmiş dövlətləri xarici siyasətin iqtisadi və hərbi-siyasi məqsədlərinin həyata keçirilməsi üçün qarşı tərəfə informasiya təsirinin kifayət qədər səmərəli olduğunu anladılar və informasiya müharibələrinin elmi nəzəriyyələrini fəal şəkildə inkişaf etdirməyə başladılar. Məlum olub ki, öz informasiya təhlükəsizliyini təmin edə bilməyən dövlətlər müasir şəraitdə siyasi suverenliyini, iqtisadi müstəqilliyini itirmək riski ilə üzləşir, üstəlik, dünya və hətta regional liderlərliyə iddia edə bilməzlər. Sovet İttifaqı və bütövlükdə dünya sosializm sisteminin dağılması məhz informasiya təhlükəsizliyinə laqeyd münasibət olmuşdur. Məqalədə sintez-analiz, induksiya-deduksiya metodlarından istifadə edilib.

XX əsrin sonu və XXI əsrin əvvəlində elmi-texniki inkişaf postsənaye informasiya cəmiyyətinin yaranmasına gətirib çıxarmış, bununla da dünyanın adi mərkəzçi-dövlət modeli dəyişmişdir. Bu gün müasir informasiya-kommunikasiya texnologiyaları olmadan sosial-siyasi prosesləri səmərəli idarə etmək mümkün deyildir. Ölkənin firavanlığı və dünya sivilizasiyasında yeri informasiya texnologiyaları sahəsində siyasətin praqmatikliyindən və çevikliyindən asılıdır. İnformasiya məkanının qloballaşması və kütləvi kommunikasiya vasitələri şəbəkəsinin təsiri altında cəmiyyətdə baş verən dəyişikliklər təkcə müəyyən üstünlüklər və mənfəətlərlə məhdudlaşmayıb, həm də sosial-siyasi sahədə informasiya mübarizəsi aparmaq üçün geniş imkanlar açır, bu da öz növbəsində milli və beynəlxalq təhlükəsizliyə təhdid doğurur [1].

Hazırda ümumi qəbul edilmiş bir tendensiya mövcuddur ki, milli təhlükəsizlik sistemində informasiya təhlükəsizliyinin rolu əhəmiyyətli dərəcədə artıb və ön plana çıxıb. Sual yaranır: nə üçün informasiya sferasında təhlükələr bəşəriyyətin ekoloji və enerji kimi mürəkkəb problemlərini üstələyərək önə keçib? Nə üçün bu problem Azərbaycan üçün xüsusilə aktualdır?

İnformasiya proseslərinin qloballaşması, informasiya-telekommunikasiya şəbəkələrinin auditoriyasının təsir qüvvəsinin artması və inkişafı dövrümüzün ən yadda qalan hadisəsi olmuşdur. Bu faktorlar KİV-lərin dünyada baş verən hadisələrin işıqlandırılmasında cəmiyyətdə daha da əhəmiyyəli rol oynamasına zəmin yaratmışdır. Artıq bu gün informasiya texnologiyaları real qüvvəyə çevrilmişdir.

Təcrübə göstərir ki, əksər hallarda informasiya təhlükəsizliyinin uğurlu həyata keçirilməsi üçün dövlət daxilində aşağıdakı amillər kritik sayılırlar:

a) Dövlətin məqsədlərini əks etdirən informasiya təhlükəsizliyi siyasəti, məqsədləri və fəaliyyətləri;

b) informasiya təhlükəsizliyinin tətbiqi, dəstəklənməsi, izlənməsi və təkmilləşdirilməsi üzrə təşkilat mədəniyyətinə uyğun olan yanaşma və struktur;

c) informasiya təhlükəsizliyi tələblərinin, risklərin qiymətləndirilməsi və idarə edilməsinin yaxşı başa düşülməsi;

e) informasiya təhlükəsizliyinin idarə edilməsi fəaliyyətlərinin maliyyələşdirilməsi şərtləri;

f) informasiya təhlükəsizliyi insidentlərinin effektiv idarə edilməsi prosesinin möhkəmləndirilməsi;

Müasir dövrümüzdə "informasiya müharibəsi" kimi anlayışlar nəinki mass-medianın münaqişələr ilə sıx əlaqəsinin olmasına, eləcə də müasir silahlı münaqişələrdə informasiya sahəsində mübarizənin əhəmiyyət baxımından vacibliyinin hərbi əməliyyatlardan az olmamasına dəlalət edir.

Müasir dünyada informasiya təhlükəsizliyi o dərəcədə strateji bir əhəmiyyət kəsb edib ki, bütün cəmiyyəti belə yerindən oynatmaq mümkün olur. Bir informasiya insanları ayağa qaldırır və ya bütöv cəmiyyəti çökdürür. Odur ki, indi çox mükəmməl informasiya təsiri sistemləri hazırlayırlar. Onlardan istifadə nəticəsində dövlətlər strateji hədəflərə ulaşa bilirlər.

Müasir müharibələr hibrid xarakter daşıdığından, müharibə yalnız döyüş meydanında deyil, digər müstəvilərdə, o cümlədən informasiya müstəvisində də aparılır. Dövlət beynəlxalq hüququn əsas subyekti olaraq informasiyanın yayılması prosesi üzərində əvvəlki monopoliyanı saxlaya bilmir. Cəmiyyətin bütün sosial-siyasi təbəqələrinin fəallığının kəskin şəkildə artması problemi inkaerdilməz amilə çevrilib. Bu, son nəticədə qlobal geosiyasi mühitə də öz təsirini göstərir. Müasir dövrdə ən yeni informasiya-kommunikasiya texnologiyalarından məharətlə istifadə etməklə böyük dövlətlər öz geosiyasi məqsədlərinə çatmağa çalışırlar.

İnformasiya sferasında neqativ tendensiyaların inkişafı ilə bağlı narahatlıq nümayiş etdirən dünyanın ən böyük dövlətlərinin rəhbərləri 2000-ci ildə Qlobal İnformasiya Cəmiyyəti üçün Okinava Xartiyasını (Əlavə 3) imzaladılar. Xartiyada qeyd olunur ki, yeni informasiya sistemlərinin cəmiyyətin iqtisadiyyatının və sosial sferasının daha da yüksəlişi üçün açdığı imkanların xeyli genişlənməsi ilə yanaşı, bu sistemlərin ictimai həyata geniş tətbiqi müxtəlif narahatlıqlar doğurur. Bu narahatlıqların aradan qaldırılması üçün bir sıra əlaqələndirilmiş tədbirlər təklif olunub.

Cəmiyyətin həyatında mühüm dəyişiklik amilinə çevrilmiş informasiya silahı aşağıdakı funksiyalara malikdir:

**1. İnformasiya funksiyası.** Bu zaman informasiyanın rolu sadəcə məlumat çatdırmaqla kifayətlənmir. Cəmiyyətdə baş verən proseslər fəal ictimaiyyəti həmişə düüşündürür. Hər hansı bir hadisə haqqında məlumatın qıtlığı cəmiyyətdə narahatlıq, çaşqınlıq, qeyri-müəyyənlik yarada, insanların mənəvi-psixoloji durumuna neqativ təsir göstərə bilər. Vaxtında verilmiş məlumat cəmiyyəti yarana biləcək narahatlıqdan xilas edə bilər;

**2. Təbliğat funksiyası.** Dövlətin, siyasi güc mərkəzlərinin marağında olduğu məsələlərin daha geniş əhali kütləsinin inancına çevrilməsi, onlara qəbul etdirilməsi üçün informasiyanın imkanları böyükdür. Xarakteri, davamlılığı etibarilə informasiya ictimai rəyin formalaşmasında mühüm rol oynayır. Bu zaman xüsusilə informasiya mənbələrinə çıxışı olmayan əhali kütləsinə verilən informasiyanın xarakterindən asılı olaraq yeni ictimai rəy aşılamaq mümkündür;

**3. Səfərbəredici funksiya.** İctimai rəyinə təsir göstərilmiş əhalinin bir məqsəd ətrafında birləşdirilməsində, konkret fəaliyyət üçün səfərbər edilməsində də informasiyanın özünəməxsus rolu vardır. Kütləvi informasiya vasitələrinin sürətlə inkişaf etdiyi bir dövrdə ictimaiyyətin potensialını bir istiqamətə yönəltmək üçün informasiyanın gücündən indi daha çox istifadə edilir.

**4. İnformasiya təhlükəsizliyi funksiyası**. Qarşı tərəfin və ya ətraf aləmin ziyanlı informasiyasının qarşısının alınması. İnformasiya müharibəsi zamanı qarşı tərəf cəmiyyətdə ruh düşkünlüyü, xaos, qarışıqlıq yaratmaq, dövlət orqanlarının düzgün qərarlar qəbul etməsinə inamsızlıq formalaşdırmaq üçün dezinformasiyalara əl atmaqdan çəkinmir. Bunun qarşısı düzgün və çevik informasiya siyasəti ilə alına bilər.

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyi sahəsində fəaliyyəti tənzimləyən əsas hüquqi sənəd Azərbaycan Respublikası Prezidentinin 3 aprel 1998-ci il tarixli 460-IQ nömrəli Fərmanı ilə qəbul edilmiş "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu hesab edilir. Bu sahə Azərbaycanda dövlət siyasəti səviyyəsinə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli, 2198 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nda öz əksini tapıb. Həmin sənədin 4.3.11. maddəsində yazılıb ki, "...Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi siyasəti dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsindən ibarətdir" [2].

Milli təhlükəsizliyin bütün sahələrində rasional fəaliyyətin edilməsinin birinci şərti milli maraqların düzgün təyin edilməsidir. Milli maraqlar dövlətin, cəmiyyətin və insanın mövcudluğunu şərtləndirən ən mühüm tələbatlardır. Dövlətin informasiya sahəsində maraqları ölkənin informasiya infrastrukturunun ahəngdar inkişafı üçün şərait yaratmaqdan, informasiya əldə etmək və ondan istifadə etmək sahəsində insan və vətəndaşın konstitusiya hüquq və azadlıqlarının həyata keçirilməsindən,dövlətin konstitusiya quruluşunun, suverenliyinin və ərazi bütövlüyünün toxunulmazlığının, siyasi, iqtisadi və sosial sabitliyin, qanun və asayişin qeyd-şərtsiz təmin edilməsindən, bərabərhüquqlu və qarşılıqlı faydalı beynəlxalq əməkdaşlığın inkişafından ibarətdir. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununun **6.6. maddəsində Azərbaycan Respublikasının informasiya sahəsində əsas milli maraqları** aşağıdakı kimi müəyyən edilib [3]:

6.6.1. məlumatların qanuni yolla əldə edilməsi, ötürülməsi, hazırlanması və yayılması kimi vətəndaşların konstitusiya hüquqlarının təmin edilməsi;

6.6.2. informasiya ehtiyatlarının qorunması və inkişaf etdirilməsi;

6.6.3. informasiya məkanının formalaşdırılması və onun qorunmasının təmin edilməsi;

6.6.4. dünya rabitə və informasiya sisteminə daxil olma.

Lakin etiraf etmək lazımdır ki, qloballaşan dünyada dövlətin informasiya sahəsində maraqlarını etibarlı şəkildə təmin etmək qeyri-mümkündür. Belə ki, müasir şəraitdə cinayətkar elementlərin müvafiq informasiya və telekommunikasiya sistemlərinə və rabitə şəbəkələrinə icazəsiz təsirləri nəticəsində ağır nəticələrin riski xeyli artıb. Kompüter cinayətlərinin təhdidləri də durmadan yüksəlməkdədir. Beyin axını ölkənin intellektual təhlükəsizliyi üçün cıddı çağırışa çevrilib.

Təhlükə - istənilən bir şəxsin maraqlarına ziyan vura biləcək potensial baş verən hərəkət, hadisə, proses və ya təzahür hesab olunur. Uyğun olaraq informasiya təhlükəsizliyinə yönəlmiş təhlükə dedikdə potensial baş verən hərəkətin, hadisənin, proses və ya təzahürin informasiyaya və ya avtomatlaşdırılmış informasiya sistemlərinin (AİS-nin) komponentinə təsiri başa düşülür. Yönəlmiş təhlükə birbaşa və ya bilavasitə informasiya münasibətlərində olan subyektlərin fəaliyyətinə ziyan vura bilir. Hücum – təhlükənin realizə edilməsinə göstərilən cəhddir. Pozma – təhlükənin realizə olunmasıdır [4, s.17].

Müasir siyasi, iqtisadi və hərbi qarşıdurma şəraitində dövlət üçün təhlükənin olmaması mümkün deyil. Bu gün informasiya təhlükəsizliyinə təhdidlər təhlükəli amilə çevrilmişdir. Ona qarşı mübarizə aparmaq üçün bütün dünya birliyinin fəal səylərini birləşdirmək, habelə müasir təhdidlərin aradan qaldırılması və qarşısının alınması probleminə əsaslı yeni strateji yanaşmanın formalaşması zəruridir.

İnformasiyanın artmaqda olan əhəmiyyəti qarşılıqlı informasiya təsiri proseslərinin tənzimlənməsinin təmin olunması üçün dövlətin fəal müdaxiləsini tələb edir. Biz unutmamalıyıq ki, informasiya texnologiyalarının inkişafı artıq bu gün cəmiyyətin həyatının demək olar bütün sahələrində genişmiqyaslı mənfi nəticələr doğurur.

"Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununun **7.9. maddəsində İnformasiya sahəsində əsas təhdidlər aşağıdakılar hesab edilir [3]:**

7.9.1. informasiya texnologiyaları sahəsində geriləmə və dünya informasiya məkanına daxil olmağa maneələrin mövcudluğu;

7.9.2. informasiya azadlığı əleyhinə yönəlmiş qəsdlər;

7.9.3. dövlət sirlərinin aşkarlanmasına yönəlmiş qəsdlər;

7.9.4. digər ölkələr tərəfindən informasiya təcavüzü, beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin təhrif edilməsi;

7.9.5. informasiya sisteminə və ehtiyatlarına qarşı qəsdlər.

Qlobal informasiya əsrində informasiya döyüş meydanı sürətli nüvə silahlanması ilə müqayisədə qat-qat artıq dərəcədə xaotik ola bilər, çünki bu döyüşdə çoxsaylı xırda iştirakçılar və qeyri-dövlət oyunçuları vardır. Onların ciddi təhlükə yaratması üçün cəmi bir kompyuter və ya qlobal şəbəkəyə qoşulmuş adi mobil telefon kifayətdir. Mövcud təhlükələr müasir dövrün bu cür çağırışlarına ən yaxın müddətdə münasibət bildirməyin zəruriliyini şərtləndirir.

İnformasiya təhlükəsizliyinin təmin edilməsi informasiya və informasiya infrastrukturu tərəfindən təhlükəsizlik obyektinin xassələrinə, habelə bu fəaliyyətin vasitələri və subyektlərinə dəyən zərərin qarşısının alınması üzrə fəaliyyətlərin məcmusudur. Dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsində məqsəd ölkənin milli təhlükəsizliyinin və mütərəqqi inkişafının təmin edilməsi prosesində onun səmərəli idarə olunmasına şərait yaratmaq və saxlamaqdan ibarətdir. İnformasiya təhlükəsizliyinin təmin edilməsinin əsas vəzifəsi dövlətin informasiya obyektlərinin və informasiya proseslərinin sabit durumuna, funksionallığına və inkişaf (təkmilləşmə) tendensiyalarına nail olmaqdır.

Hər bir ölkədə, o cümlədən Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin təmin edilməsi ümumi metodların - hüquqi, təşkilati-texniki və iqtisadi və s.-nin hesabına həyata keçirilir [5, s.148]. Ölkəmizdə informasiya təhlükəsizliyinin təmin edilməsinin **hüquqi metodlarına** informasiya sahəsində münasibətləri tənzimləyən normativ hüquqi aktların və informasiya təhlükəsizliyinin təmin edilməsi məsələlərinə dair normativ metodiki sənədlərin işlənilib hazırlanması və qəbul edilməsi daxildir.

İnformasiya təhlükəsizliyinin təmin edilməsinin **təşkilati-texniki metodlarına** informasiya təhlükəsizliyinin təmin edilməsi sisteminin yaradılması və təkmilləşdirilməsi istiqamətində müəyyən edilmiş fəaliyyətlər aid edilir.

**İqtisadi metodlara** isə informasiya təhlükəsizliyinin təmin edilməsi üçün proqramların hazırlanması və onların maliyyələşdirilməsi qaydasının müəyyən edilməsi tədbirləri daxildir.

"Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununun 20.2. maddəsində Azərbaycan Respublikasının informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması üçün görülən əsas tədbirlər aşağıdakı qaydada müəyyən edilib [3]:

20.2.1. Azərbaycan Respublikasında informasiyanın, həmçinin dövlət informasiya ehtiyatlarının müdafiəsi sahəsində milli sistemin yaradılması və möhkəmləndirilməsi;

20.2.2. dövlət orqanları və vəzifəli şəxslər tərəfindən qərarların qəbul edilməsinin informasiya təminatının həyata keçirilməsi məqsədilə obyektiv və qabaqlayıcı məlumatların toplanılması;

20.2.3. informasiya infrastrukturunun inkişaf etdirilməsi;

20.2.4. dövlət sirlərinin qorunmasının hüquqi mexanizmlərinin təkmilləşdirilməsi;

20.2.5. kibercinayətlərə qarşı mübarizə;

20.2.6. informasiya təhlükəsizliyinin və azadlığının təmin olunması.

İnformasiya təhlükəsizliyi Azərbaycan öz dövlət müstəqilliyinə qovuşandan İkinci Qarabağ müharibəsinədək ölkənin informasiya təhlükəsizliyinə ciddi diqqət yetirsə də daima bu istiqamətdə sistemli və davamlı təzyiqlərə məruz qalıb. Hətta 44 günlük müharibə zamanı döyüş meydanında aldığı ağır məğlubiyyətlərə başmayaraq, Ermənistanın Azərbaycana qarşı ədalətsiz, məqsədyönlü və iftira dolu piar-kompaniyaları, informasiya hücumlarını aşağıdakı qaydada sistemləşdirmək olar [6]:

- Azərbaycanın ədalətə söykənən haqlı mübarizəsini gözdən salmaq, dünya ictimaiyyətində azərbaycanlılara və türklərə qarşı neqativ rəy və ya fikir formalaşdırmaq, onları təcavüzkar, qeyri-tolerant xalq kimi qələmə vermək, onların informasiya məkanında rolunu zəiflətmək və hücum üstünlüyünü ələ keçirmək;
- Öz təcavüzkar siyasətini ört-basdır etmək, "məzlum və əzilən xalq" adı altında maskalanmaq, bu yolla beynəlxalq ictimaiyyətin etimadından sui-istifadə etmək və bölgəyə "terrorçuların gətirilməsi təhdidi" ilə vəziyyəti gərginləşdirmək;
- Türkiyənin artmaqda olan nüfuzuna xələl gətirmək, onun yüksəlişini həzm edə bilməyən ölkələri "rəsmi Ankaranın münaqişədə tərəf kimi çıxış edir" fikirləri ilə qıcıqlandırmaq, belə məqsədyönlü kompaniya ilə həmin dövlətləri həm Türkiyəyə, həm də onun müttəfiqi olan Azərbaycana qarşı qoymaq;
- Cənubi Qafqazda Türkiyə və Azərbaycanı terrorizmi dəstəkləyən, ona sponsorluq edən ölkə kimi təqdim etmək, terrorçu dəstələrdən hərbi məqsədlər naminə istifadəsinə dair dezinformasiyalar yaymaq;
- Azərbaycanın deokkupasiya siyasətinə "terrorçuluq" damğası vurmaq, İslam dinini terrorla asossiasiya etməyə çalışmaq;
- Azərbaycanın haqq işini yarımçıq saxlamaq, bu məqsədlə ölkəyə qarşı erməni havadarlarını təzyiq göstərməyə sövq etmək, hətta bəzi Avropa ölkələrinə Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə çağırış etmək;
- əks-həmlə əməliyyatları nəticəsində qısa müddətdə sarsıdıcı zərbələr alan Ermənistan Silahlı Qüvvələrinin düşdüyü acınacaqlı vəziyyəti, onun məhv edilmiş hərbi texnikası və şəxsi heyəti haqqında məlumatları gizlətləmət, onların Ermənistan auditoriyasına yol tapmasına əngəl olmaq;
- Azərbaycan Ordusunun döyüş ruhunu və peşəkarlığının, habelə müasir təchizatının Ermənistan silahlı qüvvələri ilə müqayisədə qat-qat yaxşı olmasını gizlətməyə çalışmaq;
- Dağlıq Qarabağda qeyri-qanuni yolla yerləşdirilmiş erməniləri dinc, günahsiz və aborigen əhali olması və Azərbaycanın onları hərbi güc yolu ilə oradan qovmağa çalışmasına dair feyk məlumatlar yayması;

- Rusiya ilə Türkiyə arasında artmaqda olan isti münasibətləri soyutmaq, onları üz-üzə qoymaq, bu məqsədlə rəsmi Moskvanı və KTMT-ni hərbi əməliyyatlara cəlb etməklə onları Türkiyə-Azərbaycan əməkdaşlığına qarşı istiqamətləndirmək, Bakı ilə Moskva arasında münasibətləri korlamaq;

- Rəsmi Bakının Ermənistanın Yaxın Şərq ölkələrindən olan erməni mənşəli terrorçuları, habelə PKK terror təşkilatında fəaliyyət göstərən "yezidi kürdləri"ni Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərdə qanunsuz məskunlaşdırmasına iddialarına qarşı saxta əks-arqumentlər irəli sürmək və bu istiqamətdə ermənipərəst konqresmenlərdən, partalamentarilərdən istifadə etmək;

- dezinformasiyaları gücləndirməklə, Azərbaycanın beynəlxalq arenada təklənməsinə, mövqelərinin zəifləməsinə nail olmaq, rəsmi Bakını "şantaj"etməklə ciddi hərbi müdaxilələrdən çəkindirmək.

Lakin Ermənistan bu istiqamətdə də heç nəyə nail ola bilmədi. Bununla belə, İkinci Qarabağ müharibəsində əldə edilmiş tarixi qələbə bizi arxayın salmamalıdır. Düşmənlə fiziki savaş bitsə də, informasiya və kiber məkanda mübarizə özünün yeni mərhələsinə qədəm qoyur. Belə ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın möhtəşəm qələbəsini həzm edə bilməyən ölkələr – Fransa, İran, Hindistan və s.ri tərəfindən dövlətimizə qarşı həyata keçirilən kiberhücumların sayında artım müşahidə olunur. Son zamanlarda ən çox rastlanan kiberhücumlara fişinq hücumları ilə başlayan xüsusi hədəfli APT hücumlarını, DDoS hücumlarını və s. misal göstərmək olar. Belə kiberhücumlarla mübarizə üçün tərəfimizdən aparılan monitorinqlər və kiberkəşfiyyat platformalarından əldə olunan məlumatlar əsasında bir sıra bloklamalar aparılır. Misal olaraq, 2022-ci il ərzində dövlət qurumları adından istifadə etmək üçün hakerlər tərəfindən "gov.az" domeninə bənzədilmiş 48 domen adı müəyyən edilmiş və ölkə üzrə bloklanaraq kiberhücum cəhdləri planlama mərhələsində qarşısı alınıb. Eyni zamanda aparılan analizlər nəticəsində il ərzində 1192 xüsusi kiberhücum indikatoru blok edilərək dövlət qurumlarına qarşı həyata keçirilən yüzlərlə kiberhücu-mun qarşısı alınıb. Bundan əlavə il ərzində elektron poçtlar vasitəsi ilə dövlət qurumlarına göndərilən 2 milyondan çox zərərverici və fişinq tərkibli e-poçt bloklanaraq dövlət qurumlarına çatdırılmasının qarşısı alınıb [7].

Ermənistan və onun havadarlarının hibrid hücumlarına və informasiya müharibələrinə qarşı daha təsirli mübarizə aparmaq məqsədilə 2023-cü ilin 28 avqustunda "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası" qəbul edildi [8]. Həmin sənəddə qlobal trendlərə, mövcud vəziyyətin təhlilinə, hədəf göstəricilərə, məqsədlərə və prioritet istiqamətlərə aydınlıq gətirilib. Bu sənədin əsas məqsədi ölkənin informasiya məkanına qarşı edilə biləcək hibrid hücumlara və aksiyalara qarşı təsirli mübarizənin təkmilləşdirilməsindən ibarətdir.

Azərbaycan Respublikasında informasiya təhlükəsizliyinin təmin edilməsində Xüsusi Dövlət Mühafizə Xidmətinin bazasında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi mühüm rol oynayır.

**Nəticə və təklif.**

Məqalənin sonunda aşağıdakı nəticələrə gəlmək mümkündür:

1. Müasir dünyada informasiya amili destruktiv silaha çevrilib və ona qarşı mübarizə ciddi xarakter alıb.
2. İnformasiya təhlükəsizliyi milli təhlükəsizlik sistemində kritik sahələrdən birinə çevrilib.
3. İnformasiya müharibəsi fiziki müharibədən daha təhlükəli və davamlı hesab edilir.

Dövlətin informasiya təhlükəsizliyini təmin etmək üçün aşağıdakı problemləri həll etməsi vacibdir:

1. İnformasiya təhlükəsizliyi sahəsində dövlət siyasətinin əsas istiqamətlərinin işlənib hazırlanması.
2. Normativ-hüquqi bazanın təkmilləşdirilməsi.
3. Bu sahədə dövlət siyasətini həyata keçirməyə qadir olan dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsi sisteminin işlənib hazırlanması.
4. İnformasiya təhlükəsizliyinin təmin edilməsi üçün elmi və praktiki əsasların işlənib hazırlanması.
5. Beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin genişləndirilməsi.
6. Ölkənin informasiya infrastrukturunun inkişafı.
7. İnformasiya texnologiyaları sahəsində təlim sisteminin yaradılması.

## ƏDƏBİYYAT


1. Akademik Ramiz Mehdiyev: Beynəlxalq informasiya təhlükəsizliyinin möhkəmləndirilməsinə yeni strateji yanaşmanın formalaşması zəruridir "Xalq qəzeti".-2011.-25 sentyabr.-N 211.-S.6.
2. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası // 23 may 2007-ci ildə qəbul edilmişdir. – Bakı: Qanun, – 2007.
3. Milli təhlükəsizlk haqqında Azərbaycan Respublikasının qanunu // 29 iyun 2004-cü ildə qəbul edilmişdir. – Bakı: Qanun, – 2004.
4. İnformasiya təhlükəsizliyi, Dərslik, Bakı, "İQTİSAD UNİVERSİTETİ" nəşriyyatı, 2016 - 384 səh.
5. *Həsənov, Ə*.M. Azərbaycan Respublikasının *milli* inkişaf və *təhlükəsizlik* siyasəti / *Ə*.M.*Həsənov*. – Bakı: " Letterpress Nəşriyyat" nəşriyyat evi, – 2011. – 440 s.
6. Niyazov, X. "Vətən Müharibəsi və postkonflikt dövründə Azərbaycanın dövlət informasiya siyasətinin əsas xüsusiyyətləri": **[Elektron resurs] // Bakı: Geostrategiya jurnalı,** – 25.09.2021. – s.16-38. – URL: https://geostrategiya.az/news.php?id=181;
7. İlqar Musayev: "Azərbaycana kiberhücumların təşkili istiqa-mətləri bir çox hallarda qonşularımızı işarə edir"**: [Elektron resurs] / Report az.** – Bakı, 23 Fevral, 2023. URL:https://report.az/ikt/ilqar-musayev-azerbaycana-kiberhucum-larin-teskili-istiqametleri-bir-cox-hallarda-qonsularimizi-isare-edir/
8. "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023 – 2027-ci illər üçün Strategiyası" // – Bakı: Qanun, – 2023-ci ildə qəbul edilmişdir.


# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ VƏ ONUN TƏMİN EDİLMƏSİ METODLARI

***Abuzərov Abuzər***

## XÜLASƏ


Məqalə informasiya təhlükəsizliyi və onun təmin edilməsinin vəzifə və metodlarının müəyyən edilməsinə həsr olunub. Müasir dünyada strateji resursa çevrilmiş informasiya silahı dövlətlərin milli təhlükəsizliyinə və suverenliyinə ciddi təhdid etmək qabiliyyətinə yiyələnib. Məhz bu səbəbdən informasiyan təhlükəsizliyi dünyanın bütün dövlətlərini narahat edən məsələdir.

Məqalədə informasiya sahəsində Azərbaycanın milli maraqlarının onlara yönlənən təhdidlərin müəyyən edilməsi və informasiya təhlükəsizliyinin təmin edilməsinin metodlarının təhlili həyata keçirilib.

## ИНФОРМАЦИОННАЯ БЕЗОПАСНОСТЬ И МЕТОДЫ ЕЕ ОБЕСПЕЧЕНИЯ

***Абузаров Абузар***

### АННОТАЦИЯ

Статья посвящена определению задач и методов обеспечения информационной безопасности и ее обеспечения. Информационное оружие, ставшее стратегическим ресурсом в современном мире, приобрело способность серьезно угрожать национальной безопасности и суверенитету государств. Именно по этой причине информационная безопасность является предметом беспокойства всех стран мира.

В статье проанализированы методы определения угроз национальным интересам Азербайджана в информационной сфере и обеспечения информационной безопасности.

## INFORMATION SECURITY AND METHODS OF PROVIDING IT

***Abuzarov Abuzar***

### SUMMARY

The article is devoted to defining the tasks and methods of information security and its provision. The information weapon, which has become a strategic resource in the modern world, has acquired the ability to seriously threaten the national security and sovereignty of states. It is for this reason that information security is a matter of concern to all countries of the world.

In the article, the methods of determining threats to Azerbaijan's national interests in the information field and ensuring information security were analyzed.

# ETNİK İDENTİFİKASİYA PROSESİNDƏ MƏNƏVİ AMİLLƏRİN ROLU

***Ağazadə Nigar***
*agazadeh.nigar@gmail.com*

***Açar sözlər*:** etnik mənsubiyyət, mənəvi mədəniyyət, etnik identifikasiya, etnik özünüdərk, etnik xüsusiyyətlər.
***Key words*:** ethnicity, spiritual culture, ethnic identification, ethnic self-awareness, ethnic characteristics.
***Ключевые слова*:** этничность, духовная культура, этническая идентификация, этническое самосознание, этнические особенности.

Mənəvi dəyərlər fərd səviyyəsində yaranır və formalaşır, çünki dəyərlərin daşıyıcısı eyni zamanda hansısa bir etnik icmanın nümayəndəsidir. Həmçinin mənəvi dəyər insanların - cəmiyyətin, xalqın, millətin kollektiv fəaliyyətinin məhsuludur.

**Etnik icmaların fəaliyyətinin mənəvi aspektləri**

Bu gün xalqların mənəvi mədəniyyəti fərdlərə daim dəyişən, dəyişən dünyada müəyyən sülh və əmin-amanlıq tapmağa imkan verən demək olar ki, yeganə mənbə olaraq qalır. Lakin o, o qədər də dərin olmasa da, transformasiyalara məruz qalır, çünki qloballaşma nətcəsində icmalar üçün əhəmiyyətini itirəcək. Qloballaşmanın hərtərəfli prosesləri xalqların mənəvi mədəniyyətinə də təsir göstərmiş, eyni zamanda xalqların kimliyi problemini yenidən gündəmə gətirmişdir.

Xalqların milli mədəniyyətlərində təcəssüm tapmış etnik dəyərlər cəmiyyətin müasir inkişaf mərhələsində yeni ünsiyyət vasitələrinin axtarışına ehtiyac duyur. Bu zərurət ondan irəli gəlir ki, yerli dəyərlər beynəlxalq, ümumbəşəri dəyərlərlə uyğun olmalıdır. Şəxsiyyətin sosiallaşması və etnikləşməsi prosesində mənəvi mədəniyyət ilk növbədə ümumbəşəri dəyərləri daşımalı və yalnız bundan sonra onun özünəməxsus etnik xüsusiyyətlərinə diqqət yetirməlidir. Sosiallaşma prosesində fərd mədəniyyətin etnik sahəsini müasir sosial proseslərə uyğunlaşdırır ki, bu da ona digər mədəni formalarla konflikt olmadan qarşılıqlı əlaqədə olmağa imkan verir.

Etnik identifikasiya prosesində mənəvi mədəniyyətin rolu qeyri-müəyyən və ziddiyyətlidir, çünki bu, potensial olaraq fərddə etnik dəyərlərin məhdud qavrayışına səbəb ola bilər. Mənəvi mədəniyyətə etnosentrik münasibət, ilk növbədə, multikultural cəmiyyət üzvlərinin etnik tərbiyəsi və dəyər oriyentasiyalarının fərqliliyi ilə əlaqələndirilə bilər.

Cəmiyyətdə multikulturalizmin mövcudluğu icmaların sosial-tarixi, mənəvi, coğrafi, ekoloji şəraitə uyğunlaşması, habelə reallığın müəyyən hadisələrinin məna və mənalarının yaradılması insan fəaliyyəti ilə bağlı obyektiv prosesdir. İnsanın konkret fəaliyyəti nəticəsində fəaliyyət göstərən mənəvi mədəniyyət mühüm sosial funksiyanı - cəmiyyətin mənimsənilməsi vasitəsi və eyniləşdirmə vasitəsi kimi ətraf mühitdə oriyentasiyanı yerinə yetirməyə başladı.

Cəmiyyətin hüdudları daxilində icmaların mənəvi mədəniyyəti təkcə insanlara fərdi təsir göstərməklə məhdudlaşmır, həm də istinad qrupunun bütün üzvlərini əhatə edir. Etnik mədəniyyətin bu xüsusiyyəti yeni nəsil icmalar tərəfindən təkrarlanan və onun bütün mənəvi mədəniyyətinə sabitləşdirici təsir göstərən etnik stereotiplərin mövcudluğu ilə bağlıdır (5).

Hazırda mənəvi mədəniyyətdə etnik stereotiplərin rolunun öyrənilməsinin aktuallığı onların artan təzyiqi və sosial, mədəni, mənəvi və siyasi sferalarda müxtəlif yeniliklərə qarşı çıxması ilə diktə olunur. Bu vəziyyətdə, etnik davranış stereotiplərinə xüsusi diqqət yetirilməlidir, çünki onlar fərdin dəyərlərini ən aydın şəkildə ifadə edir və bir çox sosial qrupların həyatında ən mühafizəkar elementlərdir.

Etnik şəxsiyyət forması bir növ ümumbəşəri mənəvi mədəniyyətin eyniləşdirilməsini nəzərdə tutmur, çünki etnik icmaların dəyərləri fərqlidir və müxtəlif etnik qrupların nümayəndələri üçün onun fərdi elementləri heç vaxt özlərinə bərabər olmayacaqdır. İcmanın mənəvi mədəniyyəti etnik identikliyin formalaşmasına təsir edərək, fərdə özünü müvafiq tamamlayıcı qrupa yönəltməyə kömək edir. Bunda o, öz mənəvi ehtiyaclarını ödəyə və etnik kimliyini reallaşdıra bilər.

Etnik icmaların məskunlaşmış nümayəndələrinin mənəvi mədəniyyətinə münasibəti, əsasən, onların iştirakı və ya yeni etnik dəyərlərin yaradılması ilə bağlı olmayan, multikultural reallıqda müəyyən icma ilə mücərrəd identiklikdə ifadə olunur. Multikultural mühitdə onlar dominant icmaların mənəvi mədəniyyətinin yaradılmasında və təkrar istehsalında şərik olurlar.

Xalqların mənəvi mədəniyyəti transpersonaldır, lakin eyni zamanda həmişə etnik yönümlüdür. Mənəvi mədəniyyətin mənbəyi fərdlərdir, lakin o, təkcə müasirlərə deyil, həm də sonrakı nəsillərə çox böyük təsir göstərir. Lakin kütləvi mədəniyyətin total hücumuna baxmayaraq, etnik mədəniyyətin mənəviyyat və fərdlər üçün əhəmiyyəti öz dəyərini və aktuallığını itirmir. Bu, həm fərdi identifikasiya prosesində, həm də icmaların ümumi birləşməsi fenomenində xalqların mənəvi mədəniyyətinin aksioloji müəyyənliyidir. “Hər bir fərd mədəniyyəti dil, tarix, sinif, cins, din, milliyyət kimi unikal amillərlə müəyyən edilən bir və ya bir neçə qrupun üzvüdür. Mədəniyyət bir qrupun həyat tərzini ifadə edən və paylaşılan və ötürülən qidalanma, dil, geyim və rituallar kimi müxtəlif elementləri ehtiva edən bir anlayışdır” (4, s. 76).

Etnik mənsubiyyət yeni nəsillərə ötürülən, insanların təmaslarını və onların istənilən səviyyədə ünsiyyətini asanlaşdıran sabit sosial mülkiyyəti  təsvir edən kateqoriya kimi müəyyən edilə bilər. Bu keyfiyyət, bir tərəfdən, ona sahib olan insanların məcmusunu birləşdirir, digər tərəfdən isə bu mövzuda ünsiyyəti çətin olan şəxslərdən onları ayırır. Qeyd etmək lazımdır ki, dilin yetkinlik dərəcəsi, köklü transformasiyalara məruz qala bilməməsi, ədəbi dilin mövcudluğu etnik qrupların assimilyasiyasını çətinləşdirir. Etnik sərhədin çəkilməsi göstərilən oxşarlıq və fərqləri dərk etmək və onların əsasında strukturlaşma yolu ilə, lakin müxtəlif təsirlərin, etnik vahidlərin təsiri altında baş verir.

Etnik mənsubiyyət ilə etnik icmanın bir sıra oxşar və fərqli xüsusiyyətlər var. “Etnik mənsubiyyət ortaq keçmişi, dili, irqi və mədəniyyəti olan insanların mənşəyi kimi müəyyən edilir. Etnik icma isə üzvləri real və ya yaradılmış ümumi keçmişə əsaslanaraq bir-birini qruplaşdıran və kənarlaşdıran insanlar qrupudur” (2). Etnik mənsubiyyət ilk növbədə ümumi formada ifadə olunurdu və ondan ayrılmaz olduğu üçün hələ kifayət qədər nəzərə çarpan və aydın ola bilməzdi. Xüsusən də insan qruplarının sayı az olduqda və onların təmasları zəif olduqda bu xüsusiyyət özünü biruzə verir.

Əhali artdıqca və onun inteqrasiyası ilə bağlı mürəkkəb siyasi proseslər gücləndikcə etnik mənsubiyyətin siyasi səviyyəsi yüksəlməyə başlayır. Bir tərəfdən, etnik mənsubiyyətdən istifadə edərək  dövlətlər yaranır və möhkəmlənir. Digər tərəfdən, onlar həm yaxın, həm də uzaq etnik toplumları güclü şəkildə birləşdirir və assimilyasiya edirlər. Nəticədə, etnik mənsubiyyətin konsentrasiyası daha yüksək olur. Onun belə desək, əks keyfiyyəti var - insanlar arasında qarşılıqlı anlaşmanın müəyyən sərhəddinin müəyyən edilməsi, ondan kənara çıxmaq çətinləşir və onun daxilində daha sıx birlik yaranır.

**Etnik özünüdərk**

Etnik özünüdərk və ya milli özünüdərk müəyyən etnik formaların inkişafı ilə bərabər artır. Milli özünüdərk milli mənşəyi, milli tarixi, milli mədəniyyəti, milli maraqları dərk etmək və qavramaq deməkdir. Kifayət qədər inkişaf etmiş özünüdərk olmadan etnik mənsubiyyətin yetkin xüsusiyyətləri görünmür. Qeyd edək ki, bizə tanış olan etnik vahidlərin yekun formalaşması etnik özünüdərk olmadan mümkün deyil. Bəzi

tədqiqatçıların fikrincə, "milli özünüdərk, mili ləyaqət siyasi qloballaşmanın əsas problemidir" (3, s. 111).

Millətin mənəvi keyfiyyəti xalqın maddi və mənəvi mədəniyyətinin xüsusiyyətləri ilə ifadə olunur. Xalqın mənəvi keyfiyyəti milli mədəniyyət olmadan mövcud ola bilməz. Hər bir xalq öz tarixini, mədəni ənənələrini sevir, öz xalqının adət-ənənələrinə, yaşayış tərzinə alışır. Xalqın mənəvi keyfiyyəti xalqın ümumi bölgəsi, ümumi iqtisadi həyatı və tarixi inkişaf xüsusiyyətləri əsasında formalaşır. Bəziləri də dini inanclarla sıx bağlıdır. Təşəkkül prosesində müəyyən sayda insanlar tədricən bir millətə mənsub olduqlarını dərk edirlər. Bu cür milli özünüdərk güclü canlılığa və böyük sabitliyə malikdir. Bəzi etnik qrupların ümumi bölgəsi, ortaq iqtisadi həyatı, hətta ortaq dili kimi xüsusiyyətləri dəyişsə də, milli özünüdərk hələ də açıq şəkildə mövcuddur və millətin saxlanmasında mühüm amilə çevrilmişdir. Bir millətin mənəvi keyfiyyəti də statik deyil. Müxtəlif etnik qrupların maddi həyat şəraiti və sosial mühiti dəyişdikcə, etnik qruplar arasında iqtisadi və mədəni mübadilələr getdikcə genişlənir və tez-tez baş verir, etnik qrupların adət-ənənələri, məişət adətləri də buna uyğun olaraq dəyişir. "Hər bir xalq, etnos özünü düzgün dərk edib qiymətləndirmək və inkişaf etmək üçün kim olduğunu, hansı mənəvi-psixoloji keyfiyyətlərə, adət-ənənələrə, stereotip və yönümlərə malik olduğunu, necə tərəqqi etdiyini, tarix boyu nə kimi psixoloji dəyişikliklərə məruz qaldığını yaxşı bilməlidir" (1, s.52).

Milli şüurun yaranması və təkamülü çox mürəkkəbdir və milli şüurun dəyişməsinə təsir edən bir çox amillər vardır. Milli şüurun inkişaf istiqamətləri ilə bağlı xalq və hökumət şüurlu şəkildə müəyyən istiqamətlər verir ki, milli rəmzlərin yaradılması, tarixi inkişaf prosesində güclənməsi və ya zəifləməsi ölkədə etnik münasibətlərin mövcud vəziyyətini və inkişaf tendensiyasını əks etdirir. İnsanların aid olduğu millətlə, ölkə ilə eyniləşməsi vəhdət təşkil etməlidir. İnsanların öz milləti ilə eyniləşməsi, əsasən, öz millətinin üzvlərinin öz milli varlığını dərk etmələrində, öz vətəninə sədaqət və mənsubiyyət duyğusunda, onları qoruyub saxlamasında özünü göstərir.

**Nəticə**

Etnik şüur şəxsiyyətin dünyagörüşünü, dəyər sistemini, habelə motivasiyasını müəyyən edən mühüm amillərdən biridir. İnsan doğulduğu ölkəni tərk edə bilər, sosial statusunu dəyişə bilər, lakin ömrünün sonunadək etnik köklərinə mənsub olaraq qalacaq, bu da ona dünyaya bu cür baxmağa vadar edir. Xalqın ümumi mənəvi keyfiyyəti çox vaxt onun tarixi təcrübəsi və statusu ilə sıx bağlıdır. Ayrı-seçkiliyə və təzyiqə məruz qalan bəzi etnik qruplar başqa etnik qruplara yadlaşır və onlara inamsızdır, öz etnik qruplarının ləyaqətinə və bərabərliyinə xələl gətirən davranışlara kifayət qədər həssas yanaşırlar.

## ƏDƏBİYYAT


1. Etnopsixologiya. Bakı, Azərbaycan Dillər Universiteti, 2020, 347 s.
2. Etnik Nedir? Etnik Köken Ve Etnik Grup Ne Demektir? 23.04.2020. https://www.milliyet.com.tr/
3. Tağıyev Ə. Milli kimlik və multikultural proseslər. Bakı: Gənclik, 2017. 204 s.
4. Tezcan, M. (2014). Eğitim Sosyolojisi. Ankara: Zirve Yayıncılık.
5. Зарипов А.Я. Этнос как субъект социально-политического и культурного развития (современный аспект): автореф. дис. ... д. филос. наук. - Уфа, 2004. - 37 с.

# ETNİK İDENTİFİKASİYA PROSESİNDƏ MƏNƏVİ AMİLLƏRİN ROLU

***Ağazadə Nigar***

## XÜLASƏ

İdentifikasiya anlayışı fərdlər üçün müvafiq əlamətlər toplusunun sistematik şəkildə tapılması və müəyyənləşdirilməsi ilə bağlıdır. İdentifikasiya prosesinin qanunauyğun şəkildə reallaşmasında etnik identifikasiya olduqca mühüm rol oynayır. Etnik identifikasiya ilə bağlı problemlərin tədqiqi müasir cəmiyyətdə nəinki aktuallığını itirmir, əksinə, həm ölkəmizdə, həm də xaricdə onlara elmi marağın artması müşahidə olunur. Müəyyən bir etnik qrupun mentalitetinin orijinallığı və sabitliyi müəyyən bir vəziyyətdə insanların davranışından asılı olan müəyyən milli dəyərlər toplusuna əsaslanır.

# РОЛЬ ДУХОВНЫХ ФАКТОРОВ В ПРОЦЕССЕ ЭТНИЧЕСКОЙ ИДЕНТИФИКАЦИИ

***Агазаде Нигяр***

## АННОТАЦИЯ

Концепция идентификации связана с систематическим обнаружением и идентификацией набора характеристик, относящихся к отдельным лицам. Этническая идентификация играет очень важную роль в правовом осуществлении процесса идентификации. Исследование проблем, связанных с этнической идентификацией, не только не теряет своей актуальности в современном обществе, наоборот, наблюдается рост научного интереса к ним как в нашей стране, так и за рубежом. Подлинность и устойчивость менталитета определенного этноса базируется на определенном наборе национальных ценностей, которые зависят от поведения людей в определенной ситуации. Нравственные ценности возникают и формируются на индивидуальном уровне, поскольку носителем ценностей является также представитель этнической общности. Также моральная ценность является продуктом коллективной деятельности людей – общества, народа, нации.

# THE ROLE OF SPIRITUAL FACTORS IN ETHNIC IDENTIFICATION PROCESS

***Aghazade Nigar***

## SUMMARY

The concept of identification is related to the systematic finding and identification of a set of characteristics relevant to individuals. Ethnic identification plays a very important role in the legal implementation of the identification process. The study of problems related to ethnic identification not only does not lose its relevance in modern society; on the contrary, there is an increase in scientific interest in them both in our country and abroad. The authenticity and stability of the mentality of a certain ethnic group is based on a certain set of national values that depend on the behavior of people in a certain situation. Moral values arise and are formed at the individual level, because the bearer of values is also a representative of an ethnic community. Also, moral value is the product of collective activity of people - society, people, and nation.

# MÜDAFİƏ PLANLAŞDIRMASI ANLAYIŞI VƏ YANAŞMALARI

***Həsənov Azər Xudaverdi oğlu,***
***fizika-riyaziyyat üzrə fəlsəfə doktoru***
***Nəcəfov Zəfər Nuri oğlu, milli təhlükəsizlk***
***və hərbi elmlər üzrə fəlsəfə doktroru***
***Vəliyev Hafiz Şahmar oğlu, magisrtant mayor***
***Hərbi İdarəetmə İnstitutu***

***Açar sözlər***: müdafiə planlaşdırması, milli təhlükəsizlik, texnologiya, təhdid, Silahlı Qüvvələr
***Ключевые слова:*** оборонное планирование, национальная безопасность, технологии, угроза, Вооруженные Силы
***Keywords:*** defense planning, national security, technology, threat, Armed Forces

**Giriş.** "Müdafiə" planlaşdırması bu gün kimə lazımdır? Müdafiə məzmununa görə hərbi xarakter daşıyır; bununla belə, ordu düşməni vahimələndirmək vasitəsi kimi xidmət göstərir və əgər münaqişə yaranarsa orduya düşməni döyüşdə məğlub etmək imkanı verilir. Əgər düşmən dəqiq müəyyən edilməyibsə, döyüşən tərəfləri müəyyən etmək mümkün deyilsə, onda müdafiə planlaşdırılması kimə qarşı yönələ bilər? Əgər dövlət, hökumət və əhali hesab etsə ki, terrorizm, korrupsiya, cinayətkarlıq, narkotiklər, yolxucu xəstəliklər daha çox təhdid doğurur, o zaman onlarla mübarizə aparmaq üçün hansı vasitələr əldə etmək lazımdır? Döyüşən tərəflər arasında cəbhə xətti haradan keçir? Hansı keyfiyyətlərə malik Silahlı Qüvvələr yaratmaq lazımdır? Bütün bu suallara məqalədə aydınlıq gətirilməyə cəhd edilir.

Qərb paradiqması çərçivəsində, xüsusən də NATO və ABŞ-da müdafiə planlaşdırılması milli maraqları və bu maraqlara təhdidləri müəyyən edən daha geniş və uzunmüddətli strateji qiymətləndirməni əks etdirir. Bir qayda olaraq, onlar "milli təhlükəsizlik strategiyası" və "müdafiə doktrinası" adlanır [1]. Belə uzunmüddətli və geniş təhlilin bitməsindən sonra müdafiə planlaşdırılmasının konkret məsələləri həll edilir, yəni təhdidlərin dəf edilməsi və milli maraqların qorunması üçün hansı qoşunun və texnikanın gərəkliliyi müəyyən edilir.

Sosial-iqtisadi və siyasi şərtlərin eyni vaxtda dəyişildiyi keçid mərhələsində ölkə rəhbərliyi təhlükəsizliyin yeni əsaslarının axtarışı ilə məşğul olur. Belə olan təqdirdə, müdafiə planlaşdırılması SQ-də və Müdafiə Nazirliyində islahatlarla müşayiət edilməlidir. Postkommunist dövründə Mərkəzi/Cənub-Şərqi Avropada adətən müvafiq sənədlər "MN-nin islahatlar Konsepsiyası" və ya "SQ-nın inkişafı" adlanırdı.

Beləliklə, müdafiə planlaşdırılması milli təhlükəsizliyin dərk edilməsi mərhələsi kimi təqdim edilir, məqsədlərə nail olmaq və siyasi kursun realizəsi üçün yollar müəyyənləşdirir. Güman etmək olar ki, müdafiə planlaşdırılması üzrə mütəxəssis əsasən realizə prosesində təşkilati və idarəetmə çətinliklərinə diqqət yetirir. İdeal halda onların məqsədi "şüurla planlaşdırmaq, şüurla idarə etmək və satın almaq"dan ibarətdir. Müdafiə planlaşdırılması ilk növbədə, milli təhlükəsizliyin hərbi komponentinin təşkilati və idarəetmə əsasına çevrilməlidir.

Müdafiə planlaşdırılması üzrə mütəxəssis müəyyən münaqişələri və təhlükələri nəzərə alaraq plan tərtib edir. Onlar məntiqi nəticə çərçivəsində təhdidlərə mane olmaq üçün hansı güc və güvvənin gərəkli olmasını, insan və maddi resursların müəyyən edilən strateji məqsədlərə və siyasi vəzifələrə uyğun olaraq təşkili və idarə edilməsini həll edirlər.

Lakin bu cür məntiq müdafiə planlaşdırılmasını 1) gələcək senarilər haqqında məhdud (dar) ehtimallara, 2) resursların məhdud göstəricilərinə, 3) əvvəlcədən müəyyən, statik təfəkkürə və s. apara bilər [2]. Müdafiə hazırlığını təmin etmək məqsədi daşıyan müdafiə planlaşdırılması proqnozlaşdırılan, ehtimal edilən və gözlənilən hadisələrə hazırlıq xarakteri alır. Belə olan təqdirdə planlaşdırma idarəetmə prosesinə çevrilir.

Başqa sözlə, planlaşdırma müstəqil mərkəzsizləşdirilmiş təşəbbüslər əsasında deyil, əvvəlcədən hazırlanmış sxem əsasında "yuxarıdan aşağıya" prinsipinə uyğun olan strateji maraqlara və ya siyasi tələblərə istiqamətlənir. Yenilik və təşəbbüslər planlaşdırma üzrə mütəxəssislər tərəfindən nəzərdə tutulmur.

Müdafiə hardansa və kimdənsə gələn təhdidi təxmin edir. Hətta təhdid yaxın zamanlar üçün labüd olmasa belə, ordunun mövcudluğu demokratik cəmiyyətin gözündə müdafiənin elementi kimi izah edilir və ona haqq qazandırılır. Bununla belə, təhlükələrin daha da qeyri-müəyyən xarakter aldığı bir vaxtda mütəşəkkil ordu universal müqavimət vasitəsi kimi mövcudluğunu itirir, beynəlxalq, qeyri-ənənəvi, qeyri-hərbi yanaşmalar isə milli müdafiə planlamasını daha çox erroziyaya uğradır. Müvafiq resurs və qüvvələri istifadə edən dövlətüstü və yerli orqanların peyda olması nəticəsində bir və ya bir neçə (ittifaq çərçivəsində) dövlətlər çərçivəsində planlaşdırma prosesi mürəkkəbləşir və dolaşığa düşür. 2000-ci ildə Avropa İttifaqı 60000 nəfərlik çevik reaksiyalı qüvvələrin yaradılması haqqında qərar qəbul etdi. Bu başlanmış işin müvəffəqiyyətindən asılı olmayaraq, şəxsi heyət və texnika eyni zamanda Aİ-nin və NATO-nun sərəncamında olur. Hümanitar və sülhyaratma əməliyyatlar tez-tez keçirildiyindən və genişmiqyaslı xarakter daşıdığından müdafiə planlamaşdırılmasının şəxsi heyətə, texnikaya, maliyyələşməyə və hazırlığa aid olan standart normalarında dəyişikliklər tələb olunur. Başqa sözlə, müdafiə planlaşdırılması milli xarakterini itirir və daha da çoxtərəfli prosesə çevrilir.

Əksər hallarda müdafiə planlaşdırılması təhlükəsizlik sahəsində şəraitin təhlili ilə başlayır. Sonra isə proses beynəlxalq təşkilatlarda və iki tərəfli münasibətlərdə yaxın keçmişdə baş verən dəyişikliklərə gedib çıxır, nəhayət, ayrı-ayrı ölkələrin bu təşkilatların köməyi ilə təhlükəsizliyə nail olmaq və yaxud onu təmin etmək bacarığı qiymətləndirilir. Müdafiə təhlükəsizlik deməkdir. Qeyri-müəyyənlik nə qədər çox olarsa, müdafiə olunmaq bir o qədər çox tələb olunur.

Müdafiə planlaşdırması təhlükəsizlik anlayışını potensial əsasında müəyyən edir. Təhlükəsizliyin planlaşdırılması daha geniş mənada təhdidlərlə mövcud qüvvələr arasında dinamik balansın himayə edilməsi yollarının gözdən keçirilməsi və təhdidlərin azaldılmasına yönələn fəal siyasət deməkdir. Təhlükəsizliyin planlaşdırılmasının denasionalizasiyası beynəlxalq kollektiv əməkdaşlığı nəzərdə tutur.

Üç xarakteristika və ya fərqləndirici cəhətlər təhlükəsizlik planlaşdırılmasının daxili sistemləri arasında fərqlər aparmağa imkan verir. Birincisi, milli təhlükəsizliyin planlaşdırılması üzrə **qərarların qəbul edilməsi prosesinin mərkəzi** ictimaidən başlayıb, siyasi partiyanın və ya dəstənin üstün rol oynadığı qapalı sistemdək müxtəlif xarakter daşıyır. Birinci vəziyyətdə (ictimai planlaşdırma mərkəzi) şəxsi heyətə, silahlanmaya və hazırlığa dair məsələlər ictimai forumlarda qoyulur və müzakirə edilir. Qərar qəbul edən şəxsin mövqeyi çox güman ki, dəqiq müəyyən edilib: ölkədə və xaricdə ictimaiyyətə məlumdur ki, dövlət institutları hansı qərar qəbul edir və müdafiə sahəsində hansı siyasət yürüdür.

Hesabat verməli olma və ya nəzarət dərəcəsi, **yəni qərarın necə qəbul edilməsi** təhlükəsizliyin planlaşdırma sisteminin ikinci fərqləndirici xarakteristikası sayılır. Qanunverici nəzarət, jurnalist təhqiqatı, QHT-in təsiri ilə aparılan araşdırmalar, akademik tədqiqatlar şəffaflığın təmin edilməsinin ən mühüm aspektlərindən və təhlükəsizliyin açıq planlaşdırılması sisteminin fərqli cəhətlərindən hesab edilir.

Üçüncü və ola bilsin ki, ən dərin fərq **qərarın kim tərəfindən qəbul edilməsi və siyasətin formalaşmasında kimin iştirakı** hesab edilir [2]. Müxtəlif sosial-iqtisadi və

siyasi qrupların və maraqların geniş cəlb edilməsi təhlükəsizliyin planlaşdırılması prosesinin çoxtərəfliliyini təmin edir. Qapalı sistemdə yalnız bir kanaldan daxil olan informasiya nəzərə alınır ki, bu da nümayəndəliliyi istisna edir.

**Şəffaflıq** ayrılmaz tələb hesab edilir. SQ və bütün təhlükəsizlik strukturları üçün resursların bölüşdürülməsi prosesini izləmək imkanı həm gənc, həm də yetkin demokratik cəmiyyətlər üçün həddindən artıq mühüm sayılır. Şəffaflığın mütləq olması vacib deyil, lakin insan və maliyyə resursları sərf edilən konkret proqramlar və tədbirlər haqqında informasiya gizlədilirsə demokratiyanın normativ bazası sarsılır və təhlükəsizlik planlaşdırılması ilə məşğul olanların praqmatik tələbatları nəzərə alınmır.

Şəffaflıq sadəcə hər şey haqqında informasiyanın elan edilməsi və yayılması demək deyil. O, daha çox jurnalist təhqiqatları, parlament nəzarəti və akademik tədqiqatlarla təmin edilən prosedurun aydınlığını və anlaşılan olmasını tələb edir. Əgər ictimaiyyət tərəfindən bu cür nəzarət götürülərsə, təhlükəsizliyin planlaşması prosesində tezliklə məxfilik və avtoritarizm bərqərar ola bilər.

**Yarımşəffaf sistemlərdə** yalnız ümumi konturlara nəzər salmaq imkanı verilir, detallar isə gizli saxlanılır. **Qeyri-şəffaf sistemlərdə** təhlükəsizliyin planlaşdırılması proseslərinin əsas parametrləri gizli saxlanılır. Şəffaflığı təmin etmək üçün aşağıdakı fəal tədbirlər vacibdir: informasiyanı mətbuata ötürmək gərəkliyi, nöqsanları və hüquqpozuntularını sərbəst üzə çıxarmaq, milli qanunvericilik orqanları ilə müntəzəm əlaqə saxlamaq və əməkdaşlıq etmək. Şəffaflıq öz-özünə yaranmır. Onun təmin edilməsi üçün fasiləsiz səylər gərəkdir [2].

Akademik tədqiqatları alimlərin nazirliklərdə və idarələrdə elmi təcrübə keçməsiylə təkmilləşdirmək mümkündür. Qanunverici nəzarəti təhlükəsizlik məsələləri üzrə mülki və hərbi mütəxəssislər arasında əməkdaşlığı yoluna qoymaqla genişləndirmək olar. Bunu birgə təlimlər, kadr mübadilələri (ezamiyyətlər), xüsusi və mütəmadi brifinqlər çərçivəsində etmək mümkündür.

Plüralizm qərar qəbul edilməsi prosesində nümayəndə müxtəlifliyinin iştirakını nəzərdə tutur. Demokratik cəmiyyətlərdə təhlükəsizliyin planlaşdırılması prosesində adətən parlament elitası (müdafiə üzrə komitələr) iştirak edir. Alimlər və analitik mərkəzlər informasiya təqdim edir və rəy verirlər. İşgüzar dairələrin maraqlarını əks etdirən təşkilatlar, etnik birliklər və digər strukturlar ayri-ayri regionlara və ya konkret təhdidlərə münasibətdə oz fikirlərini ifadə etmək imkanına malikdirlər. Əhəmiyyətli olan odur ki, fikirlər, mövqelər və qiymətlər yalnız Baş Qərargah, Müdafiə Nazirliyi və xüsusi xidmət orqanları tərəfindən məhdudlaşdırılmır. Həqiqi plüralizmi təmin etmək üçün milli təhlükəsizlik üzrə sənədlərin hazırlanması zamanı onlar nüfuzlu, ixtisaslı və təcrübəli iş adamları, alimlər, analitik mərkəzlərin, həmçinin sosial-iqtisadi və siyasi institutların əməkdaşları tərəfindən dərindən müzakirə edilməlidir.

Məhz plüralizmin sayəsində təhlükəsizliyin planlaşdırılmasının açıq müzakirəsi həyata keçirilir. Bu isə planlaşdırmanı siyasi partiyaların və qruplaşmaların nəzarətindən azad edir, prezident administrasiyasının, nazirlik və parlamentin bürokratik strukturlarının kluarlarından kənara çıxarır.

Müdafiə planlaşdırması ölkənin təhlükəsizliyinin təmin edilməsi tələbatlarının qiymətləndirilməsi, hərbi sahədə təlabatların, həmçinin məhdud resursların nəzərə alınması ilə SQ-in seçiminin müəyyən edilməsi prosesidir.

**Müdafiə planlaşdırılması yanaşmaları.** Bu yanaşmalar uzun illər ərzində işlənib hazırlanmış, milli təhlükəsizliyin qiymətləndirilməsi və qərarların qəbul edilməsi prosesinə öz töhfəsini verir.

***“Yuxarıdan aşağıya”.*** Dövlətin maraq və məqsədləri SQ-ın planlaşdırılması zamanı *“Yuxarıdan aşağıya*” yanaşmasına istinad edir. Bu yanaşma əsasən dövlətin əsas strategiyasının və ya milli təhlükəsizlik strategiyasının müəyyənləşdirilməsində tətbiq edilir. Bu

yanaşma olduqca iyerarxiyalıdır, qərar qəbulunun bütün ardıcıl səviyyələrində əsas sənədlərə yuxarıdan aşağıya baxmağa imkan verir [3, 23].

“Yuxarıdan aşağıya” yanaşması bir sıra güclü tərəflərə malikdir. Birincisi; o, strateqlərə və SQ-in planlaşdırılması ilə məşğul olan mütəxəssislərə əsas məqsədlər üzərində fikrini cəmləməyə imkan verir. İkincisi; o, bütün tələblərə baxış sistemini daha geniş “makro kontekstdə” təmin edir. Üçüncüsü; bu yanaşmada dövlət hakimiyyətinin iqtisadi, siyasi və hərbi instrumentləri arasında qarşılıqlı əlaqəyə istinad edilir.

***“Aşağıdan yuxarıya”***. Hərbi potensiala istinad etməklə, “aşağıdan yuxarıya” yanaşmasını SQ-in planlaşdırılmasına tətbiq etmək mümkündür. Bu yanaşmanın tətbiqi nəticəsində bir qayda olaraq, mövcud potensialın güclənməsinə, silah sistemlərinin təkmilləşməsinə olan tələbat aydınlaşır, bununla belə, əsas diqqət cari operativ məsələlərə yetirilir [4]. Bu ilk növbədə, operativ hərbi planlaşdırma ilə bağlıdır. Bu yanaşmanın əsas üstünlüyü işlərin real vəziyyətinə istinad etməkdır.

***“Ssenari”.*** SQ-ın planlaşdırılmasına tətbiq edilən “ssenari” yanaşması şəraitin təhlilinə əsaslanır. Mütəxəssislər bu halda vəzifələrin dəqiq ifadə edilməsi və böhran vəziyyətlərinin aydınlaşması üçün dövləti, taktiki, regional və qlobal səviyyələrdə bir sıra dəqiq müəyyən edilmiş şəraitlərdən istifadə edirlər [3, 25].

Yaxşı işlənib hazırlanmış ssenari böyük həcmli cari praktiki informasiyaları və artıq hazır plan üzrə fərz edilən elementləri əhatə edir. Burada çox vaxt xəbərdarlıq və səfərbərlik müddətləri, SQ-ın səviyyəsi və lazım olan yerdə hərbi əməliyyatların məqsədləri əksini tapır.

Bu yanaşmanın bir sıra güclü tərəfləri vardır. Birincisi; onun dəqiq müəyyən olunmuş istiqaməti var. Əgər ssenari İraq SQ-nin Küveytə hücumu hesab edilirsə, əsas şərtlərin müəyyən edilməsindən sonra kifayət qədər dəqiq planlaşdırma aparmaq mümkündür. Əgər eyni anda iki ssenari (İran və Koreya) gözlənilirsə, o zaman daha dəqiq planlaşdırmaya nail olmaq mümkündür. Bu yanaşmanın növbəti üstünlüyü prioritetlərin dəqiq müəyyən edilməsidir. Milli maraqlardan çıxış edərək, bu və ya digər regionların, hərbi əməliyyat səhnəsinin və dövlətlərin əhəmiyyətini müəyyən etmək mümkündür.

Üçüncü üstünlük fəaliyyətin ardıcıllığını və dəqiq müəyyən edilmiş zaman çərçivəsini əks etdirən ssenarinin dinamik təbiətidir. Lakin bu senarinin də çatışmazlıqları az deyil. Dünyada siyasi vəziyyət nadir halda mütəxəssislərin gözləntilərinə uyğun inkişaf edir. Beləcə ssenari öz həyatını yaşamağa başlayır, planların işlənib hazırlanması üzrə bütün görülən işlərdən sonra onun əsas komponentlərinə yenidən nəzər salmaq istəyi minimuma enir. Nəticədə xəbərdarlıq və səfərbərlik müddətləri kimi mühüm ehtimallar mütləq əsaslar kimi qəbul edilə bilər, düşmənin doktrinası ilə bağlı hipotezalara faktlar kimi baxıla bilər. Bundan əlavə, ssenarilərdə retrospektivliyə (yəni, daha çox keçmiş böhranlara) meyl daha güclüdür.

***Təhdid.*** Təhdid mövqeyindən yanaşma potensial rəqiblərin üzə çıxarılmasını və onların gücünün qiymətləndirilməsini nəzərdə tutur [5, 49]. Bu yanaşmanın başlanğıc nöqtəsi çox zaman düşmənlərin güc balansının qiymətləndirilməsi hesab edilir. Təhlükəsizlik mühitində son dəyişiklik potensial təhdidlər kontekstində SQ-ın planlaşdırılması vəzifəsini “soyuq müharibə” dövrü ilə müqayisədə daha da mürəkkəbləşdirib. Lakin bu yanaşmanın üç güclü tərəfi vardır. Onlardan ən mühümü potensial rəqibə diqqətin ayrılmasıdır. İkincisi; bu yanaşma dünyada qüvvələr balansına makrosəviyyədə, konkret konflikt şəraitinə isə mikrosəviyyədə nəzər salmağı mümkün edir. Nəhayət, “təhdid” nöqteyi-nəzərdən yanaşma hərbi planlaşdırma üzrə strateq və mütəxəssislərə onu xatırladır ki, hərbi potensialın gücü hərbi işdə əhəmiyyətli rol oynayır və öz növbəsində onlardan ciddi qiymətləndirmənin aparılmasını və realistik ssenarilərin işlənib hazırlanmasını tələb edir.

***Potensial/missiya.*** Missiyaların qiymətləndirilməsinə əsaslanan yanaşmanın funksionallığı dost dövlətlərin silahlı qüvvələrinin mümkün təhdidlərdən, böhran şəraiti və ya hərbi

əməliyyatlardan asılı olmadan təhlil edilməsi ilə əlaqələndirilir. Planlaşdırma üzrə mütəxəssis qiymətləndirməyə hərbi fəaliyyətin bu cür ümumi kateqoriyalarından: strateji çəkindirmə, qoşunun və hərbi texnikanın göndərilməsi və yaxud xaricdə iştirak və s. başlayır. Bu kateqoriyalar sonra daha konkret kateqoriyalara: birgə zərbə, havada üstünlük, strateji mobillik, dəniz akvatoriyaları üzərində nəzarət, quru qoşunların manevrləri və s. parçalanır. Daha konkret altqruplar isə düşmənin hava hücumundan müdafiə sisteminin susdurulması, batareya əleyhinə mübarizə, mina əleyhinə mübarizə və s. ola bilər. Bu yanaşma hərbi potensialın hərbi fəaliyyətin bütün ümumi kateqoriyaları üzrə təhlil edilməsinə imkan verir [3, 27].

Bu yanaşmanın bir sıra üstünlükləri mövcuddur. Birincisi; o, istənilən hərbi təşkilatın potensialının real və müfəssəl qiymətləndirilməsi sistemini təqdim edir. Bu, mümkün gələcək təhdidlər nöqteyi-nəzərdən olduqca vacibdir. Belə ki, dost dövlətlərə öz qüdrətini gücləndirmək və qabaqcadan düşmənin zəifliyindən istifadə etmək imkanı verir. Əgər təhdidi müəyyən etmək mümkün olmadıqda belə, bu yanaşma planlaşdırma mütəxəssislərinə prioritetləri müəyyən etmək və aşkar uyğunsuzluqları aradan qaldırmaq imkanı verir.

***Yeni texnologiyalar.*** Yeni texnologiyalara vurğu edilməsi belə bir ehtimaldan irəli gəlir ki, münaqişəni aradan qaldırmaq və təcavüzkarı çəkindirmək yalnız texnoloji inkişaf səviyyəsi baxımından potensial düşmənin silah sistemini üstələyən silah sisteminin tətbiq edilməsi ilə mümkündür. II-ci dünya müharibəsi dövründə atom bombasının yaradılmasının "Manhetten lahiyəsi"; Vetnam müharibəsinin bitməsindən sonra yüksək dəqiqliyə malik döyüş sursatlarının hazırlanması, bu gün isə amerikanlıların "informasiya müharibəsinə" aludə olması strateq və hərbi planlaşdırma üzrə mütəxəssislərin "texnoloji optimizmini" nümayiş etdirir. Bu metodun əsas üstünlüyü postindustrial iqtisadiyyatın inkişaf amillərini müəyyən edən alimlərin biliklərinə və yaradıcı təfəkkürünə istiqamətlənməsidir. Bundan savayı, yeni texnologiyaların inkşafı insan həyatının qorunub saxlanılmasına və insan itkisinin azlmasına aparır. Və nəhayət, yeni texnologiyaların inkişafı hərbi inkişafın rıçaqı ola bilər [3, 29-30].

***Fiskal yanaşma.*** Bu yanaşmanın əsas göstəricisi büdcə hesab edilir. Fiskal yanaşmanın gücü ondan ibarətdir ki, o demokratik proseslərdən doğur, yəni müdafiə resursları strukturunu iqtisadiyyat, bütövlükdə isə bir-biri ilə rəqabət aparan dövlətin milli tələbatları və ictimai təhlükəsizlik mühitinə olan baxışlar kontekstində müəyyən edir. Planlaşdırma üzrə mütəxəssislərdən prioritetlərin dəqiq müəyyən olunması və SQ-in daxilində və digər hərbi birləşmələr arasında fiskal intizamın gücləndirilməsi tələb olunur. Yanaşmanın əsas zəif cəhəti ondan ibarətdir ki, o beynəlxalq təhlükəsizlik mühitini əks etdirmir və nəticədə ölkənin hərbi gücü ilə meydana çıxan təhdidlər arasında əhəmiyyətli ziddiyyətlər baş verir [3, 30].

**Nəticə.**

Bu gün müdafiənin planlaşdırılmasında "yuxarıdan aşağı" yanaşması planlaşdırmanın rəsmi fprması kimi tətbiq edilir. Lakin bu heç də o demək deyil ki, planlaşdırma prosesində digər yanaşmalardan istifadə edilmir. Əksər əcnəbi tədqiqatçılar bu fikirdədirlər ki, qüvvə planlaşdırılması prosesində bütün yanaşmaların elementlərindən istifadə edilir. Müasir beynəlxalq sistemdə hərbi-siyasi ittifaqların qütbləşməsi və hərbi-siyasi balansın kövrək olması, klassik və yeni hərbi və trasmilli təhdidlərin mövcudluğu, qızğın silahlanma prosesinin davam etməsi, təhlükəsizlik mühitinin radikal transformasiyası və zorakı qeyri-dövlət aktorlarının müharibə üzərində mərkəzçi-dövlətin sərt monopoliyasını sındırması müdafiənin planlaşdırılmasında "yuxarıdan aşağıya" yanaşması çərçivəsində digər yanaşma elementlərindən istifadə edilməsini inkar etmir.

## ƏDƏBİYYAT

1. Handbook on Long Term Defence Planning, RTO Technical Report 69 (Paris: NATO Research and Technology Organization, April 2003), www.rta.nato.int/pubs/rdp.asp? RDP=RTO-TR-069.

2. Daniel Nelson, «Beyond Defense Planning», in Transparency in Defence Policy, Military Budgeting and Procurement, ed. Todor Tagarev (Sofia: Geneva Centre for DCAF and George C. Marshall-Bulgaria, 2002).

3. Henry C. Bartlett, G. Paul Holman, Jr., and Timothy E. Somes, «The Art of Strategy and Force Planning», in Strategy and Force Planning, 4th ed. (Newport, R.I.: Naval War College Press, 2004), 17-33.

4. Todor Tagarev, «The Art of Shaping Defense Policy: Scope, Components, Relationships (but no Algorithms)», Connections: The Quarterly Journal 5, no. 1 (Spring-Summer 2006): 15-34, https://consortium.pims.org/the-art-of-shaping-defense-policy-scope-components-relationships-but-no-algorithms.

5. Defence Management: An Introduction (Geneva, Geneva Centre for the Democratic Control of Armed Forces, 2009), 214 p

## MÜDAFİƏ PLANLAŞDIRMASI ANLAYIŞI VƏ YANAŞMALARI

***Həsənov Azər, Nəcəfov Zəfər, Vəliyev Hafiz***

## XÜLASƏ

Terrorçuların fəaliyyəti nəticəsində Beynəlxalq Ticarət Mərkəzinin partladılması və 3000 nəfərin həlak olması müdafiə planlaşdırması haqqında köhnə təsəvvürləri alt-üst etmiş oldu. ABŞ-ın o zamankı müdafiə naziri D.Ramsfeld bəyan etmişdir ki, ABŞ müdafiə sistemi Amerika şəhərlərini ölkə daxilində uçuş həyata keçirən yerli aviaşirkətlərə malik mülki təyyarələrdən qorumağa hesablanmayıb. Belə əsaslandırmalarla o deyə bilərdi ki, təsəvvür edilməz hadisələri planlaşdırmaq olmaz.

Müdafiə planlaşdırılması termininin özünə müasir reallıqlar fonunda münasibət birmənalı deyil. Birinci konseptual problem "planlaşdırma" termininin dərkində, ikincisi isə "müdafiə" anlayışında özünü biruzə verir. Planlaşdırma əsas elementlərin ayrılmasını, məlumat və hazırlığı nəzərdə tutur ki, onlar da öz növbəsində gələcək senarilər barəsində etimallara əsaslanır. Bir çox hallarda müdafiə planlaşdırılması müdafiə haqqında elm kimi müharibəyə hazırlığı olan Silahlı Qüvvələrin (SQ) modernizasiyasına və onların Qərb nümunəsində qurulmasına şamil edilir.

Müdafiə planlaşdırılması zamanı bir sıra yanaşmalardan istifadə edilir. Müasir qloballaşan dünyada həmin yanaşmalardan hibridindən isstifadə daha məqsəduyğun hesab edilir.

Məqalənin hazırlanmasında sintez və analiz, induksiya və deduksiya, struktur-funksional və s. metodlardan istifadə edilib.

# КОНЦЕПЦИИ И ПОДХОДЫ ОБОРОННОГО ПЛАНИРОВАНИЯ

***Гасанов Азер, Наджафов Зафар, Велиев Хафиз***

## АННОТАЦИЯ

Взрыв Международного торгового центра и убийство террористами 3000 человек опрокинули старые представления об оборонном планировании. Д. Рамсфельд, тогдашний министр обороны США, заявил, что система обороны США не предназначена для защиты американских городов от гражданских самолетов с местными авиалиниями, летающими внутри страны. Имея такие основания, он мог бы сказать, что невообразимые события невозможно спланировать.

Отношение к самому термину оборонное планирование на фоне современных реалий неоднозначное. Первая концептуальная проблема проявляется в понимании термина «планирование», а вторая – в понятии «оборона». Планирование включает в себя выделение ключевых элементов, информации и подготовку, которые, в свою очередь, основаны на представлениях о будущих сценариях. Во многих случаях оборонное планирование как наука об обороне применяется для модернизации готовых к войне вооруженных сил (ВС) и их построения по западному образцу.

В оборонном планировании используется ряд подходов. В современном глобализированном мире считается более целесообразным использовать гибрид этих подходов. При подготовке статьи синтез и анализ, индукция и дедукция, структурно-функциональный и др. методы были использованы.

# DEFENSE PLANNING CONCEPTS AND APPROACHES

***Hasanov Azer, Najafov Zafar, Valiyev Hafiz***

## SUMMARY

The bombing of the International Trade Center and the killing of 3,000 people by terrorists overturned old notions of defense planning. D. Rumsfeld, the Secretary of Defense of the USA at that time, stated that the US defense system was not designed to protect American cities from civil aircraft with local airlines flying within the country. With such justifications, he could say that unimaginable events cannot be planned.

The attitude to the term defense planning itself against the background of modern realities is ambiguous. The first conceptual problem manifests itself in the understanding of the term "planning", and the second in the concept of "defense". Planning involves the allocation of key elements, information and preparation, which in turn are based on beliefs about future scenarios. In many cases, defense planning as the science of defense is applied to the modernization of the armed forces (AF), which are ready for war, and to build them on the Western model.

A number of approaches are used in defense planning. In today's globalized world, it is considered more appropriate to use a hybrid of these approaches.

In the preparation of the article, synthesis and analysis, induction and deduction, structural-functional, etc. methods were used.

# YENİYETMƏLƏRDƏ MİLLİ HİSSLƏRİN FORMALAŞMASINDA MİLLİ QƏHRƏMANLARIN ROLU

***Orucova Sevinc Kamran qızı***
***ADPU-nun II kurs magistrantı***
*orucovas93@gmail.com*

***Açar sözlər:*** Milli hisslər, 20 Yanvar faciəsi, Aprel döyüşləri, II Qarabağ müharibəsi, milli qəhrəmanlar.

***Ключевые слова:*** Национальные чувства, трагедия 20 Января, Апрельские бои, Вторая Карабахская война, национальные герои.

**Keywords:** National sentiments, January 20 tragedy, April battles, Second Karabakh War, national heroes.

Yeniyetməlik uşaqlıqla böyüklük arasındakı ruhi inkişaf və şəxsin gələcək həyata hazırlıq dövrüdür. Yeniyetmə dövrü həm də keçid dövrü kimi qeyd olunur. Çünki yeniyetmə nə uşaq hesab olunur, nə də böyük. Bu yaşda fiziki inkişafda da mürəkkəb və qəliz dəyişikliklər baş verir, orqanizmdə lazımi möhkəmlik gedir, əsəb sistemi ilə yanaşı əzələdamar sistemi də sürətlə inkişaf edir. Bunların hamısı isə nəticədə yeniyetmənin psixologiyasına təsir edir. Keçid dövrü olan bu mərhələdə gəncdə fizioloji, bioloji və psixoloji sahələrdə olduqca sürətli dəyişikliklər baş verir. Bu sürətli dəyişikliklərlə əlaqəli olaraq yeniyetmənin ruhi və emosional dünyası da bəzi dəyişikliklərə məruz qalır. Bu cür dəyişikliklərə öyrəşməyə çalışan yeniyetmədə təbii olaraq çətinliklər keçirir. Hər keçid dövründə olduğu kimi, yeniyetməlik də qəliz və mürəkkəb bir keçidin yaşandığı mərhələdir [1].

Yeniyetmənin fizioloji və psixoloji inkişaf xüsusiyyətlərini nəzərə almadan onun tərbiyəsinin, böyüklərlə qarşılıqlı münasibətlərini tənzim etmək və həyata keçirmək mümkün deyil.

Yeniyetməlik dövrünün mexanizminin açılmasında görkəmli psixoloq A.N.Leontyevin müddəası olan, "uşağın psixi inkişafının hərəkətverici qüvvəsi onun ictimai münasibətlər sistemində tutduğu real yerin dəyişməsidir" fikri çox böyük əhəmiyyətə malikdir.

Yeniyetmə bu mərhələdə fiziki, cinsi, sosial və hissi sahələrdə fərqli bir dövrə daxil olur. Bu inkişaf dövründə yaşadığı hadisələr səbəbi ilə yeniyetmə özünü fərqli hiss edir və çox zaman bu səbəbdən özünü ifadə etməkdə bir sıra çətinliklərlə rastlaşır.

Yeniyetmələrin hisslərinin inkişafı mürəkkəb və dinamik bir prosesdir. Bu dövrdə yeniyetmələr bioloji, psixoloji və sosial dəyişikliklər yaşayırlar ki, bu da onların hisslərinə və eyni zamanda emosional vəziyyətlərinin formalaşmasına böyük təsir göstərir [3].

Yeniyetməlik dövründə uşaqlarda hisslərin bir sıra ali növləri daha da inkişaf etməyə başlayır. Bura aiddir: milli, əxlaqi, zehni və estetik hisslər.

Milli hisslər insanın öz millətinə və mədəniyyətinə aid olan sevgi və məhəbbət hissləridir. Bu hisslər insanların mədəni və etnik mənsubiyyətlərinə dair dəyərləri, mənsubiyyət hisslərini və identitetini özündə əks etdirir. Milli hisslər bir millətin tarixi, ənənələri, dili, musiqisi, incəsənəti, mədəni qiymətləri və digər mədəniyyət elementləri ilə bağlı sevgi, qürur və bağlılığı özündə ehtiva edir. Bu hisslər insanların öz millətinin və mədəniyyətinin qəlbi məqamlarını təşkil edir və milli kimliyinin inkişafında , formalaşmasında danılmaz rol oynayır [1].

Milli hisslərin eyni zamanda ideoloji tərbiyənin elementlərinin mənimsədilməsi işi ibtidai sinifdən başlansa da, azərbaycançılıq ideologiyasının uşaqlara aşılanması

məktəblilərin yeniyetməlik dövründə daha geniş vüsət alır, onlarda dövlətçiliyə, müstəqilliyə, dövlət atributlarına, türkçülüyə, vətənpərvərliyə, milli mənsubiyyətə, dilimizə, dinimizə, milli-mənəvi dəyərlərimizə rəğbət hissi güclənir və dərinləşir. Aparılan məqsədyönlü və nizamlı tədbirlər nəticəsində məktəblilər azərbaycançılıq ideologiyasının əsas komponentləri (türkçülük, islamçılıq, dövlətçilik, vətənpərvərlik, müstəqillik, ərazi bütövlüyü və s.) üzrə bilik, bacarıq və qabiliyyətlər qazanır və bunu öz fəaliyyətlərində birbaşa əks etdirirlər [5]. Yeniyetmə işğal olunmuş torpaqların azad edilməsi ideyasını özünün amalına, əqidəsinə çevirir, bu yolda hətta şəhidlik zirvəsinə yüksəlməyi özü üçün ən böyük şərəf bilir. Dövlətin müdafiəsinə yeniyetməlikdən hazır olmağın əhəmiyyəti haqqında qəti əqidəyə gəlirlər.

Yeniyetmələrdə azərbaycançılıq ideologiyasının formalaşdırılması onlarda milli əqidə, milli ruh, milli vətənpərvərlik hissini gücləndirir, onlarda iradəlilik, dözümlülük, mətinlik, qorxmazlıq, milli təəssübkeşlik, milli dilini, dinini, tarixi dəyərlərini qorumaq kimi iradi keyfiyyətləri, qarşıya çıxan çətinlikləri güclərinə müvafiq səylə aradan qaldırmaq və s. kimi yüksək milli-əxlaqi keyfiyyətlərin formalaşdırılmasına və inkişafına da səbəb olur [5].

Yeniyetməlik dövründən başlayaraq vətənpərvərlik hisslərinin formalaşdırılması yeniyetmələrdə belə bir əqidə formalaşdırır ki, oğlan və ya qız olmasından asılı olmayaraq bütün yeniyetmələr vətəninə, millətinə, xalqına, sədaqətlə xidmət etmək üçün indidən mənəvi-psixoloji cəhətdən hazırlaşmalıdırlar.

Etnik milli hisslər hər bir yeniyetmənin öz xalqına, torpağına, dövlətinə, dövlət rəmzlərinə sədaqət ruhunda formalaşdırmağa yönəldir. Müasir şəraitdə vətənə layiqli bir vətəndaş yetişdirmək üçün yeniyetmələri məhz bu ruhda, bu əqidədə formalaşdırmaq ən önəmli olan vəzifələrdəndir.

Azərbaycanda milli hisslər XX əsrin sonlarında, SSRİ-nin parçalanmasından sonra daha qabarıq şəkildə özün biruzə verməyə başlamışdır. Milli hisslərin əsasını qoyan qədim tariximizlə, əfsanəvi qəhrəmanlarımızla hər daim fəxr edirik. Cavanşir, Babək, Şah İsmayıl Xətai, Səmədağa Mehmandarov, Əliağa Şixlinski, Cəmşid bəy Naxçıvanski, Həzi Aslanov, İsrafil Məmmədov, Mehdi Hüseyinzadə kimi igid və cəsur sərkərdələrimizin göstərdikləri qəhrəmanlıq bunu bir daha sübut edir. Azərbaycan xalqı qürurlu, igid, qəhrəman xalqdır. Bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mərd, vətənpərvər, milli-etnik hissləri ilə həmişə nümunə olan nəsil yetirmişdir. Bu etnik hisslər insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə açılan yeniyetmə və gənclərin bu ruhda formalaşması və tərbiyəsi həmişə önəmli məsələlərdən biri olmuşdur.

Bu səbəbdən ulu öndərimiz, Heydər Əliyev milli hisslərin inkişaf və tərbiyəsinə, usaq və gənclərin bu ruhda böyüməsinə xüsusi diqqət yetirmiş və bunu öz çıxışlarında dönə-dönə tövsiyə etmişdir.

Yeniyetmələrdə etnik-milli hisslərin formalaşdırılması və inkişafı üçün həmişə istənilən qədər qəhrəmanlıq salnamələri ("Kitabi-Dədə Qorqud' "Koroğlu", "Qaçaq Nəbi” və s.) Azərbaycan xalq cümhuriyyətinin yaradılması və əhəmiyyətini göstərən materiallar, qədim tariximizi özündə əks etdirən bədii əsərlər, kinofilmlər, yaxın tariximizlə bağlı hadisələr (20 Yanvar, Xocalı faciələri, 2016-cı il aprel döyüşləri, 44 günlük Qarabağ müharibəsi, milli qəhrəmanların həyat və fəaliyyətini əks etdirən əsərlər və s.).

Yeniyetmələrdə milli hisslərin inkişaf və tərbiyəsində istifadə edilən ən qüdrətli psixoloji təsir vasitələrindən biri ulu öndər Heydər Əliyevin milli ruh, milli mənlik, milli özünüdərk, milli ləyaqət və s. hisslərinin prioritet məsələ olduğunu bir dövlət xadimi kimi bütün xalqa bəyan etməsi proqramıdır.

Heydər Əliyev qeyd etmişdir ki, “Biz gərək milli mənliyimizi həmişə yüksək saxlayaq. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni

həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə getdiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə də milli mənliyimizi gərək itirməyək" [4].

Azərbaycan öz tarixinin qədimiliyi və zənginliyi ilə seçilir. Yuxarıda da qeyd etdiyimiz kimi bir sıra tarixi hadisələr (20 Yanvar faciəsi, Xocalı faciəsi, 2016-cı il aprel döyüşləri, 44 günlük Qarabağ müharibəsi və s.) millətimizin ən əsasda gənc nəslin psixologiyasına olan təsiri danılmazdır.

20 Yanvar faciəsi, 1990-cı ilin yanvar ayının 19-dan 20-ə keçən gecə Sovet ordusunun Bakı şəhərinə hücumu ilə baş vermişdir. Bu faciə zamanı yüzlərlə azərbaycanlı dinc sakin həlak olmuş və yaralanmışdır. Həmin hadisədə şəhid olan şəxslər Azərbaycan xalqının azadlıq mübarizəsinin qəhrəmanları kimi xatırlanır.

Qəhrəmanlar arasında tanınmış şəxslərdən bəziləri aşağıdakılardır:

1. İlham Əliyev - Sovet ordusunun tanklarının qarşısına çıxaraq Azərbaycan xalqının mübarizəsini simvolizə edən şəhidlərimizdən biri olaraq tarixə adını həkk etmişdir.

2. Ələkbər Əliyev - 20 Yanvar gecəsi şəhid olmuş gənclərdən biri.

3. Bəhruz Quliyev - Sovet tanklarının qarşısında duraraq şəhid olan qəhrəmanlardan biri.

4. Səid Dadaşov - Sovet ordusunun hücumu zamanı şəhid olan gənc.

Adları qeyd olunan qəhrəmanlar və onların mübarizəsi Azərbaycanın müstəqillik yolunda dəyərli və unudulmaz bir səhifəsidir. 20 Yanvar faciəsi, acı verici bir hadisə olsa da, Azərbaycan xalqının birlik və mübarizə ruhunu gücləndirmişdir. Eyni zamanda bu hadisə yeniyetmələrin müsbət yöndə inkişafına təsir etmiş bir sıra müsbət yaddaqalan təəssüratlar buraxmışdır. Bura aiddir: Milli qürur, birlik və həmrəylik, azadlıq və müstəqillik uğrunda mübarizə, vətənpərvərlik, qəhrəmanlığa inam və s. [6].

Bu təəssüratlar yeniyetmələrə öz milli kimliklərini və dəyərlərini daha yaxşı anlamağa kömək edir, onların milli və vətənpərvərlik hisslərini gücləndirir. Azərbaycan da milli hisslərin formalaşdırılmasını, bir millət kimi dövlətin, xalqının ətrafinda birləşməsini zəruri etdi. Bütün bu hadisələr xalqımızı bir daha düşünməyə, öz kimliyini dərk edib özünə, eyni zamanda öz soykökünə qayıtmasına məcbur etdi. Xalqımızın adi vətəndaşından tutmuş generallarına, ziyalılarına, əsgər və zabitlərinə yeniyetmə və gənclərinə qədər hamı birlik olub ayağa qalxdı və ölkənin baş komandanı cənab İlham Əliyevin əmri ilə cəbhəyə getməyə hazır olduqlarını bildirdilər. Bunun ən aydın nümunəsi özünü 2016-cı il "Aprel döyüşləri"də göstərdi. 2016-cı il 31 martdan 1 aprelə keçən gecə ermənilər xaincəsinə ölkəmizin sərhədlərini pozaraq hücuma keçdilər. Ayıq-sayıq əsgərlər, zabitlər və komandirlər silaha sarılaraq əsl vətənpərvərlik və milli qürur nümayiş etdirərək düşməni geri oturda bildilər və işğal olunmuş torpaqlarımızın iki min kvadrat kilometrini azad etdilər. Ordumuzun igidliyi sayəsində Talış və Lələtəpə yüksəkliyi əsgərlərimizin əlinə keçdi. Burada əsgərlərimiz əsl qəhrəmanlıq, dözüm, iradə, milli-etnik hisslər nümayiş etdirərək ürəklərimizə on illərlə yığılıb qalmış düşmənə qarşı qisasçılıq hissini düşmənin canlı qüvvəsini məhv etməklə göstərirlər. Sözsüz, bu döyüşdə bizim də itkilərimiz oldu. Ancaq bir xalq olaraq, qürurverici oğul və qızlarımızın hünəri, iradəsi, namusu, qeyrəti, əqidəsi və xarakteri bir daha bütün dünyaya bəlli oldu [2].

Aprel döyüşlərində igidlik göstərən və Milli qəhrəman adına layiq görülmüş hərbçilərimizin bəziləri:

1. Polkovnik-leytenant Raquf Orucov. 2. Mayor Samid İmanov 3. Baş leytenant Teymur Həsənov 4. Əsgər Murad Mirzəyev 5. Mayor Şükür Həmidov (ölümündən sonra Milli Qəhrəman adı verilmişdir) və başqaları.

Adları qeyd olunan qəhrəmanların hər biri döyüşlərdə göstərdikləri qəhrəmanlıq və cəsarət sayəsində Azərbaycanın tarixinə adlarını qızıl hərflərlə yazdırmışlar. Aprel döyüşlərinin yeniyetmələrin psixologiyasına bir sıra müsbət təsirləri olmuşdur:

1. Vətənpərvərlik hissinin güclənməsi.
2. Mənəvi dəyərlərin möhkəmlənməsi.
3. Qürurlu və özünə inamlı gənclərin yetişməsi.
4. Milli birlik və həmrəylik hissinin artması.
5. Tarixi və mədəni biliklərin artması.
6. Məsuliyyət hissinin inkişafı.

Aprel döyüşlərinin qəhrəmanlarının şagirdlərə, yeniyetmələrə tanıdılması onlarda vətənpərvərlik hisslərinin formalaşdırılması və inkişafı üçün dövlətimiz bir sıra layihələr təşkil etmişdir. Bu layihələrdən biri: Gənclərin İnkişafı İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Aprel döyüşləri qəhrəmanlarının tanıdılması" layihəsi təşkil olmuşdur. Layihənin məqsədi 2016-cı ilin Aprel döyüşlərində ölkəmizin ərazi bütövlüyü uğrunda igidlik göstərmiş qəhrəmanlarımızın yetişməkdə olan gənc nəslə tanıdılması və onların həyatı, keçdiyi böyük və şərəfli döyüş yolları, göstərdiyi igidliklər haqqında dərin məlumatlar verməkdən ibarət olmuşdur [7].

İşğal altında olan torpaqlarımızın azad edilməsi məqsədilə cəmiyyət üzvlərinə vətənpərvərlik hisslərinin aşılanması, Milli Qəhrəmanların təbliğ edilərək tanıdılması, xalqımızın Ali Baş Komandanı İlham Əliyevin əmrinə daim hazır olmaları üçün təbliğat işlərinin aparılması dövlət və hökumət orqanları ilə yanaşı ictimai birliklərin də üzərinə böyük məsuliyyətlər qoyur. Ən yeni tariximizin şanlı səhifəsi olan Aprel döyüşlərində iştirak etmiş, döyüşmüş və şəhidlik zirvəsinə ucalmış qəhrəmanların yeniyetmələrə və gənclərə tanıdılması bu baxımdan çox böyük əhəmiyyət daşıyır.

Milli qəhrəmanların həyat hekayələri və onların fədakarlıqları yeniyetmələrdə qarşılıqlı məsuliyyət hissini formalaşdırır. Onlar öz vətənlərinə və cəmiyyətlərinə qarşı daha məsuliyyətli, layiqli vətəndaşlar olmağa çalışırlar. Aprel döyüşləri və bu hadisələrin qəhrəmanları, yeniyetmələrin şəxsiyyətinin formalaşmasında, onların dəyərlər sisteminin inkişafında, vətənpərvərlik və milli ruhda yetişməsində mühüm rol oynayır.

Azərbaycanın tarixində iz qoyan 30 illik həsrətimizi sonlandıran illər boyu danışılacaq 44 günlük Qarabağ müharibəsini də qeyd etməsək olmaz. Onun yalnız gənclərin deyil, həm də yaşlıların və yeniyetmələrin milli ruhuna və milli hisslərinin inkişafına təsiri danılmazdır.

2020-ci ilin 27 sentyabrında başlayıb və 10 noyabrda atəşkəslə bitən 44 günlük Qarabağ müharibəsi, Azərbaycan və Ermənistan arasında illərlə davam edən münaqişənin ən mühüm və əhəmiyyətli mərhələsi kimi yadda qaldı. 44 günlük Qarabağ müharibəsi, Azərbaycan üçün tarixi ədalətin bərpası kimi dəyərləndirilir. Bu müharibə nəticəsində işğalda düşmən tapdağı altında olan ərazilərin geri qaytarılması, Azərbaycan xalqı üçün böyük bir qələbə və milli qürur mənbəyi oldu. 44 günlük Qarabağ müharibəsi, Azərbaycan tarixinin ən önəmli səhifələrindən birini təşkil edir. Bu müharibə, torpaqlarımızın azad edilməsi ilə yanaşı, millətimizin ən dəyərli övladlarının şəhid olması ilə də yadda qaldı [8].

Bu döyüşdə şəhid olanların içərisində bir çox fərqli peşə sahibləri vardır: həkimlər, müəllimlər, mühəndislər və tələbələr. Onların hər biri, hərbi xidmətlərini ən yüksək səviyyədə yerinə yetirərək, vətən sevgisinin yaş və peşə fərqi tanımadığını bir daha sübut etdilər. Onların qəhrəmanlığı, gələcək nəsillərə örnək olaraq, milli birlik və vətənpərvərlik duyğularını daha da qüvvətləndirir.

II Qarabağ müharibəsində vuruşmuş Milli Qəhrəman adına layiq olan hərbiçilərimizin bəziləri: Şükür Həmidov Nəriman oğlu, Polad Həşimov İsrail oğlu, Quliyev Vahid Həbibulla oğlu, Əliyev Namiq Həsən oğlu, Habil Şəfiyev Bahadur oğlu, Sadıqov Eldəniz Ağa oğlu və başqaları.

Qarabağ müharibəsi zamanı döyüşlərdə mərdlik göstərmiş qəhrəmanlarımızın əsgərlərə həmçinin millətə xitabən söylədiyi motivasiyaedici sözlər həm yaşlıların, həm də uşaqların və gənclərin vətənpərvərlik ruhunda inkişafına səbəb olur.

Bu cür motivasiyaedici fikirlərdən bəziləri aşağıdakılardır:

Polad Həşimov: "Bu torpaqlar uğrunda canımızı da, qanımızı da əsirgəməyəcəyik. Biz bu torpaqlara qayıtmalıyıq, başqa yolumuz yoxdur".

Zabit Quliyev: "Biz buradayıq ki, torpağımızı müdafiə edək və xalqımızın şərəfini qoruyub saxlayaq. Hər kəsə göstərməliyik ki, biz burada həmişə varıq".

Mübariz İbrahimov: "Vətənimiz uğrunda vuruşuruq, şücaət göstərməliyik ki, gələcək nəsillər də bizimlə fəxr etsinlər".

Şəhid polkovnik İlqar Mirzəyev – O, döyüş meydanında göstərdiyi qəhrəmanlıq və əsgərlərinə verdiyi dəstək ilə yadda qaldı. Mirzəyev bir müsahibəsində belə qeyd etmişdir: "Bu torpaqlar bizimdir, burada öz evimizdə kimi yaşayacağıq və heç kimə güzəştə getməyəcəyik".

Mayor Anar Novruzov – O, bir müsahibəsində qeyd edirdi: "Biz buradayıq ki, torpaqlarımızı azad edək və gələcək nəsillərə azad bir vətən buraxaq. Hər birimizin borcu budur".

Bu qəhrəmanların və digər müharibə iştirakçılarının söylədikləri və verdikləri mesajlar müharibə dövründə və sonrasında Azərbaycan xalqının ruh yüksəkliyini artırmış və qələbəyə inamını möhkəmləndirmişdir. Azərbaycanın milli qəhrəmanlarının bu kimi sözləri tarixdə həmişə xatırlanacaq və yeni nəsillərə nümunə olacaqdır.

## ƏDƏBİYYAT

1. Bayramov Ə. Etnik psixologiya məsələləri. Bakı, 1996.
2. Güləmail M. Aprel döyüşləri. Bakı, 2018.
3. Bayramov Ə. Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı, 2003.
4. Heydər Əliyev Və Mənəvi Dəyərlər. Bakı, 2003.
5. Yusifov M.İ. Azərbaycançılıq. Bakı, Elm və təhsil, 2010.
6. Hacı Niftalı Şıxlar. 20 Yanvar Faciəsi. Bakı, 2011.
7. https://youthfoundation.az/38044/?lang=en
8. https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi

# YENİYETMƏLƏRDƏ MİLLİ HİSSLƏRİN FORMALAŞMASINDA MİLLİ QƏHRƏMANLARIN ROLU

***Orucova Sevinc***

## XÜLASƏ

Məqalədə məqsədyönlü və təşkil olunmuş tədbirlər nəticəsində yeniyetmələrin azərbaycançılığın əsas komponentləri olan (türkçülük, islamçılıq, dövlətçilik, vətənpərvərlik, müstəqillik, və s.) üzrə bilik, bacarıq və qabiliyyətlərə yiyələnməsi və bunları öz fəaliyyətlərində birbaşa əks etdirmələri araşdırılır. Həmçinin məqalədə, 1990-cı il 20 Yanvar faciəsinin, Aprel döyüşlərinin, II Qarabağ müharibəsinin və milli qəhrəmanların göstərdiyi igidliyin, verdikləri müsahibələrin gənc nəsil üzərindəki təsiri tədqiq olunur.

## РОЛЬ НАЦИОНАЛЬНЫХ ГЕРОЕВ В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНЫХ ЧУВСТВ У ПОДРОСТКОВ

***Севинд Оруджева***

### АННОТАЦИЯ

Статья исследует, как в результате целенаправленных и организованных мероприятий подростки овладевают знаниями, умениями и навыками, связанные с основными компонентами азербайджанства (тюркизм, исламизм, государственность, патриотизм, независимость и др.), и как они непосредственно отражают это в своей деятельности. Также в статье рассматривается трагедия 20 января 1990 года, Апрельские бои, II Карабахская война,а также показанный героизм национальных героев, данные ими интервью на влияние на молодое поколения.

## THE ROLE OF NATIONAL HEROES IN SHAPING NATIONAL SENTIMENTS AMONG TEENAGERS

***Sevinj Orujova***

### SUMMARY

The article investigates how, through purposeful and organized efforts, adolescents acquire knowledge, skills, and abilities related to the core components of Azerbaijani identity (such as Turkism, Islamism, statism, patriotism, independence, etc.) and how they directly reflect these in their activities. The article also examines the impact of the January 20, 1990 tragedy, the April battles, the Second Karabakh War, and the valor of national heroes, as well as their interviews, on the younger generation.

# PARENTAL INFLUENCE ON CHILDREN'S COGNITIVE DEVELOPMENT

***Aylin Huseynova***
*aylinhuseynova902@gmail.com*

***Keywords:*** Cognitive development, parental factors, language, creative thinking, cognitive developmental delay, critical thinking, analytical thinking.
***Açar sözlər:*** Koqnitiv inkişaf, valideyn faktorları, dil, kreativ düşüncə, koqnitiv inkişaf problemi, tənqidi düşüncə, analitik düşüncə.
***Ключевые слова:*** Когнитивное развитие, родительские факторы, язык, творческое мышление, проблемы когнитивного развития, критическое мышление, аналитическое мышление.

## Introduction

According to Piaget's theory of cognitive development, one of the most prominent examples in the history of psychology, cognitive development begins at birth and consists of four main stages. These stages are categorized by age as Sensorimotor, Preoperational, Concrete Operational, and Formal Operational. Piaget believed that children discover the world through observation and experimentation, and in this discovery phase, they learn new skills in social environments. Since the family is the first social environment for children, we can conclude that parents significantly influence cognitive development.

Research has shown that parental involvement plays a potentially important role in children's cognitive development and academic achievement. This includes the development and maturation of mental abilities such as language development, critical thinking, memory, and cognitive processes. Evidence has been found that supports the influence of parents on cognitive development through factors such as early stimulation, fostering curiosity, monitoring screen time, and parental involvement in education.

In children aged 0-2 years, who are in the cognitive development period, significant developmental changes occur, such as observation, exploration of sensations, motor skills, and recognizing objects through listening. Therefore, parental guidance and mentoring play a critical role. Parental involvement at this stage is often referred to as early stimulation, where parents serve as their child's first teachers, introducing them to shapes, colors, and the world around them during the early years of life. Early stimulation, such as enhancing the child's thinking ability by storytelling, engaging them in interactive games, or teaching life skills, has a significantly positive impact on cognitive processes.

One of the effective methods for enhancing cognitive processes in the 0-2 age range is teaching "object permanence." This concept helps the child understand that objects continue to exist even when they are not visible, and the child learns when to seek out these objects. According to Piaget's cognitive development stages, the next phase is the Preoperational stage, which covers ages 2-7, during which thinking and language development emerge. Studies suggest that during this period of developing cognitive and linguistic skills, parents' involvement typically focuses on encouraging curiosity. Children attempt to pronounce new words, explore topics of interest, and ask questions, while parents support their curiosity, allow them to ask questions freely, and create a safe space for them.

Curiosity is the driving force behind children's cognitive development, and by nurturing this curiosity, parents play a direct role in the cognitive developmental stages. In the third stage, the Concrete Operational stage, which spans the ages of 7-11, children develop logical thinking, expand their social circles, think about specific events, and cultivate critical thinking. However, some challenges may hinder this stage's development. One of the most significant, according to research, is the use of social media and the need to monitor screen

time. If parents regulate screen time, children are less likely to experience delays in speech, socialization, communication, and cognitive processes resulting from excessive screen exposure. Instead, parents can engage children in intellectually stimulating and reward-based games, family communication activities, or travel plans involving both parents.

As children grow older, the stages of cognitive development deepen. The final stage, which includes ages 12 and beyond, marks the period where children's complex thinking potential reaches its peak, allowing for highly developed analytical and creative thinking. Naturally, the advanced level of thinking correlates with the improvement of academic performance. Parents also play a direct role in enhancing academic performance during these cognitive developmental stages.

Supporting the child's connection to their social environment—through encouragement with homework and motivation, as well as engagement in personal development programs outside of regular school activities—is crucial at this stage.

According to Vygotsky's social learning theory, children learn through social interaction. If a child's self-confidence and ability to function as an individual in social settings are well-developed, their cognitive thinking abilities will also improve, leading to the formation of skills. In particular, during the third and fourth stages of cognitive development, problem-solving skills begin to emerge. Initially, children rely on their parents for support but eventually learn to independently solve problems as they grow. Therefore, we can confirm the critical role of parents in the cognitive development stages of their children.

**The Importance of Language in the Cognitive Development Process:**

Language is a tool that allows individuals to express themselves using symbols or words and signifies their belonging to a social group. In the first six months, children typically demonstrate behaviors such as crying, showing various symbols, or babbling. They start to repeat words they hear frequently. The "Learning Theory of Language Acquisition" suggests that children learn language much like they learn how to tie shoelaces. Parents may respond with laughter or hugs during their early attempts at babbling, eventually teaching the correct form of speech. After 16 months, children acquire approximately ten new words daily. By the age of five, they have mastered most of the grammatical rules of their native language.

Social environments and parents play a crucial role in language development. Studies examining the relationship between early language development and parental involvement have shown that a mother's education, literacy activities, and reading with her child are more strongly associated with the lexical and grammatical skills of two-year-olds compared to the influence of fathers. However, reading with fathers has been found to spark early interest in reading. Thus, it can be said that the collaborative efforts of both parents in engaging with their child positively impact early language development and its application in later stages.

Developing language skills requires, among other things, strong reading habits, which help to expand vocabulary. Studies suggest that fathers can be more effective in fostering reading skills, demonstrating that men also contribute to this process. As a result, language, one of the key principles of cognitive development, can be enhanced through the cooperative efforts of both parents.

In 1984, Bickerton's Bioprogram Hypothesis posited that even if children are not exposed to a proper language in their early years, they will create their own grammar. Evidence for this includes the creation of a new, primitive language when groups of people from different linguistic backgrounds come into contact with each other. This demonstrates that children learn various language symbols or speaking styles from their parents, who are their first social group.

Studies have also found a connection between poverty and language development. Since children's experience of poverty is directly tied to their parents' circumstances, it is clear that parents influence language development through this lens. In many cases, children from impoverished families are affected by low socio-economic status, which correlates with lower stress resilience, and mental and physical health. If a child is raised in a poor household, their brain's key systems for language development may function at a lower level due to insufficient access to necessary nutrition, social environments, and friendships that support brain growth.

From the perspective of the family stress model, impoverished parents tend to be more emotionally sensitive, stressed, and irritable. This stress may stem from the need to work excessively or the reality of one parent being the sole breadwinner, leaving parents with little energy to support their child's language development. Raising a child in such a stressful environment, where parental engagement is limited, negatively affects the child's ability to develop language skills. Furthermore, children need to communicate with their parents for language development. However, if the parents work excessively and rarely converse with their children, language development becomes more challenging. While a working mother might leave her child in the care of a grandmother, the social bond that should be formed with the mother is generally more effective than the one formed with the grandmother. Moreover, it is difficult to assess how effectively a grandmother or another relative can engage in conversation with the child.

Language is intertwined with cognitive development stages and serves as a vehicle for interaction with thought. According to the Whorfian Hypothesis, language shapes or influences thought. Research indicates that parents have a profound impact on their children's understanding of communication and the language-thought system. Specifically, parental contributions to language development foster positive relationships. Children, especially students, tend to regard words of encouragement from their parents as more impactful. Consequently, parents play a significant role in shaping the relationship between language and thought development in their children.

**The Role of Parents in the Formation and Delay of Analytical Thinking**

Analytical thinking refers to the ability to use acquired information in various situations, particularly in problem-solving. Analytical thinkers excel at connecting data and situations to analyze and solve problems. This process involves several cognitive functions working together, with analytical thinking being a critical component. According to Piaget's theory of cognitive development, by the third and fourth stages, children are typically of school age, and their thinking becomes more scientifically reasoned. Consequently, the potential for analytical thinking begins to emerge by the end of the second stage, though it varies across children.

One of the primary applications of analytical thinking is in problem-solving. A key aspect of problem-solving is being goal-oriented, which is influenced not only by personal characteristics but also by parental support and self-confidence. Another important factor is that a problem arises when a person lacks the knowledge to find an immediate solution. For instance, a difficult math problem may not be considered a problem by someone who has solved similar issues for years, but it appears as a challenge to a student encountering it for the first time because the student lacks the relevant knowledge and experience.

This scenario mirrors the cognitive developmental impact of the parent-child relationship. When parents foster a close, emotional bond with their child in the early years, the child develops a sense of security. This trust allows the child to share challenges with their parents, leading to the discovery of alternative solutions that contribute to the development of analytical thinking.

However, in situations where this supportive relationship is absent, we may observe a delay in the development of analytical thinking. For instance, if a child faces a problem and seeks advice from their parents but encounters criticism, rude behavior, or insincere responses, the child's trust in the parents may diminish. As a result, the child's confidence is undermined, making them reluctant to apply a goal-oriented problem-solving approach. After repeated experiences like this, the child may develop self-doubt, hindering the growth of their analytical thinking, which is directly linked to their ability to solve problems. Research has shown similar outcomes.

Studies indicate that students who experience increased stress from their parents due to exams are less likely to make independent decisions, which impedes the development of analytical thinking. Moreover, stress weakens their self-confidence and analytical thinking abilities. Instead of using questions or assessments that demand exact answers from children, parents should employ questions based on patterns and alternative options, which better foster analytical thinking. This approach helps children realize that problems can have more than one solution, leading them to think more broadly and make connections.

**The Delay of Critical Thinking vs. Creative Thinking: Which Is More Dependent on Parents?**

Critical thinking is the process of analyzing situations through judgment, forming verbal arguments, and supporting them with evidence. People with strong critical thinking skills can assess a situation and how it operates, often relying on judgment—a process of making decisions based on accurate calculations and evidence. The decision-making process often involves research, analysis, and judgment, leading to insight. When we are aware of a subject, we can more easily connect it with other topics and expand on it.

Given that critical thinking involves judgment skills and decision-making, the principles of self-confidence, independence, and self-esteem—transmitted by parents—play an essential role. Research indicates a strong link between high self-esteem and critical thinking, both of which are influenced by parental care. Parental upbringing is closely connected to critical thinking, as a child's sense of self-worth and identity are initially shaped by their first social environment, their parents. During adolescence, the individual's social circle expands, and they encounter more situations where they need to prove themselves.

However, in families where serious stress and pressure related to exams are common, children's self-esteem and self-worth tend to decrease over time. This leads to a decline in decisiveness and judgment skills, which, in turn, negatively affects their critical thinking. Therefore, one of the key responsibilities of parents is to support their children's decisions. They should start with small decisions at first and gradually allow their children to make more complex decisions. This approach aligns with the "Utility Theory" by Von Neumann and Morgenstern, which emphasizes the role of various factors in real-world decision-making, considering outcomes as probabilities in a utility framework.

Children benefit more from gradually learning to make simple decisions independently rather than being stifled by parental stress and repressive pressure. This gradual progression enhances their decision-making abilities, aligning with the principles of the "Prospect Theory," which posits that when faced with uncertainty, people make choices by evaluating potential gains and losses.

Creative thinking, on the other hand, is an open-minded and innovative approach to solving problems or dealing with events. It plays a crucial role in generating new ideas, which can have a significant impact across various fields. Creative problem-solving involves both reproductive and productive thinking. Reproductive thinking draws on past experiences and applies previous solutions to similar situations. Productive thinking, however, involves discovering new ways to solve problems, and creating entirely new solutions, and is strongly linked to creativity.

Creative thinking is further strengthened through social interaction, the development of "soft skills," and the ability to generate and implement new ideas. Parental influence on creativity, though present, is less significant than on critical thinking. Research supports this, showing that while a family's socio-economic status is linked to the initial levels of creative thinking in children, it does not affect the long-term growth of creativity. Additionally, parental involvement geared towards performance can negatively affect the rate of change in creative thinking.

In essence, critical thinking is more convergent, focusing on evaluating the value or reliability of existing concepts, while creative thinking is divergent, aiming to break accepted principles and create something new. Critical thinking applies established principles, whereas creative thinking seeks to challenge them. As such, critical thinking skills are not developed or learned straightforwardly but require time and careful planning.

Overall, parental influence is more substantial on the development of critical thinking than on creative thinking. The most significant factor is the confidence parents instill in their children and their encouragement to make independent decisions within their social environments. This difference in parental influence highlights how critical thinking, which is more judgment-oriented and structured, depends more heavily on parental support and guidance compared to the more independent and imaginative nature of creative thinking.

**Differences in the Influence of Parents on Children's Cognitive Development between Asia and Europe**

The period of cognitive development, while universally characterized by evidence-based theories, reveals notable variations when examined through the lenses of cultural and socioeconomic differences. These differences become particularly apparent when comparing distinct cultural groups. For instance, in Asia and Europe, variations in child-rearing practices and socioeconomic conditions can be observed. Asian countries tend to emphasize earlier educational initiation, with children spending more time in developmental programs and engaging in activities with their parents. Research indicates that East Asian American children, aged 9 months to 2 years, achieve greater developmental milestones compared to their European American counterparts. By age 4, these children exhibit superior performance in mathematics and other knowledge-based tests. This discrepancy is often attributed to differences in parental resources, such as educational programs, increased awareness, and exposure to a broad range of knowledge.

Furthermore, self-efficacy, which is linked to parent-child relationships, plays a critical role in academic success. Studies suggest that the quality of parent-child interactions is significantly related to self-efficacy in Asian American children, but not in European American children. This implies that the self-efficacy levels of European American children are less dependent on the quality of parent-child relationships, whereas in Asian American children, effective communication and family support are strongly correlated with higher self-efficacy.

Consequently, the parent-child relationships in Asian cultures tend to foster superior cognitive development, particularly in terms of self-efficacy and communication, whereas European cultures do not exhibit such a robust connection.

**Conclusion**

This paper explores the impact of parental influence on children's cognitive development through various studies. The analysis reveals that different research findings were considered, with Jean Piaget's Cognitive Development Theory serving as a primary source. Significant terms related to cognitive development were examined in the context of the theory, including language development, analytical thinking, critical thinking, and creative thinking.

Research demonstrates that parents play a crucial role in language development, with paternal involvement proving particularly effective. However, negative impacts are also noted, stemming from socio-economic conditions and more repressive or stressful parental approaches. In stressful environments, children's self-expression is hindered, leading to speech hesitations and delays.

Regarding analytical thinking, research shows that it involves utilizing acquired information to address problems in various situations. Children's analytical thinking operates when they connect information and situations. The primary application of analytical thinking is problem-solving, which depends on prior knowledge and parent-child relationships. Positive parent-child interactions during early cognitive development foster confidence in children, enabling them to share problems and explore solutions collaboratively. Conversely, a lack of a supportive and trusting relationship can diminish a child's self-confidence and belief in their problem-solving abilities. Research also indicates that students exposed to stress exhibit less liberal decision-making and may struggle to develop independent analytical thinking. When parents use clear, schematic explanations in education and life matters, children are less likely to panic and recognize multiple problem-solving approaches.

The paper also compares critical and creative thinking as essential aspects of cognitive development. Critical thinking involves analyzing and understanding situations and is closely linked to judgment and decision-making processes. Parental support in fostering self-efficacy and self-esteem is vital for effective decision-making. From the second and third stages of cognitive development, instilling a sense of identity is crucial for social interactions and decision-making.

Creative thinking, another key aspect, involves innovative and open-minded approaches to solving problems. It can be enhanced by developing soft skills in social groups, generating and applying new ideas, and strengthening thought processes. Unlike critical thinking, which is convergent, creative thinking is divergent, aiming to create new methods rather than evaluating existing ones. The impact of parental influence on critical thinking is more pronounced than on creative thinking, with self-confidence and decision-making autonomy being significant indicators.

Furthermore, the paper explores cognitive development across different cultures, highlighting self-efficacy as a crucial factor. Research shows that East Asian American children exhibit higher levels of self-efficacy and academic performance compared to their European American counterparts. This advantage is attributed to the greater availability of educational resources, knowledge, and skills provided by East Asian parents. Overall, the theoretical and empirical analysis confirms that parental influence has both positive and negative effects on children's cognitive development.

## REFERENCES


1. Bartram, B. (2006). An examination of perceptions of parental influence on attitudes to language learning. *Taylor and Francis online, Educational research*, 211-221.
2. Dorota M Jankowska, M. K. (2019). Family factors and development of creative thinking. *Personality and individual differences 142,* 202-206.
3. Facione, P. A. (2011). Critical thinking: What it is and why it counts. *Insight assesment, academia.edu*, 123.
4. Hellman, B. (2017). What is analytical thinking. *matter*.
5. Matt Baker, R. R. (2001). Relationships between critical and creative thinking. *Journal of Southern Agricultural Education Research 51 (1),* 173-188.
6. Michael W. Eysenk, M. T. (2010). *Cognitive psychology.* New York: Psychoogy Press.
7. Paula Lyytinen, M.-L. L.-M. (1998). Parental contribution to child''s early language and interest in books. *European Journal of Psychology of Education 13*, 297-308.

8. Ryan, E. (published 2022-retrieved 2024). What is criticaal thinking? Definition and examples. *Scribbr*.
9. Sandin, K. (2023). Cognitive Development and Parental Guidance in Childhood. *International Journal of School and Cognitive Psychology,* 2-4.
10. Sun, Y. (2011). Cognitive advantages of East Asian children: When do such advantages emerge and what explains them? *Sage Journals; Sociological Perspectives 54 (3),* 377-402.
11. Suzanne C Perkins, E. D. (2013). Poverty and language development: Roles of parenting and stress. *Innovations in clinical neuroscience,* 10 (4).
12. What is language theory in cognitive development. (б.д.). *Khan academy*.
13. Yangyang Wang, T. N. (2020). The influence of parental rearin syles on university students critical thinking dispositions: The mediating role of self-esteem. *Thinking Skills and Creativity 37,* 10-18.
14. Zhang, L.-F. (2003). Are parents" and children"s styles related? *Sage Journals, Psychological Reports 93 (2),* 617-630.

## PARENTAL INFLUENCE ON CHILDREN’S COGNITIVE DEVELOPMENT

***Aylin Huseynova***

**SUMMARY**

The influence of parents on children's mental development has been confirmed in numerous studies. At various stages of development, we can observe phases of cognitive growth in children. Cognitive development encompasses the evolution and maturation of a child's mental abilities. Mental processes include language development, thought processes, memory, critical thinking, and analytical thinking. This paper aims to investigate how parents influence the cognitive developmental stages of children. During this scientific research, previous studies on this subject were referenced, and these studies were analyzed alongside famous theories on children's cognitive development, such as Piaget's theory.

One of the key issues during the cognitive development period is understanding how parents influence delays in cognitive development or hinder the completion of certain developmental stages, and how they can compensate for these issues. Based on scientific evidence, the findings demonstrate that parents significantly influence various aspects of cognitive development, including language development, critical thinking, analytical thinking, and creative thinking. Specifically, research shows that parents who raise their children with confidence and autonomy play an important role in fostering creative thinking. Additionally, the paper explores the cultural differences in how parents influence children's cognitive development and the cross-cultural variations in cognitive development stages.

If children are raised in a stressful and manipulative environment, decisions are often made for them under repressive norms, which hinders the development of critical thinking as an independent individual. The reason for this is that the child’s self-confidence is undermined, preventing them from analyzing events critically and expressing personal opinions. However, creative thinking is less dependent on parental influence. If a child possesses even a small percentage of the potential for a unique perspective, socialization skills, soft skills, and communication styles, they can develop these qualities, often independently of their parents.

As we know, the process of information processing involves receiving a stimulus through attention, passing it to perception, incorporating it into thought processes, and concluding with an external response in the decision phase. Since the thought processes discussed here are realized through results obtained from the stages of attention and perception, special emphasis should first be placed on these stages. This issue is directly related to

whether parents recognize any problems in their child's early cognitive developmental stages concerning attention, focus, and perception.

## UŞAQLARIN KOQNİTİV İNKİŞAFINA VALİDEYNİN TƏSİRİ

***Aylin Hüseynova***


### XÜLASƏ

Valideynlərin uşaqların zehni inkafına təsirinin sübutu bir çox məqalələrdə öz təsdiqini tapmışdır. Uşaqların müxtəlif inkişaf yaş dövrlərində əqli inkişafın mərhələlərini müşahidə edə bilərik. Koqnitiv inkişaf uşağın zehni bacarıqlarının inkişafı və yetkinləşmə prosesləridir. Zehni proseslərə dilin inkişafı, təfəkkür prosesləri, yaddaş, tənqidi düşüncə, analitik düşüncə və s.aid etmək olar. Məqalənin məqsədi, valideynlərin uşağın koqnitiv inkişaf mərhələlərinə necə təsir etdiklərini araşdırmaqdır. Bu elmi araşdırma müddətində, bu mövzuda hazırki müddətə qədər elmi tədqiqatlarla ərsəyə gələn məqalələrdən referans olaraq istifadə olunub və bu tədqiqatlar uşaqların koqnitiv inkişaf mərhələsinin öyrənilməsinə dair yaradılmış məşhur nəzəriyyələrlə (Piaget) birlikdə analitik təhlil edilib. Koqnitiv inkişaf dövründə ən əsas məsələlərdən biri odur ki, valideyn uşağın koqnitiv inkişafının gecikməsində və ya hər hansı mərhələnin tamamlana bilməsində necə rol oynayır və bunu necə kompensasiya edə bilər? Elmi əsaslara əsasən nəticələr bizə göstərdi ki, valideynlərin, koqnitiv inkişaf daxilində dilin inkişafına, tənqidi düşüncə, analitik düşüncə və kreativ düşüncə növlərinə əhəmiyyətli dərəcədə təsiri var. Xüsusən araşdırmalar onu göstərir ki valideynlərin uşaqları özgüvənli və azad qərarlı böyütməsi, onların kreativ düşüncə tərzlərində mühüm rol oynayır. Həmçinin məqalədə müxtəlif mədəniyyət fərqləri üzrə valideynlərin uşağın koqnitiv inkişafına təsiri və koqnitiv inkişaf mərhələlərində mədəniyyətlərarası fərqlər araşdırılmışdır.

Əgər uşaqların böyüdülmə tərzi daha stressli və manipulyativ olubsa bu zaman böyük ehtimalla repressiv normalarla onların əvəzinə qərarlar verilmiş olur, bu isə öz növbəsində tənqidi düşüncənin fərdi şəxs olaraq formalaşmasına mane olur. Buna səbəb odur ki, uşağın öz-güvəni oğurlanır və tənqidi düşüncə ilə hansısa hadisəni analiz edib şəxsi fikirlərini ortaya qoya bilmir. Amma kreativ düşüncə tərzi valideynlərin təsirindən daha az asılıdır, çünki uşağın problemə baxış bucağı, sosiallaşma istəyi, yumşaq bacarıqları, əlaqə yaratma üslubları kiçik potensial faizi ilə də olsa mövcuddursa bu zaman onu inkişaf etdirə bilər və bu əksər hallarda valideynlərdən ciddi asılı deyil.

Bildiyimiz kimi informasiyanın emal edilməsi prosesi stimulun diqqət tərəfindən qəbul edilməsi, qavrayışa ötürülməsi, düşüncə proseslərinə daxil olması və qərar mərhələsi xarici cavab ilə yekunlaşır. Burada qeyd etdiyimiz düşüncə prosesləri diqqət və qavrama mərhələlərindən əldə etdiyi nəticələrlə reallaşdırıldığı üçün ilk öncə diqqət və qavrama proseslərinə xüsusi əhəmiyyət verilməlidir. Bu məsələ, bilavasitə valideynlərin erkən koqnitiv inkişaf yaş dövründə uşağın diqqət, fokuslanma və qavrama ilə əlaqəli probleminin olub-olmamasına diqqət yetirməsindən asılıdır.

# ВЛИЯНИЕ РОДИТЕЛЕЙ НА КОГНИТИВНОЕ РАЗВИТИЕ ДЕТЕЙ

***Айлин Гусейнова***

## АННОТАЦИЯ

Доказательства влияния родителей на психическое развитие детей подтверждены во многих статьях. Мы можем наблюдать этапы психического развития детей в разном возрасте. Когнитивное развитие – это развитие умственных способностей ребенка и процессов взросления. К психическим процессам относятся развитие речи, мыслительные процессы, память, критическое мышление, аналитическое мышление и т. д. Цель статьи – изучить, как родители влияют на этапы познавательного развития ребенка. В ходе данного научного исследования в качестве справочных материалов использовались статьи, подготовленные научными исследованиями по данной теме до настоящего периода, и эти исследования подвергались аналитическому анализу вместе со знаменитыми теориями (Пиаже), созданными по изучению стадии когнитивного развития. дети.

Один из наиболее важных вопросов когнитивного развития заключается в том, какую роль играют родители в задержке когнитивного развития ребенка или достижении каких-либо этапов и как они могут это компенсировать? Основываясь на научной основе, результаты показали нам, что родители оказывают значительное влияние на развитие речи, критическое мышление, аналитическое мышление и творческое мышление в рамках когнитивного развития. В частности, исследования показывают, что воспитание детей с уверенностью в себе и независимым принятием решений родителями играет важную роль в их творческом образе мышления. Также в статье исследовано влияние родителей на когнитивное развитие ребенка и межкультурные различия на этапах когнитивного развития по разным культурным различиям. Если дети воспитывались в более стрессовой и манипулятивной манере, то, скорее всего, решения за них принимаются с репрессивными нормами, что, в свою очередь, препятствует формированию критического мышления как личности.

Причина этого в том, что у ребенка украдена уверенность в себе, и он не может критически проанализировать событие и высказать свое личное мнение. Но творческий образ мышления в меньшей степени зависит от влияния родителей, поскольку если у ребенка присутствует взгляд на проблему, стремление к социализации, мягкие навыки, стили общения, даже при небольшом проценте потенциала, то его можно развивать. и в большинстве случаев это не зависит серьезно от родителей. Как мы знаем, процесс обработки информации – это получение стимула вниманием, передача его на восприятие, вхождение в мыслительные процессы, а этап принятия решения завершается внешней реакцией. Поскольку упомянутые здесь мыслительные процессы реализуются с результатами, полученными на этапах внимания и восприятия, особое значение следует придавать процессам внимания и восприятия. Этот вопрос напрямую зависит от того, обращают ли родители внимание на то, есть ли у ребенка проблемы, связанные с вниманием, концентрацией и восприятием в возрасте раннего когнитивного развития.

# HƏRBİ TƏHLÜKƏSİZLİK MİLLİ TƏHLÜKƏSİZLİYİN TƏRKİB HİSSƏSİ KİMİ

***Polkovnik Müşfiq Bəkdəmirov***
***Milli Müdafiə Universitetinin***
***Hərbi İdarəetmə İnstitutu***

***Açar sözlər:*** milli təhlükəsizlik, hərbi təhlükəsizlik, dünya nizamı, hərbi-siyasi şərait, yeni təhlükələr, qeyri-dövlət aktorları
***Ключевые слова:*** национальная безопасность, военная безопасность, мировой порядок, военно-политическая обстановка, новые угрозы, негосударственные акторы
***Keywords:*** national security, military security, world order, military-political situation, new threats, non-state actors

**Giriş.**

Yeni dünya nizamının formalaşması dünya liderliyinə cəhdlər, regional liderliyə can atan ölkələr arasında təsir dairələrinin yaradılması uğrunda mübarizə ilə müşayiət olunur. Bu, beynəlxalq münasibətlərin bütün istiqamətlərində potensial rəqabətin güclənməsi təhlükəsini özündə əks etdirir və hərbi-siyasi vəziyyətin inkişafına arzuolunmaz təsir göstərə və onun destabilizasiyasına gətirə bilər. Belə bir şəraitdə lokal miqyaslı hərbi münaqişələrin yaranması təhlükəsi və eskalasiyası qaçılmaz ola bilər.

Dövlətlərarası münasibətlərin əsas oyun qaydaları iqtisadi və geosiyasi maraqlar zonasına keçir. Hərbi-siyasi şəraitin neqativ inkişafını transmilli şirkətlərin təsir dairələrinin bölüşdürülməsinə cəhd etməsi ilə kəskinləşir. Resurs, demoqrafik və ərazi problemləri qalmaqdadır. Qeyri-ənənəvi amillərlə bağlı təhdidlər informasiya, texnologiya və iqtisadi ekspansiyanın yeni formaları, nüvə silahı və onun tədarük vasitələrinin yayılması, beynəlxalq terrorizmin, qanunsuz silah və narkotik dövriyyəsinin artması ilə güclənir. Bütün bu proseslər dövlətin hərbi təhlükəsizliyinin transformasiyasına rəvac verir.

Məqalənin hazırlanmasında sistem, tarixi və müqayisəli təhlil metodundan istifadə edilib.

Təhlükəsizlik - mümkün zərərlərdən müdafiə olunma imkanları, ziyanlı təsirlərin qarşısının alınması, həmçinin onlardan sığortalanması imkanlarının məcmusudur. Qeyd edək ki, "təhlükəsizlik" anlayışı 1940-cı illərin sonu – 1950-ci illərin əvvəlində geniş yayılmışdır . "Soyuq müharibə" şəraitində, xüsusilə yeni nüvə erasında hərbi qarşıdurmanın beynəlxalq münasibətlərin başlıca sahəsinə çevrildiyi bir dövrdə bu termindən silahlara nəzarət, strategiya və texnologiyalara dair aparılan hərbi-mülki tədqiqatlar sahəsinin müəyyənləşdirilməsi və ifadə olunması üçün istifadə edilməyə başlandı.

İndi bir sıra alimlər təhlükəsizlik anlayışının genişləndirilməsinin, yəni insanların həyat fəaliyyətinin hərbi, iqtisadi, mədəni, ekoloji və digər tərəflərinin kompleks şəklində öyrənilməsi və tədqiq edilməsinin tərəfdarı kimi çıxış edir. Söhbət təhlükəsizliyin geniş təfsirindən gedir. Bununla belə nəzərə almaq lazımdır ki, bu sahələrin bir-biri ilə sıx əlaqə təşkil etməsi ilə yanaşı, onların hər biri təhlükənin xarakterindən, onlara müqavimət instrumentlərindən və digər sahələrdəki qanunauyğunluqlardan fərqlənən özünəməxsus xüsusiyyətlərə malikdir.

Təhlükəsizliyin bir neçə növü vardır. Bunların arasında siyasi, iqtisadi, hərbi, ekoloji, mədəni təhlükəsizliyi və s. göstərmək olar. Dövlətin milli təhlükəsizlik istiqamətləri arasında hərbi təhlükəsizliyin mərkəzi yeri vardır.

Müasir dövlətlərarası münasibətlərin əsasını hərbi təhlükəsizliyin təmin edilməsinə yönələn cəhdlər təşkil edir. Hərbi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi və mühüm komponenti olub, ölkənin müdafiə qabiliyyətinin vəziyyətini və hərbi güc vasitələri ilə milli maraqların təmin edilməsi imkanlarını müəyyən edir.

Dövlətin hərbi təhlükəsizliyinin təmin edilməsi probleminə bir neçə yanaşma mövcuddur [1, s.25]. **Birinci yanaşma** dövlətin hərbi siyasətində və hərbi ittifaqlarda beynəlxalq hüququn primatı konsepsiyası üzərində qurulur. Hərbi münaqişələrin qeyri-hərbi vasitələrlə tənzimlənməsini nəzərdə tutan beynəlxalq sənədlər hər bir sülhsevər dövlər tərəfindən dəstəklənir və əməl edilir.

**İkinci yanaşma** isə hərbi təhlükəsizliyin təmin olunmasında gücdən istifadəni, yəni hərbi potensialın yaradılmasını tələb edir.

**Üçüncü yanaşma** hərbi münaqişələrin qarşısının alınmasında müdafiə yetərliliyi potensialına malik hərbi güc strukturlarının saxlanılması ilə yanaşı hüquqi, diplomatik və digər qeyri-hərbi vasitələrin primatını nəzərdə tutur. Saxlanılmasına minimal resursların sərf edildiyi bu hərbi qüvvələr müharibənin başlanılmasını qarşısını almağa qadir olmalı, hücum zamanı isə strateji açılmanı həyata keçirməli və təcavüzü dəf etməlidir.

Hərbi təhlükəsizlik müharibələrin yaranmasının və ölkənin müharibəyə cəlb olunmasının qarşısının alınması, müharibə yaranacağı təqdirdə isə onun ölkənin milli təhlükəsizliyi üçün ziyan və dağıdıcı nəticələrinin minimuma endirilimәsi imkanları kimi dərk edilir. Dövlətin hərbi təhlükəsizliyinin təmin edilməsi üçün hərbi potensialı yetərli səviyyədə saxlamaq lazım gəlir. Xüsusən də bu, dövlət sərhədinə yaxın ərazilərdə yarana biləcək böhran şəraitində ölkənin müdafiəsinin təmin edilməsi  üçün gərəkli hesab edilir. Hərbi təhlükəsizliyin tələb olunan səviyyəsinə dövlətin məqsədyönlü fəaliyyəti nəticəsində kompleks struktur komponentlərin – hərbi, hərbi-diplomatik, iqtisadi, ideoloji və s. həyata keçirilməsi ilə nail olunur [2, s.141-142].

Hərbi təhlükəsizliyin **siyasi və diplomatik komponenti** aşağıdakılarla təmin edilir:

- kollektiv (beynəlxalq) təhlükəsizlik sisteminin yüksək səviyyəsi;
- dövlətin hərbi-siyasi ittifaqlar sisteminə inteqrasiyası;
- dünyada hərbi-siyasi qüvvələrin məqbul balansı;
- dövlətlərin iştirak etdiyi beynəlxalq müqavilələrin və sazişlərin təminatlı icrası;
- silahlara beynəlxalq nəzarət rejiminin daha da təkmilləşdirilməsi və kütləvi qırğın silahlarının və onların çatdırılma vasitələrinin yayılmaması.

Hərbi təhlükəsizliyin **iqtisadi komponentinə** aşağıdakılar daxildir:

- ölkənin müdafiə qabiliyyətini təmin edən maddi və maliyyə imkanları;
- Silahlı Qüvvələrin və digər qoşunların kəmiyyət və keyfiyyət göstəricilərini;
- ordu, donanma və digər qoşunlar üçün lazım olan hər şeyi təmin edən hərbi-sənaye kompleksi silah və hərbi texnikanın səfərbərlik ehtiyatını yaradır;
- silah və hərbi texnikanın yeni növlərinin yaradılmasına imkan verən elmi-texniki potensial;
- sənayenin səfərbərlik imkanları, zəruri hallarda Silahlı Qüvvələrə və digər qoşunlara lazımi miqdarda silah və hərbi texnikanın verilməsini təmin etmək.

Hərbi komponentə hərbi gücdən istifadə və ya istifadə etmək imkanı vasitəsilə hərbi təhlükəsizliyi təmin etmək üçün yaradılmış cəmiyyətin hərbi təşkilatı daxildir. **Hərbi komponent** müəyyən kəmiyyət və keyfiyyət göstəricilərinin mövcudluğunu nəzərdə tutur, bunlara aşağıdakılar daxildir:

- dövlətin ərazisinin ölçüsündən, sərhədlərinin uzunluğundan və hərbi-siyasi və strateji vəziyyətin ümumi durumundan xeyli dərəcədə asılı olan Silahlı Qüvvələrin və digər qoşunların sayı;
- qoşunların və qüvvələrin döyüş qabiliyyətinin və döyüş hazırlığının asılı olduğu hazırlıq səviyyəsi;
- Silahlı Qüvvələrin və digər qoşunların texniki təminatı (hərbi texnika, döyüş sursatı, hərbi-texniki təchizat);
- arsenallarda, bazalarda və anbarlarda olan silah və hərbi texnika ehtiyatlarının mövcudluğu;

- qoşunların (qüvvələrin) hazırlığını, strateji və operativ yerləşdirilməsini və hərbi əməliyyatların aparılmasını təmin etmək üçün nəzərdə tutulmuş hərbi infrastrukturun (stasionar obyektlərin) vəziyyəti.

Hərbi komponentlə sıx əlaqəli olan **mənəvi-psixoloji komponentə** aşağıdakılar daxildir:

- ölkə əhalisinin əhalinin mənəvi-psixoloji hazırlığının dərəcəsi ilə müəyyən edilən mənəvi imkanları;
- hərbi qulluqçuların hüquq və vəzifələrinin, cəmiyyətdə və dövlətdə mövqeyi və nüfuzunun məcmusu olan sosial vəziyyəti;
- Silahlı Qüvvələrin və digər qoşunların əsas kateqoriyalarının mənəvi-psixoloji vəziyyəti.

Təbii ki, özünün səciyyəvi xüsusiyyətlərinə görə hərbi təhlükəsizlik digər təhlükəsizlik istiqamətlərindən ciddi şəkildə fərqlənir. Bu fərqlər haqqında təsəvvürlərə malik olmaq üçün hərbi təhlükəsizliyin səciyyəvi xüsusiyyətlərini müzakirə etmək və bu istiqamətdə politoloji təhlillərin aparılması məqsədəuyğundur. Hər şeydən öncə qeyd edək ki, elmi və hüquqi ədəbiyyatlarda hərbi təhlükəsizliyin mahiyyətinə dair müxtəlif yanaşmalar mövcuddur. Kifayət qədər çoxsaylı və fərqli yanaşmaların olmasına baxmayaraq, yanaşmalarda ümumi məqam ondan ibarətdir ki, hərbi təhlükəsizlik dedikdə, dövlətin həyati vacib maraqlarının təhlükəsizliyi səviyyəsi nəzərdə tutulur. Burada nəzərdə tutulan əsas məqamlar dövlətin konstitusiya quruluşu, müstəqilliyi, suverenliyi və ərazi bütövlüyündən ibarətdir. Təbii ki, qeyd etdiyimiz istiqamətdə təhlükəsizliyin təmin edilməsində əsas güc dövlətin hərbi strukturlarının üzərinə düşür.

Dövlətin hərbi təhlükəsizlik probleminin politoloji nöqteyi-nəzərdən təhlil etdikdə, bəzi məqamlara xüsusi diqqət yetirmək vacibdir. Hər şeydən öncə qeyd etmək lazımdır ki, hərbi təhlükə daxili və xarici amillərlə bağlı ola bilər. Dövlətin ümumi təhlükəsizliyinin əsas məqamı hər şeydən öncə onun olduğu vəziyyətdə qorunub saxlanılmasından ibarətdir. Belə ki, dövlətin bütün mənalarda mövcud vəziyyətinin dəyişdirilməsinə daxili və xarici amillər təsir etməməlidir. Dövlət həmişə müəyyən dəyərləri özündə daşıyan obyekt rolunda çıxış edir. Bu xüsusiyyət dövlətin qorunmasına olan marağın ilkin şərti rolunda çıxış edir. Bildiyimiz kimi, politoloji müstəvidə dövlətin daşıdığı əsas dəyər onun müstəqilliyindən, suverenliyindən, dövlət və ərazi bütövlüyündən, insan hüquq və azadlıqlarının qorunmasından və s. ibarətdir. Dövlətin müstəqilliyinin və suverenliyinin, ərazi bütövlüyünün etibarlı qorunması məhz hərbi təhlükəsizliyin biraşa prioritetidir.

Bu məqamda xüsusi qeyd etmək lazımdır ki, hərbi təhlükəsizlik baxımından insanın, cəmiyyətin və dövlətin maraq və dəyərləri bir sıra mühüm əsaslara görə üzvi şəkildə əlaqəlidirlər. Bu əsasları aşağıdakı kimi nəzərdən keçirmək mümkündür [3, s.73]:

– birincisi, dövlətin konstitusion quruluşu, suverenliyi və ərazi bütövlüyü onun əsas maraq və dəyərləri kimi nəzərdən keçirilməklə, cəmiyyətin maraqları ilə üst-üstə düşür və bu istiqamətdə təhlükəsizliyin təmin olunması bütövlükdə cəmiyyət üzvlərinin təhlükəsizliyi anlamına gəlir. Deməli, cəmiyyətin üzvünün ümumilikdə maraqlarının təmin olunması hərbi təhlükəsizliyin səmərəli təmin olunmasından birbaşa asılıdır;

– ikincisi, cəmiyyət üzvünün şəxsi təhlükəsizliyinin təmin olunması ilə bağlı maraqları, cəmiyyət hüquqi dövlət qurmaq və dövlətin qanunçuluğun təmin edilməsi maraqları ilə tamamlanır.

Qeyd etmək lazımdır ki, milli təhlükəsizliyin bütün istiqamətləri bir-biri ilə ciddi şəkildə sıx bağlıdırlar. Həmçinin cəmiyyət üzvlərinin şəxsi təhlükəsizlikləri ümumi dövlət maraqlarının hansı səviyyədə qorunmasından birbaşa birbaşa asılıdır. Bütün təhlükəsizlik trendləri ümumilikdə dövlətin təhlükəsizliyinin təmin olunmasına xidmət etdiyi kimi, hərbi təhlükəsizlik də cəmiyyət üzvlərinin hüquq və azadlıqlarının və ümumi təhlükəsizliklərinin qarantı rolunda çıxış edən dövlətin mövcudluğunun təminin əsas şərti kimi qəbul olunur.

Beləliklə, hərbi təhlükəsizlik səmiyyət üzvünün mövcudluğunun ilkin şərti kimi nəzərdən keçirilə bilər.

Hərbi təhlükəsizliyin maraqların daxili və xarici hərbi təhlükələrdən qorunması prizmasından nəzərdən keçirilməsi zamanı qeyd etmək lazımdır ki, belə təhlükəsizliyin sistemyaradıcı elementi rolunda hərbi sahədə dövlətin milli maraqlarının məcmusu çıxış edir. Burada təbii ki, qorunmasına ehtiyac duyulan maraqlar nəzərdə tutulur. Əksər tədqiqatçılar politoloji prizmadan dövlətin hərbi müstəvidə milli maraqlarının qorunmasını onun müstəqilliyinin, suverenliyinin, dövlət və ərazi bütövlüyünün təmin olunması kimi nəzərdən keçirirlər. Bundaq başqa, hər hansı bir subyektin dövlətə qarşı hərbi müdaxiləsinin qarşısının alınması və ya bu istiqamətlərdə preventiv tədbirlərin həyata keçirilməsi hərbi təhlükəsizliyin bazisi təşkil edir. Hər bir müasir sivil dövlət özünün dinc və demokratik inkişafı üçün hərtərəfli hərbi təhlükəsizliyini təmin etməyi prioritet kimi müəyyənləşdirir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, hazırkı məqamda dövlətin hərbi təhlükəsizliyinin imperativlərindən birini mümkün müharibənin qarşısının alınması təşkil edir. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, dövlətin dinc, demokratik inkişafı yalnız silahlı münaqişənin olmadığı sülh şəraitində mümkündür. Müharibə bütün dəyərlərin qorunmasını təhlükə altına almaqla, həm də dövlətin özünün bütövlükdə mövcudluğunu ciddi sual altına alır. Qeyd edək ki, müharibə bəşəriyyətin, insanların həyatının qaçılmaz bir hissəsi kimi, çox vaxt pislik, lakin qaçılmaz pislik kimi qiymətləndirilirdi. Təhlükəsizlik termini Birinci Dünya müharibəsindən sonra geniş şəkildə istifadə edidi. O zaman ilk dəfə olaraq, müharibələrin son dərəcə dağıdıcı olması səbəbindən beynəlxalq səylərin müharibələrin qarşısının alınmasına, yəni onlara qarşı təhlükəsizliyin təmin edilməsinə xidmət edən məsələlərə dair geniş beynəlxalq konsensus formalaşmışdı. Bu termindən Millətlər Liqasının sənədlərində, məsələn Avropada kollektiv təhlükəsizlik konsepsiyasının işlənib hazırlanması ilə əlaqədar istifadə olunmağa başlandı. Bu tərəfdən o, ənənəvi olan sülh və müharibənin olmaması terminlərinin sinonimi kimi işlənirdi. Digər tərəfdən isə sülhün qorunmasına xidmət edən, müharibəyə gətirib çıxara bilən şəraitlərin qarşısın alan sazişlərin imzalanmasından, prinsiplərin institut və prosedurların yaradılmasından ibarət olan geniş bir sahəni əhatə edir, başqa sözlə desək, müharibənin qarşısını alan profilaktik tədbirlərdən ibarət idi.

Daha dağıdıcı olan İkinci Dünya müharibəsindən sonra bu məsələ daha da aktual oldu. Ən ümumi şəkildə beynəlxalq təhlükəsizliyin müasir izahı BMT-nin yaradılması zamanı, təşkilatın Nizamnaməsinin birinci fəslində öz əksini tapmışdı.

Nəzərə çatdırmaq lazımdır ki, XXI əsrin əvvəllərində soyuq müharibədən uzaqlaşan dövlətlər qarşısında yeni təhlükələr baş qaldırmayana kimi belə davam edirdi. Bu zaman dərk edildi ki, beynəlxalq təhlükəsizlik sahəsində dərin "tektonik" miqyaslı hərəkətlər baş verir, onun təmin edilməsi isə yeni maddi-texniki baza, yeni hərbi-siyasi instrumentlər və beynəlxalq hüquqi-təşkilat strukturunun olmasını tələb edir.

Dövlətlərin hərbi təhlükəsizlik probleminin politoloji təhlilini apararkən həm vurğulamaq lazımdır ki, XXI əsrin əvvəlində hərbi sahədə təhlükəsizlik üçün yeni təhlükələr formalaşdı. Hərbi cəhətdən qüdrətli olan dövlətlər arasında rəqabətdən doğan köhnə təhlükələr arxa plana çəkilməyə başladı. Demək olar ki, "köhnə" təhlükələrin əksəriyyəti bu gün "yuxulu" vəziyyətdədir [4, s.81-82]. Nüvə qarşıdurmasına və adi silahların istifadəsi ilə aparılacaq müharibələrə gətirib çıxara bilən təhlükələr "köhnə" hesab edilir.

"Yeni" təhlükələr beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, onların çatdırılması vasitələri və daxili hərbi münaqişələrdən ibarət üçlük aid edilir. "Beynəlxalq hərbi müdaxilə" fenomeni də onlara yaxındır. Beynəlxalq təhlükəsizlikəzi hallarda bu fenomen yaranmış beynəlxalq təhlükənin neytrallaşdırılması kimi çıxış edir, digər hallarda isə özüdə ciddi təhlükə yaradır. Bu təhlükələr əvvəllər də mövcud idi. Lakin o zaman onlar

"köhnə" təhlükələrin kölgəsində qalırdı. Son illər onların prioritetinin artması bu təhlükələrin daxili potensialının və yetirə biləcəyi xətərin inkişafı ilə izah edilir.

Ön plana çəkilən və yeni xüsusiyyətlər qəbul edən digər təhlükə kütləvi qırğın silahlarının real və potensial yayılma kompleksi ilə bağlıdır. Bu təhlükənin aktuallığının kəskin dərəcədə artması onun beynəlxalq terrorizmlə birləşmə ehtimalı ilə izah edilir. Bununla əlaqədar bu təhlükənin və onunla aparılan mübarizənin sahəsi də dəyişmiş və genişlənmişdir.

Əgər əvvəllər belə təhlükə dövlətlərdən irəli gəlirdisə, indi bu təhlükənin mənbəyi qeyri-dövlət aktorlarıdır. Əvvəllər dövlətlər arasında fəaliyyət göstərən beynəlxalq terrorizmlə bağlı cəzalandırma tədbirləri qeyri-dövlət iştirakçılarına təsir edə bilmirdi. Terrorçulara hansısa üstünlüklər təklif edib onlarla kütləvi qırğın silahlarının (KQS) istifadəsindən imtina etmək barədə razılıq əldə etmək olmur. Onlar bu silahlara yiyələnməklə siyasi məqsədlərə nail olmaq marağındadır. Bir sözlə, əvvəllər dövlətlərarası formatda işləyən çəkindirici tədbirlərin rasional məntiqi bu sahədə artıq işləmir.

KQS-in qeyri-dövlət aktorları tərəfindən əvvəllər cüzi olan oğurlanma təhlükəsi kəskin şəkildə artdı, bunun nəticəsində isə belə silah və onun komponentlərinin fiziki müdafiəsi problemi ortaya çıxdı. Əgər əvvəllər söhbət belə silahlara yiyələnməkdən gedirdisə, bu gün bu problemin nəticələri kütləvi qırğın silahlarının istifadəsinin nəticələrinə yaxın olan sülh vaxtında nüvə, kimyəvi və digər obyektlərin dağıdılmasına gətirə biləcək təhlükə ilə tamamlanır. Eyni zamanda ənənəvi nüvə yayılmaması sistemi sərhədlərinin açılması baş verdi. Yeni dövlətlər nüvə silahlarına yiyələnməyə başladı. Bu regional nüvə silahlanmasına təkan verir, əvvəllər nüvə silahı istehsalını planlaşdırmayan dövlətlər qarşısında belə silahların istehsalı haqqında məsələ qaldırırdı. Bununla yanaşı yeni sahib tapmış nüvə silahlarının taleyi nigarançılıq doğurur.

Bəzi dövlətlər öz irrasional davranışı ilə (bu kütləvi qırğın silahlarının yayılması məsələsinə də aid edilə bilər), beynəlxalq terrorizmə göstərdikləri simpatiyaları ilə məlumdurlar. Bəzi dövlətlər isə hətta terroristlər ilə əməkdaşlıq da edir. Bu gün kütləvi qırğın silahlarının yayılmasına xidmət edən yarıdövlət, yarıhərbi gizli transmilli şəbəkələrin formalaşması təhlükəsi artıq utopiya deyil.

"Soyuq müharibə"dən beynəlxalq təhlükəsizliyin müasir vəziyyətinə keçid əvvəllər Moskva və Vaşinqton tərəfindən qidalandırılan bir sıra konfliktlərin sönməsi ilə müşayiət edilir. Xarici stimullardan azad olmuş digər konfliktlər öz daxili lokal dinamikasını qoruyub saxlamışdılar. Daxili silahlı münaqişələrin prinsipial şəkildə yolverilməz olması haqqında geniş beynəlxalq konsensus formalaşmağa başladı. Bunun bir sıra səbəbləri var. Başqa təhlükələrdən gələ biləcək xətərlə yanaşı daxili silahlı münaqişələr qlobal miqyasda ən çoxsaylı insan qurbanlarının səbəbidir. Son dövrdə onlar digər aparıcı təhlükələrlə, ilk növbədə beynəlxalq terrorizmlə, qeyri-qanuni narkotik daşınması, qeyri-qanuni silah alveri, mütəşəkkil beynəlxalq cinayətkarlıqla daha sıx birləşməyə meyl göstərir [5, 83-84].

Onu da qeyd etmək lazımdır ki, digər təhlükəsizlik növlərindən hərbi təhlükəsizlik bir sıra səciyyəvi xüsusiyyətlərinə görə fərqlənir. Hərbi təhlükəsizliyin səciyyəvi xüsusiyyətlərindən biri də onun olduqca mürəkkəb struktura malik olması ilə bağlıdır. Hərbi təhlükəsizliyin strukturu aşağıdakı formada nəzərdən keçirilə bilər:

- hərbi təhlükəsizliyin obyekti: şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqları. Bildiyimiz kimi, bu maraqlar müxtəlif hərbi təhdidlərə və təhlükələrə məruz qala bilərlər;
- hərbi təhlükəsizliyin təmin olunması subyektləri. Burada hərbi təhlükəsizlik sistemində fəaliyyət göstərən konkret şəxslər, rəsmi və qeyri-rəsmi institutlar, orqanlar və təşkilatlar nəzərdə tutulur;
- Hərbi təhlükəsizliyin təmin olunması predmeti. Burada hərbi təhlükəsizliyin şəxsiyyətin, cəmiyyətin və dövlətin mövcudluğuna təhdid yaradan istənilən hərbi təhlükənin müəyyən edilməsi və neytrallaşdırılması istiqamətində məqsəd, vəzifə və funksiyalar nəzərdə tutulur;

- hərbi təhlükəsizliyin təmin edilmənin metod və vasitələri hərbi təhlükəsizliyin təmin olunması subyektləri tərəfindən hərbi təhlükəsizlik sisteminin fəaliyyəti prosesində istifadə edilir.

Hüquqi nöqteyi-nəzərdən hərbi təhlükəsizlik səciyyəvi məzmuna və struktura malik oaln kompleks hüquqi institutu ifadə edir. Hərbi təhlükəsizliyin hüquqi təhlükəsizliyin hüquqi institutu milli təhlükəsizlik sisteminin qurulmasında ilkin hüquqi vasitə rolunda çıxış edir. Yəni, o, dövlətin özünün fəaliyyət göstərməsini şərtləndirən başlıca hüquqi material rolunda çıxış edir.

Hərbi təhlükəsizlik üç səviyyəyə bölünür: qlobal, regional və milli. Qlobal səviyyədə ölkənin hərbi təhlükəsizliyi KQS-in yayılmamasına nəzarət və strateji hücum silahlarının ixtisar edilməsi üzrə tədbirləri əhatə edir.

Regional səviyyədə hərbi təhlükəsizlik kollektiv təhlükəsizlik sisteminin yaradılması yolu ilə ölkənin hərbi-strateji mövqeyinin möhkəmləndirilməsinə istinad edir.

Milli səviyyədə isə hərbi təhlükəsizlik dövlətin zəruri hərbi potensialı və hərbi gücü hesabına yaradılır.

Hərbi təhlükəsizlik probleminin öyrənilməsi zamanı tədqiqata cəlb edilən əsas məsələlərdən biri hərbi təhdidlər hesab edilir. Hərbi təhdid adı altında milli maraqların realizəsinə mane olan, həmçinin sosial dəyərlər sisteminə və milli yaşam tərzinə təhlükə təşkil edən şərtlər və amillər məcmusu dərk edilir [6, s.31-34]. Bu cür təhdidlərin mənbəyi ayrı-ayrı dövlətlər, mütəşəkkil insan qrupları, ekologiya, iqtisadiyyat və informasiya sahəsində neqativ proseslər, dövlət hakimiyyət sisteminin və vətəndaş cəmiyyətinin təkmilləşməməsi, sosial-siyasi qütbləşmə və cəmiyyətin kriminallaşması, mütəşəkkil cinayətkarlıq, terrorizm, millətlərarası münasibətlərin kəskinləşməsi və s. hesab edilir.

Hərbi təhlükələr müxtəlif əsaslarla təsnif edilə bilər.

Yerləşdiyi məkandan asılı olaraq - həm xarici, həm də daxili kontinental məkanda, su hövzələrində və kosmosda mövcud ola bilər

Coğrafi istiqamətindən asılı olaraq, hərbi təhlükələr şimal, qərb, cənub və şərqdə baş verə bilər.

Miqyas baxımından hərbi təhdidlər qlobal, regional və ya yerli ola bilər.

İcra üsuluna görə - birbaşa və dolayı forması fəqləndirilə bilər.

Baş vermə ehtimalına görə - real və potensial təsnifata bölünə bilər. Real təhdid artıq baş verən və ya yaxın gələcəkdə baş verə biləcək təhlükədir. Potensial təhdid isə hadisələrin əlverişsiz inkişafı səbəbindən gələcəkdə həyata keçirilməsi mümkün olan təhlükədir..

Hərbi təhdidlər açıq və ya gizli ola bilər.

Təhdid məlumatın düzgün qiymətləndirilməməsi səbəbindən (yanlış məlumatlara görə) xəyali ola bilər. Xəyali təhdid, subyekt tərəfindən real olmamasına baxmayaraq, həqiqətən mövcud təhdid kimi göstərilə bilər. Maraqlı tərəf xəyali hərbi təhdidlər yaratmaqla öz real gücü haqqında məqsədyönlü şəkildə yanlış məlumat verə bilər.

**Nəticə.**

Yuxarıdakılar müəyyən nəticələrə gəlməyə imkan verir. Müasir inkişaf mərhələsində hərbi təhlükəsizlik milli dövlət təhlükəsizliyinin mühüm aspekti olmaqda davam edir və onun təmin edilməsinin klassik üsulları öz əhəmiyyətini itirmir. Bununla belə, hərbi təhlükəsizlik fenomeninin özü hazırda bir sıra dəyişikliklərə məruz qalır.

Birincisi, müharibənin üsul və vasitələrinin dəyişməyə məruz qalması səbəbindən onların müəyyənləşdirilməsi problemi, habelə yeni təhdidlərə adekvat olan hərbi təhlükəsizliyin təmin edilməsi yollarının işlənib hazırlanması problemi yaranır.

İkincisi, müasir hərbi əməliyyatlar teatrı getdikcə informasiya məkanına doğru irəliləyir ki, bu da keyfiyyətcə müxtəlif sahələrdə: psixoloji və texnoloji sahələrdə aqressiyanı dəf etmək üçün qabaqlayıcı tədbirlərin işlənib hazırlanmasını tələb edir.

## ƏDƏBİYYAT

1. Военная безопасность государства: сущность, структура и пути обеспечения на современном этапе: учебное пособие / И. К. Макаренко, В. С. Морозов; Рос. акад. гос. службы при Президенте Рос. Федерации. - Москва: Изд-во РАГС, 2003 (ИЦ РАГС). - 60 с.

2. *Военная сила* в *международных отношениях*: учебное пособие / *В. И. Анненков* [и др.]; под общ. ред. *В. И. Анненкова*. - М. : КНОРУС, *2011. 496 с.*

3. Общая теория национальной безопасности: Учебник / Под общ. Ред. А.А.Прохожева. М.:Из-во РАГС, 2011. 320 с.

4. Кулагин В.М. Международная безопасность: учебное пособие для студентов вузов. М.: Аспект Пресс, 2006. 319 с.

5. Современная международная безопасность: учебное пособие / В.М. Кулагин. — М. : КНОРУС, 2012. — 432 с.

6. Логунов А.Б. Региональная и национальная безопасность: учеб. пособие. – М. 2011.

## HƏRBİ TƏHLÜKƏSİZLİK MİLLİ TƏHLÜKƏSİZLİYİN TƏRKİB HİSSƏSİ KİMİ

***Polkovnik Müşfiq Bəkdəmirov***

## XÜLASƏ

Məqalədə milli təhlükəsizlik sistemində hərbi təhlükəsizliyin yeri və rolu araşdırılır. “Soyuq müharibə”dən sonra hərbi təhlükəsizliyin anlayış aparatının məruz qaldığı transformasiyanın səbəblərinə aydınlıq gətirilir. Dövlətin hərbi təhlükəsizliyinin təmin edilməsi probleminə bir neçə yanaşma nəzərdən keçirilir, hərbi, hərbi-diplomatik, iqtisadi, ideoloji və s. komponentlərin rolu təhlil edilir.

Məqalədə eyni zamanda hərbi təhlükəsizliyin mürəkkəb strukturu, ona təsir edən köhnə və yeni təhdidlərin xarakterik xüsussiyyətləri və hərbi təhlükəsizliyin səviyyələri tədqiqata cəlb edilir.

Məqalədə müəllifin gəldiyi nəticə bundan ibarətdir ki, ölkənin milli təhlükəsizlik sistemində hərbi təhlükəsizlik əvvəlki dövrlərlə müqayisədə öz üstün rolunu əldən versə də, digər komponentlərlə: iqtisadiyyat, siyasət, informasiya və s. ilə sıx əlaqəsini saxlayır. Hərbi zorakılığın transsərhəd xarakter alması, daxili münaqişələrin artması, “humanitar müdaxilə” konsepsiyasının beynəlmiləlləşməsi müasir dünya nizamında hərbi təhlükəsizliyin rolunu aktuallaşdırır.

## ВОЕННАЯ БЕЗОПАСНОСТЬ КАК ЧАСТЬ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

***Полковник Мушфиг Бакдамиров***

## АННОТАЦИЯ

В статье исследуются место и роль военной безопасности в системе национальной безопасности. Выяснены причины трансформации аппарата понимания военной безопасности после «холодной войны». Рассмотрены несколько подходов к проблеме

обеспечения военной безопасности государства: военный, военно-дипломатический, экономический, идеологический и др. анализируется роль компонентов.

Также в статье исследуется сложная структура военной безопасности, характерные особенности старых и новых угроз, воздействующих на нее, уровни военной безопасности.

Вывод автора в статье таков: хотя военная безопасность и утратила свою главенствующую роль в системе национальной безопасности страны по сравнению с предыдущими временами, она продолжает сохранять тесную связь с другими компонентами - экономикой, политикой и информацией.

Трансграничный характер военного насилия, рост внутренних конфликтов, интернационализация понятия «гуманитарная интервенция» делают роль военной безопасности в современном миропорядке более актуальной.

## MILITARY SECURITY AS A PART OF NATIONAL SECURITY

***Mushfig Bakdamirov***

## SUMMARY

The article examines the place and role of military security in the national security system. The reasons for the transformation of the understanding apparatus of military security after the "Cold War" are clarified. Several approaches to the problem of ensuring the military security of the state are considered, military, military-diplomatic, economic, ideological, etc. the role of components is analyzed.

The article also explores the complex structure of military security, the characteristic features of old and new threats affecting it, and the levels of military security.

The author's conclusion in the article is that, although military security has lost its superior role in the country's national security system compared to previous times, it continues to maintain a close relationship with other components - economy, politics, and information.

The trans-border character of military violence, the increase of internal conflicts, the internationalization of the concept of "humanitarian intervention" make the role of military security in the modern world order more relevant.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ HƏRBİ TƏHSİLİN TƏŞKİLİNİN XÜSUSİYYƏTLƏRİ

***Polkovnik Balayev Saday Fazil oğlu***
***Hərbi İdarəetmə İnstitutunun magistrantı***
*zafarnajafov@yahoo.com*

***Açar sözlər:*** Azərbaycan Xalq Cümhuriyyəti, Cənubi Qafqaz, hərbi quruculuq, milli kadr hazırlığı, Milli Hərbiyyə məktəbi
***Ключевые слова:*** Азербайджанская Демократическая Республика, Южный Кавказ, военное строительство, подготовка национальных кадров, Национальное военное училище.
***Keywords:*** Azerbaijan Democratic Republic, South Caucasus, military construction, national personnel training, National Military School

Giriş. Azərbaycan Xalq Cümhuriyyəti dövründə həyata keçirilmiş ordu quruculuğu çərçivəsində milli hərbi kadrların hazırlanması prioritet vəzifələrdən hesab edilib. Bu məqsədlə Cümhuriyyət dövründə milli hərbi kadrların hazırlanması səbəbləri, onların yetişdirilməsi prosesində mühüm rol oynamış hərbi təyinatlı tədris ocaqlarının fəaliyyəti və qardaş Osmanlı Türkiyəsinin hərbi dəstəyi, həmçinin Milli Hərbiyyə məktəbinin fəaliyyət mərhələləri, xarakterik xüsusiyyətləri və strukturu geniş təhlil olunub. Məqalənin hazırlanmasında tarixi və struktur-funksional tədqiqat metodlarından istifadə edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini elan edəndən sonra onun qarşısında dayanmış ən mühüm vəzifə ölkənin ərazi bütövlüyünü və siyasi suverenliyini təmin etmək məsələsi idi. Belə ki, ölkənin sənaye və mədəni mərkəzi olan Bakı şəhəri və bu şəhər ətrafında olan ərazilər erməni-daşnak və bolşeviklərin nəzarətində idi. Yeni hökumət isə ölkəni Gəncədən idarə edirdi. Bakiya nəzarət etmədən Azərbaycan idarə etmək qeyri-mümkün idi. Belə ki, ölkənin əsas sənaye və intellektual potensialı Bakıda cəmlənmişdi. Dövlətçiliyin mövcudluğu üçün iqtisadi baxımdan zəruri olan neft yataqları milli hökumətin nəzarətindən kənarda idi. Ölkənin ərazi bütövlüyünün və eləcə də Bakı şəhərinin milli hökumətin nəzarəti altına gətirilməsi və bütünlükdə müstəqilliyin qorunması baxımından isə ordu quruculuğu xüsusi əhəmiyyət kəsb edirdi. Ordunun qurulması üçün isə milli hərbçi kadrlara böyük ehtiyac duyulurdu (1, s.49).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə hərbi kadrların hazırlanması nə üçün vacib məsələ hesab edilirdi? Birincisi, bu, təhlükəsizlik mülahizələrindən irəli gəlmişdi. Yeni və kövrək dövlətin mövcudluğu bəzi bölgə gücləri: Rusiya və İranı qıcıqlandırırdı. Belə bir dövlətin Cənubi Qafqazda yaranması və möhkəmlənməsi regionda imperiya maraqlarına və mövqelərinə ciddi təhdid edirdi. Rusiya üçün bu, regionda təsir imkanlarının tamamilə itirilməsi, İran üçün Azərbaycan irredentizmi riski yaradırdı.

İkincisi, hərbi kadrların hazırlanması məsələsinə Osmanlı Türkiyəsinin cəlb edilməsinin əhəmiyyətini qeyd etmək olar. Osmanlı dövləti dünya hərb tarixində yeri və dəsti-xətti olan dövlətdir, onların təcrübəsi və dəstəyi gənc demokratik ölkə üçün yaşamaq mübarizəsində ayaqda qalmaq anlamı verirdi. Bundan əlavə, Azərbaycan Xalq Cümhuriyyəti Osmanlı Türkiyəsi ilə etnik, dini, mədəni və təhlükəsizlik maraqları birləşdirirdi. Azərbaycan XX əsrin əvvəllərində turançılığa güclü rəğbət mövcud idi (2, s.411). Bu meylə rəğbət bəsləyənlər arasında siyasi xadimlərdən tutmuş, yazarlara qədər böyük bir dəstə mövcud idi. Bu bağlılıqda Türkiyədə təhsil almış azərbaycanlı ziyalıların da rolu az deyildi. Xüsusən də Türk qoşunlarının azərbaycanlıları erməni daşnakların süngülərindən xilas etməsi, ADR-ın həyatda qalmasını təmin etməsi Azərbaycanda Türkiyə amilinə xilaskar kimi yanaşılırdı.

Digər bir məsələ yeni qurulmaqda olan Azərbaycan Ordusunda milli kadrların azlığı ilə

əlaqəli idi. Çar hakimiyyəti dövründə azərbaycanlılar hərbi xidmətə çağırılmırdı (3, s. 205). Məhdud sayda çağırılanlar isə bəy, xan ailənin üzvləri idi. Çar onlara əyalətlərdə öz siyasətini təmin edən alət kimi baxırdı. Digər tərəfdən həmin zabitlərin hərb işinə rus dilində yiyələnməsi həmin dildə milli kadrların hazırlamasını mümkünsüz edirdi. Belə ki, yerli gənclərin xeyli hissəsinin təhsilsiz olması və bundan irəli gələrək rus dilini bilməməsi qarşıya qoyulmuş məqsədə nail olmağa imkan vermirdi. Belə olan təqdirdə ən yaxşı variant onların öz doğma dili kimi bildiyi türk dilində qısa müddətli hazırlığının təmin edilməsi idi. Hətta ən təhsilsiz gənc öz doğma dili olan türk dilində danışa bilirdi.

Doğrudur, bu çətinliyin aradan qaldırılması üçün qeyri-azərbaycanlı hərbçilərin milli orduya cəlb edilməsi də aparılırdı. Mlumdur ki, hətta əməliyyat-taktiki səviyyədə onların sayı xeyli çox idi (4, s.39).Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyətinin kadr siyasətinin Azərbaycan Ordusu zabitlərinin milliləşdirilməsinə, müsəlman zabitlərin sayının artırılmasına, sədaqətliliyi şübhə doğuranların isə ordudan uzaqlaşdırılmasına istiqamətləndiyi aydın görünür. Lakin bununla belə, Ordu sıralarında qeyri-azərbaycanlılara qarşı heç bir ayrı-seçkilik hallarına rast gəlinməmiş, əksinə vəzifə borcunu layıqincə yerinə yetirmiş qeyri-azərbaycanlı hərbiçilər ordu rəhbərliyi tərəfindən mükafatlandırılmış, hətta ali rütbələrə təqdim edilmişlər.

Milli hərbi kadrların hazırlanması həm də ordunun silahlandırılması məsələsinə də diqqət ayırmağı tələb edirdi. Həmin silahların istifadə qaydalarının öyrədilməsində peşəkar zabitlərindən yararlanmaq son dərəcə vacib idi. Hərbi-texniki əməkdaşlıq hərbi təhsillə sıx bağlı məsələdir. Hərbi texnikanın istismar qaydalarını tədris prosesində daha yaxşı öyrənmək mümkündür. Bütün bu sadalananları nəzərə alaraq deyə bilərik ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından dərhal sonra Osmanli Türkiyəsi ilə 1918-ci il iyun ayının 4-də dostluq müqaviləsi imzalandı. Həmin müqavilə Azərbaycana Osmanlı ordusu tərəfindən hərbi kömək göstərilməsi məsələsini də nəzərdə tuturdu (5, s.384).

Milli hərbi kadrlara olan ehtiyacın aradan qaldırılması üçün hələ Cümhuriyyətin lan edilməsindən əvvəl Milli Hərbiyyə Məktəbinin əsası qoyuldu. Bu məktəbin təsis edilməsi 1918-ci il mart aının 1-nə təsadüf edir (6, s. 15).

Milli Hərbiyyə məktəbinin fəaliyyətini 3 dövrə bölmək olar: birinci dövr Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasınadək olan təqribən 3 ayı əhatə edir. Bu dövrdə məktəbin tam gücü ilə işləməsi mümkün olmadı. 31 mart soyqırımından sonra məktəb Bakıdan Gəncəyə köçməli oldu. Lakin orda da fəaliyyətində dinamizm baş vermədi. Erməni daşnak və bolşevik qüvvələr Azərbaycanın müstəqillik beşiyi olan Gənəcəni ələ keçirib, milli qüvvələrə divan tutmaq məqsədilə ölkənin qərbinə doğru istiqamətlənmək planı cızmışdılar. Onlara qarşı mübarizə aparmaq məqsədilə Milli Hərbiyyə məktəbinin ilk dinləyiciləri düşmənə qarşı hərbi mübarizəyə cəlb edilmişlər. Bu obyektiv səbəblərdən tədris prosesi yarımçıq dayanmışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqillik əldə etməsi məktəbin fəaliyyətində ikinci və ən məhsuldar dövrün başlanğıcını qoydu. Osmanlı dövləti də 1918-ci il iyun ayının 4-də imzalanmış dostluq müqaviləsi həm Qafqaz İslam Ordusunun yaradılmasına, həm də Milli Hərbiyyə Məktəbinin fəaliyyətində bir canlanma yaratdı. Osmanlı zabiti olan polkovnik Atif bəy bu məktəbin rəisi təyin edildi (7, s.457). Onun rəhbərliyi altında məktəbdə dərslərin aparılmasına azərbaycanlı zabitlərdən əlavə, Osmanlı zabitləri də cəlb edildilər.

Tədris prosesinin qarşısında qoyulmuş vəzifə məktəb məzunlarını taqım komandiri vəzifəsini hazırlamaq idi. Bu məqsədlə aşağıdakı şərtlər irəli sürülmüşdü:

-müasir dövrdə müharibənin tələblərinə uyğun hərbi hazırlığa malik olmaq;

-manqa və taqım tərkibində həm də hücum açılışı vəziyyətində hücum etməyi bacarmaq, eyni zamanda bu döyüş düzlüşündə bölmələrin idarə edilməsi təcrübəsini əldə etmək;

-müxtəlif döyüş şəraitində bölmələri idarə etməyi bacarmaq;

-sıra, manqa və taqım döyüş düzülüşündə döyüş atışlarını icra etməyi bacarmaq, istifadədə olan silahların atəş xüsusiyyətlərinə bələd olmaq və onlardan istifadəni bacarmaq (8, s.32-33).

1918-ci il avqust ayında Milli Hərbiyyə Məktəbinin nəzdində çavuş hazırlığı kursu da açıldı. Arxiv sənədlərində bu kurs – Ehtiyat zabit namizədləri təlimgahı kimi göstərilmişdir (8, s.47). Bu məktəbin açılmasında məqsəd bölmələrin idarə edilməsinə xüsusi yeri olan çavuş heyətinin hazırlanması idi. Çavuş heyətinin olmaması üzündən onlara aid olan vəzifələri kiçik zabit heyəti icra etməli olurdu. Zabit heyətinin çatışmadığı bir vaxtda onların bir hissəsinin çavuş vəzifəsinin icrasına cəlb edilməsi isə hissələrin zabit kadrlarla təminatını bir qədər də çətinləşdirirdi.

Ümumiyyətlə Milli Hərbiyyə məktəbinin fəaliyyətinin ən məhsuldar dövrü ikinci dövr - onun Gəncədəki fəaliyyət dövrü hesab edilir. Bu müddət ərzində məktəb öz fəaliyyətini sabit şəkildə davam etdirmiş, milli hərbiçi kadrların formalaşmasına öz müsbət töhfəsini vermişdir.

Mudros müqaviləsinin (30 oktyabr 1918) şərtlərinə görə Osmanlı Ordusu Azərbaycanı tərk edənə və Qafqaz İslam Ordusu ləgv edilənədək Hərbiyyə məktəbi öz fəaliyyətini yüksək səviyyədə davam etdirdi və ilk məzunlarını buraxmağa (1918-ci ilin oktyabrında) müvəffəq oldu (9, s.710). Osmanlı ordusu Azərbaycanı tərk edəndən sonra ölkənin hərbi təhlükəsizliyinin təmin edilməsi Azərbaycan hökumətinin üzərinə düşdü.

Mudros sülh müqaviləsinin 14-cü maddəsinə əsasən bölgəyə yeridilən ingilis qüvvələri Azərbaycanı da nəzarət altına almalı idilər. Azərbaycanın milli ordu qüvvələrinin və onun rəhbər strukturlarının Bakıda yerləşməsini general Tomson müttəfiq dövlətlərin maraqlarına təhlükə kimi qəbul edirdi. Ona görə Azərbaycan hökuməti qarşısında Bakıdakı milli hərbi qüvvələrin və Hərbi Nazirliyin aparatının şəhərdən çıxarılması tələbi qoyuldu. Bu tələb əsasında Hərbi Nazirlik 1918-ci il noyabr ayının 22-də Gəncəyə köçdü (10, s.423). İngilis komandanlığı Hərbi Nazirliyin Bakıdan kənarda fəaliyyət göstərməsinə etiraz etmirdi.

Əslində Hərbi nazırliyin Gəncəyə köçməsi Milli Hərbiyyə məktəbinin fəaliyyət qabiliyyətinin möhkəmlənməsində mühüm rol oynadı. Belə demək mümkündürsə, Osmanlı ordusunu hərbi quruculuq, o cümlədən onun bir tərkib hissəsi olan hərbi təhsildə yaratmış olduğu sistemi Hərbi nazırlik davam etdirməyə başladı.

Milli Hərbiyyə məktəbi 1919-cu il sentyabrın 6-da Bakıya köçdükdən sonra onun fəaliyyətinin 3-cü dövrü başladı. Az sonra məktəbin statusu yüksəldildi. Belə ki, rusca olan arxiv sənədlərində “Мусульманская школа подпрапорщиков» adlanmış məktəbin statusu qalxandan sonra “Мусульманская школа прапорщиков» kimi qələmə verilirdi. Məktəbin statusunun qaldırılması təlim-tərbiyə prosesinin qarsısında qovulmus vəzifələrin mahiyyətinin və miqyasının xeyli genislənməsinə, tədris yükünün kifayət qədər ağırlasdırılmasına səbəb oldu ki, bu da keyfiyyətcə daha hazırlıqlı zabitlərin hazırlanmasını təmin etməli idi.

1919-cu il dekabr avının 1-də Hərbiyyə məktəbinin rəisi polkovnik R.Sıxlinski 2-ci topçu briqadasının komandiri təyin edildi. Onun yerinə isə 4-cü Quba pivada alayının polkovniki Cxeidze təyin olundu. Dekabr ayının 8-də Şıxlinski öz vəzifəsini polkovnik Çxeidzeyə təhvil verdi (11, s.291).

Bu məktəb öz fəaliyyətində peşəkar zabit etikası və hərbi idarəetmə mədəniyyəti ilə seçilməyə başladı. Bu nümunəyə polkovnik R.Şıxlinski məktəb üzrə imzaladığı sonuncu - 344 nömrəli əmrdə rast gəlmək mümkündür. Həmin əmrdə yazılmışdı: "... bütün zabitlərə və məmurlara xidməti vəzifələrinin icrası zamanı göstərdikləri faydalı fəaliyyətlərinə görə minnətdarlığımı bildirirəm. Yunkerlərə də çalışmalarına və yaxşı davranışlarına görə təşəkkür edirəm. Bizim hamımız üçün əziz olan məktəbə uğurlar arzu edirəm" [12, s. 256]. Bu həm də Azərbaycan zabitinin ölkəsinə, onun uğrunda fəaliyyət göstərən insanlara olan hörmət-ehtiramının və verdiyi dəyərin təzahürü idi.

Hərbiyyə məktəbinin başlıca məqsəd ilkin təhsili olan gəncləri hərbi-nizami və elmi istiqamətdə hazırlamaq, müvafiq qoşun növlərində xidmət etmək üçün onlara zəruri bilik vermək və vərdişlər aşılamaq idi. Burada təhsil alanlar da yunker adlandırılırdı. Məktəb piyada, topçu və istehkam şöbələrindən ibarət idi. Piyada şöbəsi iki bölüklü bir tabor, topçu və istehkam şöbələri isə hər biri bir taqım miqdarında olmalı idi.

Hərbiyyə məktəbi birbaşa Baş Ərkani-hərb rəisinə tabe edilmişdi. Məktəbin idarə edilməsi isə məktəb rəisinin səlahiyyətində idi. Hərbiyyə məktəbinin rəisliyinə namizəd Baş Ərkani-hərb rəisi tərəfindən seçilməli və təsdiq üçün Hərbi nazirə təqdim edilməli idi. Hərbiyyə məktəbinin rəisliyinə namizəd ali hərbi məktəblərdən birini bitirmiş polkovnik və ya general rütbəli şəxslərdən seçilməli idi. Həmin şəxsin hərb sahəsində böyük təcrübəyə malik olması əsas şərtlərdən biri idi.

Məktəb rəisinin hüquqlarına təlim-tərbiyə və tədris prosesini istiqamətləndirmək, daxili qayda-qanunun və xarici abadlığın qorunmasına nəzarət etməklə yanaşı, aşağıdakılar daxil idi:

- sinif müfəttişi istisna olmaqla bütün zabitlərin və məmurların seçilməsi;
- həqiqi hərbi xidmətdə olmamaqla Hərbiyyə məktəbində çalışan məmurların, mülki şəxslərin bu və digər vəzifələrin icrasına buraxılması, həmin vəzifədən uzaqlaşdırılması, işə qəbul edilən şəxslərə ştat cədvəlinə uyğun olaraq maaşların təyin edilməsi;
- xidməti zərurət yaranarsa, bu və ya digər zabitin Baş Ərkani-hərb rəisinə məlumat verilməsi şərti ilə müvəqqəti olaraq vəzifədən kənarlaşdırılması;
- təlim-tərbiyə hissəsi üzrə çalışan məmurların tətil müddətində 28 günlük məzuniyyətə buraxılması. Digər hərbi qulluqçular isə müəyyənləşdirilmiş qaydada məzuniyyətə buraxıla bilərdilər;
- öz vəzifəsini sədaqətlə yerinə yetirən şəxslərin mükafatlara təqdim edilməsi;
- könüllü xidmətçilərin işə qəbul edilməsi və işdən azad edilməsi, onlara müəyyənləşdirilmiş smeta daxilində maaşların kəsilməsi;
- icrası zəruri olan məsələlərlə bağlı bu və ya digər qurumlarla əlaqə yaradılması, yüksək səviyyədə həlli tələb olunan məsələlərlə bağlı baş Ərkani-hərb qarşısında vəsatət qaldırılması;
- nəzarət işlərində və intizam cəzaları verilməsində məktəb rəisi diviziya komandirinin səlahiyyətlərinə, təsərrüfat işləri sahəsində isə alay komandirinin səlahiyyətlərinə malik idi (12, s. 256-257).

Hərbiyyə məktəbinə qəbul qaydaları aşağıdakı formada müəyyən edilmişdir:

- Məktəbə qəbul olmaq istəyən hər bir hərbi qulluqçu və mülki şəxslər üçün yaş senzi 17-28 yaşları arasında müəyyən edilmişdir;
- Təhsil senzi qismində ilkin təhsil bazası əsas götürülürdü;
- piyada şöbəsinə daxil olmaq istəyənlər üçün təhsil səviyyəsi gimnaziyanın 4 sinfi və ya ali ibtidai məktəblərin tam kursu səviyyəsində müəyyən edilmişdi;
- topçu və istehkam şöbələrinə ərizə verənlər üçün gimnaziyanın tam kursunu və ya ona müvafiq olan təhsil ocağını bitirməsi vacib sayılırdı. Sonuncu əsasən ixtisasyönümlü hesab edilirdi.

Qəbul üçün ərizə verənlərə məktəbdə sınaq imtahanlarından keçmək şərti müəyyən edilmişdi. Piyada şöbəsinə ərizə verənlər malik olduqları ilkin təhsil səviyyəsində sınaq imtahanları verməli idilər. Topçu və istehkam şöbəsinə daxil olmaq istəyənlər bəzi fənlər üzrə əlavə imtahanlar vermək məcburiyyətində idilər. Sınaq imtahanları ilə bağlı imtahan proqramı Hərbiyyə məktəbi tərəfindən hazırlanırdı. Məktəbdə sənədlərin qəbulun qaydaları «Azərbaycan» qəzetində elan formasında dərc olunurdu. Bunu o məqsədlə edirdilər ki, ucqarlarda yaşayanlar bu elanla tanış ola bilsin (13, s.427).

Hərb işinə maraq o dərəcədə yüksək idi ki, mətbuatın çətin yayıldığı əyalətlərdə məktəbə qəbulun qaydasından və onun nə vaxt başlayacağından vaxtında xəbər tutmaq üçün birbaşa

məktəbin özünə müraciət edirdilər.

Hərbiyyə məktəbinə qəbulu stimullaşdırmaq məqsədilə Hərbi hissələrə məktəbə qəbulun başlanması barədə Hərbi Nazirlikdən rəsmi əmr göndərilirdi. Bu məlumat alınan kimi arzu edənlərin sənədləri məktəbə təqdim olunmalı idi.

Hərbiyyə məktəbinin Əsasnaməsinə əsasən təhsil üçün iki il vaxt müəyyən edilmiş, buraxılışın isə avqustun ortalarında keçirilməsi planlaşdırılmışdır. Yeni dərs ili isə sentyabrın 1-də başlamalı idi.

Əsasnamədə, eyni zamanda, göstərilirdi ki, yunkerlərlə aparılan təlim-tərbiyənin qarşısında aşağıdakı vəzifələr dayanır:

1) vətənpərvərlik hisslərinin yunkerlərə dərindən aşılanması;
2) dürüst və mətin xarakterin formalaşdırılması;
3) Vətənin müdafiəsi naminə hazır olan yüksək hərbçi hisslərinin möhkəmləndirilməsi;
4) subordinasiya qaydalarına ciddi əməl edilməsi;
5) yunkerlər arasında milli identiklik dəyərlərinin möhkəmləndirilməsi (12, s. 258).

Məktəbdaxili rejim də bu vəzifələrin həll edilməsinə uyğun öz fəaliyyətini formalaşdırmış və stimullaşdırıcı tədbirlərə geniş yer ayırmışdı. Belə ki, təhsildə və davranışda fərqlənən yunkerlərin mükafatlandırılması və həvəsləndirilməsi ilə bağlı məktəb rəisinin əmri olurdu . Təhsildə qazanılmış yüksək nəticələr baş çavuş (feldfebel), baş portupey-yunker, kiçik portupey-yunker rütbələrinin verilməsinə imkan yaradırdı. Bütün fənlər üzrə ümumi təhsil balı 10 baldan, ayrı-ayrı fənlər üzrə isə 6 baldan aşağı olmayanlar baş çavuş rütbəsinə layiq görülürdü. Davranış norması isə birinci dərəcəyə cavab verməli idi. Bütün fənlər üzrə ümumi balı 9 baldan, bu və ya digər fəndən isə ümumi balı 6 baldan aşağı olmayanlar isə portupey-yunker rütbələrinə təqdim olunurdular. Onların da davranış norması birinci dərəcə səviyyəsində olmalı idi. Əgər bu rütbələrə yunkerlər təhsil ilinin əvvəlində təqdim edilsəydilər, onda əvvəlki tədris ilinin sonunda verilmiş imtahanların nəticələri nəzərə alınmalı idi.Təhsildə nailiyyəti olmayan, davranış qaydalarını pozan və etimadı doğrultmayan yunkerlərin cəzalandırılması istisna edilmirdi. Cəza tədbiri qismində onlar rütbədən məhrum edilə, ya da yüksək rütbədən aşağı rütbəyə keçirilə bilərdilər. Xüsusi hallarda yunkerlərin Baş Ərkani-hərb rəsinin icazəsi ilə hərbi məhkəməyə verilməsi mümkün idi (8, s.91).

Fəaliyyəti dövründə Hərbiyyə məktəbində daxili əmrlə xeyli sayda yuxarıda göstərilən qaydada həm mükafatlandırılmış, həm də cəzalandırılmış yunkerlərə rast gəlinib. Məsələn, 1920-ci il fevralın 6-da keçirilən iclasın qərarı ilə bir neçə yunker 2-ci dərəcəli davranış səviyyəsindən 3-cü dərəcəli davranış səviyyəsinə endirilmiş və təkrar intizamsızlıqlara yol verdikləri halda məktəbdən qovulacaqları barədə xəbərdarlıq edilmişdir. Elə həmin iclasda bir neçə yunker intizamsızlıqlarına görə məktəbdən qovulmasına dair qərar da qəbul edilmişdir.

Fevralın 8-də keçirilən iclasda isə əksinə çoxlu sayda yunker nümunəvi davranışlarına görə çoxlu sayda yunkerin 1-ci dərəcəli davranış səviyyəsinə keçirilməsinə qərar verilmişdir. İntizam komitəsində müzakirə edilən məsələlər arasında məktəbin zabitlərinin də davranış normaları yer almış və müvafiq qərarlar qəbul edilmişdi. Özbaşına məktəbi tərk edib qaçan yunkerlərin hər biri barədə yaşadığı qəza polisinə və Əxzi-Əsgər İdarəsinə onun axtarışı ilə bağlı xəbər verilirdi (8, s.92).

Axtarış məqsədlə tərtib edilmiş məktublar məktəb rəisinin imzası ilə təsdiqlənir və orada yunkerlərin özləri ilə apardıqları xidməti əşyalar da qeyd edilirdi. Məktəbin arxivində mövcud olan sənədlərdən görmək mümkündür ki, yerlərdə məktəbi özbaşına tərk etmiş yunkerlərin axtarışına ciddi yanaşılmış və onun nəticələri barədə məktəbə məlumat verilmişdi. Qaçan yunkerlərdən könüllü qayıdanlar yenidən öz təhsillərini davam etdirirdilər.

İntizam komitəsində sonra məktəbdə mövcud olan ikinci məşvərətçi komitə - Pedaqoji komitə müasir dövrdə ali təhsil ocaqlarında fəaliyyət göstərən Elmi şuranı xatırladırdı.

Pedaqoji komitəyə də məktəb rəisi sədrlik edirdi. Bu komitənin tərkibi geniş heyətdən: sinif müfəttişi, onun müavini, tabor komandiri, bölük komandiri, topçu və istehkam taqımlarının komandirləri, kiçik zabitlər, imam, müəllimlər və həkimlərdən ibarət idi. Məktəb rəisi öz qərarı ilə Pedaqoji komitənin iclasları çağırırdı. Bu iclaslarda məktəbin həyatı və tədris prosesi ilə bağlı mühüm məsələlər müzakirə edilir və müvafiq qərar qəbul edilirdi. Həmin komitənin qərarı məktəbdən xaric edilənlərin müəyyən vaxtdan sonra yenidən məktəbə qəbul oluna bilmələrinə də şamil edilirdi. Bəzilərinə isə müəyyən müddət hərbi hissələrdə xidmət etdikdən sonra Hərbiyyə məktəbinə qəbul edilmək şansı verilirdi. Bu hüquqa yiyələnmək üçün hərbi hissə həmin yunker barəsində müsbət təqdimat verməli idi. Dərs ilinin əvvəlində və ya ortasında məktəbdən kənarlaşdırılmış yunker, o zaman yenidən qəbul imtahanı verməli idi. Birinci ilin tədris proqramını bitirənlər isə məktəbə bərpa edildikdə aşağı sinifdən yuxarı sinfə keçid imtahanlarını verməli idilər. Bu və ya digər səbəblərə görə ikinci dəfə məktəbdən kənarlaşdırılanlar da ora yenidən qəbul olunmaq hüququndan məhrum edilirdilər (12, s.260).

Əslində pedaqoji komitənin yunkerlərə qarşı tətbiq etdiyi cəzalar olduqca liberal xarakter daşıyırdı. Çox güman ki, belə liberal mövqe zabit heyətinin çatışmazlığından irəli gəlirdi və onlara müəyyən müddətdən sonra yenidən təhsil almağa şans yaradılırdı.

Təlim-tərbiyə prosesinin gedişində ortaya çıxan müxtəlif problemlər: məktəbin maddi-texniki bazasının zəifliyi, praktiki dərslərin aparılması üçün də məktəbin müəyyən əşyalara ehtiyac, dərsliklərin və müəllimlərin çatışmazlığı və s. mövcud idi. Lakin bu çətinliklər məktəb rəhbərliyi və Hərbi Nazirliyin rəhbərliyi səviyyəsində aradan qaldırılırdı.

Hərbiyyə məktəbində yunkerlərə hərbi fənlər - taktika, artilleriya, istehkam işləri, topoqrafiya, hərbi inzibatçılıq, qanunşünaslıq; ümumtəhsil fənləri - dinşünaslıq, türk dili və ədəbiyyatı, riyaziyyat, fizika və kimya haqqında məlumat, coğrafiya, ümumi tarix və türk xalqlarının tarixi fənləri tədris edilirdi.

Məktəbdə hərbi fənlərin əksəriyyətini Hərbi Nazirliyin yüksək rütbəli zabitləri tədris edirdilər. Tədris prosesi Hərbi Nazirliyin rəhbərliyi, xüsusən də Baş Ərkani-hərb rəisi general-leytenant M.Sulkeviçin ciddi nəzarəti altında idi. O həm tədris prosesinin təkmilləşdirilməsi, həm də məktəbin ehtiyaclarının aradan qaldırılması ilə yaxından maraqlanırdı.

Məktəbin əsasnaməsində təhsil müddəti iki il göstərilsə də, 1920-ci il aprel ayının 24-də onun buraxılışı həyata keçirildi. Buraxılışın belə tez edilməsini iki amillə bağlamaq olar. Birincisi, yaxınlaşmaqda olan bolşevik istilası, ikincisi hissələrdə zabit kadrlarına olan ehtiyacın aradan qaldırılması. İlk buraxılışda Hərbiyyə məktəbini 104 nəfər gənc bitirərək podopruçik rütbəsinə yiyələndi (14, s.782).

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Hərbiyyə məktəbi bağlanmasa da, öz fəaliyyətini yeni reallığa uyğun qurmaq məcburiyyətində qaldı, adı, rəhbərliyi və siyasi yönümü dəyişdirildi.

**Nəticə.**

AXC dövründə milli zabit kadrların hazırlanmasında, ordunun zabit heyəti ilə komplektləşdirilməsində Milli Hərbiyyə məktəbi əzəvolunmaz rol oynadı.

Onun tərkibində yaradılmış Ehtiyat zabit namizədləri təlimgahı onun çavuş heyəti ilə təmin edilməsinə öz töhfəsini vermiş oldu.

Milli hərbi kadrların o dövrün hərb sənətinin sirlərinə yiyələnməsində qardaş Osmanlı Türkiyəsinin zabitləri əvəzsiz rol oynamışlar. Onlardan sonra bu işi Hərbi Nazirlik məsuliyyətli şəkildə davam etdirmişdir.

Milli Hərbiyyə məktəbi gənc zabitlərdə yüksək peşəkarlıq qabiliyyətlərinin və zabit mədəniyyətinin formalaşmasında, habelə hərbi vətənpərvərlik hissələrinin aşılanmasında xidmətləri danılmaz olub.

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Xümhuriyyəti, s. 11-94/Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası. İki cilddə. I cild. Baş redaktor Yaqub Mahmudov. Bakı, Lider nəşriyyatı, 2004, 440 səh.
2. Türkçülük, s. 411/Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası. İki cilddə. II cild. Baş redaktor Yaqub Mahmudov. Bakı, Lider nəşriyyatı, 2005, 472 səh.
3. Süleymanov M. Azərbaycanda hərbi andın tarixindən, s. 205/Hərb yarixindən. Bakı, Maarif, 2020, 608 səh.
4. Şahbazov A. Cümhuriyyət ordusunda milli kadr siyasətinin təhlili//Milli təhlükəsizliklik və hərbi elmlər, N-2, 2022, s.37-47
5. Договор о дружбе между Турцией и АДР/Шукюров К. Азербайджан в системе международных отношений. Документы и материалы. Баку, Элм, 2020, с. 383-384
6. Zeynaloğu C. Şirvanşahlar yurdu. Bakı, Elm və təhsil, 2021, 288 səh.
7. Budak M. Nuru paşanın Qafqaz İslam Ordusu haqqında raporu, s.441-484/Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Editörlər – Mehmet Rıhtım, Mühman Süleymanov. Bakı, Nurlar,2008, 696 səh.
8. Süleymanov M. Azərbaycanda ilk milli Hərbiyyə məktəbi. Bakı, Hərbi nəşriyyat, 2000, 176 səh.
9. Süleymanov M. Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi. İki cilddə. I cild. Teh-ran, Firuzan nəşriyyatı, 2014, 760 səh.
10. Hərbi Nazirlik, s. 410-412/ Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası. İki cilddə. I cild. Baş redaktor Yaqub Mahmudov. Bakı, Lider nəşriyyatı, 2004, 440 səh.
11. Praporşiklər məktəbi, s. 291/ Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası. İki cilddə. II cild. Baş redaktor Yaqub Mahmudov. Bakı, Lider nəşriyyatı, 2005, 472 səh
12. Süleymanov M. Azərbaycan Ordusunun tarixi. Beş cilddə. II cild. Bakı, Maarif, 2018, 728 səh
13. Hərbiyyə məktəbi, s. 12-13/ Azərbaycan Xalq Cümhuriyyətinin ensiklopediyası. İki cilddə. I cild. Baş redaktor Yaqub Mahmudov. Bakı, Lider nəşriyyatı, 2004, 440 səh.
14. Şahbazov A. Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabit və hərbi mənurları. Bakı, Maarif nəşriyyatı, 2020, 816 səh.


## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ HƏRBİ TƏHSİLİN TƏŞKİLİNİN XÜSUSİYYƏTLƏRİ

***Balayev Saday***

## XÜLASƏ


Məqalə Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli hərbi kadrların hazırlanmasının prosesinin xüsusiyyətlərinə həsr olunub. Həmin dövrdə hərbi quruculuq və onun tərkib hissəsi olan hərbi təhsil prioritet istiqamət hesab edilib. Bu məqsədlə milli hərbi kadrların hazırlanmasına ciddi diqqət verilmiş və bu işdə qardaş Osmanlı Türliyəsi ilə əməkdaşlığa xüsusi diqqət yetirilmişdir. Cümhuriyyətin baniləri, xüsusən də hərbi rəhbərlik bu məqsədlə Milli Hərbiyyə məktəbini və onun nəzdində çavuş hazırlığı kursu olan "Ehtiyat zabit namizədləri təlimgahı" təsis etmişdir.

Milli Hərbiyyə məktəbinin fəaliyyət dövrü 3 dövrü əhatə etsə də, onun ikinci dövrü (1918 iyun - 1919 sentyabr) Gəncədə davam etmiş və hərbi təhsil sahəsində milli hökumətin qarşısına qoyulmuş məqsədlərə nail olunmuşdur. Mudros müqaviləsinin şərtlərinə görə

Osmanlı Ordusunun Azərbaycandan çıxarılması ordu quruculuğu prosesini yarımçıq saxlamamış və bu iş Hərbi Nazirliyin üzərinə düşmüşdür. Hərbi Nazirliyin rəhbər heyətinin vicdanlı və məsuliyyətli fəaliyyəti nəticəsində milli hərbi kadrların hazırlanması prosesi davam etdirilmiş və Milli Hərbiyyə məktəbinin ilk məzunları Cümhuriyyət ordusunu milli zabit heyəti ilə təmin etmişdir.

## ХАРАКТЕРИСТИКА ОРГАНИЗАЦИИ ВОЕННОГО ОБРАЗОВАНИЯ В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ

***Балаев Садай***

### АННОТАЦИЯ

Статья посвящена особенностям процесса подготовки национальных военных кадров в период Азербайджанской Демократической Республики. В тот период военное строительство и входящее в него военное образование считались приоритетным направлением. С этой целью серьезное внимание уделялось подготовке национальных военных кадров, особое внимание уделялось сотрудничеству с братской Османской империей в этом вопросе. С этой целью основателями республики, особенно военным руководством, были созданы Национальное военное училище и Курс подготовки сержантов «Центр подготовки кандидатов в офицеры запаса».

Хотя период деятельности Национального военного училища охватывал 3 периода, второй его период (июнь 1918 г. – сентябрь 1919 г.) продолжился в Гяндже и цели, поставленные перед национальным правительством в области военного образования, были достигнуты. Согласно условиям Мудросского договора, вывод Османской армии из Азербайджана не остановил процесс строительства армии, и эта работа легла на военное министерство. В результате честной и ответственной работы руководства Министерства обороны процесс подготовки национальных военнослужащих был продолжен и первые выпускники Национального военного училища обеспечили армию республики кадрами национальных офицеров.

## CHARACTERISTICS OF THE ORGANIZATION OF MILITARY EDUCATION IN THE PERIOD OF THE AZERBAIJAN PEOPLE'S REPUBLIC

***Balayev Saday***

### SUMMARY

The article is devoted to the features of the process of training national military personnel during the Azerbaijan Democratic Republic. In that period, military construction and military education, which is a part of it, were considered a priority direction. For this purpose, serious attention has been paid to the training of national military personnel, and special attention has been paid to cooperation with the fraternal Ottoman Empire in this matter. For this purpose, the founders of the republic, especially the military leadership, established the National Military School and the Sergeant Training Course "Reserve Officer Candidate Training Center".

Although the period of activity of the National Military School covered 3 periods, its second period (June 1918 - September 1919) continued in Ganja and the goals set before the national government in the field of military education were achieved. According to the terms of the Mudros Treaty, the withdrawal of the Ottoman Army from Azerbaijan did not stop the process of building an army, and this work fell on the Ministry of War. As a result of the honest and responsible work of the leadership of the Ministry of Defense, the process of training national military personnel was continued, and the first graduates of the National Military School provided the army of the Republic with a cadre of national officers.

# XƏZƏRİN ENERJİ STRATEGİYASININ ENERJİ TƏMİNATINDA DİVERSİFİKASİYANIN TƏSİRİNİN TƏHLİLİ

***Aslanlı Elmir Rövşən oğlu***
***BDU-nun II kurs magistrantı***
*elmiraslanli46@gmail.com*

***Açar sözlər:*** Xəzər dənizi, enerji resursları, neft, qaz, davamlı inkişaf , bərpa olunan enerji
***Ключевые слова:*** Каспийское море, энергетические ресурсы, нефть, газ, возобновляемые источники энергии, устойчивое развитие
***Keywords:*** Caspian Sea, energy resources, oil, gas, renewable energy, sustainable development.

**Giriş:** Xəzər dənizi əsrlər boyu müxtəlif sivilizasiyalara ev sahibliyi etmiş, həm tarixi-mədəni sərvətləri, həm də nəhəng enerji ehtiyatları ilə hər kəsin diqqəti cəlb edən coğrafiyadır. Xüsusilə, neft və təbii qaz ehtiyatlarına görə dünyanın ən mühüm regionlarından biri hesab olunur. Xəzər dənizi zəngin enerji ehtiyatları ilə dünya enerji bazarlarında mühüm rol oynayır. Bugün nüfuzlu birjaların ekspertləri neftin qiymətinin 25 dollara qədər düşəcəyini proqnozlaşdırsalar da, geosiyasətdə bu təbii sərvətin, ümumilikdə, karbohidrogen ehtiyatlarının əhəmiyyəti danılmazdır və yaxın onilliklərdə də bunun dəyişəcəyi gözlənilmir. Bu regionda enerji strategiyaları qlobal enerji təchizatında mühüm stabilizator kimi qiymətləndirilir. Xüsusilə, enerji təchizatının şaxələndirilməsi məsələsi Xəzər enerjisi kontekstində tez-tez müzakirə olunan məsələdir. Biz bilirik ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin əsasını təşkil edir. Bazar iqtisadiyyatı və kapitalizm şəraitində əhalinin sayı artdıqca onu enerji daşıyıcıları ilə təmin etmək marağa, bir o qədər də məcburiyyətə çevrilir. Xəzər hövzəsi karbohidrogen ehtiyatları ilə ən zəngin regionlarından olmaqla həmin maraqların təmin olunması üçün əsl "yağlı balıq" rolunu oynayır. Orta əsrlərdə müharibələr torpaq üçün edilirdisə, hazırda enerji ehtiyatları üçün edilir. Xəzər dənizi bölgəsinin enerji bazarındakı yeri, qlobal enerji təhlükəsizliyi və təchizatı baxımından olduqca əhəmiyyətli hesab edilir. Bu baxımdan Xəzər hövzəsi ölkələri maraqların toqquşduğu düyün nöqtəsidir. Xəzər dənizi həm də dünya enerji təchizatının şaxələndirilməsi üçün vacibdir. Enerji ehtiyatlarına malik olan ölkələr regionda infrastrukturu inkişaf etdirərək neft və təbii qazı dünya bazarlarına çıxarmaq üçün mühüm addımlar atmışlar. Bu, həm enerji ixrac edən, həm də idxal edən ölkələr üçün iqtisadi və strateji faydalar təmin edir.

Enerji təchizatında diversifikasiyanın əhəmiyyəti olduqca əhəmiyyətli mövzu hesab edilir. Diversifikasiyanın önəmi özünü bir neçə sahədən göstərə bilər:

- **Təhlükəsizlik:** Bir mənbədən asılılıq ölkələri enerji təchizatında fasilələr və qiymət dəyişkənliyi qarşısında həssas edir. Diversifikasiya bu riski azaltmaqla enerji təhlükəsizliyini artırır.
- **Qiymət Sabitliyi:** Enerjinin müxtəlif mənbələrdən alınması qiymət şoklarınının qarşısının alınmasına kömək edir.
- **Texnoloji irəliləyişlər:** Diversifikasiya müxtəlif enerji mənbələrindən istifadəni təşviq edir və bununla da yeni texnologiyaların inkişafını sürətləndirir.
- **Ətraf mühitə təsirlər:** Müxtəlif enerji mənbələrinə müraciət ətraf mühitə təsirlərin azaldılmasına və davamlı enerji məqsədlərinə nail olunmasına töhfə verir.

**Xəzər Enerji Strategiyasında Diversifikasiya**

Xəzər dənizində enerji təchizatının şaxələndirilməsi aşağıdakı ölçülərdə nəzərdən keçirilə bilər:

1. Enerji Resursları: Neft və təbii qazla yanaşı, külək, günəş və geotermal kimi bərpa olunan enerji mənbələrinin inkişafı.
2. Nəqliyyat Yolları: Boru kəmərləri, tankerlər və dəniz marşrutları kimi müxtəlif nəqliyyat üsullarından istifadə.
3. Bazarlar: Xəzər regionu Mərkəzi Asiya ilə Avropa arasında körpü rolunu oynayır və regionun sabitliyinə və rifahına töhfə verir. Müxtəlif coğrafi bölgələrdəki bazarlara çıxışın təmin edə bilər.

**Diversifikasiyanın Təsirləri**

1. İqtisadi İnkişaf: Enerji təchizatının şaxələndirilməsi iqtisadi artımı dəstəkləyir və investisiyaları həvəsləndirir.
2. Siyasi Əlaqələr: Müxtəlif ölkələrlə enerji sahəsində əməkdaşlıq siyasi əlaqələri gücləndirir.
3. Ekoloji Davamlılıq: Bərpa olunan enerji mənbələrinə müraciət ətraf mühitin davamlılığını təmin edir.

Xəzər hövzəsində təsdiq olunmuş neft ehtiyatları müxtəlif mənbələrə əsasən 15-40 milyard barel arasında olduğu qeyd edilir. Bu mənbələrdə hətta yaxın zamanlarda 70-150 milyard barel əlavə ehtiyatların da kəşf olunacağı kimi proqnozlarda yer almaqdadır. Təbii qaza gəldikdə isə göstərilən rəqəmlər müvafiq ardıcıllıqla 6,7-9,7 trilyon $m^3$ və 8 trilyon $m^3$ həcmində müəyyənləşdirilmişdir.[1] Həmçinin, bəzi tədqiqatçılar hövzədə konkret olaraq 178 milyard barel potensial neft ehtiyatı olduğunu və hələlik yalnız 15 milyard barelinin kəşf olunduğunu göstərirlər. Həmin mənbədə deyilir ki, dünya neft ehtiyatının 9,1%-i məhz bu hövzədədir. Xəzərdəki sözügedən ehtiyatların 52-64%-i Qazaxıstanın, 16,5-24% Azərbaycanın payına düşür.[2] Xəzərin Azərbaycan sahillərindən illərdir neft çıxarılmasına baxmayaraq hələ də hövzə tam araşdırılmamışdır. Bu isə bizə həmin ərazidə olan ehtiyatlarla bağlı proqnozların göstəriləndən daha çox ola biləcəyi fikrini yaradır. Rəqəmlər arasındakı uçurumlar obyektiv səbəblərdən irəli gəlir. Belə ki, 70 ildən çox Sovet hakimiyyəti altında qalan ölkələrdə araşdırmaların istənilən səviyyədə aparılmaması, lakin müasir dövrdə araşdırmaların artması əsas səbəblərdəndir. Yeni müstəqilliyini qazanmış dövlətlər isə keçid dövrünün çətinlikləri ilə üzləşdiklərindən müvafiq araşdırmalara çox maliyyə ayıra bilməmişlər.

Göstərilən rəqəmlər nəzərə alındıqda Xəzər hövzəsinin dünya neft ehtiyatlarının 1,5-4%-ə qədərinə, dünya qaz rezervlərinin isə 6%-inə sahib olduğunu demək mümkündür. Bəzi mənbələr isə sadəcə Azərbaycan, Türkmənistan və Qazaxıstanın üçünün birlikdə dünya neft ehtiyatlarının 10%-inə sahib olduğunu göstərir.[3] Bölgədə hələ bazarın tam formalaşmaması və ehtiyatlarla zəngin olması ona olan marağı artırır. Dünyanın əsas neft təminatçısı olan Körfəz bölgəsində rəqabətin çoxluğu, siyasi vəziyyətin kritik səviyyədə olması Xəzər hövzəsini daha da önə çıxarır.

Göstərdiyimiz üstünlüklərlə yanaşı bölgənin enerji daşıyıcıları ilə bağlı bir sıra problemlər və çatışmazlıqlar da mövcuddur. İlk olaraq vurğulamaq lazımdır ki, bölgənin dünya okeanına birbaşa çıxışı yoxdur və bu da region ölkələrin daşınmada ən ucuz vasitə olan tankerlərdən istifadəsinə məhdudiyyətlər gətirir. Dünya bazarına enerji daşıyıcalırını çıxarmaq üçün son illərdə boru kəmərləri çəkilsə də, istənilən həcmdə deyil. Yeni kəmərlərin çəkilməsi isə çox böyük rəqəmlərə başa gəlir. Belə ki, dünya bazarına çıxmaq üçün bu kəmərlər ən azı 1000 kilometr məsafədə çəkilməli olur (CQBK ,TAP , TANAP) və əlavə olaraq, tranzit xərcləri də digər çatışmazlıqlar meydana çıxır. Xəzər dənizi enerji ehtiyatlarının Rusiyadan kənarda Avropa və Asiyaya nəqli üçün alternativ enerji dəhlizləri təklif edir. Xüsusilə, Xəzər dənizindən çıxarılan enerji resursları boru kəmərləri ilə Türkiyə vasitəsilə Avropaya və birbaşa Çinə nəql olunur. Lakin, Ermənistan-Azərbaycan arasında müharibə vəziyyətinin yeni bitməsi, lakin sülh müqaviləsinin imzalanmaması və digər tranzit istiqamət olan Əfqanıstan-Pakistan xəttinin riskli bölgə olması manеələr yaradır.

Xəzər dənizində neft və təbii qazla yanaşı, digər enerji ehtiyatlarının da mövcudluğu araşdırılır. Bu gün dünyanın qarşılaşdığı istənilən əsas problem və fürsətlərin mərkəzində enerji dayanır. İş, təhlükəsizlik, iqlim dəyişikliyi, qida istehsalı və ya gəlirlərin artımı üçün enerjiyə çıxış imkanının olması vacibdir.

Dayanıqlı enerji fürsətdir - həyatın, iqtisadiyyatın və planetin transformasiyasına imkan verir.

BMT-nin keçmiş Baş katibi Pan Ki Mun müasir enerji xidmətlərinə universal çıxışı təmin etmək, səmərəliliyi artırmaq və alternativ və bərpa olunan enerji mənbələrindən istifadəni artırmaq üçün “Hamı üçün Dayanıqlı Enerji” təşəbbüsünə rəhbərlik edir.

**Davamlı İnkişaf və Enerji: Birgəliyin İmperativi**

Davamlı inkişaf bu gün ən mühüm qlobal gündəmlərdən biridir. İqtisadi artımı, sosial bərabərliyi və ətraf mühitin mühafizəsini tarazlamağı hədəfləyən bu konsepsiya birbaşa enerji istifadəsi ilə bağlıdır. Davamlı inkişaf və enerji bir-birindən ayrılmaz iki anlayışdır. Enerjiyə çıxış iqtisadi artım və sosial inkişaf üçün əsas ehtiyacdır. Lakin bu ehtiyacı qarşılayarkən ətraf mühitə təsirlər minimuma endirilməli və gələcək nəsillərə yaşana bilən dünya buraxılmalıdır. Davamlı enerji həlləri bu tarazlığa nail olmaq üçün çox vacibdir.

Bunlara bərpa olunan enerjilər aid edilir. **Bərpa olunan enerji** — günəş, külək, dalğa, geotermal enerji, su və digər bərpa olunan mənbələrdən alınan enerjiyə deyilir. Bu zaman təbiətdə daim baş verən proseslərdən istifadə olunur və bu mənbələr insan istifadəsi nəticəsində tükənə bilməz. Alternativ energetika təkcə ətraf mühitin mühafizəsi üçün vacib deyil. Qeyri-ənənəvi enerji mənbələrindən istifadə iki vacib şərtə əsaslanır: yanacaq mənbəyinin bərpa olunan olması və verilmiş ərazidə mövcudluğu. O, ölkələrin, ərazilərin, təsərrüfat sistemlərinin neftdən və onun qiymətindən asılılığını yumşaldır. Regionun xüsusiyyətindən asılı olaraq alternativ enerjidən istifadənin strukturunda bu və ya digər mənbə üstünlük təşkil edir. Xəzər dənizi və onun sahillərində yerləşən ölkələr (Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran və Rusiya) çox yüksək günəş enerjisi potensialına malik regionlardır. Xüsusilə Azərbaycan və Qazaxıstan kimi ölkələr günəş enerjisi sərmayələrinə böyük önəm verirlər.

**Azərbaycan və bərpa olunan enerji**

Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Belə ki, ölkəmizin bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dır. Bərpa olunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o cümlədən, külək enerjisi üzrə 3 000 MVt, günəş enerjisi üzrə 23 000 MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Enerji resursları ilə zəngin olmasına və dünyada enerji resurslarının ixracatçısı kimi tanınmasına baxmayaraq Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadə hər zaman diqqət mərkəzində olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsindən ibarətdir.

Bu sahədə görülən işlərin davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 sentyabr tarixli, 1159 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmış və Agentliyin Əsasnaməsi təsdiq edilmişdir.

Azərbaycan Respublikasında bərpa olunan energetika sahəsinin inkişafı, bu sahədə qanunvericilik və institusional mühitin təkmilləşdirilməsi məqsədilə müvafiq qanun və normativ hüquqi aktlar qəbul edilmişdir. Son illərdə sahə üzrə görülən işlər davam etdirilmiş və bərpa olunan enerjinin inkişafına xüsusi töhfə verən “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanunu təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin 5-ci bəndində ("Təmiz ətraf mühit" və "Yaşıl artım ölkəsi") iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində, eləcə də ölkəmizdə yaşıl enerji məkanı prinsiplərinə əsaslanan bərpa olunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapmışdır. Belə ki, ölkənin sosial-iqtisadi inkişafı üzrə prioritetlərə uyğun olaraq, cari və gələcək dövrdə bərpa olunan enerji mənbələrindən istifadəyə, "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsinə daha çox diqqət ayrılmaqdadır. Bu sahədə aparılan işlər çərçivəsində bərpa olunan enerji mənbələri potensialına malik ərazilərin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi istiqamətində ölkə üzrə kameral araşdırmalar davam etdirilmişdir. Milli Prioritetlər BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

2015-ci il dekabrın 12-də Tərəflərin 21-ci Konfransında qəbul edilmiş Paris Sazişinə əsasən Azərbaycan Respublikası nəzərdə tutulan milli səviyyədə müəyyən edilmiş töhfələrini Konvensiya Katibliyinə təqdim etmişdir. Azərbaycan tərəfindən qlobal iqlim dəyişmələrinə təsirlərin yumşaldılması təşəbbüslərinə töhfə olaraq baza ili ilə (1990) müqayisədə 2030-cu ilədək istixana effekti yaradan qaz emissiyalarının 35 % azalma səviyyəsində saxlanılması hədəf kimi götürülmüşdür. 2021-ci ilin noyabr ayında Qlazqo şəhərində keçirilmiş COP-26 Konfransında 2050-ci ilə qədər könüllü öhdəlik kimi emissiyaların 40 %-dək azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə "netto sıfır emissiya" zonasının yaradılması üzrə ölkəmiz yeni öhdəlik qəbul etmişdir. Bu hədəflərə nail olmaq üçün, Energetika Nazirliyi tərəfindən 2030-cu ilə qədər ölkənin ümumi enerji balansında bərpa olunan enerji üzrə qoyuluş gücü payının 30 %-ə çatdırılması əsas hədəf kimi müəyyən edilmişdir. Bundan əlavə, 2023-cü ildə keçirilmiş COP-28 Konfransında 2030-cu ilə qədər dünyada bərpa olunan enerji potensialının üç dəfə, enerji səmərəliliyinin isə ikiqat artırılması üzrə "Bərpa Olunan Enerji və Enerji Səmərəliliyinə dair Qlobal Vəd" birgə təşəbbüsünə Azərbaycanın dəstəyi ifadə edilib.

2020-ci ildən "Masdar", "ACWA Power", "BP", "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy", "A-Z Czech Engineering" və "Baltech" şirkətləri ilə bərpa olunan enerji layihələri ilə bağlı əməkdaşlığa başlanılıb.

2023-cü ilin 26 oktyabr tarixində BƏƏ-nin "Masdar" şirkəti ilə əməkdaşlıq çərçivəsində Xəzər regionunun və MDB məkanının ən böyük günəş elektrik stansiyası olan 230 MVt gücündə "Qaradağ Günəş Elektrik Stansiyası" istifadəyə verilib. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib və ölkəmizdə xarici investisiya cəlb edilməklə həyata keçirilən sənaye miqyasındakı ilk günəş elektrik stansiyasıdır. Bu stansiyada hər il 500 milyon kVt·st elektrik enerjisi istehsal edilməklə 110 milyon $m^3$ həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda, atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyada 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BƏƏ-nin Sənaye və Qabaqcıl Texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir iştirak ediblər.

"Qaradağ" Günəş Elektrik Stansiyasının açılış mərasimi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti və BƏƏ-nin "Masdar" şirkəti arasında ümumi gücü 1000 MVt olan "yaşıl enerji" layihələri üzrə üç investisiya müqaviləsi imzalanıb. İnvestisiya müqavilələri Biləsuvar rayonunda 445 MVt gücündə, Neftçala rayonunun Bankə qəsəbəsində 315 MVt gücündə günəş elektrik stansiyaları və Abşeron-Qaradağ rayonunda 240 MVt gücündə külək elektrik stansiyası layihələrinin icrasını nəzərdə tutur.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə əməkdaşlıq çərçivəsində, 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının tikintisi nəzərdə tutulur. 13 yanvar 2022-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə stansiyasının təməlqoyma mərasimi keçirilib. 2022-ci ildə "Xızı-Abşeron" Külək Elektrik Stansiyası üzrə layihənin "Ətraf Mühitə Təsirlərinin Qiymətləndirilməsi" və "Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı" sənədi hazırlanıb təqdim edilmişdir. Layihə Abşeron-Xızı ərazisində Pirəkəşkül və Sitalçay yaxınlığında həyata keçirilir. 2020-ci ilin mart ayından etibarən 2 il ərzində 7 ədəd 100 m hündürlükdə ölçü-müşahidə stansiyaları qurulmuş, topoqrafiya və ilkin geodeziya işləri aparılmış, beynəlxalq standartlara uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi başa çatdırılmışdır.

2019-cu il 29 may tarixli sərəncam ilə enerji sahəsində yeni istehsal güclərinin yaradılması və xarici investisiyaların cəlb edilməsi üçün Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası ilə "Azərbaycanda dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsi" hazırlanmışdır. Bu məqsədlə "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Dünya Bankı Qrupu arasında dənizdə külək enerjisindən istifadə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır. Anlaşma Memorandumu əsasında nəzərdə tutulan işlər IFC-nin "Dənizdə Külək Enerjisinin İnkişafı Proqramı" çərçivəsində yerinə yetirilir.[9]

**Nəticə:** Bu məqalə Xəzər dənizinin enerji strategiyasını və enerji təminatında diversifikasiyanın təsirini təhlil edir. Xəzər dənizi dünya enerji bazarlarında mühüm rol oynayan strateji bir bölgədir, çünki neft və təbii qaz ehtiyatları bu regionda yerləşir. Enerji resurslarının şaxələndirilməsi, ölkələrin enerji təhlükəsizliyi və iqtisadi sabitliyini təmin etmək üçün vacibdir. Azərbaycan, Xəzər dənizindəki enerji siyasətini diversifikasiya edərək həm neft və qaz ixracatını artırmaq, həm də bərpa olunan enerji mənbələrinə diqqət ayırmaqla davamlı inkişaf hədəflərinə çatmaq üçün çalışır.

Enerji təchizatının diversifikasiyası həm təhlükəsizlik baxımından, həm də iqtisadi, texnoloji və ekoloji cəhətdən böyük əhəmiyyətə malikdir. Xəzər bölgəsində təkcə neft və qaz deyil, həm də külək və günəş enerjisi kimi bərpa olunan mənbələrin inkişafı mümkündür və bu, regionun gələcəkdə enerji sahəsində dayanıqlığını təmin edə bilər.

Bununla yanaşı, Xəzər bölgəsində enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün müxtəlif nəqliyyat yolları və infrastruktur inkişaf etdirilir. Azərbaycanın enerji siyasəti isə bu strategiyaların mərkəzində yer alır, ölkə həm neft, qaz, həm də bərpa olunan enerji mənbələri üzrə müxtəlif texnologiyalar və bazarlara çıxış imkanlarını genişləndirir.

## ƏDƏBİYYAT


1. Orta Asya ve Kafkasya araştırmaları. Cilt 1. No:1. Ankara, Türkiye. 2016.
2. Osman Nuri, "Azerbaycanın Hazar Ekonomisi ve Stratejisi", İstanbul 2018
3. Alexander Brett: "The Caspian Basin Also Contains A Sea of Oil". The Observer. London, UK. 11 december 2005
4. Caspian Energy Resources: Implications for the Global Energy Market – Y. Kalyuzhnova
5. The Report of U.S. Energy İnformation Adminstration, "Caspian Sea Region", 2013.
6. https://www.yeniazerbaycan.com/YAPxeber_e70179_az.html
